AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
MAGİSTRATURA MƏRKƏZİ

*Əlyazması hüququnda*

ƏHMƏDOVA VÜSALƏ HÜSEYN qızı

"MÜASİR ŞƏRAİTDƏ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞDIRILMASI MEXANİZMİNİN HÜQUQİ TƏMİNATI"
mövzusunda

# MAGİSTR DİSSERTASİYASI

İxtisasın şifri və adı: 060404 – "İqtisadiyyat"
İxtisaslaşma: "İqtisadiyyatın hüquqi tənzimlənməsi"

Elmi rəhbər:
iqtisad elmləri doktoru
professor F. P. RƏHMANOV

Magistr proqramının rəhbəri:
iqtisad üzrə fəlsəfə doktoru
dosent S. Z. İSAYEV

Kafedra müdiri:
iqtisad elmləri doktoru
professor F. P. RƏHMANOV

BAKI-2015

# MÜNDƏRİCAT


GİRİŞ ........................................................................................ 4

I FƏSIL. DÖVLƏTİN XARİCİ İQTİSADİ SİYASƏTİNİN MAHİYYƏTİ VƏ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞDIRIMASININ KONSEPTUAL ƏSASLARI................................................ 11

1.1. Dövlətin xarici iqtisadi siyasətinin mahiyyəti və onu formalaşdıran amillər..................................................... 11

1.2. Dövlətin xarici iqtisadi strategiyasının mahiyyəti və formalaşması istiqamətləri............................................. 24

1.3. Dövlətin xarici iqtisadi strategiyası ilə bağlı nəzəri yanaşmalar.................................................................... 35

II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN FAKTORLAR VƏ DÜNYA TƏSƏRRÜFATINA İNTEQRASİYANIN TENDENSİYALARI........................................................... 50

2.1. Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşmasında mövcud xarici iqtisadi əlaqələrin rolu. 50

2.2. Azərbaycanın yerləşdiyi məkanda inteqrasiya proseslərinin müasir vəziyyəti və Azərbaycanın xarici iqtisadi siyasətinin formalaşmasına təsir göstərən faktorlar.................................................................... 71

2.3. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının tendensiyaları və ziddiyyətləri........................................ 85

III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞDIRILMASI MEXANİZMİNİN HÜQUQİ TƏMİNATI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.................... 104

3.1. Azərbaycan Respublikasının dünya təsərrüfatına inteqrasiyasının institusional-təşkilati mexanizmlərinin formalaşdırılması........................................................... 104
3.2. Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının hüquqi təminatı..... 115
3.3. Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının hüquqi təminatının təkmilləşdirilməsi istiqaməti.......................................... 125
NƏTİCƏ VƏ TƏKLİFLƏR..................................................................... 141
İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT...................................................... 148

# GİRİŞ

**Mövzunun aktuallığı.** Müasir dövrdə müxtəlif ölkələr xarici iqtisadi əlaqələrin mürəkkəb və çoxcəhətli sistemi ilə qarşılaşır və ondan maksimum istifadə etməyə cəhd edirlər. Hər bir ölkənin milli iqtisadiyyatı xarici iqtisadi əlaqələrin müxtəlif formaları ilə beynəlxalq iqtisadiyyata qoşulur, onun nailiyyətlərindən necə istifadə etməsindən asılı olaraq müəyyən səmərə götürə bilir. Bu öz-özünə baş verən proses olmayıb, yalnız ölkələrin məqsədyönlü xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması və onun hüquqi tənzimlənməsi yolu ilə mümkün ola bilər. Xarici iqtisadi əlaqələrin mərkəzində isə xarici ticarət əlaqələri dayanır. Buna görə də xarici ticarət əlaqələrinin hüquqi təminat sistemi və onun həyata keçirilmə mexanizmləri bu gün xüsusi aktuallıq kəsb edir.

Ümumiyyətlə beynəlxalq təcrübə göstərir ki, bazar iqtisadiyyatının səmərəli fəaliyyət göstərməsi dövlətin iqtisadi proseslərdə fəal iştirakını tələb edir. Bu istiqamətdə həm gömrük-tarif tənzimlənməsi, həm də qeyri-tarif tənzimlənməsi metodları diqqəti daha çox cəlb edir. Məhz bu baxımdan xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminatının mahiyyətini açmaq, onun elmi-nəzəri əsaslarını və təkmilləşdirilməsi istiqamətlərini tədqiq etmək olduqca zəruri və aktualdır.

**Problemin öyrənilməsi səviyyəsi.** Xarici iqtisadi siyasət strategiyası mexanizmi kompleks xarakterə malik olduğundan və iqtisadiyyatın bütün səviyyələri (mikro, mezo, makro) və sferaları ilə sıx qarşılıqlı bağlılığı səbəbindən əksər iqtisadi məktəblərin tədqiqat obyektinə çevrilmişdir və bu istiqamətdə tədqiqatlar bu gün də davam edir. Dünyanın tanınmış alimləri tərəfindən dünya iqtisadiyyatı və xarici iqtisadi əlaqələr sisteminin mahiyyətinin açıqlanması və fundamental problemlərinin araşdırılması sahəsində çox dəyərli tədqiqat əsərləri yaradılmışdır. Bu iqtisadçılardan A. Smit, D. Rikardo, J. Keyns, N. Kaldor, E. F. Heckscher, B. Ohlin, V. Leontev, M. Porter, Rybczynski, P. Samuelson, V. Stopler, B. Belaşa, M. Korden, P. Kruqman, C. Stiqlis, J. Saks və digərlərinin adlarını çəkmək olar.

MDB və digər postsosialist ölkələrində xarici iqtisadi əlaqələrin tənzimlənməsi mövzusu Rusiya, Ukrayna və Şərqi Avropa ölkələrinin bir çox tanınmış alimləri tərəfindən işlənilmişdir. Həmin dövrdə Y. F. Avdokuşin, V. Q. Draqonov, A. S. Filipenko, V. İ. Fomiçev, İ. P. Fominski, A. Kireev, V. Y. Rıbalkin, S. Şişkov kimi görkəmli iqtisadçıların problemə həsr olunmuş əsərləri elmi ictimaiyyətin həmişə diqqət mərkəzində olmuşdur.

Son zamanlar xarici iqtisadi əlaqələrin tənzimlənməsi mövzusu və Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf problemləri ölkəmizin iqtisadçı alimlərinin də tədqiqat obyekti olmuşdur. Azərbaycanın iqtisadçı alimlərindən Səmədzadə Z. Ə., Ələsgərov A. K., Nadirov A. N., Bayramov Ə. İ., Əlirzayev Ə. Q., İmanov N. M., Həsənov R. T., Muradov Ə., Qənbərov F. Ə., Əhmədov M. A., Bərxudarov M. İ. və başqaları tərəfindən müasir dövrdə beynəlxalq iqtisadi münasibətlərdə baş verən dəyişikliklər və hazırkı şəraitdə ölkəmizin xarici iqtisadi əlaqələrinin hüquqi təminat sisteminin prinsipləri və xarakterik xüsusiyyətləri araşdırılmışdır.

Müasir qloballaşma şəraitində Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsi, bu əlaqələrin inkişaf qanunauyğunluqlarının dərk edilməsi və bu yolda qarşıya çıxan problemlərin həlli yollarının axtarılması, göstərilən istiqamətdə elmi araşdırmaların davam etdirilməsi zərurətini yaradır. Hazırda Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsində məqsədyönlü, effektiv və çevik strategiya və hüquqi təminat sisteminin oynaya biləcəyi həlledici rol mövzunun seçilməsini şərtləndirmiş və bu problemin tədqiq olunması zərurətini müəyyən etmişdir.

**Tədqiqatın məqsədi və qarşıya qoyulan vəzifələr.** Respublikamızın xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminatı ilə bağlı mövcud vəziyyətin öyrənilməsi və onun təkmilləşdirilməsi yollarının aşkar edilməsi, milli inkişaf istiqamətlərinin və üsullarının araşdırılması və bütün bunların konseptual qiymətləndirilməsi əsasında, milli-iqtisadi mənafelər baxımından konkret təklif və tövsiyyələrin hazırlanması tədqiqat işinin əsas məqsədidir.

Göstərilən məqsədə nail olmaq üçün dissertasiya işində qarşıya qoyulmuş vəzifələr isə aşağıdakılardır:

- Ölkənin xarici iqtisadi siyasətinin spesifikasının açıqlanması və onun əsas istiqamətlərinin göstərilməsi;

- Xarici iqtisadi siyasət strategiyasının inkişaf qanunauyğunluqlarının nəzəri-metodoloji təhlilinin həyata keçirilməsi;

- Xarici iqtisadi siyasət strategiyasının mövcud vəziyyətinin təhlili;

- Müasir iqtisadi və siyasi qloballaşma şəraitində beynəlxalq iqtisadi münasibətlər sistemində ölkənin əməkdaşlıq, inteqrasiya və inkişaf xüsusiyyətlərinin açıqlanması;

- Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasında mövcud tendensiyaların və ziddiyyətlərin şərhi;

- Azərbaycanın xarici iqtisadi əlaqələrinin dövlət tənzimlənməsi sistemində mövcud olan normativ-hüquqi bazanın tədqiqi;

- Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminatının təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi və onların səmərəliliyinin yüksəldilməsi yollarının göstərilməsi və s.

**Tədqiqatın predmeti və obyekti.** Tədqiqatın obyektini müasir şəraitdə xarici iqtisadi əlaqələrin yüksək templərlə dinamik artımı şəraitində Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminat sistemi, predmetini isə hüquqi tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri və perspektiv inkişafı təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Xarici iqtisadi əlaqələr haqqında klassik, neoklassik və müasir nəzəriyyələr, iqtisad elmi sahəsində tanınmış alimlərin xarici iqtisadi əlaqələrin formalaşdırılması və inkişafı haqqında elmi əsərləri, prezidentin fərman və sərəncamları, eləcə də digər qanunvericilik aktları dissertasiya işinin nəzəri-metodoloji əsasını təşkil edir.

Tədqiqat prosesində müqaisəli təhlil və ümumiləşdirmə, sistemli-struktur və sistemli-funksional, analiz və sintez, induksiya və deduksiya və s. kimi metodlar və prinsiplərdən geniş istifadə olunmuşdur.

**Tədqiqatın informasiya mənbəyi.** Mövzu ilə əlaqədar mövcud elmi ədəbiyyatlardan (azərbaycan, rus, türk, ukrayna, ingilis, alman dillərində), dövri

mətbuatdan, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi və İqtisadi İnkişaf Nazirliyinin hesabat və materiallarından, digər nazirlik və komitələrin məlumatlarından, beynəlxalq təşkilatların materiallarından və hesabatlarından, məruzələrdən, monoqrafiyalardan, elmi məqalələrdən, elmi-tədqiqat işlərindən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Xarici iqtisadi siyasət strategiyasının hüquqi təminat sisteminə müasir dövrün tələbləri çərçivəsində baxılması, bu sahədə yeni problemlərin aşkar edilməsi və mövcud problemlərin həllinin yeni istiqamətlərinin göstərilməsi tədqiqat işinin əsas elmi yeniliyidir. Tədqiqat işinin elmi nəticələrini konkret olaraq aşağıdakı kimi sistemləşdirmək olar:

- Xarici iqtisadi siyasət strategiyasının mahiyyətinin açıqlanması sahəsində mövcud olan müxtəlif elmi baxışlar nəzəri cəhətdən araşdırılmış və reallıqlara müvafiq surətdə konseptual ümumiləşdirmə aparılmışdır;
- Xarici iqtisadi siyasət strategiyasının hüquqi təminatı sahəsində beynəlxalq təcrübə öyrənilmiş, konseptual qiymətləndirmə aparılmış və onların müasir dövrün reallıqlarına uyğun istifadəsi imkanları aşakara çıxarılmışdır;
- Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti və onun normativ-hüquqi bazası hərtərəfli təhlil edilərək, ölkənin müasir xarici iqtisadi siyasətinin spesifikası və onun əsas istiqamətləri göstərilmişdir;
- Azad ticarət-proteksionizm dilemması, onların qarşılıqlı uyğunluğu problemi araşdırılmış, xarici iqtisadi əlaqələrin tənzimlənməsi sistemində dövlət müdaxiləsinin obyektiv və subyektiv sərhədləri müəyyənləşdirilmişdir;
- Azərbaycanda ixracat profili və idxaləvəzləyici rəqabətədavamlı iqtisadi sahələrin yaradılması zəruriliyi əsaslandırılmış, milli istehsalın modernləşdirilməsi və inkişafı metodları müəyyənləşdirilmiş və bu istiqamətdə konkret təklif və tövsiyyələr verilmişdir;
- Azərbaycanda xarici iqtisadi siyasət strategiyası sahəsində mövcud vəziyyət müqaisəli təhlil edilmiş, müasir iqtisadi və siyasi qloballaşma şəraitində Azərbaycanın xarici iqtisadi əlaqələrinin istiqamətləri açıqlanmış, beynəlxalq təşkilatlarla əməkdaşlıqların, inteqrasiya psoseslərinin müasir vəziyyəti və

Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşmasına təsiri, ölkəmizin dünya təsərrüfatına inteqrasiyasının tendensiyaları və zidiyyətləri təhlil edilmiş və konkret təkliflər irəli sürülmüşdür;

- Azərbaycanda xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizmlərinin hüquqi təminatı sahəsində kompleks təhlil əsasında onların təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmiş və səmərəliliyinin yüksəldilməsi yolları göstərilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti:** Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminat sisteminin elmi tədqiqindən və bu tədqiqat əsasında xarici iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi üçün irəli sürülən təkliflərdən ibarətdir.

**Tədqiqatın nəticələrinin aprobasiyası:** Tədqiqat işinin nəticələri Sumqayıt Dövlət Universitetində təşkil olunan "Magistrantların XIV Respublika Elmi Konfranslarında" məruzə edilmişdir. Sumqayıt Dövlət Universitetinin və Azərbaycan Dövlət Prezident Yanında İdarəçilik Akademiyasının nəşrlərində dərc edilmişdir.

Tədqiqat işinin nəticələri üzrə 3 tezis dərc edilmişdir.

**İşin həcmi və strukturu.** Qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq formalaşdırılmışdır. Dissertasiya işi 156 kompyuter səhifəsində cəmlənmişdir və giriş, 3 fəsil, 9 paraqraf, nəticə və təkliflər, 150-yə yaxın mənbəyə istinad edən ədəbiyyat siyahısından ibarətdir və o cümlədən, cədvəllər və sxemlər verilmişdir. Dissertasiya işinin strukturu aşağıdakı kimidir:

Girişdə seçilmiş mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri açıqlanır, elmi yeniliyi şərh edilir, nəzəri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın "Dövlətin xarici iqtisadi siyasətinin mahiyyəti və xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının konseptual əsasları" adlanan birinci fəslinin birinci paraqrafında, dövlətin xarici iqtisadi siyasətinin mahiyyəti və onu formalaşdıran amillər tədqiq edilmişdir. Birinci fəslin ikinci paraqrafında, dövlətin xarici iqtisadi strategiyasının mahiyyəti və formalaşması istiqamətləri açıqlanmış.

Xarici iqtisadi strategiya formaları göstərilmiş və onların reallaşdırılması prinsipləri tədqiq edilmişdir. Birnci fəslin üçüncü paraqrafında, dövlətin xarici iqtisadi strategiyası ilə bağlı bir çox nəzəri yanaşmalara açıqlıq gətirilmişdir. A. Smit, D. Rikardo, John Maynard Keyns, Nicholas Kaldor, Eli Filip Heckscher, Bertil Ohlin, Leontyev Vasili Vasilyeviç, Michael Everett Perter, Rybczynski, Paul Anthony Samuelson, Volfgang Stopler və başqa iqtisadçı alimlərin nəzəri yanaşmalarına geniş yer verilmişdir.

Dissertasiyanın "Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşmasına təsir göstərən faktorlar və dünya təsərrüfatına inteqrasiyanın tendensiyaları" adlanan ikinci fəslinin birinci paraqrafında, Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşmasında mövcud xarici iqtisadi əlaqələrin rolundan bəhs olunur. Azərbaycanın hal-hazırda mövcud olan və perspektivdə qurulması planlaşdırılan xarici iqtisadi əlaqələrinin vəziyyəti geniş şərh edilir. İkinci fəslin ikinci paraqrafında, Azərbaycanın yerləşdiyi məkanda inteqrasiya proseslərinin müasir vəziyyəti və Azərbaycanın xarici iqtisadi siyasətinin formalaşmasına təsir göstərən faktorlar tədqiq edilmişdir. Azərbaycanın inteqrasiya etdiyi beynəlxalq iqtisadi təşkilatlarla əlaqələrindən, hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün beynəlxalq maliyyə institutları, iqtisadi təşkilatlar və regional birliklərlə əməkdaşlıqların genişləndirilməsi istiqamətlərindən bəhs olunur. İqtisadi inteqrasiya strategiyası müəyyənləşdirilərkən dünyada gedən iqtisadi proseslərin inkişaf təmayüllərinin müasir xüsusiyyətləri diqqətlə öyrənilib nəzərdən keçirilmişdir. İkinci fəslin üçüncü paraqrafında, Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının tendensiyaları və ziddiyyətləri tədqiq edilir. Müxtəlif beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıqların neqativ aspektlərindən, ölkə iqtisadiyyatının inkişafını ləngidən bir sıra tələblərin qoyulmasından, Azərbaycanın yerləşdiyi geosiyasi məkanda gedən proseslərdən bəhs edilir.

Dissertasiyanın "Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşması mexanizminin hüquqi təminatı və onun təkmilləşdirilməsi istiqamətləri" adlanan üçüncü fəslinin birinci paraqrafında, Azərbaycan Respublikasının dünya təsərrüfatına inteqrasiyasının institusional-

təşkilati mexanizmlərinin formalaşdırılması tədqiq edilmişdir. Ölkənin xarici iqtisadi siyasətini tənzimləyən dövlət və beynəlxalq təşkilati-idarəetmə strukturlarının (mərkəzi hakimiyyət orqanları, müvafiq nazirliklər, yerli hakimiyyət orqanları, qeyri-hökumət təşkilatları, xarici iqtisadi ticarət strukturları, Azərbaycan Respublikası ərazisindəki beynəlxalq təşkilatların nümayəndəlikləri, konsorsiumlar, birgə müəssisələr, marketinq, sığorta və nəqliyyat şirkətləri, TMŞ) fəaliyyəti araşdırılmışdır. Üçüncü fəslin ikinci paraqrafında, Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının hüquqi təminatından bəhs olunur. Xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sisteminin normativ-hüquqi bazası, Azərbacan Respublikasının iştirakçısı olduğu dövlətlərarası sazişlər, beynəlxalq müqavilə və konvensiyalar tədqiq edilir. Üçüncü fəslin üçüncü paraqrafında, Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının hüquqi təminatının təkmilləşdirilməsi istiqamətləri araşdırılmış və bu istiqamətdə müəyyən təkliflər irəli sürülmüşdür.

# I FƏSİL. DÖVLƏTİN XARİCİ İQTİSADİ SİYASƏTİNİN MAHİYYƏTİ VƏ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞDIRILMASININ KONSEPTUAL ƏSASLARI

## 1.1. Dövlətin xarici iqtisadi siyasətinin mahiyyəti və onu formalaşdıran amillər

Dövlətin iqtisadi siyasəti – ölkənin cari dönmədə strateji məqsədlərinin reallaşdırılması üçün onun iqtisadiyyata müdaxilə prinsiplərini konkretləşdirir. Dövlətin iqtisadi siyasətinin aşağıdakı istiqamətlərini qeyd edə bilərik:[1]

- Xarici iqtisadi siyasət – əmtəə və xidmətlərin idxal və ixracı, xarici kapitalın ölkəyə cəlb edilməsi və kapitalın ölkədən xaricə çıxarılması və s.;
- İnstitusional siyasət – iqtisadiyyatın təşkilati strukturunun dəyişdirilməsi, köhnə iqtisadi, sosial və maliyyə institutlarındakı nöqsanların aradan qaldırılması, onların funksiya və əlaqələrinin dəyişdirilməsi və ya yeni institutların yaradılması;
- Struktur siyasəti – istehlakçıların və ümumi kapitalın formalaşdırılması, dövlətlərin gəlir və xərcləri, ixrac və idxal, iqtisadiyyatın sektorial və regional strukturları arasında makroiqtisadi proporsiyaların dəyişdirilməsi;
- Sosial siyasət – sosial xidmətlərin inkişafı, sosial təbəqələrin gəlirlərinin differensiasiyası və bu və ya digər fəaliyyətlərin təşviq olunması;
- İnvestisiya siyasəti – investisiya miqyasının, onların mənbələrinin və istifadə olunma istiqamətlərinin qurulması;
- Qiymətləndirmə siyasəti – istehsal və istehlak bazarlarındakı qiymətlərin tənzimlənməsi;
- Maliyyə siyasəti – dövlətin maliyyə resurslarının formalaşdırılması və istifadəsi və o cümlədən, dövlət büdcə vəsaitlərinin istifadəsi və ona nəzarət;
- Pul-kredit siyasəti – pul və kreditlərin dövriyyəsi;
- Regional siyasət – regionların iqtisadi inteqrasiyası və onların sosial təbəqələşməsi;
- Xarici siyasət – yaxın dövlətlərlə inteqrasiya üzrə.

---

[1] Е. Н. Ведута, «Стратегия и экономическая политика государства», Москва, 2002, с.12

Dövlətlərin iqtisadi siyasət istiqamətlərinin hazırkı siyahısı ölkənin tarixi inkişaf mərhələlərindən asılı olaraq dəyişir. Onlara maddi istehsal və qeyri-maddi istehsal sferaları üzrə sahələr siyasətini (məsələn: sənaye siyasəti və ya səhiyyə sahələri üzrə siyasət), mülkiyyətin özəlləşdirilməsi və ya yenidən özəlləşdirilməsi ilə bağlı siyasəti və vergi siyasətini əlavə etmək olar.

Hər bir iqtisadi-siyasi fəaliyyət zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün, müəyyən vaxtda və məkanda planın və ya fəaliyyətlərin dəqiq müəyyən olunmuş ardıcıllığının olması mütləqdir. İqtisadi fəaliyyət planı – sərvət və gəlirin hasil edilməsi və bölüşdürülməsi üzrə qeydlərin yer aldığı balansın olmasını tələb edir və dövlətlərin iqtisadi strategiyalarını reallaşdırma aləti sayılır. Dövlətin gəlir və xərclərinin yer aldığı dövlət büdcəsi məhz bəhs etdiyimiz planın özüdür. Bu növ plan hələ qədim dövlətlərdə mövcud idi.[2]

Xarici iqtisadi siyasət – dövlətin idxal və ixrac, gömrük rüsumları, tariflər, məhdudiyyətlər, xarici kapitalın cəlb olunması, kapitalın xaricə ixracı, xarici istiqrazlar, digər ölkələrə iqtisadi yardımların göstərilməsi və birgə iqtisadi layihələrin gerçəkləşdirilməsi sahəsində dövlət siyasəti deməkdir.

200 dövlət təşkilatını birləşdirən müasir dünya təsərrüfat sistemi özündə qarşılıqlı əlaqələrin asimmetrik olduğu dinamik ərazini əks etdirir, lakin müxtəlif ölkələr bu əməkdaşlığa bərabər şərtlərlə və eyni dərəcədə cəlb olunmurlar.

Avropa İttifaqından başlayaraq regionalizm siyasəti bizə "müxtəlif surətli" dövlətlər anlayışını verdi. XX əsrin sonundan etibarən elmi texniki tərəqqinin inkişafı şəraitində eyni iqtisadi mövqedə olan bir çox dövlətlər bir-birlərindən uzaqlaşmağa, öz inkişaf dərəcələrinə müvafiq müxtəlif ölkə qruplaşmalarının iştirakçısı olmağa başladılar. İnkişaf tempində ziddiyyətlərin artdığı bir şəraitində ayrı-ayrı ölkələrin xarici iqtisadi siyasətləri, siyasətin məzmunu, dövlət bloklarının fəaliyyəti və bir çox başqa xarici amillər əvvəlcədən müəyyən edilirdi. SSRİ-nin süqutu və milli dövlətlərin qeyri-hərbi ekspansiya metodlarının güclənməsi ziddiyyətlərin meydana

[2] «Понятие и сущность внешнеэкономических связей и внешнеэкономической деятельности», статья / http://www.economy-web.org/?p=55

gəlmə prosesini daha da sürətləndirdi, lakin onların sürəti və keyfiyyəti olduqca müxtəlif idi.

Cənub Şərqi Asiya, Orta Asiya, MDB məkanı, Baltikyanı ölkələr buna misal ola bilər. Bütün bunlar onu göstərir ki, müasir dövrdə dünya arenasında iqtisadi qüvvələrin bu və ya digər balansı təkcə obyektiv şəraitlə deyil, həm də məqsədyönlü xarici iqtisadi siyasətlə xarakterizə olunur. Buna görə də qeyd etmək lazımdır ki, son vaxtlar ölkələrin təbii-iqlim şəraiti, iqtisadi və digər maniələr bir çox obyektiv proseslərin realizəsinə imkan vermir. Oxşar xüsusiyyətlərə və inkişaf səviyyəsinə sahib bir çox ölkələrin Beynəlxalq Əmək Bölgüsünə müxtəlif iyerarxiya səviyyələrində inteqrasiya etdiyini görmək olar.[3]

Yuxarıda qeyd olunanları nəzərə alsaq xarici iqtisadi siyasətə tam muxtar (müstəqil) məfhum kimi baxmamız məqsədə uyğun olmaz. Çünki müasir dövrdə təkcə ölkələrarası qarşıdurmalar deyil, o cümlədən xarici təsir amilinə çevrilən və ictimai dəyişikliklərə səbəb olan amillər, ocaqlar, vasitələr və qarşıdurmalar mümkündür.

Bununla bağlı G. P. Babinin təbirincə desək, xarici iqtisadi siyasət dünya bazarında müəyyən imtiyazlara malik ölkələrin iqtisadiyyatı əldə etmələrinə və daxili bazarı xarici malların rəqabətindən müdafiə etmələrinə yönəldilmiş tədbirlər sistemidir. Belə nəticəyə gəlmək olar ki, dövlətin xarici iqtisadi siyasəti onun daxili iqtisadi siyasətinin mühüm həlqəsidir. Xarici iqtisadi siyasətin məzmunu ölkənin ictimai quruluşunun təbiəti, milli təsərrüfat sisteminin vəzifələri və eləcədə xarici amillərlə şərtlənir. Xarici iqtisadi siyasət ölkənin xarici və daxili siyasəti ilə təbii qarşılıqlı əlaqədə olub, dünya təsərrüfatının mürəkkəb koordinat sistemində milli iqtisadiyyatla qarşılıqlı fəaliyyətin tərkibində tamamlanır. Dünya təsərrüfat əlaqələrində tendensiya növbəti şəbəkəni müəyyənləşdirir: milli iqtisadiyyat beynəlmiləlləşmiş istehsal həlqələrinin tərkib hissəsinə çevrilir və şəbəkənin məcmu elementlərinə təsir göstərməyə cəlb olunur.

İqtisadiyyatın beynəlmiləlləşməsi dünyanın siyasi xəritəsini prinsipcə dəyişir, şəxsi milli maraqlara uyğun yeni iqtisadi sərhədlərin, strateji məqsədli areaların və

[3] Буглай В. Б., Ливенцев Н. Н., «Международные экономические отношения», М: Финансы и статистика, 1996,

inteqrasiyanın yaranmasına səbəb olur. Sözsüz belə bir bölgü mürəkkəb piramida yaradır ki, bu bölgüdə dünya təsərrüfatının informasiya və maliyyə kredit strukturları xüsusən seçilir. Xarici dünya ilə qarşılıqlı fəaliyyətin üsul və qaydaları, hüquq normalarının böyük arsenalı, diplomatik və bəzən də hərbi metodların iştirakı olmadan belə bir arenanın ustalıqla fəaliyyət göstəməsi mümkün deyil. Ticarət blokları – ayrı-ayrı ölkələr, təşkilatlar və həmçinin beynəlxalq maliyyə qurumları ilə qarşılıqlı əlaqələrin tənzimlənməsinə kömək edən maliyyə-valyuta platformaları və səmərəli ticarət rejimlərinin formalaşdırılmasına və milli subyektlərin əlverişli şərtlərlə təmin olunmasına şərait yaradır, ölkələrin xarici iqtisadi maraqlarının müdafiəsini təmin edir.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi siyasət göstərilən funksiyaları yerinə yetirməklə ölkənin iqtisadi inkişaf modelində xüsusi rol oynayır: dəyişdirici (əmtəələrin idxalı və ixracı, kapital, işçi qüvvəsi və s. sahələrdə regionların inkişaf siyasəti), toplayıcı (hasilat, bazarda nüfuzun qorunub saxlanılması, xarici bazarların genişləndirilməsi), tarazlayıcı (ölkə bloklarının maraqlarına uyğun milli maraqlar). Ölkələrin milli xüsusiyyətləri transformasiya yolu ilə siyasətin ümumi qəbul edilmiş elementlərinin və onları reallaşdırma mexanizmlərinin əlaqələndirilməsinə imkan verir.[4]

Xarici iqtisadi siyasətin əsas istiqaməti xarici iqtisadi fəaliyyətin məcmusunu tənzimləməkdir: əmtəə və xidmətlərin, maddi, əmək, pul və intellektual resursların beynəlxalq hərəkəti. Xarici iqtisadi siyasətin tərkib hissələri xarici ticarət siyasəti, istehsal və elmi-texniki əməkdaşlıq sahəsində siyasət, texnologiya və s. ötürülməsi sahəsində siyasət sayılır. Dövlətin xarici iqtisadi siyasətinin hazırlanması müəyyən baza tələb edir:

- İqtisadi institutların müvafiq sistemi;
- Dövlətin milli xüsusiyyətlərini nəzərə alan xarici iqtisadi siyasətin formalaşması üçün nəzəri baza;

---

[4] «Сущность, виды и методы внешнеэкономической политики государства», научная статья / http://artref.ru/bez-rubriki/sushhnost-vidy-i-metody-vneshnee-konomi.html

- Lobbiçilik sipərini təmin edən cəmiyyətin zəruri demokratikləşmə səviyyəsi;
- İqtisadiyyatda bu və ya digər lider həlqələrin təmin edə bilmədiyi milli bazar strukturunun geniş şəbəkəsinin formalaşması.

Bununla əlaqədar olaraq, tam qanuna uyğun formada ölkələrin ümumi cəhətlərini ayırmaq, bəzi ölkələrin uğur və nailiyyətlərinin formulunu və digərlərinin isə xətalarını əks etdirmək zərurəti meydana çıxır. Yekunda ölkələrarası qarşıqoymanın zəruriliyini qəbul etsək, onun mühüm və tamamlayıcı komponenti siyasətin qiymətləndirilməsi olacaq.[5]

Hamıya məlum olduğu kimi xarici iqtisadi siyasət iki funksiyanı – müdafiə və təcavüz funksiyasını yerinə yetirir. Funksiyaların belə bölgüsünə müvafiq olaraq onlardan hər birinin geniş şərhini verək. Xüsusilə ABŞ və Çin kimi ölkələrin təcavüzkar siyasətlərinə nüfuz dairələrini genişlətməyə yönəlmiş eksponsiyonist mearlar da daxildir. Digər ölkələrlə münasibətdə "təcavüzkar" siyasət sülh və mehriban qonşuluq prinsiplərinin həyata keçirilməsi tədbirləri və o cümlədən, əməkdaşlığın artırılması deməkdir. Ehtimal ki, iqtisadiyyatın bu və ya digər modeli xarici iqtisadi siyasətin bu və ya digər elementindən qurulmuş olub, lakin fərq bu elementlərin kəmiyyətinin seçimində, liderlik strategiyasının uyğunlaşdırılmasında (işçi qüvvəsinin yüksək faizi, istehsalatda məşğulluq səviyyəsi, yeni texnologiyanın aparıcı rolu – "high trust societies"), yetkinləşmiş inkişafında ("low trust societies") müəyyən olunur. Problem ölkənin stabilliyini təmin edən iqtisadi siyasətin dəyişdirilmiş modelinin seçimindədir, beləki istənilən dəyişmə ölkələr arasındakı qarşılıqlı əlaqələr sistemində dəyişikliyə gətirib çıxarır.

Yaşadığımız iyirminci əsrin ikinci yarısında dövlətlərin həyata keçirtdikləri iqtisadi syasət növlərini bir-birlərindən ayıraraq, daxili və xarici iqtisadi siyasət olaraq sinifləndirmək olduqca çətindir. Xarici iqtisadi siyasət ölkənin bütün iqtisadi fəaliyyətinə təsir göstərməkdə və gündəlik yaşantımızın hər mərhələsinə öz təsirini göstərməkdədir. Məsələn: xarici ticarəti məhdudlaşdıran dövlət siyasəti

[5] С. В. Решетникова, «Понятие и сущность внешней политики государств», научная статья / http://studlib.com/content/view/75/6/

istehlakçıların idxal olunmuş malları daha yüksək qiymətə almalarına səbəb olur, əksinə daha liberal xarici ticarət siyasəti isə beynəlxalq ixtisaslaşmanın təmin etdiyi faydalardan dövlətin daha çox yararlanmasına səbəb olur. Eyni ilə həyata keçirilən xarici iqtisadi siyasət sayəsində ölkədəki istehsalçılar ilə ixracatçılar qorunaraq, onların xarici ölkələrə daha çox mal satmaları təmin olunur. Bunun tam tərsi də mümkündür. Xarici iqtisadi siyasətin əhatə dairəsi bu formada müəyyən edildikdən sonra xarici iqtisadi siyasətin tərifini vermək olar. Professor Kenneth Boulding xarici iqtisadi siyasəti, bir ölkənin xarici ölkələrlə olan iqtisadi münasibətlərini tənzimləməyə istiqamətlənmiş tək tərəfli siyasət olaraq qeyd etmişdir. Həqiqətən də bu tərif çox ümumi və əhatəlidir. Bu səbəbdən dolayı xarici iqtisadi siyasəti geniş və dar mənada olmaq üzrə iki yerə ayıraraq ələ almaq lazımdır. Geniş mənada beynəlxalq iqtisadi siyasət (xarici iqtisadi siyasət) – hökumətlərin ticarət və istehsal faktorlarının axın istiqamətinə, komponent və həcminə müdaxiləsinə istiqamətlənmiş bütün fəaliyyətlərin məcmusudur. Bu tərif yalnız tarif siyasətini deyil, eyni zamanda hökumətlərin həyata keçirtdikləri pul və maliyyə siyasətləri kimi ümumi iqtisadi siyasətləri də əhatə etməkdədir. Xüsusilə pul və maliyyə siyasətləri xarici ticarət və sərmayə qoyuluşlarına böyük ölçüdə təsir etmə xüsusiyyətinə malik olduğundan xarici iqtisadi siyasətlə yaxından əlaqədardır. Məsələn: tam məşğulluğa nail olmaq üçün qəbul edilən iqtisadi qərarlar, eyni zamanda ölkənin xarici iqtisadi əlaqələrində əks olunmaqdadır. Bu nəzər nöqtəsindən mövzuya yanaşdığımız zaman xarici ticarət, xarici sərmayə qoyuluşları və tədiyyə balansı ilə əlaqədar olaraq qəbul edilən qərarlar bir tərəfdən milli gəlirin artımına, bölünməsinə və səviyyəsinə müxtəlif təsirlər edərkən, digər tərəfdən də məşğulluq səviyyəsində, qiymətlərdə və ölkənin digər daxili iqtisadi siyasətində öz əksini tapmaqdadır. Bu qarışıq təsirlərdən dolayı iqtisadi siyasəti tam olaraq daxili və xarici olmaqla iki yerə ayırmağa ehtiyac yoxdur.[6]

Xarici iqtisadi siyasəti ölkə hökumətləri tərəfindən xarici ticarətin, daxili və xarici sərmayə qoyuluşlarının məhdudlaşdırılması, tənzimlənməsi, təşvik edilməsi və ya bunlara yol göstərilməsi olaraq qəbul edərsək, dar mənada beynəlxalq iqtisadi

[6] «Внешняя политика, её сущность и функции», статья / http://about-political.ru/vneshnyaya-politika-eyo-sushhnost-i-funkcii/

siyasət anlayışını açmış olarıq. Xarici iqtisadi siyasəti ümumi iqtisadi siyasətdən ayırmaq mümkün olmadığına görə, ümumi iqtisadi siyasət ilə tutarlı olması və ona uyğun olması təbiidir. Dolayısıyla xarici iqtisadi siyasətin ümumi iqtisadi siyasətlə tutarsızlıq göstərməyəcək formada və ona uyğun biçimdə tənzimlənməsi məcburidir.

İqtisadi məsələlər ölkələrin xarici siyasət prioritetləri arasında önəmli yer tutmaqdadır. Bu tendensiya hər bir ölkənin iqtisadi potensialının artması və dünya siyasətində nisbi çəkisi ilə şərtlənir. İstehsal faktorlarının beynəlxalq mobilliyi sayəsində bir ölkənin iqtisadi siyasəti digər ölkələrin təsir effektlərinə məruz qalır. Bu effektləri nəzərə alaraq dövlətlər tez-tez iqtisadi siyasətlərini koordinasiya etməyə cəhd göstərirlər.

İqtisadi siyasətin beynəlxalq koordinasiyasını amerika araşdırmacısı Robert Karbau daha dəqiq müəyyən etmişdir. O qeyd etmişdir ki, "iqtisadi siyasətin beynəlxalq koordinasiyası müxtəlif ölkələrin öz strategiyalarının (monetar siyasət, fiskal siyasət, valyuta dəyişmə kursu) formasını əhəmiyyətli ölçüdə dəyişdirmək cəhdidir. Bu bir baxımdan beynəlxalq qarşılıqlı asılılıqla razılaşmadır. Strategiyaların koordinasiyası ölkələrin öz xarici maraqlarına milli maraqları ilə müqaisədə üstünlük verməsi demək deyildir. Beləki, bir ölkənin siyasəti çalarlı ola bilər və digər ölkələrin məqsədlərinə təsir gösdərə bilər. Ölkələr öz aralarındakı əlaqələri yoluna qoymalı, öz strategiyalarını qarşılıqlı əlaqələr hesabına koordinasiya etməyə çalışmalıdırlar. Olabilər ki, onlar müstəqil hərəkət etsələr rifah vəziyyətləri daha yaxşı olsun".[7]

Bununla birgə, iqtisadi siyasətin koordinasiyası ilə bağlı müəyyən obyektiv maneələr yarana bilər. Hətta ölkələrin milli iqtisadi maraqları bir-birinə uyğun gəldiyi şəraitdə belə bu o demək deyildir ki, ölkələr əlqələndirilmiş tədbirlər işləyib hazırlayacaq və tətbiq edəcəklər. İqtisadi siyasətin beynəlxalq koordinasiyası aşağıdakı faktorlardan dolayı dayandırıla bilər:

- İqtisadi siyasi məqsədlərdə fikir ayrılığı;
- Milli müəssisə və təşkilatların fəaliyyət və funksiyalarında fərqlər;
- Ayrı-ayrı ölkələrin siyasi məqsəd və mövqelərində fərqlər;
- Fərqli ölkələrin iqtisadi dövri fazalarında fərqlər.

---

[7] «Международные отношения и международная политика», статья / http://banauka.ru/2634.html

Ölkələrin müasir xarici iqtisadi siyasətlərinin əsasında – beynəlxalq əmək bölgüsü iştirakçılarının milli iqtisadi struktura (sahələr üzrə, texnoloji, təşkilati və s.) çətin uyğunlaşması, lakin dünya təsərrüfat strukturuna təbiətcə daha dinamik uyğunlaşması prosesi dayanır.[8]

Xarici iqtisadi siyasətin həyata keçirilmə mexanizmi iki əsas komponentdən ibarətdir:

- Xarici iqtisadi siyasəti işləyib hazırlayan və xarici iqtisadi əlaqələrin formalaşmasına təsir göstərən dövlət icra orqanları sistemi.
- Bu cür təsirin məcmu alətləri.[9]

Xarici iqtisadi əlaqələrin inkişafında iştirak edən dövlət orqanlarının müasir sisteminin xüsusiyyəti ondan ibarətdir ki, onlar öz növbəsində qarşılıqlı əlaqədə olan, lakin müxtəlif funksiyalar daşıyan iki alt sistemə ayrılırlar – milli və hökumətlərarası institutlara.

Milli institutların fəaliyyəti bir qayda olaraq xarici malların daxili bazara daxil olmasını məhdudlaşdırmağa və ölkə mallarının ixracına yardım etməyə və eləcə də ölkəyə əmtəə, xarici kapital, işçi qüvvəsinin və digər istehsal faktorlarının idxalına nəzarət etməyə istiqamətlənmişdir.

Hökumətlərarası təşkilatların fəaliyyəti beynəlxalq əmtəə, kapital və işçi qüvvəsi hərəkətlərinin tənzimlənməsinə istiqamətlənmişdir.

Dünya iqtisadi subyektlərinin qarşılıqlı bağlılığı – iqtisadi siyasətin koordinasiyasının ilkin şərtidir. Təsərrüfatçılıq həyatının beynəlmiləlləşdirilməsi dünya səviyyəsində milli təkrar istehsal proseslərinin qarşılıqlı asılılığına gətirib çıxarır. İstehsal və mübadilənin beynəlmiləlləşdirilməsi şəraitində milli gəlirin artımı bir tərəfdən əmtəə və xidmətlərin idxalının artmasına səbəb olur. Bir tərəfdən mənfəət və idxalın artması, digər tərəfdən isə mənfəətə müvafiq olması üçüncü ölkələrdən idxala səbəb olur. Bu isə öz növbəsində üçüncü ölkələrdə məcmu təklifin artmasına gətirib çıxarır. Bu isə bir tərəfdən təklifin ilkin genişlənməsinə əlavə reaksiya sayılır. Belə effekt iqtisadi siyasətdə nəzərə alınır. İnkişaf etmiş ölkə öz pul

---

[8] «Сущность и виды международной торговой политики», статья / http://literus.narod.ru/Bussines/MirEcon/2-g1-3-1.htm

[9] «Типы внешнеторговой политики государств», статья / http://banauka.ru/522.html

siyasətində daxili istehsalı və idxalı stimullaşdırır. Bu isə digər ölkələrdə ixracın artmasına səbəb olur. Nəticədə dünyada istehsalın və məşğulluğun genişlənməsinə gətirib çıxarır ("lokomotiv nəzəriyyəsi"). Bununla belə iqtisadi canlanma dərəcəsi həmin ölkənin yalnız idxal payından asılı deyil, eyni zamanda sonrakı mənfəət artımı üçün onun ixracındanda asılıdır.

Qarşılıqlı asılılıq milli iqtisadiyyatlar üçün az problemlər yaratmır. Ölkə istehsalının ixrac yönümlü olması ölkəni dünya qiymətlərindəki dəyişikliklərdən, dünya tələbindəki tərədüdlərdən və dünya bazarındakı rəqabətdən asılı vəziyyətə salır. Belə asılılıq xüsusilə dar ixtisaslaşmış iqtisadiyyatı olan kiçik ölkələr üçün təhlükəlidir. İdxal asılılığı da az mənfi nəticələr doğurmur. Dünya qiymətlərindəki artım və ixracatçı ölkələrdə ixrac tədarükünün məhdudlaşdırılması idxalçı ölkələrdə arzu edilməyən nəticələr doğurur.

Bu planda iqtisadi inkişaf səviyyəsi üzrə ölkələrin diferensasiyası və onların dünya iqtisadiyyatındakı rolu daha çox əhəmityyət kəsb edir. Müasir dünya iqtisadiyyatının qurulması əsas ölkələr və ölkə qrupları üçün birtərəfli müstəsna hüquqlar verir. Bununla belə dünya iqtisadiyyatının zəif subyektləri öz maraqlarını təmin edə bilmirlər.[10]

Dünya təsərrüfatına sistem halında baxıldığı zaman, bu sistemin hərəkətverici qüvvələri olan beynəlxalq əmək bölgüsü və ayrı-ayrı ölkələr arasında iqtisadi münasibətlərin qarşılıqlı faydalılığı eyni zamanda nəzərə alınmalıdır. İqtisadi münasibətlərə ümümdünya miqyası verən ümumilik anlayışı bütün ölkələrin dərin iqtisadi maraqlarının və qarşılıqlı iqtisadi əlaqələrdə obyektiv tələbatların bir-birlərinə uyğun gəlməsi ilə əsaslandırılır. Bu cür uyğunluq heç bir halda onların eyniliyini ifadə etmir. Bu onların ortaq maraqlarından dolayı münasibətlərində eyni iqtisadi siyasi təbiətin olmasıdır.[11]

İnkişaf etmiş ölkələrin istehsal perspektivi daha çox xarici tələbatçılara istiqamətlənir, daxili təlabatı idxal hesabına ödənilir. Bu tendensiya eyni zamanda formalaşmaqda olan bazara sahib ölkələrə də xasdır. İnkişaf etməkdə olan ölkələrdə

---

[10] «Международное разделение труда», статья / http://eulaw.edu.ru/documents/articles/glob1.htm

[11] А. В. Торкунова, «Современные международные отношения», Москва, 1999, с. 260-278

daxili bazarın ən çox ekstensiv genişləndirilməsi nisbətən tez gözlənilir. Buna görədə, onlarda istehsalın kifayət qədər yüksək artım tempinin proqnozlaşdırılmasına baxmayaraq, beynəlxalq əmək bölgüsünə cəlb olunma dərəcəsində (miqyasda deyil) nisbi enmə mümkündür.

Beynəlxalq təşkilatlar da öz növbəsində xarici iqtisadi siyasi problemlərin həlli ilə məşğul olurlar. Birləşmiş Millətlər Təşkilatı – universal və ən nüfuzlu müasir beynəlxalq təşkilatdır. Valyuta-maliyyə fəaliyyəti beynəlxalq təşkilatların xətti ilə icra edilir: Beynəlxalq Yenidən Qurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyaları, Beynəlxalq İnkişaf Assosiasiyaları, Beynəlxalq Valyuta Fondu. Bu təşkilatlar formal olaraq BMT-nın ixtisaslaşdırılmış təşkilatları sayılırlar.[12]

İnteqrasiya – iqtisadi siyasətin beynəlxalq koordinasiyasının yüksək formasıdır. İnteqrasiya dayanıqlı iqtisadi əlaqələrin inkişafının obyektiv prosesini və iqtisadi səviyyələrinə görə yaxın olan milli təsərrüfatlardakı əmək bölgüsünü özündə ehtiva edir. O, xarici iqtisadi mübadilə və istehsal sferasını əhatə edərək, milli təsərrüfatları bir-birinə sıx bağlayır və regional təsərrüfat kompleksini yaradır.

İnteqrasiya xarakteri daşıyan bölgə ittifaqlarına Cənubi Amerika Ölkələrinin Vahid Bazarı *(MERCOSUR – Mercado Común del Sur)*, And Paktı *(Andean Pact)*, Mərkəzi Amerika Ortaq Bazarı *(CACM – Central American Common Market)*, Cənub-Şərqi Asiya Ölkələri İttifaqı *(ASEAN – Association of South East Asian Nations)* aid edilə bilər. MERCOSUR dünyada böyüklüyünə və təsir gücünə görə üçüncü inteqrasiya ittifaqı sayılır. (Cədvəl 1.1.)

Cədvəl 1.1.

Dünyanın üç ən böyük regional birliyinin müqaisəsi

| Birliklər | ÜDM (trilyon dollar ) | Əhali (milyon nəfər) | Ərazi (milyon $m^2$) | Əhali başına ÜDM (min dollar) |
|---|---|---|---|---|
| NAFTA | 13,8 | 434,7 | 21,6 | 31,7 |
| EU | 11,7 | 457 | 4 | 26,9 |
| MERCOSUR | 2,1 | 235 | 11,9 | 8,7 |

[12] Лебединец И. Н., «Глобалистика: Энциклопедия», Москва, 2003, с. 731-734

Beynəlxalq iqtisadi birlik və ittifaqların yaranması üzv ölkələr arasında istehsal münasibətlərinin inkişafına səbəb olduğu kimi, eyni zamanda, müxtəlif ittifaqlara üzv olan ölkələr arasında iqtisadi münasibətlərə əngəl olur və iqtisadi birliklər daxilində əmtəə axının bir yerə toplanması ilə nəticələnir.[13]

Beynəlxalq təhlükəsizliyin iqtisadi aspektlərinə gəlincə. Beynəlxalq münasibətlərin müxtəlif sferalarında dövlətlərin maraqlarının toqquşması qaçınılmazdır. Maraqların toqquşması krizislərin və konfliktlərin mənbəyi sayılır. Beynəlxalq iqtisadi birliklərin yuxarıda sadalanan maraqları mütləq beynəlxalq təhlükəsizlik sisteminin (qlobal və regional) formalaşdırılmasını diktə edir.

Müxtəlif ölkələrin eyni olmayan inkişaf səviyyələri və beynəlxalaq iqtisadi münasibətlərdə onların maraqlarının üst-üstə düşməməsi tərəflərin mövqelərini qeyri-bərabər edir və hətta iqtisadi şantaj kimi təzyiq imkanları yaranır. Bəzən "varlı" və "kasıb" ölkələrin beynəlxalaq iqtisadi-ticari və pul-maliyyə əməliyyatlarında qarşılıqlı əlaqəsi məhz belə təşəkkül tapmışdır. Bütün bunlar dünya iqtisadiyyatının təhlükəsizliyini təhdid altında qoyur. Hərbi sahələrə məxsus əvvəllər tətbiq edilən təhlükəsizlik anlayışı müasir şəraitdə iqtisadi, ekoloji, humanitar və siyasi münasibətlərə yayılmışdır. Bu bir tərəfdən hərbi təhlükəsizlik faktorlarının müəyyən devalvasiyası, digər tərəfdən isə milli təhlükəsizlikdə iqtisadi, siyasi, ekoloji və digər komponentlərin rolunun yüksəlməsi ilə əlaqədardır. Bununla belə təsərrüfat həyatının beynəlmiləlləşdirilməsinin müasir forması dövlətlərin qarşılıqlı asılılığını keyfiyyətcə yeni səviyyəyə qaldırdı və milli təhlükəsizlik haqda ənənəvi təsəvvürlərə iqtisadi ölçü verərək əhəmiyyətli düzəliş gətirdi. Bu gün bu və ya digər dövlətin həyati əhəmiyyət daşıyan xarici xammal mənbələrinə və ya enerji daşıyıcılarına çıxışının məhdudlaşdırılması və ya onların satış bazarlarından məhrum edilməsi həmin ölkədə istehsalın aşağı düşməsinə, inflyasiyanın partlamasına və onun iqtisadi potensialının aşağı düşməsinə səbəb olur. Bu formada yaradılmış ərzaq defisiti kəskin beynəlxalq konfliktlərə və s. çevrilə biləcək daxili siyasi sarsılmalara gətirib çıxarır.

---

[13] «Этапы международной экономической интеграции стран», статья / http://www.grandars.ru/student/mirovaya-ekonomika/ekonomicheskaya-integraciya.html

Beynəlxalq təhlükəsizlik müdafiə sisteminin formaları onların qeosiyasi əhatə dairəsinin genişliyindən, üzv ölkələrin inkişaf səviyyəsindən, müdafiə meyllərindən (siyasi, iqtisadi, hərbi) və s. asılı olaraq müxtəlif ola bilər.

İqtisadi təhlükəsizlik (beynəlxalq və milli) dünyəvi xarakter daşıyır və bütün dövlətlərin müxtəlif maraq dairələri ilə bağlıdır. Əvvəlcədən iqtisadi təhlükəsizlik haqda məsələ inkişaf etməkdə olan ölkələrdə yaranmışdı. Bu öz əksini kollektiv iqtisadi təhlükəsizlik haqda Braziliya konsepsiyasında (1974-cü il) tapdı. 1985-ci ildə beynəlxalq iqtisadi təhlükəsizlik problemi ilk dəfə BMT-nin müzakirəsinə verildi.

Beynəlxalq iqtisadi təhlükəsizlik hər hansı ölkənin iqtisadi maraqlarına qəsdlə zərər yetirmək məqsədi daşıyan ölkələrin iqtisadi qarşılıqlı fəaliyyətidir. Bu müvafiq beynəlxalq hüquq mexanizmi ilə tənzimlənir.

Müasir dünya təcrübəsində iqtisadi təhlükəsizliyin əsas təmin edilmə yolları aşağıdakılardır: müxtəlif təzyiq vasitələrinin köməyi ilə arzu olunmayan fəaliyyətlərin qarşısının alınması, ayrı-ayrı dövlətlər səviyyəsində qanun pozucularına qarşı əməli təsir vasitələrinin tətbiqi. Buraya güc vasitələrini həyata keçirən və ya tamamlayan siyasi proses və onların qanunilәşdirilməsi də daxildir. Bütün bu tədbirləri həyata keçirməsi üçün dövlətin iqtisadi gücünün müəyyən səviyyədə olması tələb olunur.[14]

Beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunmasının digər yoları, ənənəvi olaraq beynəlxalq və regional səviyyədə müxtəlif birlik və blokların yaradılması vasitəsilə güclərin tarazlığının təmin olunmasıdır. Belə ki, güc vasitələri daha çox həqiqi məcbur etmə vasitəsi formasını alır, belə ki onları istifadə etmək çox baha başa gəlir. İqtisadi qarşılıqlı asılılıq hər iki tərəf üçün adətən sərfəlidir, ancaq münasibətlərin pozulması hər iki tərəf üçün qarşılıqlı zərərə səbəb olur.

Milli iqtisadi təhlükəsizlik – daxili istehsal prosesinin normal fəaliyyətini pozan, əhalinin həyat səviyyəsini sarsıdan, cəmiyyətdə sosial gərginliyi artıran və o cümlədən, dövlətin özü üçün təhlükə törədən daxili və xarici arzu olunmaz faktorlardan iqtisadiyyatın müdafiəsidir.

---

[14] «Экономические аспекты мира и безопасности», статья / http://www.sakharov.ru/meo/meo2/33.htm

Bütün iqtisadi təhlükəsizlik səviyyəsi ölkənin iqtisadi potensialından, müxtəlif təsərrüfat sahələrindəki əmək münasibətlərindən asılıdır. Cəmiyyətin istehsal gücünün və milli zənginliyinin məcmusundan təşkil olunan iqtisadi potensial, ölkənin dünya iqtisadi sistemində fəaliyyət göstərmə və ona müəyyən təsir etmə imkanlarını müəyyən edir.

Milli iqtisadi təhlükəsizlik qapalı, avtarkiyalı milli iqtisadiyyatın yaradılmasını tələb etmir, əksinə milli iqtisadi maraqların qarşılıqlı nəzərə alınmasını və dünya iqtisadi fəaliyyətinin razılaşdırılmış normalarına riayət olunmasını nəzərdə tutur. Bu planda milli iqtisadi təhlükəsizlik problemləri, post-sovet məkanı ölkələri və inkişaf etməkdə olan ölkələr üçün son dərəcə əhəmiyyətli rol oynayır. Milli iqtisadi təhlükəsizlik daxili və xarici təzahür edir. İqtisadi cəhətdən yüksək inkişaf etmiş, lakin əsas resurslarla və digər məhsul növləri ilə özünü təmin etmə səviyyəsi nisbətən aşağı olan ölkələrdə xarici iqtisadi əlaqələrin diversifikasiyasına kifayət qədər etibarlı şəkildə zəmanət verilir; az inkişaf etmiş ölkələrdə isə ilk olaraq əsas resurs və məhsul növləri ilə kifayət qədər təmin olunma məsələsi qaldırılır.

Beynəlxalq və regional təhlükəsizlik sisteminin rolu və onların beynəlxalq problemlərin həllinə təsiri müxtəlif ola bilər və bu üzv ölkələrin "xüsusi çəkisindən", onların daxili strukturundan və o cümlədən, iştirakçıların hasilat səviyyəsinə nəzarət mexanizmlərinin mövcudluğundan asılıdır.[15]

Hal-hazırda qlobal beynəlxalq təhlükəsizlik sistemi BMT sayılır. Müstəqil dövlətlərin könüllü birliyi əsasında qurulan bu ümumdünya təşkilatı demək olar ki, bütün aspektlərdə təhlükəsizliyin təmin olunması məqsədini daşıyır. BMT beynəlxalq hüquq şərtləri baxımından sərt daxili struktura malik təşkilatlardan sayılır. O özünün hər bir qətnaməsinin icra edilməsinə (hətta güc sanksiyaları tətbiq etməklə) nəzarət edir.

Digər bütün beynəlxalq təhlükəsizlik sistemlərinə regional yanaşmaq olar. Onlar ümumi maraqlar ətrafında birləşən, siyasi, iqtisadi və hərbi hərakatları sərt koordinasiya edən ölkələr bloklarıdır. Regional təhlükəsizlik sistemi – etnik-mədəni

---

[15] А. Б. Родинова, «Экономическая безопасность государства», научная статья / http://www.sakharov.ru/meo/meo2/33.htm

yaxınlığına, iqtisadi və ekoloji maraqlarının oxşarlığına və s. əsaslanan dövlətlərin müxtəlif təşkilatlarıdır. Bu cür sistemlərin beynəlxalq təhlükəsizliyi dəstəkləməsi öz daxili strukturları və beynəlxalq-hüquq tərtibatı baxımından olduqca mozaikdir.

Milli iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə milli təsərrüfatların və dünya iqtisadiyyatının bütün olaraq stabil fəaliyyət göstərməsinə əlverişli şərait yaradılır. Bununla belə milli iqtisadi maraqlar, bütün dövlətlərin iqtisadi təhlükəsizliyinin formalaşdırılması ilə əlaqədar olan bütün ikitərəfli və çoxtərəfli danışıqlarda oryentir rolunu oynamalıdır.[16]

## 1.2. Dövlətin xarici iqtisadi strategiyasının mahiyyəti və formalaşması istiqamətləri

Dövlətlər və ya regionlar səviyyəsində xarici iqtisadi əlaqələrin inkişaf perspektivlərinə nəzər salsaq görərik ki, hal-hazırda milli iqtisadiyyatlarda funksional istehsal qütbləşməsi baş verməkdədir. Beynəlxalq əmək bölgüsü sistemi iki yöndə dəyişir: dünya təsərrüfatının mərkəzində inkişaf etmiş ölkələr qrupu tərəfində icra olunan elmi-tədqiqat və təcrübi-layihələndirmə fəaliyyəti, dünya informasiya sistemi və böyük həcmdə cəmləşmiş maliyyə vəsaitləri durur; çevrəsində isə dağ-mədən və emal sənayesi durur. Çevrə qrupların dünya təsərrüfat nüvəsindən investisiya asılılığı 20 ildə müqaisəyə gəlməz dərəcədə artmışdır.

Elmi-texniki inkişaf şəraitində heç bir ölkə digər ölkələrlə əlaqələri olmadan, xarici iqtisadi fəaliyyətini optimallaşdırmadan öz iqtisadiyyatını uğurla inkişaf etdirə bilməz.[17]

Dövlətin əsas xarici iqtisadi siyasət prinsiplərinin reallaşdırılması üzrə dövlət fəaliyyətinin istiqaməti onun strategiyasının mahiyyətini müəyyən edir. Xarici iqtisadi strategiyadan bəhs edərkən iki əsas an diqqətdən qaçırılmamalıdır. Birinci, bu fəaliyyət növünü həyata keçirən subyekt (bu dövlət, region və ya müəssisə ola bilər) müasir bazar iqtisadiyyatının önəmli xüsusiyyətlərini daşımalıdır. Subyekt – müəssisə

---

[16] Википедия – свободная энциклопедия / http://ru.wikipedia.org/wiki/Организация_Объединённых_Наций
[17] Е. Н. Ведута, «Стратегия и экономическая политика государства», Москва, 2002, с. 14-21
Дмитриев Валентин Александрович, «Региональная стратегия внешнеэкономической деятельности: сущность, структура и методические основы ее разработки», диссертация на соискание ученой степени кандидата экономических наук, Иркутск, 2000

bilavasitə xarici iqtisadi əlaqəyə girir və xarici iqtisadi strategiyasını reallaşdırır. Ancaq dövlətin xarici iqtisadi strategiyası müəyyən regionda inkişaf etməkdə olan vəziyyətə müvafiq təyin olunur.

İkinci – xarici iqtisadi strategiya beynəlxalq əmək bölgüsündə (istehsalın beynəlxalq ixtisaslaşması və kooperativləşməsi) müəyyən səviyyədə iştirak edən subyektlər arasında, müxtəlif resursların yerləşdirilməsi ilə əlaqədar dövlətlərarası istehsal-təsərrüfat fəaliyyətinin xüsusi sferasıdır.

Beləcə xarici iqtisadi strategiya – müxtəlif səviyyələrdəki subyektlər (dövlət, region və müəssisə) tərəfindən həyata keçirilən, material, maliyyə, əmək və intellektual resursların beynəlxalq əmək bölgüsündə (beynəlxalq ixtisaslaşma və əməkdaşlıq vasitəsilə) iştirak yolu ilə dövlətlərarası yerləşdirilməsilə bağlı istehsal-təsərrüfat fəaliyyətinin xüsusi sferasıdır.[18]

Xarici iqtisadi əlaqələr sferası ikili xüsusiyyət daşıyır: 1) iki ali səviyyədəki subyektlər – dövlətlər və regionlar (respublikalar) müxtəlif iştirak səviyyələrində (intensivliklərdə) beynəlxalq iqtisadi əməkdaşlığa cəlb olunurlar; 2) müəssisələr və təşkilatlar – onların bir qismi əsasən idaxal-ixrac əməliyyatları vasitəsilə digər ölkələrlə bilavasitə əməkdaşlıq edirlər.

Milli təsərrüfat həyatında xarici iqtisadi əlaqələr əhəmiyyətli yerə sahibdir. Beynəlmiləlləşmə və inteqrasiya prosesinin inkişafı ilə xarici iqtisadi əlaqələrin əhatə etdiyi iqtisadiyyat payı artmışdır.

Təcrübədə də göründüyü kimi, xarici iqtisadi strategiyanın rolunun layiqincə qiymətləndirilməməsi regional resursların kifayət qədər tam istifadə edilməməsinə, iqtisadi inkişaf tempinin aşağı düşməsinə, nəticədə regional sosial-iqtisadi siyasət effektinin aşağı düşməsinə gətirib çıxarır. Regional xarici iqtisadi siyasət – regionun beynəlxalq əmək bölgüsündə iştirakın optimallaşdırılmasına, həmin regionun üstünlüyünün artırılmasına, xarici iqtisadi əməliyyatların coğrafi balanlaşdırılması üçün, daxili bazarın xarici əmtəələrin rəqabətindən müdafiəsinə istiqamətlənmişdir.

---

[18] И. Ершова, «Субъекты внешнеэкономической деятельности», научная статья / http://www.inventech.ru/lib/pravo/pravo-0232/

Regional xarici iqtisadiyyat kompleksi strukturunun öz xüsusiyyətləri var: o dövlətin və eləcə də regionun xarici iqtisadi strategiya proqramının və konsepsiyanın, müəyyən faktorların, tarixi şəraitin və istehsal-təsərrüfat sferasında qurulan əməkdaşlıq əlaqələrinin təsiri altında formalaşır.[19]

Dünya təsərrüfat əlaqələrində iştirakın aktivləşdirilməsi və intensivləşdirilməsi məqsədilə, dinamik balanslaşdırılmış və optimal funksionallaşdırılmış istehsal-kommersiya sistemi yaradılmalıdır. Bu məqsədə nail olma vasitələri – ölkənin eksport potensialının genişləndirilməsi və müxtəlif xarici iqtisadi fəaliyyət formalarının optimal daxil edilməsidir.[20]

Xarici iqtisadi strategiyanın formalaşdırılması regionun nisbi rəqabət üstünlüyünün müəyyən olunmasını, dövlət və regional ixrac strategiyası kontekstində mövcud ixrac potensialının inkişaf etdirilməsini və genişləndirilməsini və o cümlədən, ölkənin ixtisaslaşmış ixrac sferasının ayrılmasını təklif edir. İnkişaf və genişləndirmə ölkə siyasətinə uyğun aparılır.[21]

Dövlətin xarici siyasi strategiyası müəyyən tarixi mərhələdə sosial təbəqələrin balans dəyişikliklərinin istiqamətini müəyyən edir. Strateji məsələlərdən çıxış edərək dövlət ictimai qaydaya nəzarət edir, vətəndaşların fəaliyyətini reqlamentləşdirir və şəxsi insiativlərin inkişafı üçün şərait yaradır, hər bir şəxsin təhlükəsizliyini, qanuni azadlıqlarını və mülkiyyətini qoruyur, cəmiyyətdə bu və ya digər mənəvi oryentirlərin inkişafını təmin edir.

Əgər dövlətin xarici iqtisadi strategiyası onun dünya birliyindəki mövqeyini möhkəmlədirsə o zaman onu milli saymaq olar, əks təqdirdə o anti-millidir.

Dövlətlərin xarici iqtisadi strategiyası onun siyasi strategiyasının reallaşdırılması üçün, iqtisadiyyata dövlət müdaxiləsi alətlərinin və prioritetlərinin transformasiyasını müəyyən edir. O, dövlətlərin uzunmüddətli dövr üçün ən ümumi

[19] Макконнелл К.Р., Брю С.Л., «Экономикс: принципы, проблемы и политика» / Пер. с англ., Баку, 1992.
Чухно А. А., П. И. Юхименко, П. М. Леоненко, «Современные экономические теории», Знання, 2007

[20] Сафаров Тавис Аглямович, «Внешнеэкономический комплекс региона России в условиях интеграции в мировое хозяйство», диссертация на соискание ученой степени доктора экономических наук, Москва, 2003

[21] Шлямин Валерий Александрович, «Формирование внешнеэкономической стратегии России по отношению к странам северной европы», диссертация на соискание ученой степени доктора экономических наук, Санкт-Петербург, 2008

iqtisadi fəaliyyət istiqamətlərini və onların reallaşdırılması prinsiplərini xarakterizə edir.

20-ci əsrin əvvəllərində iqtisadi strategiya, sənayeçilər və fermerlər tərəfindən gücləndirilmiş proteksionizm və azad ticarət arasında kompromis yollarla formalaşdırılırdı.

Belə ki, sivil ölkələr daha çox diqqəti sosial siyasətə yönləndirməyə başladılar – işçi birlikləri, kartellər (trestlərin) və onların qarşılıqlı əlaqələri, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və sosial bərabərsizliklərin aradan qaldırılması kimi fəaliyyət problemlərinə və s. İqtisadi siyasət milli strateji maraqlara müvafiq müəyyən olunurdu. "İdeal iqtisadi siyasət iqtisadi problemlərin həlli sayılır. İlk sırada möhkəm və əhəmiyyətli milli maraqlar durur". Dövlətin bir çox doktrinaların tövsiyyələrinə öz qüvvəsini sərf edərək, eqoistik maraqları çərçivəsində inadla hərəkət etməsi ağır nəticələrə gətirib çıxarır.[22]

Dövlətlərə cəmiyyətin (development de l'etat social) və insanlığın (de l'etat intellectual) mütərəqqi inkişafını təmin edən sivil strategiya lazımdır. Sivilizasiya səviyyəsi yalnız ictimai və siyasi münasibətlərin inkişafı ilə deyil, eyni zamanda əxlaq və maarifçiliyin inkişafı ilə müəyyən olunur. Henry Thomas Buckle sivilizasiyanın tərəqqisini hər şeydən əvvəl biliklərin genişləndirilməsində və dərinləşdirilməsində və onun xalq arasında yayılmasında görürdü. Şərq sivilizasiyasından fərqli olaraq, obyektiv qanunların dərk edildiyi və din və incəsənətin arxa plana keçdiyi Qərb sivilizasiyasının əsas hərəkətverici qüvvəsi elmdir. Bu isə oranın əksəriyyət vətəndaşlarının digər ölkələrin əksəriyyəti dilənçi vəziyyətində olan vətəndaşları ilə müqaisədə imtiyazlı olmaları ilə izah olunur.[23]

Bu gün inkişaf etmiş ölkələrin digər ölkələr üzərində qüdrətinin əsas səbəbləri, digər ölkələrdə öz xeyirlərinə yaratdıqları gəlirlərin yenidən bölüşdürülməsi üçün beynəlxalq ssuda kapitalları bazarlarını istifadə etmək bacarıqları sayılır. Gəlirlərin bölgüsündə ədalətlilik prinsipini pozan qloballaşma strategiyası sivilizasiyanı ölümə

[22] Оборина Екатерина Дмитриевна, «Формирование стратегии развития внешнеэкономической деятельности региона», диссертация на соискание ученой степени кандидата экономических наук, Екатеринбург, 2011
[23] Frank Levy, "Distribution of Income", article / http://www.econlib.org/library/Enc/DistributionofIncome.html

aparır. Qloballaşmanın inkişafının həqiqi sivilizasiyalı strategiyası sosial effektiv staretgiya olacaq.[24]

Dövlətlərin xarici iqtisadi strategiyaları dövlətlərin iqtisadiyyata müdaxilə alətlərini müəyyən edir. Xarici iqtisadi strategiya dövlətlərin fəaliyyət istiqamələrini və onların uzun müddətli reallaşdırılması prinsiplərini xarakterizə edir.

Dövlətlərin xarici iqtisadi strategiya növləri aşağıdakılardır:

- Qismən təcrid olunma strategiyası;
- Proteksionizm strategiyası;
- Azad ticarət strategiyası;
- Defisitli bazarın doldurulması strategiyası.

Bir çox ölkələr xarici rəqiblərin öz milli bazarlarına daxil olmamaları üçün öz güclərini əsirgəmirlər. Onların maraqları anlaşılandır – xarici rəqabət zəifləməyə imkan vermir, istehsalın daima yenilənməsini tələb edir, məsrəfləri aşağı salır, keyfiyyəti yüksəldir. İstehlakçıları mümkün qədər ucuz və daha yüksək keyfiyyətli əmtəə əldə etmə maraqlandırır; əmtəənin mənşəyi və onun istehsalından qazanc əldə edənlər ilə bağlı məsələlər onları daha az maraqlandırır.

Bu situasiya – dünyanın bir çox ölkələrində daimi iqtisadi və siyasi mübarizə qaynağıdır. Hökumətlər öz iqtisadi strategiyalarını elə qurmalıdırlar ki, ölkə bundan tam olaraq qazansın, öz daxili bazarlarında xarici əmtəələrin peyda olmasından uduzmasın.[25]

Əmtəələrin idxal və ya ixracını stimullaşdırmasından və ya əksinə məhdudlaşdırmasından asılı olaraq dövlətin yürütdüyü dörd əsas xarici iqtisadi strategiya növünü ayırd edə bilərik:

1. Qismən izolyasiya strategiyası – daxili bazara müəyyən kateqoriya əmtəələrin buraxılmaması məqsədilə həyata keçirilir. Məsələn: kino və video məhsullar, çap məhsulları, ölkə əhalisinin həyat tərzinə və ideologiyaya zidd olan əmtəələr;

---

[24] Richard T. Ely Lecture, "History of Economic Doctrines and Economic History", by Alexander Gerschenkron, Harvard University

[25] Б. М. Маклярский, «Мировая экономика», учебное пособие, Москва, 2004, с. 458

2. Proteksionizm strategiyası (latınca “protectio” – müdafiə, himayədarlıq deməkdir) – daxili bazarın xarici rəqabətdən müdafiə strategiyasıdır. O əsasən ixrac yönümlü istehsalı stimullaşdırma və bu və ya digər dərəcədə idxal əvəzləyiciləri ilə əlaqədardır. Əgər milli istehsal rəqabətqabiliyyətli deyilsə, sahibkarlar strukturunun təzyiqi ilə hökumətlər tərəfindən bu strategiya yürüdülür. Proteksionizm strategiyası inkişaf etməkdə olan ölkələrdə xüsusi tətbiq olunur. İnkişaf etməkdə olan ölkələr bu strategiyanı struktur dəyişikliklərin gerçəkləşdirilməsi və milli sənaye sahələrinin idxal əvəzlənməsi məqsədi ilə dəstəklənməsi üçün tətbiq edirlər; [26]

3. Azad ticarət strategiyası – xarici ticarət məhdudlaşdırmalarının minimuma endirilməsidir. Əsasən bu strategiya xarici bazarda lider mövqeyə sahib, yerli əmtəələrinin rəqabətqabiliyyətliliyinin zədələnməsindən ehtiyat etməyən ölkələr tərəfindən tətbiq olunur. İdxal edilən məhsulların daxili istehsal ilə rəqabət aparmadığı və ya mühüm istehsal sahələri üçün xammal olduğu ölkələrdə strategiya daha çox azad ticarətə yönəldilir;

4. Defisitli bazarın doldurulması strategiyası – “proteksionizmin əksi”. Yalnız milli bazarın böyük defisiti zamanı effektlidir. Bu strategiya zamanı yerli bazarda hər kəs üçün yer olur.[27]

Ənənəvi olaraq hesab olunurdu ki, ölkə maraqlarına ən çox cavab verən azad ticarətdir. Azad ticarətin həyata keçirilməsi ilə dövlət xarici ticarətə birbaşa təsirini məhdudlaşdırmış olur və ticarətin sərbəst faktorlar – tələb və təklif əsasında inkişaf etməsinə imkan yaradır. Məhz azad ticarət, ticarət edən ölkələrdən hər birinə məhsul buraxılışı miqdarını artırmağa imkan verir. Beləki, təcrübədə tamamilə azad ticarətə heç vaxt rast gəlinmir. Bütün ölkələrin hökumətləri əmtəə və xidmətlərin beynəlxalq axınına bu və ya digər formada məhdudiyyətlər qoyurlar.

Proteksionizm siyasəti isə milli bazarın xarici rəqiblərin təsirindən tarif və tarifsiz tənzimləmə metodlarının köməyi ilə müdafiə olunmasıdır. Proteksionizm siyasətinin konkret formaları müxtəlifdir. Onlar, milli səviyyədə idxal və ixrac

---

[26] Prof. Dr. Karluk Rıdvan, “Uluslararası Ekonomi”, İstanbul, 1996
[27] Halil Seyidoğlu, “Uluslararası İktisat”, Kurtiş Matbaası, İstanbul, 1999

rejimini, nəzarət qaydalarını, qarşılıqlı gömrük vergi və rüsumlarını və s. əhatə edən iki və çoxtərəfli razılaşmaların bağlanması yolu ilə reallaşdırılır.[28]

İqtisadiyyat elmi bütün olaraq proteksionizmə mənfi yanaşır. Proteksionizmin tərəfdarları bəzi ölkələrin işgüzar və siyasi çevrələrində hələ də mövcuddurlar. Çox ölkələrin hökumətləri xarici iqtisadi siyasətlərini müəyyən edərkən bir tərəfdən, hər necə olursa olsun milli məhsullarının dünya bazarında rəqabətqabiliyyətliliyini artıraraq ixrac miqdarını çoxaltmağa çalışırlar, digər tərəfdən isə xarici malların daxili bazarda rəqabətqabiliyyətliliyini aşağı salaraq idxalı məhdudlaşdrımağa çalışırlar.

Müasir proteksionizm – əsasən çoxşəkilli və gizli təzahürlüdür. Gömrük tarifləri əvəzinə tarifsiz müdafiə metodları geniş tətbiq olunur. Proteksionist hərakat çox vaxt seçici xarakter daşıyır, daha doğrusu ayrı-ayrı sahələrin konkret mal və əmtəələrinə qarşı və o cümlədən, bəzi ölkələr əleyhinə istifadə olunur. Proteksionizm mövqeyi sənaye cəhətdən inkişaf etmiş ölkələrə nisbətən, inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə daha güclüdür.[29]

Faktiki olaraq bu gün çoxəsrli dilemma mövcuddur: nə yaxşıdır – azad ticarət yoxsa proteksionizm – sona qədər həll olmamış qalır. Beynəlxalq ticarət tarixində müxtəlif dönəmlər olmuşdur ki, bəzən tərəzinin gözü bir tərəfə, bəzən isə digər tərəfə meyl etmişdir. Ancaq xarici ticarət təcrübəsi bir qayda olaraq son ekstremal formanı almamışdır.[30]

Dövlətlər tərəfindən bu və ya digər strategiyaların həyata keçirilmə şərtləri bütün əmtəələrə və bazarlara tətbiq edildiyi zaman sərt sayılır. Şərtlər ayrı-ayrı əmtəələrə və bazarlara tətbiq edildiyi zaman yumşaq olur. Yumuşaqlıq çox ölkələrə öz fəaliyyətlərində bir neçə xarici iqtisadi strategiyanı birləşdirməyə imkan verir. Məsələn: "Ümumi bazar" ölkələri bir-birləri ilə kənd təsərrüfatı məhsullarının ticarəti zamanı proteksionizmə üstünlük verirlər. Bununla birgə digər tərəfdən azad ticarət strategiyasına üstünlük verilir. ABŞ və Yaponiya bir çox əmtəələr üçün azad ticarət

---

[28] «Внешняя политика, ее цели и задачи», статья / http://www.telenir.net/gosudarstvo_i_pravo/politologija_shpargalka/p43.php

[29] «Современная политика протекционизма», статья / http://www.grandars.ru/student/nac-ekonomika/protekcionizm.html

[30] «Внешнеэкономическая политика государства», статья / http://extremo-norte.diary.ru/p148212350.htm?oam

prinsiplərini dəstəkləyirlər, ancaq avtomobil istehsalı sahəsində bu ölkələr arasında qarşılıqlı proteksionizm mövcuddur. Bu isə çox hallarda “ticari müharibələrə” gətirib çıxarır.

“Ticari müharibə” – beynəlxalq ticarət yolunda ifrat məhdudlaşdırma formasıdır. O, özündə iki ölkə hökumətləri tərəfindən öz daxili bazarlarına idxal məhsullarının daxil olmasına məhdudiyyət qoyulmasının qarşılıqlı qəbul edilməsini ifadə edir. Əlbəttə bu cür “müharibələrdə” bu gün atışma eşidilmir və qan tökülmür, ancaq bunlar olmadan da təhditin mövcud olduğu bir gerçəkdir.

Məsələn, 1992-ci ildə ABŞ və Çin bu cür müharibənin eşiyində idi. Səbəbi, Çin Xalq Respublikasının ABŞ-dan idxal olunan məhsulların yoluna birbaşa qadağa, kvota, lisenziya və keyfiyyət standartlarına riayət olunması ilə bağlı artırılmış tələblər formasında qoyduğu baryerləri ləğv etməkdən imtina etməsi olmuşdur. Çin hökumətinin bu cür davranışına reaksiya çox sərt olmayacaqdı əgər, sonuncular ABŞ ilə ticarətdə əhəmiyyətli ölçüdə üstünlük əldə etməyə müvəffəq olmasaydılar. 1991-ci ildə onlar Amerikadan aldıqlarından daha çox yəni, 12,7 miyard dollar dəyərindən çox onlara mal satdılar. Məhz bu hadisə ABŞ hökumət nümayəndələrindən birini aşağıdakıları bəyan etməyə vadar etdi: “Çin tez bir zamanda beynəlxalq ticarət sistemində əhəmiyyətli fiqura çevriləcək. Biz bu həcmdə ticarətə malik olan ölkəyə öz qaydalarını diktə etməyə imkan verə bilmərik. Əgər onlar ixracdan gəlir əldə etmək istəyirlərsə, eyni zamanda idxala da icazə verməlidirlər”.

ABŞ hökuməti müvafiq olaraq, Çindən idxal olunan geniş çeşiddə əmtəələrə yüksək gömrük rüsumları (illik 4 milyard dollar həcmində) tətbiq edəcəyi ilə bağlı Çini hədələdi. Bununla da ABŞ bazarlarında Çin mallarının qiyməti iki dəfə artdı. Cavab olaraq Çin hökuməti bəyan etdi ki, onlar bu təqdirdə Amerikan mallarına və o cümlədən, Amerikadan idxal olunan kompüter, təyyarə, avtomobil və s. əmtəələrə cəzalandırıcı gömrük tarifləri tətbiq edəcəklər. Həm də eyni həcmdə yəni, 4 milyard dollar həcmində.

“Ticari müharibələrin” təcrübəsi daha çox inkişaf etmiş ölkələrə göstərdi ki, burada hər iki tərəf uduzacaq və yaxşı olardı ki, “hərbi hərakatın” başlanmasına yol

verilməsin. Bütün bunlar beynəlxalq ticarətdə ixracın könüllü məhdudlaşdırılmasına səbəb oldu.

Ucuz Yapon avtomobillərinin ixracından dolayı ABŞ və Yaponiya daima "ticari müharibənin" eşiyində durur. ABŞ iqtisadiyyatında avtomobil sənayesinin ənənəvi olaraq xüsusi rol oynadığını (səbəbsiz deyildir ki, ABŞ folkloruna Genri Fordun bir statı daxil olmuşdur: " "Ford" üçün yaxşı olan, "Amerika" üçün də yaxşıdır") nəzərə alsaq, onun ətrafında hansı ehtirasların qaynadığını təsəvvür etmək çətin deyil. Yaponiya hökuməti Yapon avtomobillərinin ABŞ-na ixracının qarşısının alınacağı qorxusunu dəf etmək üçün, Amerika mallarının idxalına qoyulan məhdudiyyətləri yumşaltmalı oldu.

Beynəlxalq ticarət sferasında konfliktlərin yüksək dərəcədə mümkünlüyü və o cümlədən, "ticari müharibələrin" ağır nəticələri XX əsrdə bir çox ölkələri dünya bazarının təşkilinə dair yeni metodların axtarışına məcbur etdi.[31]

Strategiyanın birinci variantı ABŞ, Yaponiya və Qərbi Avropanın beynəlxalq rəqabət mərkəzləri üçün xarakterikdir. Bütövlükdə hər üç mərkəz üçün liberal sənaye iqtisadiyyatı xasdır, lakin qlobal konteksdə ölkələrin xarici iqtisadi siyasəti onların milli iqtisadiyyatları üçün şərait yaradılmasına istiqamətlənib. ABŞ ilə beynəlxalq əməkdaşlığın qurulması təcrübəsində hazırkı strategiya açıq aşkar görünür. Qeyd etmək lazımdır ki, Amerika tərəfdaşlığı daha zəif ölkələrlə əməkdaşlıq təcrübəsinə əsaslanır. ABŞ-ın xarici iqtisadi siyasətində həmin fakt öz əksini tapmamışdır. İkinci dünya müharibəsindən sonra Yaponiya və Almaniya ilə qarşılıqlı fəaliyyətə üstünlük vermişdi. Müharibədə bu ölkələrə qələbə çalan ABŞ müttəfiqlərin xeyrinə maliyyə yükləmələrinin yenidən bölüşdürülməsinə başladı. Buna görə də, Amerikan anlayışına görə siyasətdə bərabər hüquqluluq şərt deyil və asanlıqla qeyd etmək olar ki, bütün zamanlarda ABŞ qüvvələr balansının köhnə strategiyasını həyata keçirir. Bir faktıda gizlətmək olmaz ki, 70-ci illərin ortalarında ABŞ Cənub Şərqi Asiya ölkələrinə münasibətdə ehtiyatlı strateji mövqe seçdi və 20 ildən sonra bu gözlənilməyən "Asiya çağırışı" nəticəsində Amerika iqtisadiyyatının nüfuz dairəsi

[31] Yang Jiechi, "China's New Foreign Relations for a Complex World" article / http://www.ciis.org.cn/english/2014-03/11/content_6733146.htm

daraldı. Amerika xarici iqtisadi strategiyanın hansı elementindən istifadə etsə də o, maraqlarını beynəlmiləl problemlərdə ifadə etməyə çalışaraq öz maraqlarını istənilən qitədə müdafiə edir, beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının müşavirələrində qərarların qəbuluna liderlik edir və beynəlxalq münasibətlər iyerarxiyasında öz statusunu qaldırır. ABŞ-ın rəsmi kursunda milli dövlətlərin dünya birliyinə inteqrasiyasına köməklik göstərmək cəhdi də qeyd olunur. Lakin təcrübədə isə rəqiblərin maraq sferalarının məhdudlaşdırılması və istənilən ərazi miqyasında situasiyalarn inkişafına təsir etmək üçün şərait yaratmaq tendensiyası ortaya çıxır. Oxşar taktika müəyyən ölçüdə ABŞ-ın nüvə üstünlüyü ilə müəyyənləşən qarşılıqlı fəaliyyət modeli çərçivəsindən çıxmamasına səbəb olur.[32]

Strategiyanın ikinci variantı iki ali dövlətin qarşılıqlı fəaliyyəti çərçivəsində hansısa qüvvələr balansının pozulması ilə müəyyən edilir. İttifaqın süqutu və həmçinin dövrü gözləmələr böhranı keçmiş SSRİ, Mərkəzi və Orta Asiyada və o cümlədən, Cənub Şərqi Asiya ərazisində eksponsiyanın qeyri hərbi metodlarının aktivləşdirilməsinə və bir sıra ölkələrin yüksək iqtisadi inkişaf tempinə səbəb oldu. Bu ölkələrin iqtisadiyyatlarının intensiv inkişafı, hər bir ölkənin yüksək tələbatlı malların ixracını artırmaq üçün hər məkanda əhəmiyyətli ölçüdə tutumlu bazarları artırmalarındadır. Bu idxala kömək etmiş və stimullaşdırmışdı. Hazırkı situasiya göstərir ki, ölkələr öz tələbatlarını kifayət qədər yüksək səviyyədə təmin edə bilmirlərsə, bir o qədər də xarici bazarın xidmətinə yönələcəklər və tərəfdaş ölkələrin qarşılıqlı iqtisadiyyat əlaqələri baş verəcək.

Müasir dünya belədir ki, öz şüurunun "hüdud səviyyəsində" olan bir çox dövlətlər dünya arenasında oynaya bildikləri rolu oynayır. Təcrübə göstərir ki, dövlətin iqtisadi inkişafı təkcə təbii resursların effektiv istifadəsinə səbəb olmur, həm də iqtisadi inkişaf və təbii resursların zənginliyi anlayışları arasında əks əlaqə yaradır. Xammal təminatı inkişafın həlledici amili olmasına baxmayaraq, xarici iqtisadi strategiyada ikinci dərəcəli amildir. Ölkələrin hazırkı qrupu öz strategiyalarında elmi texniki nəaliyyətlərin milli iqtisadiyyata tətbiqi və rentaların aradan qaldırılmasını tətbiq edirlər. "Asiya pələnglərinin" xarici iqtisadi strategiyası hər şeydən əvvəl öz

---

[32] "International Economic Policy", article / http://2001-2009.state.gov/r/pa/ho/pubs/8521.htm

sosial iqtisadi inkişafını təmin etmək, eləcə də öz dövlətlərinin yerini və rolunu proqnozlaşdırmaq, beynəlxalq xarici siyasətin metod, forma və mahiyyətini müəyyənləşdirmək, müxtəlif prinsipial yanaşmaları əlaqələndirməkdir. Yapon iqtisadiyyatına "uyğunlaşma" modelinin formalaşması sənaye, ictimai-istehsal və sosial strukturlarda yenidənqurmadır. 30 il müddətində kapital, texnologiya və digər maliyyə və əmtəə axınlarının hərəkəti bir neçə dövlət "eşalonu"nu yaratdı.[33]

Birinci "eşalon" yeni sənayeləşmiş ölkələr qrupudur, ikinci "eşalon" Cənub Şərqi Asiya ölkələridir. Cənubi Asiyanın bütün ölkələri isə üçüncü "eşalon" ölkələrinə aiddir. İnkişaf modelinin belə piramidası ədəbiyyatda "ucuz qazlar dəstəsi" adlanır və ya inkişafın gövdəsi sayılır. İnkişafın gövdəsi sayılan Yapon iqtisadiyyatı udan mövqedə durur. Asiya-Sakit Okean regionuna qeyri-qərb inkişaf modeli tətbiq edilməklə və Amerikan hökumətinin qurduğu maneələr keçilməklə ixrac imkanları genişləndi. "Asiya drakonları" öz ölkələrindən ABŞ və qərb ərazisinə gizli əmtəə ixracına başladı.[34]

Üçüncü varianta aid strategiya Qazağıstanın müstəqil inkişaf illərini əhatə edir. Müstəqil inkişaf strategiyası xarici iqtisadi əlaqələrdə qəbul edilən ölçüdə enmələrə və müəyyən ölçüdə qeyri mütəşəkkilliyə səbəb oldu. Milli dövlətlər dünya birliyinə inteqrasiyaya kömək edən dövlətlərarası subyektlər statusunu əldə etdi. Təcrübədə isə rəqiblərin maraq dairələrini məhdudlaşdırmaq və istənilən ərazi miqyasında vəziyyətin inkişafına təsir etmək üçün şəraitin yaradılma tendensiyası meydana çıxır. Oxşar taktikanı ABŞ-ın nüvə üstünlüyü ilə müəyyənləşən təsir modelində görmək olar. Beynəlxalq iqtisadi münasibətlərin subyekti statusunu əldə edən Azərbaycan Respublikası MDB-nə üzv olan bir çox ölkə kimi ümumdünya təsərrüfatının inkişafı prosesində qəbul edilən əlaqə normaları ilə silkələndi. Bu normalar tərəfdaşlar arasında əlaqə imkanlarını müəyyən edir. Mahiyyəti milli iqtisadiyyatın xarici mühitlə əlaqə konsepsiyasından ibarətdir. Üçüncü tərtib – dünya təsərrüfatının əlaqə vasitələri ilə manevr etmə imkanıdır. Geoiqtisadiyyatın inkişafı o qədər dinamik və dəyişkəndir ki, dövlətlər hadisələri əvvəlcədən görməli, dünya geoiqtisadi tarazlığına

---

[33] Линдерт П. Х., «Экономика мирохозяйственных связей», Москва, 199, с. 520
[34] Зиядуллаев Н., «Современная экономическая ситуация в СНГ», статья-анализ / http://institutiones.com/general/1328-sovremennaya-ekonomicheskaya-situaciya.html

nail olmalı və ticarət, valyuta-maliyyə, texniki, texnoloji və s. sahələrdə zəiflikləri aradan qaldırmaqla dünya təsərrüfatının əlavəsi statusundan xilas olmalıdır.[35]

Xarici iqtisadi strategiyaların öyrənilməsində dünya təcrübəsi göstərdi ki, xarici determinasiya gücündə olan və iqtisadiyyatı yüksək inkişaf tempinə malik dünya ölkələrinin mühüm hissəsi üçün tənzimləmə vasitə və metodlarının “kompleks” istifadəsi xarakterikdir. Bu ölkələrin çoxunda fəaliyyətlər kompleksi standartdır. Təfərrüatı ilə nəzərdən keçirsək fərq, yerinə yetirmənin keyfiyyət və tempində, xərclərin həcmində, islahatları həyata keçirmə vasitəçiliyində, islahatların müvəffəqiyyət dərəcəsində, iqtisadiyyatın bu və ya digər bölməsini əhatə etməsində özünü büruzə verir. Onların əksəriyyəti makroiqtisadi sabitliyə nail olmaq məqsədilə vergi rüsumlarının artırılmasına və eləcə də dövlət xərclərinin birdən azaldılmasına yönəlmiş islahatlar həyata keçirirlər. Bundan başqa özəlləşdirmədən əldə edilən gəlir büdcə kəsirini azaltmağa və müsbət saldonu təmin etməyə imkan verir. Təbii ki, bütün bunlar qiymət artımının qarşısının alınmasını təmin etdi və müəyyən makroiqtisadi sabitliyə nail olundu, struktur və institusional mühitdə islahatlara səbəb oldu. Məqsəd nizamlayıcı və tənzimləyici funksiyaları gücləndirməklə eyni zamanda, birbaşa dövlət müdaxiləsinin məhdudlaşdırılmasıdır.[36]

## 1.3. Dövlətin xarici iqtisadi siyasət strategiyası ilə bağlı nəzəri yanaşmalar

İqtisad elmində xarici iqtisadi əlaqələrin təhlilinə iqtisadi təlimlərin müxtəlif istiqamətlərini təmsil edən nümayəndələr diqqət yetirmişlər. Buraya neoklassikləri, neokeynsçiləri və institualizm nümayəndələrini və s. aid etmək olar.

Merkantilizm – XV-XVII əsrlərin iqtisadçılarının baxış sistemidir, dövlətlərin aktiv formada iqtisadi fəaliyyətə müdaxiləsinə istiqamətlənmişdir. Bu istiqamətin nümayəndələri arasında Tomas Men, Antuan De Monkretyen, Uilyam Stafford var. İstiqamətin əsas mövqeləri aşağıdakılardır:

---

[35] Дергачев В. А., «Глобальная геоэкономика» (Трансформация мирового экономического пространства), научная монография, Одесса: ИПРЭЭИ НАНУ, 2003, с. 238

[36] Кретова Наталья Викторовна, «Концепция моделей экспортной ориентации и импортозамещения во внешней торговле стран с реформируемой экономикой», диссертация на соискание ученой степени кандидата экономических наук, Иркутск, 1999

- Dövlətin aktiv ticarət balansının mütləq qorunub saxlanılması (ixracın idxal üzərində üstünlüyü);
- Dövlətin rifah halının yüksəldilməsi məqsədilə ölkəyə qızıl və digər qiymətli metalların cəlb edilməsi;
- Pul – ticarətin stimuludur, pul kütləsinin artması əmtəə kütləsinin həcminin də artmasına səbəb olduğu düşünülür;
- Xammalın və yarımfabrikatların idxalına, hazır məhsulların isə ixracına yönəldilmiş proteksionizm xoş qarşılanır;
- Lüks malların ixracının məhdudlaşdırılması, belə ki bu cür malların ixracı qızılın ölkədən xaricə axmasına səbəb olur.[37]

Xarici iqtisadi münasibətləri ilk olaraq siyasi iqtisad elminin klassikləri sayılan A. Smit və D. Rikardo təhlil etmişlər. Onlar özlərinin sələfləri olan merkantilistləri, beynəlxalq ticarətdə dövlətlərin zənginləşmə mənbəyinin əmtəələrin qeyri-bərabər mübadiləsi olduğu ilə bağlı fikirlərindən və o cümlədən, beynəlxalq əmək bölgüsünə ölkə daxili əmək bölgüsünün təbii inkişafı kimi baxdıqlarından dolayı tənqid edirdilər. A. Smit ölkələr arasında əmək bölgüsünün xarici ticari mübadilənin obyektiv əsası olduğunu hesab edirdi. O, milli iqtisadiyyatın ixtisaslaşdırılması prinsipini işləyib hazırlamış və bunun əsasında istehsal olunmuş əmtəələrin mübadiləsinin milli iqtisadiyyatda ümumi əmtəə istehsalının artmasına təkan verdiyini bildirmişdir. A. Smit əməyin ixtisaslaşdırılmasını millətin zənginləşməsinin əsası hesab edir. Dövlətlər ixtisaslaşma nəticəsində əlavə əldə olunan əmtəələri mübadilə edir və hər bir digər ölkələrdəki istehlakçıların sayının artması sayəsində bundan gəlir əldə edirlər.

A. Smitin ixtisaslaşmanın faydaları (mütləq xərclər) konsepsiyasını D. Rikardo müqaisəli xərclər konsepsiyası ilə inkişaf etdirmişdi. O, ölkələrin həyata keçirdikləri beynəlxalq ticarətə əməyin səmərəliliyi nəzər nöqtəsindən yanaşırdı. Hesab edirdi ki, ölkələr hər-hansı əmtəənin istehsalında mütləq üstünlüyə malik deyillər və xarici

[37] Николаев Артем Георгиевич, «Современные тенденции экономического сотрудничества стран Азиатско-тихоокеанского региона», диссертация на соискание ученой степени кандидата экономических наук, Москва, 1999

ticarətin səmərəliliyi hər bir ölkədəki istehsal xərclərinin müqaisəsi nəticəsində müəyyən olunur. Rikardo göstərdi ki, əgər iki ölkədən biri müəyyən əmtəələri digər ölkədən daha ucuz (iş vaxtı və ya digər resurslar nəzərə alınmaqla) istehsal edirsə, artıq iki ölkə arasında xarici ticarətdən xeyir əldə edəcək olanı məlumdur. Müqaisəli üstünlüklər konsepsiyası ona əsaslanır ki, iki öklə arasında müxtəlif əmtəələrin istehsalında nisbi səmərəliliklə bağlı fərqlər mövcud olduqca, hətta məhdud istehsal imkanlarına malik olan ölkə belə müəyyən əmtəələrin istehsalı zamanı müqaisəli üstünlük əldə edə biləcəkdir. Eyni zamanda yüksək istehsal iqtisadiyyatına malik olan ölkələr isə müqaisəli üstünlüyə malik olduqları həmin istehsal sahələrini ixtisaslaşdırmalıdırlar. Müqaisəli üstünlüyə malik olmadıqları istehsal sahələrinə məxsus əmtəələri isə xarici bazardan idxal etməlidirlər. Rikardo milli iqtisadiyyatın beynəlxalq əmək bölgüsü sistemində iştirakı modelini işləyib hazırlamışdır. Dünya ticarətində iştirak edən hər bir ölkə, mütləq xərcləri digər ölkələrdəkindən yüksək olan, ancaq nisbi xərcləri isə aşağı olan əmtəə istehsalında ixtisaslaşmalıdır.[38]

Dövlətlər arasında əmək bölgüsünə əsaslanmış xarici iqtisadi münasibətlərin faydalılığını və labüdlüyünü klassiklər təbii resurs faktorları ilə əsaslandırmışlar. Son neoklassik variantlarda müqaisəli xərclər nəzəriyyəsi və beynəlxalq əmək bölgüsü modeli, istehsal faktorlarının differensiasiyası hesabı ilə işlənib hazırlanmışdır. İstehsal faktorlarının ölkə daxilində qeyri-bərabər bölgüsü, bu ölkələrdə mütləq və müqaisəli istehsal xərclərinin qeyri-bərabərliyinə səbəb olur. Beynəlxalq əmək bölgüsü sisteminə daxil olan ölkələrin müqaisəli istehsal xərclərindəki fərqlər çox olduqca, beynəlxalq mübadilədə iştirakdan bir o qədər çox fayda əldə edəcəklər. Müqaisəli xərclər modeli onu göstərir ki, beynəlxalq ticarət hər bir iştirakçı ölkə üçün gəlirli sayıla bilər.[39]

Mütləq və nisbi xərclər konsepsiyası daha sonralar inkişaf etdirilərək müqaisəli üstünlüklər prinsipinə çevrilmişdir. Prinsip aşağıda qeyd olunanlardan ibarətdir: istehsal olunmuş əmtəələrin müştərək mübadiləsi, hər bir əmtəə xərcləri (alternativ) daha aşağı olan ölkələr tərəfindən istehsal olunduqda daha çox olacaq. Tədqiqatın

[38] А. Смит, «Исследование о природе и причинах богатства народов», Соцэкгиз, Москва, 1962
[39] Дж. Б. Кларк, «Распределение богатства», Москва, 1992

məntiqi D. Rikardonun müqaisəli xərclər konsepsiyası ilə eynidir. Müqaisəli üstünlüklər konsepsiyasının müqaisəli xərclər konsepsiyasından fərqi ondan ibarətdir ki, burada anlayış dəqiqləşdirilmişdir. Müqaisəli üstünlüklərin reallaşdırılması yalnız büsbütün rəqabət şəraitində mümkündür. Müqaisəli xərclər konsepsiyası bütöv olaraq iqtisadi liberalizasiya şəraitində tətbiq edilir. Neoklassiklər dünya bazarında tələb və təklifin nisbətini gözdən keçirirlər. Bu onlar tərəfindən beynəlxalq mübadilə əmsalı kimi qəbul edlir. Sahibkarların xarici iqtisadi fəaliyyətdən əldə etdikləri mənfəət ölkələr arasında bölüşdürülür.[40]

Müasir şəraitdə klassiklərin dövründə mövcud olmayan çox saylı faktorların təsiri nəticəsində xarici iqtisadi fəaliyyət mürəkkəbləşmişdir: monopoliya və oliqopoliyanın bazar hökmranlığı, inflyasiya, dövlətin iqtisadiyyatda rolunun gücləndirilməsi və s. Neoklassik məktəbin nümayəndələri olan E. Heckscher və Bertil Gotthard Ohlin, D. Rikardonun müqaisəli xərclər modelinin şəklini dəyişdirərək və John Bates Clarkın son hədd səmərəlilik nəzəriyyəsindən istifadə edərək onların təsirini öyrənmişlər. Onlar ehtimal edirdilər ki, iş qüvvəsi və kapitalla təmin olunma səviyyəsi eyni olmayan və beynəlxalq əmək bölgüsündə iştirak edən iki ölkədən nisbətən çox iş qüvvəsinə və nisbətən az kapitala sahib olan ölkədə əməyin qiyməti ucuz, ancaq kapitalın qiyməti isə yüksək olacaq. İstehsal faktorlarının bu şəkildə qeyri-bərabər bölgüsü nəticəsində qeyd olunan ölkələr arasında xarici ticarət qarşılıqlı əlverişli olacaq. Əgər birinci ölkə əmək tutumlu əmtəələrin istehsalında ixtisaslaşacaqsa, ikinci ölkə isə kapital tutumlu əmtəələrin istehsalında ixtisaslaşacaqdır. Bu model texnologiya əsasında beynəlxalq əmək bölgüsünü tərənnüm edir.

Sahibkarların xarici iqtisadi fəaliyyətinin effektivliyini müəyyən edən və abstrakt prinsip sayılan müqaisəli xərclər nəzəriyyəsi və onların sonrakı modifikasiyası, beynəlxalq ticarəti və xarici iqtisadi münasibətləri, bütün olaraq ölkənin istehsal imkanlarının sərhədlərini genişlətməyə imkan verən istehsalın daha bir faktoru olduğunu qeyd edir.

---

[40] Д. Рикардо, «Сочинения», В 5 т, Государственное издательство политической литературы, Москва, 1955, Т1

Neoklassik iqtisadi təlimin xüsusiyyəti dövlətin təsərrüfat fəaliyyətində minimum iştirakından ibarətdir. Buna görə də, milli hökumətin proteksionist tədbirləri neoklassiklər tərəfindən dünya bazarına çıxışı məhdudlaşdıran baryerlər kimi qeyd olunur. Dövlətlər müqaisəli xərcləri yüksək olan, ancaq müqaisəli üstünlükləri aşağı olan istehsal sahələrini dəstəkləyirlər. Dövlətlərin proteksionist siyasəti idxal olunan əmtəələrə rüsumların tətbiq edilməsindən ibarətdir. Bu isə milli iqtisadiyyatın effektiv sahələrinin inkişafını çətinləşdirir və kifayət qədər effektiv olmayan sahələrdə isə durğunluğa gətirib çıxarır. Bu formada dövlətlərin proteksionist siyasəti sərbəst ticarət prinsiplərinin və müqaisəli üstünlüklər prinsiplərinin reallaşdırılmasına imkan vermir.[41]

XX əsrdə sərbəst ticarət nəzəri mücərrədliyə, azad ticarət prinsipi ideoloji quruluşa çevrildi. Ancaq dünya bazarında müxtəlif proteksionist formalar üstünlük təşkil edir. Xarici iqtisadi münasibətlərdə dəyişən dominant alternativ neoklassik konsepsiyalarda vətənpərvərliyi meydana gətirdi. Bu cür konsepsiyalar xarici iqtisadi münasibətlərin analizinə dair digər yanaşmalardan törəyən institusional və keynsçi konsepsiyalardır.

John Maynard Keynesin fəaliyyəti XX əsrin 30-cu illərinə təsadüf edir. O, iqtisadi liberalizmi tənqid etmiş və dövlətlər tərəfindən "gecə gözətçisi" rolunun icra edilməsini bazar sistemi üçün bütövlükdə təhlükəli hesab etmişdir. Keyns dövlətin milli iqtisadiyyata təsiri ilə bağlı tədbirlər sistemini işləyib hazırlamışdır. O cümlədən, xarici ticari fəaliyyətdə idxalın məhdudlaşdırılmasını və ixracın isə subsidiyalaşdırılmasını tövsiyyə etmişdir. Belə ki, ucuz qiymətlərlə əmtəələrin ixracı dünya bazar seqmentinin ələ keçirilməsinə imkan yaradır. Bu cür dempinq siyasəti istehsalın genişləndirilməsini və işsizliyin azaldılmasını təmin edir.

Keynsin ideyaları sonrakı iqtisadi araşdırmalar üçün istiqamətləndirici oldu.

İqtisadi təlimlərdə xarici iqtisadi fəaliyyətin analizinin Postkeynsçi istiqaməti neoklassik məktəb ilə zidiyyət təşkil edir. Tətbiq edilmə nəzər nöqtəsindən daha çox maraq doğuran neqativ və pozitiv inteqrasiya konsepsiyalarıdır. Neqativ inteqrasiya konsepsiyası, istehsal faktorlarının bir ölkədən digərinə axınına mane olan

---

[41] К. Р. Макконнел, С. Л. Брю, «Экономикс: принципы, проблемы, политика», В 2 т, Республика, Москва, 1992

monopolist və administrativ baryerlərin tədricən ləğvini təklif edir. Pozitiv inteqrasiya konsepsiyası isə, iqtisadiyyat sahəsində problemlərin həllinə istiqamətlənmiş vahid koordinasiyalı siyasətin müxtəlif dövlətlər tərəfindən işlənib hazırlanmasını və qəbul edilməsini təklif edir. Koordinasiyalı siyasət növbəti tədbirləri özündə cəmləşdirir: ölkə daxilində makroiqtisadi tarazlığın qorunub saxlanılması; qiymətlərin dövlət tənzimlənməsi; kənd təsərrüfatı istehsalı sferasında proteksionizm; iqtisadiyyatın planlaşdırılması; ardıcıl maliyyə siyasəti; tədiyyə balansında stabilliyin qorunub saxlanılması; gömrük ittifaqının yaradılması və s. Milli dövlətlərin yuxarıda qeyd olunan funksiyalarının milli orqanların yurisdiksiyası altına ötürülməsi şərti ilə inteqrasiya prosesləri pozitiv olur. Bu ideyaya əsaslanaraq Jan Tinbergen işçi qüvvəsinin məşğulluq səviyyəsinə və miqrasiyasına nəzarət edən, beynəlxalq ticarəti və valyuta konvertasiyasını tənzimləyən dünya hökumətinin yaradılması ideyasını irəli sürmüşdür.[42]

1980-ci illərdə Kembridjdə iqtisadi siyasətin Kembridj qrupu adlanan elmi istiqaməti formalaşdı. Qurucusu Nicholas Kaldor sayılır. O, “ixrac yönümlü iqtisadi artım” modelini təklif etmişdir. Bu modeldə Kaldor, investiya qoyuluşları üzərində artıq qənaətləri qeyri-bərabər situasiyaların əsas səbəbi hesab edərək Keynsin mövqeyindən uzaqlaşmışdı. İqtisadiyyatları yüksək dərəcədə qapalı olan bölgələrdə investisiya qoyuluşları və əmanətlərin uyğunsuzluğu aktual problemdir. İqtisadiyyatları xarici ticarət yönümlü olan və aktiv ticarət balansı olan ölkələrdə məşğulluq səviyyəsi əhəmiyyətli ölçüdə xarici iqtisadi faktorlardan asılıdır. Buna görədə bu ölkələrdə ixracın stimullaşdırılması mütləqdir. O qeyd etmişdir ki, “bütün tez inkişaf etmiş ölkələrin artım tempi ixrac sayəsində mümkün olur”. İqtisadiyyatın ixrac yönümlü olması iqtisadi artım üçün ölkələrin resurs potensialının istifadəsinə imkan verir.

Kaldor konsepsiyası şərq regionlarda (Yaponiya, Cənubi Koreya, Tayvan, Çin) reallaşdırılmışdır.

Kaldorun ideyalarına əsaslanaraq “yeni Kembridj məktəbi” fəaliyyətə başladı. Onun nümayəndələri Jean-Baptiste Sayin klassik qanunundan istifadə etdilər: təklif

---

[42] Дж. М. Кейнс, «Общая теория занятости, процента и денег», Гелиос АРВ, Москва, 2002

tələbi yaradır, çünki özəl sektorda aktivlərin toplanması onların gəlirlərinin ölçüsündən asılıdır, daha dəqiq desək aktivlər hər zaman xüsusi birdəfəlik gəlirlərlə tarazlıq halındadır. Bu istiqamətin nümayəndələri, istehlakçıların gəlirlərinin bir ölkədən digərinə axınına yol verməmək məqsədilə idxalın məhdudlaşdırılması ilə bağlı aktiv siyasət yürütməyi təklif etdilər. Onlar iqtisadiyyatı üç sektora ayırırlar: özəl, dövlət və xarici ticari. Onlar ticari və maliyyə axınlarını tədqiq etmişlər. Makroiqtisadi dalğalanmaları dövlətlərin müdaxiləsinin nəticəsi olduğunu hesab edirlər. Məcmu tələbin lazımi səviyyəsinin saxlanılması üçüm vergi qoyma alətlərindən istifadə etməyi təklif edirlər.

Dövlətlərin maraq dairələrinə müvafiq vergi dərəcələrindən istifadə etmələri dövlət büdcəsinə lazımi miqdarda vəsaitlərin daxil olmasına imkan verir; büdcənin dolu olması xarici iqtisadi əlaqələrin xarakterini müəyyən edir, məcmu tələbin səviyyəsi isə dövlət tərəfindən idxalla əlaqədar həyata keçirilən tədbirlər sistemindən asılı olacaq. İdxal siyasəti hər şeydən əvvəl tədiyyə balansı ilə əlaqədar məhdudiyyətlərin aradan qaldırılmasını tələb edir. Bu isə öz növbəsində ölkədə məcmu tələb və məşğulluğun tarazlığını təmin edir.

Məlum olduğu kimi, nəzəriyyədə və eləcədə təcrübədə xarici iqtisadi fəaliyyətdə dövlətin rolunun gücləndirilməsi və azad ticarət prinsiplərindən uzaqlaşma xətti boyunca gedilir. Neokeynsçilik məktəbi idxala nəzarət olunması ideyasını və ixrac məhsullarının isə rəqabət qabiliyyətinin yüksəldilməsi vasitələrini təklif edir. Ancaq bütövlükdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi problemini nəzərə almırlar.

Yeni Kembridj məktəbi isə idxala nəzarət olunmasını mühüm hesab etməklə yanaşı, bunu iqtisadiyyatın dövlət tənzimlənməsinin yeganə aləti hesab etmir. Bu məktəbin nümayəndələri hökumətlərə, maliyyə-kredit institutlarına daha aktiv təsir etməyi və yalnız dövlətin deyil, eyni zamanda özəl şirkətlərin fəaliyyət istiqamətlərinə yönəldilmiş planlaşdırma elementlərini həyata keçirməyi təklif edirlər. Bu şirkətlərin iqtisadi fəaliyyətlərini dövlətin maraqlarına uyğun əlaqələndirməyə imkan verir. Bundan əlavə seçilmiş istehsalçılara maddi yardım

edilməsi (subsidiyalaşdırma), vergi güzəştlərinin tətbiqi, idxalın lisenziyalaşdırılması sisteminin tətbiq edilməsi və digər tədbirlərdən istifadə edilməsi tövsiyyə edilir.[43]

Keynsin və onun davamçılarına məxsus ideyaların təsiri altında Fransada Dirijimz iqtisadi təlimi formalaşmışdır. Bu təlimin nümayəndələri Keyns məktəbinin iqtisadiyyatın dövlət tənzimlənməsi ideyasını yeni xarici iqtisadi fəaliyyət şərtlərinə tətbiq etdilər. Dj. Veyller milli iqtisadiyyata qeyri-bazar təsirlərinin müxtəlif formalarını aradan qaldırmağı təklif etmişdir. O, bazar inteqrasiyası modelini və ona doğru gedən yolda üç mərhələni işləyib hazırlamışdı: 1) Millətlərarası tənzimləmənin koordinasiyası və xarici iqtisadi əlaqələrin daha effektiv formalarının tapılması üçün milli orqanların yaradılması; 2) Xarici iqtisadi siyasətin unifikasiyası və fövqəlmilli prioritetlərin hesaba alınması; 3) Bütün məhdudiyyətlərdən azad, istehsal faktorlarının sərbəst hərəkət edə biləcəyi zonanın yaradılması.

Veyller xarici iqtisadi fəaliyyət problemlərinin həlli üçün institusional faktorların əhəmiyyətini əsaslandırmışdır. O, ilk olaraq dünya bazarının fəaliyyətinin, müvafiq struktur və normalar tətsis etmədən və bu prosesləri tənzimləyən və koordinasiya edən institusional tədbirlər olmadan mümkün olmayacağını dəqiq ifadə etmişdir. Bütün sonrakı institusional modellər aktiv milli və fövqəlmilli tənzimləmə tələb edir.[44]

Onun ideyaları Yel *(Yale)* Universitetinin professoru Leon Neil Cooperin ideyaları ilə həmahəngdir. L. Cooper hesab edir ki, xarici iqtisadi fəaliyyətin inkişafı dövlət nəzarətini tələb edir. Dünya bazarının mürəkkəbləşən strukturu problemlər törədir ki, bu problemlər yalnız ticarətin iştirakçısı olan ölkə hökumətləri tərəfindən çözülə bilər. Dövlətlər davranış normaları işləyib hazırlamalı və onların yerinə yetirilməsini təmin edən milli strukturlar formalaşdırmalıdırlar.[45]

Avropada "Ümumi bazarın" fəaliyyət təcrübəsi, dünya bazarını tənzimləyən milli orqanların əhəmiyyətinin və təsir gücünün artdığını təsdiq etmişdir. Bu prosesin aparıcı institutları transmilli şirkətlər və banklar, dövlətlər və onların regional birlikləri, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və Dünya Ticarət Təşkilatı

---

[43] В. Студенцов, «Новая кембриджская школа», «Мировая экономика и международные отношения», 1988, № 1
[44] «Особенности государственного регулирования экономики во Франции. Экономическая политика дирижизма», научная статья / http://www.studme.org/
[45] Cooper R., "The Economics of Interdependence", 1968, № 4

oldular. Bu təqdim olunan formal institutlardan başqa dünya bazarında təkamül nəticəsində yaranan institusional strukturlar fəaliyyət göstərirlər: şirkət birlikləri, mədəni, regional, ekoloji və digər qeyri-hökumət təşkilatları. Hansı ki, onlar müasir informasiya texnologiyalarından istifadə edirlər, ayrı-ayrı dövlətlərin sərhədlərindən kənara çıxa bilirlər və qlobal miqyasda qarşılıqlı əlaqələrdə olurlar. Bunlardan başqa qlobal miqyasda cinayətkar və terrorçu təşkilatlar yaranır və aktiv fəaliyyət göstərirlər və beynəlxalq institutları öz maraqları üçün istifadə edirlər.

Dünya bazarının daha çox dinamik seqmenti maliyyə sektoru sayılır. Onun inkişafının obyektiv zərurəti informasiya texnologiyaları, maliyyə əməliyyatlarında kəskin azalan transaksiya xərcləri və maliyyə institutlarının fəaliyyət şərtlərindəki dəyişikliklər oldu. Aite Group məlumatlarına əsasən 2006-cı ilin sonlarına doğru 56 % valyuta əməliyyatları elektron qaydada həyata keçirilmişdir.

XX əsrin 80-90-cı illərində inkişaf etmiş ölkələr maliyyə təşkilatlarının fəaliyyətinin diversifikasıyasını məhdudlaşdırmağı qeyd etdilər, bu isə dünya maliyyə bazarında maliyyə holdinqlərinin hakim mövqe tutmasına gətirib çıxardı. Mərkəzində bele holdinqlər olan qlobal maliyyə "toru" formalaşdı. Bütün növ maliyyə əməliyyatlarının bir sistemdə birləşməsi sinergetik effektə səbəb oldu və böyük maliyyə institutlarının birləşməsindən effektin miqyası böyüdü. Dünya miqyasında maliyyə fəaliyyətlərinin inteqrasiyası valyuta-maliyyə sferasının real iqtisadiyyatdan ayrılmasına gətirib çıxardı. Maliyyə bazarı əmtəə bazarından ayrı müstəqil rol oynamağa başladı. 2006-cı ilin sonlarında dünya valyuta bazarında gündəlik əməliyyatların həcmi 1,2 trilyon dollara çatdı, onların sayı isə 600 minə yaxınlaşdı.

Milli hökumətlər kapital hərəkətinə daha az nəzarət etmək iqtidarındadırlar. Bəzi qiymətləndirmələrə görə "yeddilik" ölkələrinin qiymətli kağızlar bazarının ən az 30 %-nə dövlətlər tərəfindən nəzarət olunur və ya dövlət maraqlarına tabedir.[46]

Bu dəyişiklikləri müşahidə edən tədqiqatçılarda bazara və ümumilikdə azad ticarətə neqativ münasibət yaranır, xarici iqtisadi əlaqələrin institusional konsepsiyalarını formalaşdırdılar. Onlara neoinstitusional istiqamətin nümayəndələri olan Jan Tinbergen və John Kenneth Galbraith aid etmək olar. Tinbergen vahid

---

[46] В. Буглай, «Доктрины наднационального регулирования экономических отношений», Москва, 1984

tənzimlənən və koordinasiya olunan mərkəzə sahib ölkələr arasında səmərələşdirilmiş əmək bölgüsünə əsaslanmış, yeni beynəlxalq qayda ilə bağlı konsepsiyasını işləyib hazırlamışdı. Galbraith isə öz fəaliyyətində planlı və bazar iqtisadiyyatının uyğunsuzluğu ilə bağlı tezisi inkişaf etdirmişdi. Onun fikirlərinə görə, bazarın əhəmiyyəti adi texnologiyaya sahib sahələrdə müşahidə olunur, yüksək texnologiyalar tətbiq olunan sahələrdə planlı iqtisadiyyat bazarı sıxışdırıb çıxarır. Planlaşdırma sferası öz növbəsində istər-istəməz milli sərhədləri aşacaq və beynəlxalq münasibətlərə yayılacaq. O hesab edirdi ki, inkişaf nəticəsində tez və ya gec dünya planlı hökumət tərəfindən idarə olunacaq.

Sülh yolu ilə və ya məcburi qaydada təsis edilən mərkəzi hökumət institutu kimi dünya hakimiyyəti modelini məşhur Amerika futuroloqu Alvin Toffler təklif etmişdir. O hesab edir ki, sənayeləşmə prosesi inkişaf nəticəsində yüksək-sənayeləşməyə doğru dəyişir. Bu isə ona gətirib çıxarır ki, milli hökumətlər yüksək-sənayeləşməyə doğru irəliləyişdə yaranan əsas problemlərlə mübarizə apara bilmir. O, yüksək-sənayeləşməni beynəlxalq əmək bölgüsünün müasir inkişaf səviyyəsi adlandırır.[47]

Xarici iqtisadi fəaliyyət konsepsiyasının analizi göstərdi ki, nəzəri səviyyədə iqtisadi liberalizmin və institusionalizmin ilkin mövqeyi alternativ xarakter daşıyır və bir-birinə zidiyyət təşkil edir. Əslində bu istiqamətlər tərəfindən təklif olunan tədbirlər sistemi uyğunluq təşkil edir, birindəki üstünlüklər digəri hesabına baş verir. Məsələn, ölkəmizdə bazar iqtisadiyyatı yalnız institusional transformasiyadan sonra mümükün olmuşdu.

Daha bir nəzəri yanaşma monetarizmdir. 1980-ci illərdə iqtisadi münasibətlər təcrübəsində əhəmiyyətli təsirə malik olmuşdur. Monetarizm nəzəriyyəsinin əsas prinsipləri milli və həm də beynəlxalq sferada neoklassiklərin mövqeyinə uyğun gəlir. Burada biz Milton Friedmanın mülahizələrinə əsaslanırıq. O, transmilli korporasiyaların fəaliyyətini qiymətləndirərək qeyd etmişdir ki, onların fəaliyyətinin "özünütənzimləmə" mexanizmi, hər hansı dövlət və ya beynəlxalq institutlardan daha tez və yaxşı insan cəmiyyətinə transformasiya etmək iqtidarındadır.

---

[47] Дж. К. Гэлбрэйт, «Экономические теории и цели общества», Москва, 1976

XX əsrin 30-cu illərində İsveç iqtisadçıları Eli Filip Heckscher və Bertil Ohlin özlərinə məxsus beynəlxalq ticarət modeli yaratmışlar. Bu müddətə qədər beynəlxalq əmək bölgüsü və beynəlxalq ticarət sistemində böyük dəyişikliklər baş vermişdir. Beynəlxalq ixtisaslaşma faktoru kimi təbii fərqlərin rolu nəzərə çarpacaq dərəcədə azalmışdır. İnkişaf etmiş ölkələrin ixracında isə sənaye məhsuları üstünlük təşkil etməyə başlamışdır. Heckscher-Ohlin modeli sənaye məhsullarının beynəlxalq ticarətinin səbəblərini izah etmək üçün nəzərdə tutulmuşdur.

Müəlliflərin düşüncələrinə görə, nisbi xərclər baxımından ölkələrarası fərqlər aşağıdakılarla izah olunur:

1) Müxtəlif əmtəələrin istehsalında amillər müxtəlif nisbətlərdə istifadə olunur;

2) Ölkələrin istehsal faktorları ilə nisbi təmin olunma səviyyəsi eyni deyil.

Burada amillərin mütənasibliyi qanunu tələb olunur: açıq iqtisadiyyatlarda hər bir ölkə, əmtəələrin istehsalında nisbətən daha yaxşı amillər tələb olunan sahələr üzrə ixtisaslaşmağa cəhd edir. Beynəlxalq mübadilə - bu bol amillərin mübadiləsinin azlığıdır.

Beləki, bol istehsal amilləri gizli formada ixrac olunur və defisit amillər isə idxal olunur. Daha doğrusu əmtəələrin bir ölkədən digər ölkəyə hərəkəti dünya iqtisadiyyatı miqyasında istehsal amillərinin aşağı mobilliyini kompensasiya edir.

Beynəlxalq ticarət prosesində istehsal amillərinin qiymətlərinin bərabərləşdirilməsi baş verir. Həddindən artıq olan amillərin ilkin qiymətləri nisbi aşağı olacaq. Kapital artıqlığı kapitaltutumlu əmtəələrin istehsalında ixtisaslaşmaya və ixrac sektorunda kapital transferinə gətirib çıxarır. Kapital tələbi artır, uyğun olaraq kapitalın qiyməti də artır.

Əgər ölkədə əmək artıqlığı mövcudsa, o zaman əməktutumlu əmtəələr ixrac olunacaq. Əməyin qiyməti də (əmək haqqı) artacaq.

Hazırkı nəzəriyyəyə müvafiq olaraq, ölkələr istehsalında nisbətən daha çox istehsal amillərinin istifadə olunduğu əmtələri ixrac edir və istehsalında nisbətən defisit amillərin istifadə olunduğu əmtəələri idxal edir.

Müvafiq lazımi şərtlər:

- Beynəlxalq mübadilə iştirakçısı ölkələrdə üstünlük təşkil edən istehsal amilləri ilə istehsal olunan əmtəə və xidmətlərin ixrac tendensiyaları inkişaf edir və əksinə ölkə defisit amillərdən istehsal olunan əmtəələri idxal edir;
- Beynəlxalq ticarətin inkişafı amillərin qiymətlərinin, daha doğrusu qeyd olunan amillərin sahiblərinin əldə etdikləri gəlirlərin bərabərləşməsinə gətirib çıxarır.
- İstehsal amillərinin beynəlxalq mobilliyini kifayət qədər olduqda, ölkələr arasında amillərin özlərinin hərəkəti ilə ixrac əmtəələrinin əvəzləşdirilməsi imkanları mövcud olur.[48]

Xarici ticarət nəzəriyyəsi Amerika iqtisadçısı Leontyev Vasili Vasilyeviç tərəfindən inkşaf etdirilmiş və "Leontyev paradoksu" adlandırılmışdır. Leontyev qeyd olunan paradoksda Heckscher-Ohlin nəzəriyyəsindən istifadə edərək qeyd etmişdir ki, Amerika iqtisadiyyatı hərbi dövrdən sonra kapitaldan daha çox əmək sərf olunan istehsal sahələri üzrə ixtisaslaşmışdır. Amerika ixracı idxal ilə müqaisədə daha çox əməktutumlu və daha az kapitaltutumlu idi. Bu nəticə, ABŞ iqtisadiyyatı ilə bağlı daha əvvəllər mövcud olan bütün təsəvvürlərlə zidiyyət təşkil edirdi. Ümumi fikirlərə görə, bu Heckscher-Ohlin nəzəriyyəsinə uyğun olaraq həmişə kapital artıqlığı ilə xarakterizə olunur. ABŞ yüksək kapitaltutumlu əmtəələri ixrac edir, ancaq idxal etmir.

Leontyev paradoksunun mahiyyəti ondan ibarətdir ki, ixracatda kapitaltutumlu əmtəələrin payı artmalı, əməktutumlu əmtəələrin isə azalmalıdır.[49]

Michael Everett Porterin nəzəriyyəsi ölkənin rəqabət qabiliyyətlilik anlayışına gətirib çıxarır. Porterin nəzər nöqtəsinə görə milli rəqabət qabiliyyətlilik konkret istehsalat sahələrində uğur və ya uğursuzluğu və ölkənin dünya iqtisadiyyatında tutduğu yeri müəyyən edir. Milli rəqabət qabiliyyətlilik sənayenin imkanları ilə müəyyən edilir. Ölkənin rəqabətdə üstünlüyü yeniliklərin və təkmilləşdirmələrin stimullaşdırılması əsasında izah olunur (daha dəqiq desək istehsalda innovasiyaların

---

[48] Т. А. Фролова, «Теории международной торговли», Таганрог: ТРТУ, 2005 / http://www.aup.ru/books/m175/1_3.htm
Эклунд К., «Эффективная экономика: Шведская модель», Москва, Экономика, 1991, Гл. 7.

[49] «Парадокс Леонтьева», статья / http://mirovaja-ekonomika.ru/paradoks-leonteva/

stimullaşdırılması). Ölkənin rəqabət qabiliyyətliliyinin dəstəklənməsi üçün dövlət tədbirləri aşağıdakılardır:

- İstehsal amilləri ilə bağlı şərtlərə hökumətin təsir tədbirləri;
- Tələb şərtlərinə hökumətin təsir tədbirləri;
- Müvafiq və dəstəkləyici sahələrə hökumətin təsir tədbirləri;
- Şirkətlərin strategiyasına, strukturuna və rəqabət mübarizəsinə hökumətin təsir tədbirləri.[50]

İngilis iqtisadçısı Tadeusz Rybczynski tərəfindən işlənib hazırlanmış nəzəriyyədə qeyd olunur: istehsal faktorlarından hər-hansı birinin daha yüksək təklifi, hazırkı amilin daha intensiv istifadə olunduğu sahələrdə istehsal həcminin və gəlirlərin qeyri-mütənasib yüksək artmına, digər amilin intensiv istifadə olunduğu sahələrdə isə istehsal həcminin və gəlirlərin (böhranlar) azalmasına gətirib çıxaracaq. Hazırkı nəzəriyyə riyazi olaraq sübut edilmişdir.

Hər-hansı sahədə istehsal həcminin artması həmin məhsula tələbi stimullaşdırır, ancaq bütün ölkələrin daxili bazarları hər zaman məhduddur. Daha yüksək tələb müvafiq olaraq xarici ticarət hesabına formalaşır.

Rybczynski nəzəriyyəsinin sübutu ölkənin istehsal imkanları sərhəddinə əsaslanır. O göstərir ki, iqtisadiyyatın bir seqmentində istehsal həcmini artırmaq, digər seqmentdə istehsal həcmini azaltmadan mümkün deyil. Beləki, iqtisadiyyatın bütün sahələri müxtəlif istehsal amillərindən istifadə edirlər və sahələrdən biri amillərdən bir qismini digər sahədən çıxara bilər. Buna görə də, ixracın artırılması hər zaman, böhranlar baş verən sahələrin məhsullarının idxalının artırılması ilə əlaqədardır.

Burada dağılmış ixrac məvhumu ("holland sindromu") aşkar edilmişdir – yəni ixracdan əldə olunan gəlirlər idxalın ödənilməsinə kifayət etmir. Bu məvhum ixrac və idxal məhsullarının əlverişsiz qiymət dinamikası zamanı yaranır. Bu nəticələrdən qaçmaq üçün ölkə diversifikasiya (ixrac strukturu və ticarətin coğrafi sərhədləri) olmalıdır.

---

[50] «Конкурентный ромб» М. Портера, статья / http://www.e-reading.link/chapter.php/103771/20/Ron'shina,_Nosova_-_Mezhdunarodnye_ekonomicheskie_otnosheniya__konspekt_lekciii.html

Nəzəriyyə son olaraq təsdiq edir ki, əgər iki istehsal amilindən birinin həcmi çoxalarsa, bu zaman əmtəə və amillərin qiymət sabitliyinin təmin olunması üçün həmin artan amilin intensiv istifadə olunduğu məhsulların istehsalının artırılması və sabit amilin intensiv istifadə olunduğu digər məhsulların istehsalının isə azaldılması mütləqdir. Əmtəələrin qiymətlərinin sabit qalması üçün istehsal faktorlarının da qiymətləri dəyişməz qalmalıdır. İstehsal amillərinin qiymətləri yalnız, iki sahə tərəfindən istifadə olunan amillərin nisbəti sabit qaldıqda dəyişməz qala bilər. Hər-hansı bir amilin artması, həmin amilin intensiv istifadə olunduğu sahələrdə istehsalın artması və digər sahələrdə isə istehsalın azalması zamanı baş verə bilər. Bu isə sabit amillərin azad edilməsinə gətirib çıxarır hansı ki, inkişaf edən sahələrdə bu amillərin artan amillərlə birgə istifadəsi mümkün olur.[51]

XX əsrin ortalarında (1948) Amerika iqtisadçıları Paul Anthony Samuelson və Volfgang Stolper tərəfindən ikinci dünya müharibəsi illərində digər bir nəzəriyyə inkişaf etdirilmişdir. Nəzəriyyəyə görə, sərbəst xarici ticarət ölkənin bol miqdarda sahib olduğu istehsal amilinin real gəlirini yüksəldir, qıt amilin gəlirini isə aşagı salır.

Bunun səbəbinə belə açıqlıq gətirilə bilər: Sərbəst ticarət şərtlərində ölkə əmək və sərmayə amillərindən hansına daha çox sahib olarsa istehsalında həmin amilin daha çox istifadə olunduğu mallar üzrə ixtisaslaşacaq və həmin malları ixrac edəcəkdir. Qıt amillərdən istehsal olunan malları isə xaricdən idxal edəcək. Bu formada ixtisaslaşmadan dolayı, ölkənin bol miqdarda sahib olduğu amilə ölkə daxili tələb artacaq, qıt amilə isə tələb azalacaq. Bu isə bol amillərin qiymətinin yüksəlməsinə, qıt amilin isə qiymətinin aşağı düşməsinə səbəb olacaq. Beləcə gəlir paylaşımı bol amilə yönəlik dəyişmiş olacaq.

Xərcləri yüksək olan sənaye sahələrini xarici rəqabətdən qorumaq məqsədilə himayədarlıq siyasətinə müraciət olunur. Həmin sahələr ölkənin qıt amillərini istifadə edən sənaye sahələridir. Himayədarlıq siyasətindən dolayı bu sahələrdə istehsal

[51] В.И. Фомичев, “Международная торговля: Теорема Рыбчинского”, статья / http://polbu.ru/fomichev_inttrading/ch06_i.html

artacağı üçün qıt amillərə tələb də artacaq. Dolayısıyla bu amillərin qiyməti də yüksələcək və nəticədə gəlir paylaşımı qıt amillər lehinə dəyişəcək.[52]

Araşdırmamızda liberal neoklassik model ilə neoinstitusionalist konsepsiyanın müqaisəli analizinə daha çox diqqət yönəldilmişdir. Onların müqaisəsi göstərdi ki, milli iqtisadçıların qarşılıqlı asılılığı institusional və o cümlədən bazar faktorları ilə şərtlənmişdir.[53]

---

[52] Steve Suranovic, “International Trade: Theory and Policy”, article / http://catalog.flatworldknowledge.com/bookhub/28?e=fwk-61960-ch05_s06

[53] А. Алексеева, «Новая волна богатства», Эксперт, 2008, № 2 (591)

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN FAKTORLAR VƏ DÜNYA TƏSƏRRÜFATINA İNTEQRASİYANIN TENDENSİYALARI

## 2.1. Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının formalaşmasında mövcud xarici iqtisadi əlaqələrin rolu

Müasir dövrün başlıca qanunauyğunluqlarından biri dünya ölkələrinin inkişafının günü-gündən tamlaşan və özü-özünə inkişaf edən sistem kimi formalaşan dünya iqtisadiyyatından asılılığının artmasıdır. Bu proses ictimai istehsalın inkişafının daha yüksək səviyyəsi olan çox tərəfli və mürəkkəb iqtisadi münasibətlərdən ibarət olan dünya iqtisadiyatının yaranmasına gətirib çıxarmışdır. Dünya iqtisadiyatının inkişafında iştirak edən ölkələr bu prosesdə təbii olaraq müxtəlif rollar yerinə yetirməklə yanaşı, eyni zamanda müxtəlif vəzifələri həll edirlər. Qeyd etmək lazımdır ki, bu ölkələrin hər birinin ən başlıca məqsədi bəşəriyyətin malik olduğu məcmu iqtisadi potensialdan maksimum üstün istifadə etməkdir. Bununla yanaşı hər bir ölkənin beynəlxalq əhəmiyyəti o ölkənin iqtisadi potensialı, dünya əmtəə və xidmətlər istehsalında rolu, texnologiyasının, maliyyəsinin dünya iqtisadi sistemində payı ilə müəyyənləşir.

Dünyada iqtisadi proseslərin getdikcə daha yüksək səviyyədə beynəlmiləlləşməsi və iqtisadi inteqrasiyanın daha da artdığı müasir şəraitdə bu proseslərin məzmununu təşkil edən beynəlxalq iqtisadi münasibətlərin araşdırılması, onun inkişaf meyllərinin müəyənləşdirilməsi hər bir ölkə üçün mühüm aktuallıq kəsb etdiyini nəzərə alsaq, yeni müstəqillik əldə etmiş və dünya təsərrüfatına inteqrasiya olunmaq xətti götürmüş Azərbaycan Respublikası üşün xüsusilə aktual olduğunu qeyd etməliyik.

Beynəlxalq iqtisadi münasibətlər beynəlxalq əmək bölgüsünə əsaslanan müxtəlif dünya ölkələrinin milli iqtisadiyyatları arasında yaranan elmi-texniki, istehsal, ticarət, maliyyə-valyuta, pul-kredit və informasiya münasibətlərindən ibarət olan müxtəlif təsərrüfatçılıq münasibətləri sistemi kimi özünü göstərir. Beynəlxalq

iqtisadi münasibətlər təsərrüfatçılıq həyatının inkişafının ümumi qanunauyğunluqları əsasında inkişaf etsə də, özünə məxsus əsaslı xüsusiyyətlərə malikdir:

- təsərrüfatçılıq münasibətləri milli sərhədlər çərçivəsindən kənara çıxır və daha geniş əraziləri əhatə edir;
- tərkibinə və həcminə görə yeni əlavə ehtiyatlar iqtisadi dövriyyəyə cəlb edilir;
- beynəlxalq miqyasda ayrı-ayrı ölkələr tərəfindən xaricə istehsal amillərinin və onların nəticələrinin yerləşdirilməsi baş verir;
- belə dünya təsərrüfatçılıq əlaqələrini təmin edən xüsusi (maliyyə, valyuta, gömrük və s.) alətlər və mexanizmlər fəaliyyət göstərir;
- yaradılan beynəlxalq və milli xüsusi təşkilati strukturların iştirakı və köməkliyi ilə bu ölkələr arasında iqtisadi əlaqələr həyata keçirilir və tənzimlənir.

Belilklə, müasir şəraitdə hər hansı ölkə ümumbəşəri nailiyyətlərə əsaslanaraq özünün milli iqtisadiyyatını sürətlə inkişaf etdirmək, ölkə əhalisinin maddi rifah halını yüksəltmək istəyirsə, onda beynəlxalq iqtisadi münasibətlərin iştirakçısına çevrilməli və xalqın milli mənafelərini daha yüksək səviyyədə əks etdirən mövqe tutmalıdır. Bu məqsədə nail olunması isə beynəlxalq itisadi münasibətlərin daha dərindən və inkişafda öyrənilməsini tələb edir.[54]

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul edilmişdir.

1920-ci ildə ADR müstəqilliyini itirdikdən sonra xarici iqtisadi əlaqələr SSRİ-nin dövlət inhisarı altında cəmləşmişdi. Azərbaycanın xarici iqtisadi əlaqələrinin Moskva tərəfindən müəyyən olunduğu bir şəraitdə respublikada bu sahənin idarə olunması üçün hər hansı quruma ehtiyac duyulmurdu. Azərbaycanın iqtisadi əlaqələri şərti olaraq SSRİ-nin tərkibində baş verirdi. 1991-ci ildə Azərbaycan iqtisadiyyatının

[54] Kərimov Ə. İ., Kərimov C. Ə., "Beynəlxalq iqtisadi münasibətlər", Bakı, 2006

sahələri üzrə məhsul göndərilməsi (daxili qiymətlərlə) cəmi – 12,2 mln. rubul olmuşdursa, ondan xaricə ixracat cəmi 744 min manat idi. Azərbaycanın xarici iqtisadi əlaqələri SSRİ-nin tərkibində mübadilə əlaqələrindən 16,7 dəfə az idi. Qeyd olunan bu əlaqələr də Moskva inhisarı altında həyata keçirilirdi. Texnologiyanın, işçi qüvvəsinin hərəkəti isə daha çox qapalı və birtərəfli xarakter daşıyırdı.

Siyasi istiqlaliyyət əldə edildikdən sonra Azərbaycanın iqtisadi inkişafının əsas məsələlərindən biri xarici iqtisadi əlaqələrin düzgün istiqamətdə qurulması zərurəti olmuşdur. Azərbaycan hazırda dünyanın 84 ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. Ölkənin iqtisadi potensialı, xammal və mineral ehtiyatlarla zənginliyi, təbii şəraiti və əlverişli iqtisadi-coğrafi mövqeyi əməkdaşlıq imkanlarını artırır.

Göstərilən faktlar son illər xarici iqtisadi fəaliyyət sahəsində baş verən struktur və keyfiyyət dəyişikliklərinə əyani sübutdur və eyni zamanda, Azərbaycan dövlətinin beynəlxalq iqtisadi inteqrasiya əlaqələrinə qoşulmasının nümunəsidir.

Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşaxəli inkişafını təmin etmək üçün böyük üstünlüklər verir. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir.[55]

Azərbaycan dövləti son illər ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişafına xüsusi əhəmiyyət verir. Artıq bu sahədə müsbət nəticələr əldə edilmiş, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi üçün yeni istiqamətlər müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin xarici dövlətlərə səfərləri, eləcə də Azərbaycanın və tərəfdaş ölkələrin müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı görüşləri hazırda bu işə güclü təkan vermişdir. Elə bunun nəticəsidir ki, Azərbaycanın beynəlxalq əlaqələrinin coğrafiyası ildən-ilə genişlənir. Ölkəmizin ikitərəfli əməkdaşlıqda qonşu dövlətlərlə əlaqələri mühüm əhəmiyyət daşıyır. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən rəsmi Bakı bu məqama xüsusi diqqət yetirmiş, mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsi naminə səyini əsirgəməmişdir.

---

[55] Ayxan Nəsibli, "Tədqiqat: Azərbaycanda ticarət dinamikası və ticarət məhdudiyyətlərinin adambaşına düşən xərcləri", Azad Düşüncələr Assosiasiyası, Bakı, 2011

Bu fikri Türkiyənin timsalında nəzərdən keçirək. Adı çəkilən qardaş və dost dövlətlə əlaqələr daim yüksələn xətlə inkişaf edir. Həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verən Cənubi Qafqaz enerji dəhlizi, ilk növbədə, Azərbaycan və Türkiyənin siyasi iradəsi ilə gerçəkləşmişdir. Hazırda bu dəhlizi daha da gücləndirmək üçün yeni bir layihəyə başlanılmışdır. Başqa sözlə, Azərbaycandan nəql olunacaq təbii qazın Türkiyə üzərindən tranzit daşınması məqsədilə boru xəttinin inşasını nəzərdə tutan TANAP layihəsinə start verilmişdir. Həmçinin bu gün Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşdırılması da uğurla davam edir. Heç bir xarici şirkətin və beynəlxalq maliyyə təşkilatının iştirakı olmadan məhz Azərbaycanın təşəbbüsü ilə gerçəkləşdirilən bu layihə Şərq-Qərb nəqliyyat dəhlizinin fəallaşmasına, yükdaşımaların əhəmiyyətli dərəcədə artmasına və nəticə etibarilə regional inkişafın sürətlənməsinə gətirib çıxaracaqdır.[56]

İkitərəfli əməkdaşlıqda qonşu Rusiya ilə olan münasibətlərə də mühüm önəm verilir. Azərbaycanın bu ölkə ilə müxtəlif sahələrdə əlaqələri ildən-ilə genişlənir. Hazırda Rusiya respublikamızın əsas ticarət tərəfdaşlarından biridir. Dövət Statistika Komitəsinin məlumatına əsasən, 2013-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2 milyard ABŞ dollarından çox olmuşdur. Onu da xatırladaq ki, Azərbaycan Rusiya Federasiyasının əksər subyektləri ilə birbaşa əməkdaşlıq əlaqələri yaratmış, onların bəziləri ilə hökumətlərarası sazişlər bağlanılmışdır. Bu gün qonşu ölkənin 70-dən artıq regionu Azərbaycanla əməkdaşlıq edir və qarşılıqlı ticarət dövriyyəsinin 70 faizindən çoxu həmin regionların payına düşür.[57]

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2013-cü ilin yanvar-dekabr aylarında Azərbaycan Respublikasının rezidentləri dünyanın 148 ölkəsinin hüquqi və fiziki şəxslərilə ticarət əməliyyatları həyata keçirmiş, 102 ölkəyə əmtəə ixrac olunmuş, 140 ölkədən idxal olunmuşdur. Xarici ticarət dövriyyəsi iştirakçılarının 29-u Amerika, 49-u Avropa, 38-i Asiya ölkələri və digərləridir.

On iki ay ərzində xarici ticarət dövriyyəsi 39,7 milyard ABŞ dolları təşkil etmiş və 2012-ci ilin eyni dövrü ilə müqayisədə 4 faiz artmışdır. Dövriyyənin 30

---

[56] Elçin Əhmədov, "Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının yeni mərhələsi", elmi məqalə / http://strategiya.az/old/?m=xeber&id=3013

[57] Zahid Məmmədov, "Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri", Bakı, 2004.

milyard dolları ixracın, 9,7 milyard dolları idxalın payına düşmüş, nəticədə 20,3 milyard dollarlıq müsbət saldo yaranmışdır. Qeyri-neft məhsullarının ixracı 2012-ci ilin yanvar-dekabr ayları ilə müqayisədə 7,4 faiz artaraq 1,6 milyard dollar təşkil etmişdir. Adambaşına düşən qeyri-neft məhsullarının ixracı 10,1 dollar artaraq 172,9 dollara bərabər olmuşdur.[58]

Azərbaycanın dövlət səviyyəsində reallaşdırdığı xarici iqtisadi siyasət strategiyasına, strateji məhsulların idxalında və ixracında bütün fiziki və hüquqi şəxslərin bərabər hüquqlarının təmin olunması və inhisarçılığın qarşısının alınması istiqamətində görülən işlər, daxili bazarın marketinqinin düzgün qurulması, gömrük əlaqələrinin sadələşdirilməsi, xarici ticarətin liberallaşdırılması, eləcə də əlverişli investisiya mühitinin yaradılması və s. məsələlər və o cümlədən, xarici iqtisadi əlaqələrin həcminin və coğrafiyasının bir qədər də genişləndirilməsi daxildir. Bundan başqa, 2020-ci ilə qədər Azərbaycanın iqtisadi inkişaf konsepsiyasında qeyri-neft sektorunun həcminin adambaşına 1000 ABŞ dollarına və yaxud ümumilikdə 10 milyard dollara qədər artacağı hədəf olaraq müəyyənləşdirilmişdir. Eyni zamanda, 2020-ci ildə ölkəmizin qeyri-neft ixracının ümumi idxala bərabər olacağı da proqnozlaşdırılır. Bu isə Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində, neft hasilatının tükəndiyi dövrdə ticarət saldosundakı üstünlüyün qorunub saxlanmasında müsbət rol oynayacaqdır.[59]

Azərbaycanın müstəqillik qazanması onun həm qonşu ölkələrlə, həm də dünya dövlətləri ilə iqtisadi, həmçinin xarici ticarət əlaqələrinin artmasına təkan verdi. Ən əsası isə müstəqillikdən sonra Azərbaycan dünyada müstəqil iqtisadi və hüquqi subyekt kimi tanınmağa başlandı. Ötən əsrin 90-cı illərinin əvvəllərində keçmişdə mövcud olmuş bir sıra əlaqələrin itirilməsi səbəbindən iqtisadiyyatın bütün sferalarında olduğu kimi, ticarət sahəsində də böhran prosesləri nəzərə çarpmağa başladı. Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid də ölkə iqtisadiyyatına bir sıra çətinliklər yaratdı. Ən böyük çətinliklərdən biri isə təkcə başqa ölkələrlə hansı məhsul və ya xidmət növünün ticarətini aparmaqla deyil, həm də nə istehsal etməklə

[58] "Azərbaycanın xarici ticarəti 2006-2007-ci illər", Statistik məcmuə, Bakı, 2008
[59] B. İ. Məmmədxanov, S. A. Mehdizadə, "Müasir inteqrasiya meylləri və onun qiymətləndirilməsi", elmi məqalə

bağlı idi. Bu istiqamətdə təkcə Azərbaycan yox, bütün keçmiş sovet ölkələri çətinliklərlə üzləşməli oldu. Çünki iqtisadiyyatının birdən-birə bir iqtisadi sistemdən digərinə keçməsi heç də asan proses deyil. Buna nail olmaq üçün iqtisadiyyatda bir sıra islahatlar aparılmalı və onun strukturu müasirləşdirilməli idi.

Göründüyü kimi, belə bir şəraitdə Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas məsələ ilk növbədə ölkə iqtisadiyyatında sabitlik yaratmaqla yanaşı, həm də bir iqtisadi sistemdən digərinə adlamaqla keçid dövründən minimum itkilərlə çıxmaq idi. Bunun üçün isə ölkə iqtisadiyyatının beynəlxalq əmək bölgüsündə öz yerini tutması çox vacib idi. Praktik olaraq, son illər xarici ticarət dövriyyəsində müşahidə edilən ciddi artımlar da məhz sözügedən islahatların nəticəsi kimi qiymətləndirilməlidir.

Lakin 1994-cü ildə Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlandırıldı."Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, Lukoyl, Statoyl, Eksson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edib. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilib və 12 dekabr 1994-cü ildə qüvvəyə minib. Bu müqaviləyə əsasən ümumi təmiz gəlirdən Azərbaycanın payına 80%, investorların payına isə 20% düşür. Azərbaycanın ixrac potensialının artmasında "Əsrin müqaviləsi"nin imzalanması şübhəsiz əsas amillərdəndir.[60]

Ən önəmli məqamlardan biri də məhz ölkə Prezidentinin rəhbərliyi altında ölkənin ixrac potensialının artırılması ilə bağlı atılan addımlardır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin xarici iqtisadi əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini bəyan edərək bildirmişdir ki, Azərbaycan tərəfindən bu gün müxtəlif ölkələrdə və eləcə də Avropa İttifaqı məkanında investisiya imkanları araşdırılır və artıq ilkin addımlar atılır. Bu, bizim maliyyə resurslarımızın şaxələndirilməsi üçün əhəmiyyətlidir.

---

[60] "Əsrin müqaviləsi", elmi məqalə / http://azerbaijan.az/_Economy/_OilStrategy/oilStrategy_04_a.html

Hazırda Almaniya, ABŞ, Yaponiya və s. kimi dünyanın bir çox inkişaf etmiş ölkələri də demək olar ki, bugünkü iqtisadi güclərinə ilk növbədə beynəlxalq ticarətdə və əmək bölgüsündə hər hansı bir sahə üzrə ixtisaslaşmaqla nail olublar. Bu baxımdan yanaşdıqda isə beynəlxalq ticarətin bir sıra üstünlükləri önə çıxmış olur. Onun əsas üstünlüklərindən biri daha az xərclə daha çox qazanc əldə etmək, ölkəyə valyuta daxilolmalarını artırmaq və rifah yaratmaqdan əlavə, həm də dünya miqyasında sabitliyə təminat verməsidir. Bu gün dünya iqtisadiyyatında bir-iki ölkəni çıxmaq şərtilə qapalı iqtisadiyyata malik olan ölkələr mövcud deyil. Digər tərəfdən, əgər hətta az sayda qapalı sistemə malik olan ölkələr mövcud olsa da belə, onların dünya iqtisadiyyatındakı payı və gücləri olduqca zəifdir.

Son illər Azərbaycanın ticarət dövriyyəsi 7 dəfə artıb. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycanın müstəqillik əldə etdiyi 1991-ci illə müqayisədə ticarət dövriyyəsinin həcmi 7 dəfə artıb. Belə ki, 1991-ci ildə ticarət dövriyyəsinin həcmi cəmi 4 milyard ABŞ dolları təşkil etmişdirsə, ötən il bu rəqəm 30 milyard dollara yaxın olmuşdur. Digər tərəfdən, əgər müstəqilliyin ilk illərində Azərbaycanın əsas ticarət partnyorları Rusiya və digər MDB ölkələrindən ibarət idisə, sonrakı illərdə bu nisbət Avropa Birliyi ölkələrinin xeyrinə dəyişib.

"Əsrin müqaviləsi" çərçivəsində neft hasilatının artması ölkəmizin xarici iqtisadi əlaqələrinin də genişlənməsinə səbəb olmuşdur. Neft ixracının müəyyən səviyyədə artımı xarici ticarət dövriyyəsinin artımına da eyni səviyyədə təsir göstərir. Araşdırmalar göstərir ki, xarici ticarət dövriyyəsi ilə neft ixracı arasında pozitiv korrelasiya əlaqəsi var. Yəni neft ixracı artdıqca xarici ticarət dövriyyəsinin həcmi də artır.

Bununla yanaşı, son illər, xüsusən də 2011-ci ildən başlayaraq, ixracda qeyri-neft sektorunun payının artması müsbət hal kimi qiymətləndirilməlidir. Belə ki, əgər 2010-cu ildə ixracatın 98%-ni neft məhsulları təşkil edirdisə, ötən il bu rəqəm 89%-dək azalıb. 2012-ci ilin birinci rübünün yekunlarına görə, bu göstərici 86%-dək azalıb ki, bu da qeyri-neft sektorunun payının artmasından xəbər verir. Neft ölkəsi olan Azərbaycanda ixracatın 14%-ni qeyri-neft məhsulları təşkil etməsi müsbət hal kimi qiymətləndirilməlidir.

Böhran dövrü olmasına baxmayaraq, Azərbaycanın strateji valyuta ehtiyatları da artıb. Rəsmi məlumatlara əsasən, Azərbaycanın strateji valyuta ehtiyatları 43 milyard ABŞ dollarına çatıb. Bunun təqribən 8 milyard ABŞ dollarını və ya 17%-ni Mərkəzi Bankın valyuta ehtiyatları təşkil edir. 2010-cu illə müqayisədə Mərkəzi Bankın valyuta ehtiyatları təqribən 10%-ə qədər artıb. Strateji valyuta ehtiyatlarının artması ilk növbədə ölkənin iqtisadi imici baxımından çox əhəmiyyətlidir. Bu, həm də ölkəyə investisiya axını baxımından olduqca vacibdir. Çünki investorlar həmişə sabit iqtisadiyyatlı ölkələrə kapital qoymağa meyilli olurlar. Bu baxımdan Azərbaycanın valyuta ehtiyatlarının artması investorlar üçün mesaj rolunu oynayır. Yəni bu, ölkənin ödəniş qabiliyyətli və öhdəliklərini vaxtında yerinə yetirmək qabiliyyətində olduğunu göstərir.

Xarici ticarət dövriyyəsinin artımı fonunda Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların da həcmi artmaqda davam edir. Belə ki, rəsmi məlumatlara əsasən 1994-cü ildən bu günə kimi ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 100 milyard ABŞ dollarını ötüb.

Xarici ticarət dövriyyəsinə görə, Azərbaycan Cənubi Qafqazda alternativsiz liderdir. Belə ki, qonşu Gürcüstan və Ermənistanın illik xarici ticarət dövriyyəsi cəmi 7 milyard dollardır. Bu Azərbaycanın xarici ticarət dövriyyəsindən 5 dəfəyə yaxın azdır. Göründüyü kimi, regionun xarici ticarət döriyyəsinin əhəmiyyətli hissəsi Azərbaycanın payına düşür.[61]

Xarici iqtisadi əlaqələrdə inkişaf etmiş ölkələrin payı artmaqdadır. Müstəqillik illərində Azərbaycanın xarici ticarətinin strukturu dəyişikliyə uğradığı kimi, onun ticarət partnyorlarının da tərkibi dəyişib. Son illərdə MDB ölkələrinin Azərbaycanın xarici ticarətindəki payı getdikcə azalır. Bu həm də onunla baglıdır ki, neft ixracı artdıqca ümumi xarici ticarət dövriyyəsinin həcmi də artır ki, bu da həmin ölkələrin payının azalmasına səbəb olur. Çünki, Azərbaycan nefti əsasən Avropa bazarına ixrac olunur. MDB ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi ildən-ilə artsa da bu onun ümumi ticarət dövriyyəsindəki payının azalmasına ciddi təsir edə bilmir.

---

[61] Колесниченко Мария Анатольевна, «Внешнеэкономическая политика Азербайджанской Республики в 1991-2011 гг.», диссертация на соискание ученой степени кандидата экономических наук, Санкт-Петербург, 2012

Belə ki, Azərbaycanla MDB ölkələri arasındakı xarici ticarət dövriyyəsinin həcmi 4 milyard dollar olsa da, keçmiş ittifaq ölkələrinin ticarət dövriyyəsində payının azalması ölkəmizin inkişaf etmiş ölkələr, xüsusən də Avropa Birliyi ilə əlaqələrinin genişləndirilməsi ilə bağlıdır.

Belə ki, 2006-cı illə müqayisədə MDB ölkələri ilə xarici ticarət dövriyyəsinin həcmi 1,5 dəfə və ya 1 milyard 341 milyon ABŞ dolları artıb. Lakin bu ümumi ticarət dövriyyəsinin həcmində MDB ölkələrinin payının azalmasının qarşısını ala bilməyib.

MDB ölkələri arasında Azərbaycanla ən çox ticarət dövriyyəsinə malik olan ölkə Rusiya Federasiyasıdır. Bu ölkənin Azərbaycanın ticarət dövriyyəsindəki payı 50%-dir. Digər MDB ölkələri ilə müqayisədə Rusiyanın daha böyük üstünlüyə malik olmasının səbəbi bu ölkənin Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün böyük bazara sahib olmasıdır. Azərbaycanla Rusiya arasında keçmişdə mövcud olmuş iqtisadi-ticari əlaqələr də bu dövriyyənin artmasında başlıca rol oynayır.[62]

Hazırda Azərbaycanın ən böyük ticarət partnyorları arasında Avropanın və dünyanın önəmli ölkələrindən biri olan İtaliya da mövcuddur. Ümumiyyətlə son illərdə Azərbaycanla Avropa Birliyi ölkələri arasında xarici ticarət dövriyyəsinin həcmi 2 dəfəyə kimi artıb. Avropa Birliyi ilə Azərbaycan arasında ticarət dövriyyəsi 2006-cı illə müqayisədə 4,7 milyard avro və ya 63% artıb.

Xarici iqtisadi əlaqələr qeyri-neft sektorunun inkişafını stimullaşdıra bilər. Azərbaycanın dünya iqtisadiyyatına daha müvəffəqiyyətli və sabit inteqrasiyası və dünyada bir brend kimi tanınması üçün onun xarici ticarət dövriyyəsinin həcminin artması ilə yanaşı, həm də rəqabətədavamlı məhsulların istehsalının genişlənməsi ilə xarici ticarət dövriyyəsinin strukturunun diversifikasiya olunması diqqəti çəkən məqamlardandır. Xarici ticarətin diversifikasiya olunması ölkənin bir iqtisadi inkişaf mərhələsindən digərinə keçməsi, yəni xammal ixrac edən ölkədən sənayeləşmiş ölkəyə çevrilməsi üçün də vacibdir. Bu baxımdan, artıq qeyri-neft sektorunun inkişafı və tədricən iqtisadiyyatın bütün sferalarında neft sektorunu əvəz etməsi prosesinin başlanması mütərəqqi haldır. Qeyri-neft sektorunun tərkibində, xüsusilə kənd

[62] С.Агаев, Ш.Алиев, «Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией» (монография), Баку, 2004

təsərrüfatının payının artırılması vacibdir. Bunun üçün isə kənd təsərrüfatı sahəsində yeni texnologiyaların tətbiqi ilə əmək məhsuldarlığının artırılması lazımdır. Digər tərəfdən, bu sahədə yaxşı təcrübəyə malik olan ölkələrlə sıx əməkdaşlıq etmək, həmçinin bu ölkələrdə mövcud olan modellərdən Azərbaycan reallığına daha yaxın olanını seçib onu ölkədə tətbiq etmək olduqca vacibdir. Çünki kənd təsərrüfatı məhsulları arasında elə məhsullar var ki, Azərbaycan bu məhsullar üzrə həm də, dünya bazarında müqayisəli üstünlüyə malikdir. Bu isə o deməkdir ki, bu məhsullar rəqabətədavamlıdır, sadəcə yeni texnologiyaların tətbiqi ilə onların istehsalını artırmaq lazımdır.

Azərbaycanda xidmət sektorunun da liberallaşdırılması və bu sektora xarici sərmayənin cəlbi ilə yeni texnologiyların gətirilməsi və məhsuldarlığın artırılması prosesi müşahidə edilir. Bu, bank və maliyyə sektorlarında yeni məhsulların tətbiqi həm bu sektorların özünün maliyyə vəziyyətinin yaxşılaşmasına, həm də onların təqdim etdiyi məhsullar vasitəsilə kiçik və orta sahibkarlığın maliyyə mənbələrinin genişlənməsini şərtləndirir.

Azərbaycanın Avropa Birliyi ölkələri ilə ticarət əlaqələrinin genişləndirilməsi ölkəmizin xarici iqtisadi münasibətlərini daha dayanıqlı edir. Buna görə də, Qərb ölkələri ilə xarici iqtisadi əlaqələrin genişləndirilməsi yalnız dövlət gəlirlərinin artması deyil, həmçinin iqtisadi və siyasi müstəqilliyimizin gücləndirilməsi və regionda ölkəmizin rolunun artması baxımdan əhəmiyyətlidir.[63]

Azərbaycan dünyanın iqtisadi cəhətdən fövqəldövləti olan ABŞ-la sıx iqtisadi əlaqələr yaratdı. Amerika Prezidentinin təhlükəsizlik məsələləri üzrə sabiq müşaviri, məşhur politoloq Zbiqnev Bjezinski özünün "Böyük şahmat lövhəsi. Amerika ağalığı və onun geostrateji imperativləri" kitabında yazır ki, XX yüzilliyin sonunda Birləşmiş Ştatlar planetin hərbi-strateji, iqtisadi, texnoloji, informasiya və mədəni həyatında birinci və mütləq dünya hakiminə çevrilmişdir. Onun gücü özünün nəhəng iqtisadi və texnoloji resurslarını hərbi məqsədlər üçün operativ səfərbər etməkdə, amerikan həyat tərzinin və mədəniyyətinin cəlbediciliyindədir.

[63] Vüqar Bayramov, “Azərbaycanın xarici iqtisadi əlaqələri: qeyri-neft sektorunun inkişaf potensialı fonunda”, Bakı, 2012 / http://www.anl.az/down/meqale/xalqqazeti/2012/iyun/X42.htm

Z. Bjezinski ABŞ-ın müasir dövrdəki hegemon rolunu və dünya ağalığını Roma, Çin və Monqol imperiyası ilə müqayisə edir və belə bir nəticəyə gəlir ki, keçmişdə mövcud olan bu imperiyalardan ABŞ-ın əsas fərqi mədəni üstünlüyündədir. Onun fikrinə görə, çinlilərin, monqolların, avropalıların yaratdığı imperiyalar güclü olsa da, səfərbəredici, cəlbedici deyildi və lazımi məqamlarda çeviklik, operativlik nümayiş etdirə bilmirdilər.[64]

Professor Ə. Həsənov yazır: "Əlbəttə, Amerikanın hegemonluğu, fövqəldövlət kimi dünyada gedən proseslərdə oynadığı rolu, XXI əsrin başlanğıcında Qərbi Avropa və Yaponiya kimi güclü dövlətlərlə iqtisadi yarışı udmasını, dünyada rəqabətə davamlı iqtisadi, siyasi, sosial, mədəni və texnoloji, ən təkmil informatika, telekommunikasiya, bank-maliyyə və mikrobiologiya sistemi yaratmasını inkar etmək çətindir. Amerikanın demokratik idarəçilik sistemi, vətəndaş cəmiyyəti və insan hüquqlarının aliliyi, hüquqi dövlət, hakimiyyət bölgüsü, federal quruluşu və ikipartiyalı sabit siyasi institutları da dünyanın böyük hissəsinə, çoxsaylı dövlət və xalqlara nümunə ola bilər".[65]

Dünyanın sözügedən fövqəldövləti ilə Azərbaycan arasındakı münasibətləri şərtləndirən əsas amillər, bir yandan, ABŞ-ın ölkəmizin beynəlxalq təhlükəsizliyinə və müstəqilliyinə təminat vermək, onun ayaq üstə dayanmasına ilkin iqtisadi və siyasi dəstək göstərmək, sivil dövlətlərarası münasibətlər sisteminə inteqrasiya olunmasına yardım etmək imkanı ilə əlaqəlidirsə, digər yandan, Azərbaycanın ABŞ-ın milli mənafeləri baxımından əlverişli geosiyasi ərazidə yerləşməsi, zəngin təbii ehtiyatlara, xüsusən, neft yataqlarına malik olması və beynəlxalq prinsiplərə uyğun, sivil və müstəqil siyasət yeritməsi ilə bağlıdır.

Azərbaycan-ABŞ iqtisadi əlaqələrinin tarixi XIX əsrə gedib çıxır. Hələ XIX əsrin 70-80-ci illərində Bakı neft sənayesinin yaranması və formalaşması dövründə ABŞ-ın iri şirkətləri Azərbaycan neftinə maraq göstəriblər. Bu illərdə Rusiya bazarında neft məhsullarının satışı məşhur Amerika iş adamı Rokfellerin "Standart oyl" kompaniyasının tam nəzarəti altında idi. Tədricən Nobelin təzyiqi ilə Rusiya

---

[64] Збигнев Бжезинский, «Великая шахматная доска - господство Америки и его геостратегические императивы», перевод: О. Ю. Уральской, Москва, 1998

[65] Натиг Алиев, «Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке», Монография, 2010

bazarından sıxışdırılıb çıxarılan Rokfeller bir qədər sonra öz nümayəndəsini Bakıya göndərərək, o zaman burada möhkəm mövqe qazanmış İngiltərə və digər Avropa dövlətlərinin şirkətləri ilə danışıqlar aparmış və müəyyən işlər görmüşdür. Lakin Avropa dövlətləri ilə ABŞ arasında mövcud olan ziddiyyət və həmin vaxt üçün Amerikanın nisbətən zəifliyi onun Bakıda daimi möhkəmlənməsinə imkan verməmişdir. Sonrakı illərdə də İngiltərənin Azərbaycandakı güclü mövqeyi və ingilis-amerikan ziddiyyətləri ABŞ-ın Azərbaycana fəal müdaxiləsinə və onunla normal iqtisadi münasibətlər yaratmasına mane olmuşdur.

1991-ci il oktyabrın 18-də Azərbaycanda müstəqillik haqqında Konstitusiya aktı qəbul ediləndən sonra onun müstəqilliyini ilk tanıyan dünya dövlətlərindən biri də ABŞ oldu. Ulu Öndər Heydər Əliyevin ABŞ-a səfərləri ABŞ-ın imkanlı maliyyə-kredit qurumlarının Azərbaycana meyil göstərən neft şirkət və birliklərinə qoşulmasına da ciddi təkan verdi. Bir qayda olaraq, bu ölkənin maliyyə-kredit idarələri ABŞ-ın tam siyasi və beynəlxalq himayəsi altında olmayan, Amerikada dəstəklənməyən və onun strateji tərəfdaşı hesab olunmayan ölkələrə sərmayə qoymağa xüsusi səy göstərmirlər. Lakin səfərin nəticəsi olaraq, bu yönümdə vəziyyətdə ciddi dəyişiklik baş verdi və nəinki ABŞ-ın güclü maliyyə-kredit strukturlarının Azərbaycanda fəaliyyət göstərmək istəyən neft kompaniyalarına qoşulması meyili müşahidə olundu, habelə, bu sahədə işlərin gücləndirilməsi qərarlaşdırıldı.

2001-ci ildən - yeni əsrin başlanğıcından Azərbaycan-ABŞ münasibətləri strateji partnyorluq istiqamətində yüksələn xətlə inkişaf etmişdir. Ümumiyyətlə, 1998-2012-ci illərdə iki ölkə arasındakı əlaqələr bütün sahələr üzrə - siyasi, iqtisadi, regional əməkdaşlıq, beynəlxalq təhlükəsizlik və hərbi məsələlər üzrə genişləndirilmiş və daha da inkişaf etdirilmişdir.

İki ölkə arasındakı iqtisadi əlaqələr, ABŞ-ın Xəzər bölgəsi və Cənubi Qafqazda Azərbaycanın həyata keçirdiyi transmilli layihələrdə iştirakı intensiv xarakter daşımışdır. Bu istiqamətdə Amerikanın bir tərəfdən öz şirkətləri vasitəsilə Xəzər dənizinin karbohidrogen ehtiyatlarının mənimsənilməsi və istehsalı, digər tərəfdən bu ehtiyatların dünya bazarına sərbəst çıxışını təmin etmək məqsədilə Bakı-Tbilisi-

Ceyhan əsas neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərlərinin çəkilməsindəki xüsusi rolunu qeyd etmək lazımdır. Bundan başqa, ABŞ Şərq-Qərb nəqliyyat-kommunikasiya dəhlizininin (TRASEKA layihəsi) reallaşmasında, Azərbaycanda struktur islahatlarının və iqtisadi liberallaşmanın həyata keçirilməsində də Avropa Birliyi ilə çiyin-çiyinə çalışmışdır.

İki ölkə arasındakı ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq, transmilli layihələrin reallaşmasındakı birgə fəaliyyətin müxtəlif aspektlərini müzakirə etmək məqsədilə çoxsaylı rəsmi görüşlər keçirilmişdir. Bunlardan 1999-cu il avqustun 18-də ABŞ-ın energetika naziri V. Riçardsonun Azərbaycana səfəri və dövlət rəsmilərilə keçirdiyi görüşlər, 2002-ci il yanvarın 29-da dövlət katibinin Avrasiya məsələləri üzrə köməkçisi E. Consun Bakıya səfəri və Prezident Heydər Əliyevlə apardığı danışıqlar, 2002-ci il sentyabrın 17-də ABŞ-ın yeni energetika naziri S. Abrahamın Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimində iştirakı və Prezident Heydər Əliyevlə keçirdiyi görüş, 2003-cü il fevralın 23-də ABŞ prezidenti Corc Buşun dəvəti ilə bu ölkəyə səfər etmiş Azərbaycan Prezidenti Heydər Əliyev iki ölkə arasında iqtisadi əlaqələri inkişaf etdirdi. Ölkə Prezidenti İlham Əliyev bu siyasəti uğurla davam etdirir.[66]

Azərbaycanın daha bir önəmli iqtisadi tərəfdaşı Türkiyə dövlətidir. Türkiyə 1991-ci il noyabrın 9-da Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olub. Bu ölkənin Azərbaycan Respublikası ilə diplomatik münasibətləri isə 1992-ci il yanvarın 14-də qurulub. Elə həmin il iki ölkənin ticarət, turizm, iqtisadiyyat, nəqliyyat, elm, media, hüquq, statistika, sənaye, mütəxəssis hazırlanması, investisiya qoyuluşu sahələrində əməkdaşlığının əsası qoyulub. 1992-ci ildə Azərbaycanla Türkiyə arasında bu sahələrdə əməkdaşlığı əhatələyən 13 mühüm saziş imzalanıb.

1992-ci il noyabrın 2-də qəbul olunan iki önəmli sənədlə - ticari-iqtisadi sahədə əməkdaşlıq, investisiyaların təşviqi və qorunması haqqında sazişlərlə Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlərin hüquqi bazası yaradılıb. O zamandan Türkiyə iş adamları Azərbaycana yatırımlar qoymağa başlayıblar. 1994-cü ildə ikiqat

---

[66] Vahid Ömərov, «Azərbaycan-ABŞ iqtisadi əlaqələri", Səs Qəzeti, Bakı, 2012 / http://sia.az/az/news/interesting/330963-azerbaycan-abs-iqtisadi-elaqeleri

verginin aradan qaldırılması haqqında sazişin imzalanmasından sonra isə bu yatırımların həcmi artmağa başlayıb.

İki ölkənin ticarət dövriyyəsinin həcmi ilə bağlı fərqli rəqəmlər səslənir. 2008-ci ilin oktyabrında Bakıda səfərdə olan Türkiyənin dövlət naziri Gürşad Tüzmən ilin sonuna qədər ticarət dövriyyəsinin həcminin 2,5 milyard dollara çatacağına ümid etdiyini söyləmişdi. Xarici İşlər Nazirliyinin Dövlət Statistika Komitəsinə istinadla hazırladığı hesabata görə, 2008-ci ilin yanvar-mart ayları arasında iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2,19 milyard dollar olub. Dövlət Statistika Komitəsinin malların idxal və ixracına dair 2008-ci ilin yekunu üçün hazırladığı hesabata əsasən, Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsi 1 milyard 433 milyon dollar olub. Bunun 807 milyon dolları Türkiyədən idxalın, 626 milyon dolları isə bu ölkəyə ixracın payına düşür. Həmin rəqəmlərə görə, 2008-ci ildə Türkiyənin Azərbaycan idxalında payı 11,2 % olub. Azərbaycan Türkiyədən 2350 adda məhsul idxal edib, Türkiyəyə isə 138 adda məhsul ixrac edilmişdir.

Türkiyədən Azərbaycana idxalda ərzaq və kənd təsərrüfatı məhsulları, elektrik cihazları, neft-kimya məhsulları, müxtəlif maşınlar və avadanlıq, inşaat-tikinti materialları, təbii ipək və ipək məhsulları, tekstil və trikotaj məhsulları, müxtəlif avtomobil hissələri, məişət avadanlıqları, metallurgiya məmulatları və mebel üstünlük təşkil edir. Azərbaycandan Türkiyəyə ixracda isə neft və neft məhsulları əsas yeri tutur. Çox kiçik həcmdə pambıq mahlıcı, polietilen, şəkər çuğunduru da ixrac olunur.

Türkiyə ilə Azərbaycan bir sıra neft-qaz müqavilələrində birgə iştirak edir. Azərbaycanın neft-qaz sektoru ilə bağlı 5 müqavilədə Türkiyənin payı var:

- Bakı-Tbilisi-Ceyhan layihəsində - 6,15 %;
- Azəri-Çıraq-Günəşli layihəsində - 6,75 %;
- Şahdəniz layihəsində - 9 %;
- Kürdaşı layihəsində - 5 %;
- Araz Alov-Şərq layihəsində - 10 %.

Azərbaycan hökumətinin parlamentə təqdim etdiyi hesabata görə, 2008-ci ildə Türkiyə şirkətlərinin Azərbaycana qoyduğu investisiyaların həcmi 517 milyon dollar olub. Azərbaycanın qeyri-neft sektoruna ən çox yatırım qoyan ölkə Türkiyədir.

Türkiyə şirkətləri sənaye, istehsal, telekommunikasiya, inşaat, mətbuat, qida, tekstil, təhsil, səhiyyə, bank və sığorta, nəqliyyat, avtomobil, neft sahələrində fəaliyyət göstərirlər. Bu şirkətlər kənd təsərrüfatı və heyvandarlıq sahəsinə 80 milyon, xidmət sektoru (təhsil, hotellər, restoranlar, banklar, sığorta xidmətləri) 295 milyon, sənaye və istehsal sahəsinə 410 milyon, səhiyyə sahəsinə 13 milyon, nəqliyyat-rabitə, telekommunikasiya, mətbuat, avtomobil və daşıma xidmətləri sahəsinə 100 milyon, ticarət, qida, mebel sahəsinə 370 milyon, inşaat sektoruna 360 milyon dollardan artıq sərmayə qoyublar.

Azərbaycanda fəaliyyət göstərən Türkiyə şirkətlərinin dəqiq sayı məlum deyil. Öncəki illərdə bu barədə müxtəlif rəqəmlər səslənib, amma son iki ilə aid heç bir statistik rəqəm tapmaq mümkün deyil.

TÜSİAB-ın özünün 283 üzvü var. Bu şirkətlərin 250-dən çoxu 100 faiz Türkiyə sərmayəsi ilə çalışır. Amma onların toplam yatırımının həcminin nə qədər olduğu məlum deyil. Türkiyə-Azərbaycan iqtisadi əlaqələrində rol oynayan təşkilatlardan biri olan Azərbaycan Türkiyə İş Adamları Birliyinin 91 üzvü var. Bu şirkətlərdən yalnız 43-ü 100% Türkiyə sərmayəsi ilə çalışır.

Bir sıra Türkiyə şirkətləri həm ATİB-də, həm də TÜSİAB-da təmsil olunur. Eyni zamanda bu iki qurumun heç birində təmsil olunmayan türk şirkətləri də var.[67]

Son illərdə Azərbaycanın iqtisadi qüdrətinin artması, həyata keçirilən diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması təbii ki, ölkənin xarici ticarətində də müsbət meyillərə təkan vermişdir. Belə ki, xarici ticarətin coğrafiyası genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Təkcə 2013-cü ildə 149 ölkə ilə xarici ticarət əməliyyatları aparılmış, xarici ticarət dövriyyəsi 3,4% artaraq 34,7 milyard dollar təşkil etmiş, qeyri-neft ixracı 6% artmışdır.

[67] «Azərbaycan-Türkiyə: bir millətin iki dövlətini bağlayan iqtisadi tellər", elmi məqalə, Media Forum / http://www.azerbaycanli.org/az/page434.html

Ötən il Azərbaycanın ticarət dövriyyəsinin 44%-i Avropa İttifaqı, 20%-i İslam Əməkdaşlıq Təşkilatı, 12%-i MDB, 7%-i Türkdilli Dövlətlərin Əməkdaşlıq Təşkilatı ölkələrinin payına düşmüşdür.

Son 10 ildə ölkəmizin xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, o cümlədən qeyri-neft ixracı 4,7 dəfə, idxal isə 4,1 dəfə artmışdır.

Həyata keçirilən xarici iqtisadi siyasətin ən mühüm istiqamətlərindən biri xarici investisiyaların, qabaqcıl texnologiyaların, idarəetmə təcrübəsinin cəlb olunmasıdır. Ölkədə bərqərar olmuş siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirmişdir. Bu günədək Azərbaycan Respublikası hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 46 saziş imzalanmışdır.

Təkcə ötən il ölkə iqtisadiyyatına 10,5 milyard dollar məbləğində xarici investisiya qoyulmuşdur. Əhəmiyyətlidir ki, bu investisiyaların yarıdan çoxu qeyri-neft sektoruna yönəlmişdir. Ümumilikdə, 1995-ci ildən etibarən 2013-cü ilin sonunadək Azərbaycan iqtisadiyyatına 83,8 milyard dollar xarici investisiya qoyulmuş və bu vəsaitdən 35 milyard dollar qeyri-neft sektorunun payına düşmüşdür.

Qeyri-neft sektoruna birbaşa xarici sərmayələr üzrə ən böyük investorlar 26 faizlik payla Türkiyə, 16 faizlik payla Böyük Britaniya və 12 faizlik payla ABŞ olmuşdur. Azərbaycanda əsas kapitala xarici investisiya qismində isə Böyük Bitaniyadan 18 milyard, ABŞ-dan 7 milyard, Yaponiyadan 4 milyard dollar vəsait yatırılmışdır.

Hazırda ölkədə 6857 xarici investisiyalı müəssisə fəaliyyət göstərir. Bu şirkətlərin 36%-i, yəni 2464-ü Türkiyə, 8,3%-i, yəni 570-i Rusiya, 7,8%-i, yəni 541-i Böyük Britaniya mənşəli investisiyalar hesabına yaradılmışdır.

Xarici şirkətlər eyni zamanda, Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində fəal iştirak edirlər. Məsələn, Türkiyənin şirkətləri müqavilə dəyəri 10,4 mlrd ABŞ dolları təşkil edən 153 layihəyə, Çexiyanın şirkətləri müqavilə dəyəri 2 milyard dollar

olan 6 layihəyə, Fransa şirkətləri müqavilə dəyəri 1,8 milyard dollar olan 22 layihəyə cəlb olunmuşdur.

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirmiş, Türkiyə, Gürcüstan, Rusiya, Monteneqro, Serbiya, İsveçrə və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılmışdır. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı xeyli artmış, bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında özəl şirkətlərimiz aktiv fəaliyyət göstərməyə başlamışdır.

Ölkəmizin beynəlxalq arenada formalaşmış müsbət imicinin digər göstəricisi də son dövrlər xarici ölkələrin özəlləşdirmə və investisiya layihələrində Azərbaycanın iştirakına dair dəvətlərin, eləcə də xarici dövlətlər tərəfindən ölkəmizə bu məqsədlə həyata keçirilən səfərlərin sayının artmasıdır. B məqsədlə müntəzəm olaraq xarici ölkələrə səfərlər edilir, milli sərgilər, biznes forumlar, görüşlər təşkil olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) xarici ölkələrdə Azərbaycanın investisiya mühitinin tanıdılması, xaricə ixracın təşviqi ilə əlaqədar bir sıra tədbirlər həyata keçirməkdədir. Təkcə 2014-cü ildə beynəlxalq tərəfdaşların iştirakı ilə 119-u ölkəmizdə, 77-si isə xaricdə olmaqla ümumilikdə 196 biznes forum, sərgi, konfrans və digər işgüzar tədbirlər təşkil edilmişdir.

Bu tədbirlər sırasında 2014-cü ilin 23-24 iyun tarixlərində Qəbələdə keçirilmiş V Azərbaycan-Rusiya Regionlararası Forumu xüsusi vurğulanmalıdır. Rusiya Federasiyasının regional inkişaf nazirinin rəhbərliyi ilə 300 nəfərlik nümayəndə heyətinin, habelə Azərbaycanın rəsmi şəxslərinin və biznes dairələrinin iştirak etdiyi tədbirə ümumilikdə 700-ə yaxın şəxs qatılmış, müxtəlif mövzuları əhatə edən 8 "dəyirmi masa" keçirilmiş, 11 sənəd imzalanmışdır.

İkitərəfli tədbirlərlə yanaşı, Türkiyə və Gürcüstanla birgə üçtərəfli, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qara Dəniz İqtisadi Əməkdaşlıq Bankına üzv ölkələrin dövlət nümayəndələrinin və işgüzar dairələrinin iştirakı ilə çoxtərəfli biznes forumları da keçirilmişdir.

AZPROMO-nun Gürcüstanda nümayəndəliyi, ABŞ, Almaniya, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya və Rumıniyada təmsilçiləri fəaliyyət göstərir. AZPROMO indiyədək 36 ölkədən 67 xarici tərəfdaşla əməkdaşlıq haqqında anlaşma memorandumu imzalamışdır.

Azərbaycan beynəlxalq təşkilatlar, o cümlədən BMT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və digərləri ilə sıx əməkdaşlıq edir. Dövlət başçısı tərəfindən müəyyən olunmuş Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri Avropa İttifaqı ilə səmərəli və davamlı əməkdaşlığın inkişaf etdirilməsidir.

Avropa İttifaqı ölkələri Azərbaycanın əsas xarici ticarət tərəfdaşıdır. Ötən il ticarət dövriyyəmizin 44%-i, yəni 15,3 milyard dolları bu ölkələrin payına düşmüşdür. Son 10 ildə Azərbaycanda əsas kapitala yönəlmiş xarici investisiyaların yarıdan çoxu, qeyri-neft sektoruna birbaşa xarici investisiyaların isə 35,3 %-i bu təşkilatın üzv dövlətlərinin payına düşmüşdür.

Prezidentin sərəncamı ilə Avropa İttifaqı ilə əlaqələrin daha da gücləndirilməsi, səmərəli və əlaqələndirilmiş işin təmin edilməsi məqsədilə 37 üzvdən ibarət Avropaya İnteqrasiya üzrə Dövlət Komissiyası yaradılmışdır. Komissiyanın nəzdində müxtəlif sahələr üzrə 6 işçi qrupu təşkil edilmiş, Azərbaycan qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması üzrə tədbirlər planı hazırlanmışdır. Son bir ildə Avropa İttifaqı ilə əlaqələrimiz daha da inkişaf etmiş, 4 yeni əməkdaşlıq sənədi imzalanmışdır.

Bu sənədlər sırasında vətəndaşların qarşılıqlı səfərlərinə geniş imkanlar yaradacaq Viza Sadələşdirilməsi Sazişini xüsusi qeyd etmək istərdim. Hazırda Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Müasirləşmə üzrə Strateji Tərəfdaşlıq Sənədi müzakirə edilir, ölkədə Tvinninq, Tayeks, Siqma büdcəyə dəstək layihələri həyata keçirilir.

Azərbaycanın fəal əməkdaşlıq etdiyi təşkilatlardan biri də Müstəqil Dövlətlər Birliyidir. MDB ölkələri qeyri-neft ixracı üzrə əsas tərəfdaşımızdır. Ölkəmizin qeyri-neft ixracının 42 %-i bu dövlətlərin payına düşür. Ermənistan istisna olmaqla, MDB-nin bütün üzv dövlətləri ilə sərbəst ticarət sazişləri imzalanmışdır.

Hazırda müvafiq infrastrukturun yaradılması, logistik mərkəzlərin təşkil edilməsi vasitəsilə bu bazarlara ixracın genişləndirilməsi, MDB-nin 2020-ci ilədək İqtisadi İnkişaf Strategiyasının həyata keçirilməsi, habelə Ümumrusiya Sərgi Mərkəzində Azərbaycanın daimi sərgisinin yaradılması istiqamətində zəruri işlər görülür.

Çoxtərəfli beynəlxalq əlaqələr formatında Azərbaycan üçün əhəmiyyətli qurumlardan biri də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasıdır. Azərbaycan Respublikası Prezidentinin 2014-cü ilin iyun ayında Bodrum Zirvə Toplantısında qeyd etdiyi kimi: "Türkdilli dövlətlərin birliyinin təməlində əlbəttə ki, ortaq köklər, ortaq mədəniyyət, tarix dayanır və bu gün biz bu möhkəm təməl üzərində gözəl əməkdaşlıq yaradırıq". Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlərinin investisiyaları hesabına Azərbaycanda 2600-dək müəssisə yaradılmışdır. Bu, ölkədə fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin 37%-ə bərabərdir. Eyni zamanda, bu dövlətlər Azərbaycanın qeyri-neft sektorunda ikinci böyük xarici investordur. Təşkilat çərçivəsində hazırda bir sıra əməkdaşlıq sənədləri üzrə və Bodrum Zirvə Toplantısında Azərbaycan Respublikası Prezidenti tərəfindən irəli sürülmüş təklifə müvafiq olaraq Birgə İnvestisiya Fondunun yaradılması istiqamətində müzakirələr aparılır.

Eyni zamanda, ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvolma prosesi çərçivəsində ikitərəfli və çoxtərəfli danışıqlar da davam etməkdədir. Danışıqlar prosesində bizim əsas məqsədimiz daxili bazarın qorunması, milli istehsalçıların və istehlakçıların mənafelərinin maksimum səviyyədə təmin edilməsi ilə uzunmüddətli perspektivdə təşkilata üzv olmaqdır.

Bununla yanaşı, Yaxın Şərq, Asiya, Amerika ölkələri ilə də əməkdaşlığımız genişlənir və bu regionlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Beynəlxalq maliyyə institutları ilə də fəal əməkdaşlıq aparılır. Hazırda 14 beynəlxalq maliyyə institutu ilə nəqliyyat, su təchizatı və kanalizasiya, enerji, kənd təsərrüfatı, maliyyə, ekologiya və digər sahələrdə ümumi dəyəri 7,2 milyard dollar olan 41 layihə icra olunur.

Ölkəmizin cari kredit portfelində Dünya Bankının payı 35%-ə, Asiya İnkişaf Bankının payı 16%-ə, Avropa Yenidənqurma və İnkişaf Bankının payı 10%-ə, İslam İnkişaf Bankının payı isə 6%-ə bərabərdir.

Ötən il Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatının Ticarət və İnkişaf Bankına üzvolma proseduru yekunlaşmış, Avropa İnvestisiya Bankı ilə Çərçivə Sazişi imzalanmışdır.

Beynəlxalq donor təşkilatları ilə də fəal əməkdaşlıq davam edir. Hazırda 20 beynəlxalq donor təşkilatı ilə birlikdə idarəetmə, ədliyyə, kənd təsərrüfatı, regional inkişaf, nəqliyyat, su təchizatı və digər sahələrdə təqribən 200 mln dollar dəyərində 70 layihə icra olunur.

Ölkəmizin dinamik sosial-iqtisadi inkişafı Azərbaycanın dünya birliyinə inteqrasiyasının gücləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaradır. Xarici iqtisadi əlaqələrinin genişləndirilməsi istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Bu işlərin tərkib hissəsi olaraq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin iqtisadi aspektlərinin kifayət qədər qabardılması, Ermənistanın qonşu ölkələrə olan torpaq iddialarının regionun iqtisadi potensialının tam reallaşdırılmasına yaratdığı maneələr və məhdudiyyətlərin dünya ictimaiyyətinə daha geniş çatdırılması, təcavüzkar Ermənistanın regional layihələrdən təcrid olunması, iqtisadi tənəzzülün daha da dərinləşməsi üçün məqsədyönlü tədbirlər davam etdiriləcəkdir.

Ölkəmizin iqtisadi uğurlarının xaricdə geniş təbliğ edilməsi Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindəndir. Bu məqsədlə sosial-iqtisadi inkişaf sahəsində qazanılan uğurlar, yaradılmış əlverişli biznes investisiya mühiti, investisiya imkanları daha geniş təblığ olunacaqdır. Bununla yanaşı, Azərbaycanın tranzit və turizm imkanlarının geniş təşviq edilməsi istiqamətində işlər aparılır.

TAP, TANAP, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri, Şimal-Cənub, Şərq-Qərb magistral avtomobil yolları, yeni hava limanları, geniş turizm infrastrukturu ilə bağlı təbliğatın aparılması Azərbaycanın artan tranzit və turizm imkanlarından xarici tərəfdaşların faydalanması işinə öz müsbət töhfəsini verəcəkdir.

Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafı daim diqqətdə olan məsələlərdəndir. Belə ki, yerli məhsulların xaricə, o cümlədən qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər görülür. Dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması üzrə işlər görülür. Artıq Qazaxıstanın Aktau şəhərində logistik mərkəzin tikintisinə başlanmışdır.[68]

Bununla yanaşı, qarşılıqlı investisiya fəaliyyətinin təşviq edilməsi istiqamətində işlər daha da gücləndiriləcəkdir. Bu, ilk növbədə, investorlar üçün mühüm əhəmiyyət kəsb edən investisiyaların qarşılıqlı qorunmasını, təşviqini, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan hüquq-müqavilə bazasının yaradılması işlərini əhatə edəcək.

Paralel olaraq, Azərbaycanda prioritet istiqamətlərə, xüsusilə sənaye parklarına, kənd təsərrüfatına, İKT, turizm və digər sahələrə xarici investisiyaların cəlb olunması təşviq ediləcək, müvafiq sahələr üzrə yeni texnologiyaların və rəqabətqabiliyyətli idarəetmə sistemlərinin tətbiqi istiqamətində işlər davam etdiriləcəkdir.

Azərbaycanın xaricdəki dövlət və özəl investisiyalarının müdafiəsi daha da gücləndiriləcək, iqtisadi maraqlarımıza cavab verən layihələrdə şirkətlərimizin iştirakının təmin edilməsi üçün tərəfdaş ölkələrlə bu sahədə əməkdaşlıq daha da genişləndiriləcəkdir.

İqtisadi əlaqələrimizin genişlənməsində xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı iş adamlarının bir araya toplanılması, fəaliyyətinin əlaqələndirilməsi və onların dəstəklənməsi məqsədilə müvafiq ölkələrdə azərbaycanlı iş adamlarının birliklərinin yaradılması da önəmli məsələlərdəndir. Artıq bir sıra ölkələrdə belə birliklər fəaliyyət göstərir və bu sahədə işlər davam etdirilir.

Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq

---

[68] Mehriban Vasif Babazade, "National interests in formation of contemporary Azerbaijani foreign-policy concept", scientific articles

təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici ölkələrlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsinə xidmət edəcək, ölkəmizin dünyada nüfuzunu daha da artıracaqdır.[69]

## 2.2. Azərbaycanın yerləşdiyi məkanda inteqrasiya proseslərinin müasir vəziyyəti və Azərbaycanın xarici iqtisadi siyasətinin formalaşmasına təsir göstərən faktorlar

Beynəlxalq iqtisadi inteqrasiya milli təsərrüfat mexanizmlərinin yaxınlaşmasına, qarşılıqlı uyğunlaşmasına və artımına səbəb olan, dövlətlərarası sazişlər formasını qəbul edən və razılaşdırılmış şəkildə dövlətlərarası orqanlar tərəfindən tənzimlənən obyektiv iqtisadi qarşılıqlı təsir prosesidir. İqtisadi inteqrasiyanın əsasında müstəqil fəaliyyət göstərən subyektlərin iqtisadi maraqları və beynəlxalq əmək bölgüsü durur.

Müasir beynəlxalq iqtisadiyyatda yaranmış və inkişaf edən çoxsaylı inteqrasiya birliklərinin qarşısında prinsipcə eyni vəzifələr dayanır. Bu vəzifələrdən isə inteqrasiya məqsədləri irəli gəlir:

- Masştab iqtisadiyyatının üstünlüklərindən istifadə;
- Əlverişli xarici siyasət mühitinin yaradılması;
- Ticarət siyasəti vəzifələrinin həlli;
- İqtisadiyyatın struktur dəyişikliklərinə dəstək;
- Milli sənayenin gənc sahələrinin dəstəklənməsi;
- Dünya bazarlarında mövqelərin gücləndirilməsi.

Bütün ölkələrdə inteqrasiyanın inkişafının nəticəsi kimi inteqrasiya birlikləri çərçivəsində beynəlxalq ticarətin artımı çıxış edir.

Azərbaycanın xarici iqtisadi strategiyasının əsas prioritet istiqamətlərindən biri də müasir dünya təsərrüfat proseslərinə aktiv şəkildə qoşulmaq, qlobal geoiqtisadi məkanda baş verən yeni meyllərə adekvat şəkildə reaksiya verməkdir. Azərbaycan

---

[69] Şahin Mustafayev, "Azərbaycanın xarici iqtisadi əlaqələri yeni mərhələdə", elmi məqalə / http://arxiv.az/az/azerbaijan-news.az/7778314/Azerbaycanin+xarici+iqtisadi+elaqeleri+yeni+merhelede

Respublikasının xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyəti beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olmaq və bununla da ictimai həyatın bütün sahələrində bu təşkilatlara inteqrasiya olunmaqdır. Müstəqillik bərpa edildikdən sonra (1991-ci ilin oktyabr ayının 18-də) Azərbaycanın ilk əməkdaşlıq münasibətləri əldə etdiyi beynəlxalq iqtisadi təşkilatlar aşağıdakılardır:

- İslam Konfransı Təşkilatı (İKT) – 8 dekabr 1991-ci il;
- İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) – fevral 1992-ci il;
- Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – 1992-ci il;
- Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) – 1993-cü il;
- Ümumdünya Ticarət Təşkilatı (ÜTT) müşahidəçi statusunda – 1993-cü il;
- Müstəqil Dövlətlər Birliyi (MDB) – 1993-cü il;
- Avropa Şurası (AŞ) – 25 yanvar 2001-ci il.

Azərbaycan dünyanın müsəlman respublikalarından biri olduğu üçün bir neçə beynəlxalq islam təşkilatlarına da üzv olmuşdur. Bunlardan ən nüfuzlusu və daha çox iştirakçı üzv ölkələrin sayına görə bütün islam dünyası ölkələrini (28 ölkə) özündə birləşdirən İslam Konfransı Təşkilatıdır (İKT). İslam Konfransı Təşkilatı müstəqillik əldə edildikdən sonra Azərbaycanın inteqrasiya olunduğu ilk regional səviyyəli təşkilatdır.

İslam İnkişaf Bankı və İslam Həmrəylik Fondu Azərbaycan Respublikasının millli iqtisadiyyatının üç müxtəlif sahələrinə investisiya vəsaitləri və kapital qoyuluşları yatırmışlar. Beləki, həmin xarici kapital və investisiya vəsaitləri kənd təsərrüfatının inkişafı üçün, əsasən də meliorasiya və su təsərrüfatı sahəsinə yönəldilmişdir.[70]

Azərbaycan demokratiya və iqtisadi inkişaf naminə təşkilat olan GUAM təşkilatının üzvü və yaradıcılarından biridir. Təşkilatın digər üzvləri Gürcüstan, Moldova və Ukraynadır. GUAM 1997-ci il oktyabrın 10-da yaranmışdır.

---

[70] "Azərbaycan - İslam Konfransı Təşkilatı münasibətləri", elmi məqalə / http://lib.aliyevheritage.org/az/6958380.html

Azərbaycan dövlətinin dünya iqtisadiyyatına inteqrasiyasında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) da xüsusi rolu vardır.

Azərbaycan dövləti Qara dəniz İqtisadi Əməkdaşlığının (QİƏ) təsisçilərindən biridir.

Azərbaycan 20 sentyabrından MDB-nə üzv olmuşdur.

Azərbaycan Respublikası 1992-ci ildən Beynəlxalq Valyuta Fondunun və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının üzvüdür. BVF-nun Bakı şəhərində nümayəndəliyi fəaliyyət göstərir.

Azərbaycan Respublikası XXI əsrin astanasında beynəlmiləlləşmə və inteqrasiya proseslərində öz inkişafını davam etdirməklə yadda qaldı və yeni əsrdə də bu inkişaf tempində naliyyətləri davam etdirir. Beləki, 2001-ci ilin yanvar ayının 27-sində Avropa Şurası Parlament Asambleyasına 43-cü dövlət kimi üzv qəbul olunmuşdur.[71]

90-cı illərin əvvəllərində əsasən siyasi xarakter daşıyan və keçmiş SSRİ ölkələri arasında dövlətlərarası münasibətlərin qurulması məqsədini daşıyan Müstəqil Dövlətlər Birliyi *(Commonwealth of Independent States)* hazırda daha çox üzv ölkələr arasında iqtisadi inteqrasiyanın konkret çərçivələrinin müəyyənləşdirilməsinə yönəlmişdir. Azərbaycan Respublikası bir sıra MDB ölkələri ilə azad ticarət rejimini yaratmış, sərbəst sərmayə üçün hüquqi baza tərtib olunmuşdur.[72]

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsindən verilən məlumata əsasən, 2013-cü ilin 12 ayı ərzində Azərbaycan Respublikasının MDB dövlətləri ilə ümumi ticarət dövriyyəsinin həcmi 2 840,01 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 1423,04 mln. ABŞ dolları, ixracın həcmi 1 416,97 mln. ABŞ dolları təşkil etmiş, xarici ticarət saldosu isə mənfi 6,07 mln. ABŞ dolları olmuşdur.

2013-cü ilin 12 ayı ərzində MDB dövlətlərinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 14,05%, o cümlədən idxalda 31,32%, ixracda isə 9,04% təşkil etmişdir.

MDB çərçivəsində bir sıra mühüm sənədlər tərtib olunmuşdur, o cümlədən:

---

[71] "Международные экономические отношения", статья / http://www.azerbaijans.com/content_730_ru.html
[72] "Beynəlxalq iqtisadi münasibətlər", elmi məqalə / http://azerbaijans.com/content_730_az.html

- MDB-nin 2020-ci ilə qədər dövr üçün iqtisadi inkişaf strategiyası;
- MDB-nin 2020-ci ilə qədər dövr üçün iqtisadi inkişaf strategiyasının birinci mərhələsinin (2009-2011-ci illər) həyata keçirilməsi üzrə Tədbirlər Planı;
- 2003-2010-cu illərdə iqtisadi sahədə MDB-yə üzv dövlətlər arasında əməkdaşlığın səmərəliliyinin artırılması və inkişafına yönəlmiş tədbirlərin İcra Planı;
- MDB-yə üzv dövlətlər arasında ticarət-iqtisadi əlaqələri, sosial-iqtisadi vəziyyəti əks etdirən, eyni zamanda inkişaf perspektivləri haqqında illik məcmuələr.[73]

Hal-hazırda, MDB çərçivəsində azad ticarət zonası haqqında saziş layihəsinin razılanmasına dair danışıqlar aparılmaqdadır.

Qeyd olunan sənədlərə uyğun olaraq, Azərbaycanda müxtəlif tədbirlər həyata keçirilir, zəruri məlumatlar tərtib olunur. 20 noyabr 2009-cu il tarixində "Müstəqil Dövlətlər Birliyində malın mənşə ölkəsinin müəyyən edilməsi qaydaları haqqında Saziş" imzalanmışdır.[74]

Azərbaycanın üzv olduğu inteqrasiya birliklərindən biri də Avropa Birliyidir *(European Union)*. Azərbaycan ilə Avropa İttifaqı arasında hərtərəfli münasibətlərin hüquqi əsasını 22 aprel 1996-cı ildə Lüksemburq şəhərində imzalanmış "Bir tərəfdən Avropa Birliyi və ona üzv olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" (TƏS) təşkil edir. TƏS Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və ticari sahələrini əhatə edir. TƏS Azərbaycan və Avropa İttifaqı arasında hərbi sahəni əhatə etməyən bütün növ əməkdaşlıq formalarının çərçivələrini müəyyən edir. Sazişin əsas məqsədlərindən biri də Azərbaycan qanunvericiliyinin Avropa hüquq sisteminə uyğunlaşdırılmasından ibarətdir.

TƏS-in 2009-cu ildə müddətinin bitməsini nəzərə alaraq 2010-cu ilin 16 iyul tarixində Avropa İttifaqı və Azərbaycan Respublikası arasında yeni Assosiasiya Sazişinin imzalanması üzrə danışıqlar başlamışdır. Bunun üçün 4 işçi qrup

---

[73] Мамед-заде Наргиз Сабир кызы, «Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и восточной Европы», Баку, 2006

[74] Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı: http://www.azstat.org; www.azstat.org

yaradılmış, bunlardan ikisində Xarici İşlər Naziriliyi, digər ikisində isə İqtisadi İnkişaf Nazirliyi əlaqələndirici kimi çıxış edir.[75]

1992-2006-cı illər arasında Avropa İttifaqının TACİS Proqramı, Fövqəladə Yardım Proqramı, ECHO Humanitar təşkilatı, FEOGA Ərzaq Yardımı Proqramı, Ərzaq Təhlükəsizliyi Proqramı, Bərpa Proqramı, Fövqəladə Humanitar Yardım Proqramı çərçivəsində Azərbaycanda müxtəlif layihələr həyata keçirilmişdir.

Azərbaycanın Avropa Qonşuluq Siyasəti ilə bağlı fəaliyyəti davam etdirilir. Belə ki, 2007-2010-cu illərdə Avropa Qonşuluq Proqramı (AQP) çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında Fəaliyyət Planı (2006-cı ildə imzalanmış) həyata keçirilməkdədir.

Avropa İttifaqı tərəfindən yeni "Şərq Tərəfdaşlığı" təşəbbüsü irəli sürülmüşdür. Bu təşəbbüsə əsasən, Avropa İttifaqı 2013-cü ilə kimi 6 ölkəyə (Azərbaycan, Belarus, Moldova, Ukrayna, Gürcüstan və Ermənistan) 600 milyon avro məbləğində yardım göstərmişdir.

"Şərq Tərəfdaşlığı" təşəbbüsü çərçivəsində 3 əsas məqsəd var:

- Hərtərəfli İnstitusional Quruculuq proqramları;
- Tərəfdaş ölkələr arasındakı iqtisadi qeyri-bərabərliyin və ölkələr daxilində sosial qeyri-bərabərliyin aradan qaldırılması üçün Pilot Regional İnkişaf Proqramları.

Hazırda Hərtərəfli İnstitusional Quruculuq proqramlarının həyata keçirilməsi mexanizmlərinin və ölkə üzrə əlaqələndiricinin müəyyən edilməsi üzrə işlər aparılır. Həmçinin, Azərbaycan dövlətlərarası (regional) proqramlarda iştirak edir – bunlar İNOQEYT və TRASEKA proqramlarıdır.

İNOQEYT - Avropa Komissiyası tərəfindən neft və qaz tədarükünün idarə edilməsinə yardım göstərən Aİ-nın texniki yardım proqramıdır. Proqramın məqsədi regional neft və qaz boru kəmərləri sistemlərinin, infrastrukturunun bərpa edilməsi, müasirləşdirilməsi üzrə səylərə dəstək göstərilməsindən ibarətdir.

---

[75] "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi", elmi məqalə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı / http://mfa.gov.az/?options=content&id=566

TRASEKA – "Yeni İpək Yolu" adlandırılan Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrini inkişaf etdirən proqramdır. TRASEKA-nın məqsədi hazırda mövcud olan yollara əlavə olaraq, Avropadan Qara dənizə və Qafqaz vasitəsi ilə Mərkəzi Asiyaya ən tez və ən ucuz ikitərəfli yolun yaradılmasından ibarətdir. 1998-ci ildə TRASEKA üzrə Əsas Çoxtərəfli Saziş imzalanmışdır. Azərbaycan bu layihədə Aİ-nın əsas tərəfdaşıdır. 2000-ci ildən etibarən TRASEKA Hökumətlərarası Komissiyanın Katibliyi Bakıda yerləşir.

Ümumilikdə isə Azərbaycanın ilə AB ticarət əlaqələrinin təxminən 90%-i AB liderlərinin (Böyük Britaniya, Almaniya, İtaliya və Fransa) və ya başqa sözlə "dördlüyün" payına düşür.[76]

Azərbaycan həmçinin GUAM (Demokratiya və İqtisadi İnkişaf üzrə Təşkilat – *Organization for Democracy and Economic Development*) üzvüdür. Təşkilatın əsas məqsədləri demokratik dəyərlərin tanınması, qanunun aliliyinin, insan hüquqlarının və davamlı inkişafın təmin olunması, ümumi təhlükəsizlik mühitinin yaradılması üçün Avropaya inteqrasiyanın dərinləşməsi, həmçinin iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi müasir Azərbaycan üçün aktualdır.

Bu gün GUAM çərçivəsində ən prioritet fəaliyyət istiqamətləri arasında "Ticarət və nəql etməyə yardım və azad ticarət zonasının fəaliyyəti haqqında" sənəd layihəsinin yerinə yetirilməsi hesab olunur. Bu sənədin icrasının nəticələri 2007-ci ilin 18-19 iyun tarixlərində Bakıda keçirilmiş GUAM-ın Zirvə Toplantısında müzakirə olunmuşdur.

2013-cü ilin 12 ayı ərzində GUAM dövlətlərinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 6,36%, o cümlədən idxalda 8,61%, ixracda isə 5,71% təşkil etmişdir.[77]

Azərbaycanın daxil olduğu regional iqtisadi təşkilatlardan biri də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatıdır *(Organization of the Black Sea Economic Cooperation).* Dünya əhalisinin 6%-i, ərazisinin 5,23%-i QİƏT-nın payına düşür.

[76] Elşən Məmmədov, "Azərbaycan və Avropa İttifaqı: sülh və rifah naminə əməkdaşlıq", elmi məqalə / http://azerinfo.eu/old/az/index.php?option=com_content&view=article&id=285:azrbaycan-v-avropa-ttifaq-suelh-v-rifah-namin-mkdalq&catid=1:latest-news

[77] Пузакова Е. П., "Международные экономические отношения", Ростов-на-Дону: ИЦ «МарТ», 2000

QİƏT-nın dünya təsərrüfatının inkişafında layiqli yer tuta bilməsi üçün çox böyük potensial imkanlar vardır:

1. Zəngin təbii resurslar – region öz-özünü mineral, kənd təsərrüfatı və enerji resurslarına olan ehtiyaclarını tamamilə ödəyə bilər;

2. Əlverişli coğrafi müvqe – region bir tərəfdən Avropa ilə, digər tərəfdən Qərbi, Cənub Şərqi Asiya arasında əlverişli müvqe tutmuşdur;

3. Yüksək demoqrafik potensial-yüksək savadlılıqla xaratkerizə olunan ucuz əmək resursları;

4. Qarşılıqlı investisiyalar və birgə müəssisələr vasitəsilə rəqabət qabiliyyətli məhsullar istehsal etməyə imkan verən güclü istehsal imkanları;

5. Çox güclü ixrac potensialı.

1997-ci ildə QİƏT üzvlərinin yığıncağında QİƏT ölkələrinin neft və qaz eztiytalarının dünya bazarına çıxarılması məqsədilə yeni boru kəmərlərinin tikintisi üçün regional konsorsiumların yaradılması qərara alınmışdır. Sonra QİƏT uzvlərinin nəqliyyat və kommunikasiya nazirlərinin görüşü zamanı bu sahədə on illik fəaliyyət proqramı qəbul edilmişdir. Proqram aşağıdakıları nəzərdə tutur:

a) Regionda başlıca tranzit nəqliyyat marşrutları üzrə müxtəlif qeyri-fiziki maneələrin aradan qaldırılması;

b) Qərb-Şərq yollarının infrastrukturunun inkişafı;

c) QİƏT regionunda informasiya mübadiləsinin inkişaf etdirilməsi.

Eyni zamanda təşkilat vasitəsilə QİƏT-na üzv olan ölkələrin biznesmenləri üçün icra rejiminin sadələşdirilməsi haqqında razılaşma imzalanmışdır. Qeyd edilən 2 razılaşma, təşkilata daxil olan ölkələrin öz mallarını xarici bazarlara nəql etmələri zamanı bir-birlərinin ərazisindən rüsumsuz olaraq transit istifadə etmələrinə, beləliklə də onların nəql xərclərini aşağı salmaqla dunya bazarında daha rəqabətqabiliyyətli olmalarına imkan verir.[78]

Azərbaycan Respublikası Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də iqtisadi inteqrasiya proseslərində iştirak edir. Azərbaycan

[78] Official website of “Organization of the Black Sea Economic Cooperation” / http://www.bsec-organization.org/Pages/homepage.aspx

Respublikası QİƏT-nın yaradılmasının ilk mərhələsindən başlayaraq təşkilatın fəaliyyətində, Bosfor Qətnaməsi və İstanbul Bəyannaməsinin hazırlanmasında iştirak etmişdir. Azərbaycan 1992-ci ildən təşkilatın üzvüdür. Bu günə kimi Azərbaycan Respublikası QİƏT çərçivəsində 11-dən çox müxtəlif rəsmi sənədlərin hazırlanmasında və qəbul olunmasında iştirak etmişdir. Azərbaycan Respublikası Təşkilatın bir sıra işçi qruplarında, o cümlədən regionda ticarətin liberallaşdırılmasını təmin edən sənədlərin hazırlanması məqsədilə toplanan qrupların iclaslarında fəal iştirak edir. 2005-2007-ci illər ərzində Azərbaycan Respublikası enerji üzrə işçi qrupun fəaliyyətini koordinasiya etmişdir.[79]

Azərbaycanın fəal iştirak etdiyi və onun beynəlxalq iqtisadi inteqrasiya əlaqələrində mühüm yer tutan regional inteqrasiya birliklərindən biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır *(Economic Cooperation Organization).* Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatı ilə münasibətləri 1991-ci ilin fevral ayında, hələ respublika SSRİ-nin tərkibində olarkən qurulmuşdur.

İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Azərbaycan arasında əlaqələrin təhlili əsasən ticarət sferasında aparılır. Çünki Azərbaycan bu beynəlxalq təşkilata cəmi 14 ildir ki, üzv olmuşdur və ölkəni əhatə edən sazişlər nisbətən təzə qəbul edildiyi ücün (preferensial tariflər və tranzit ticarət haqqında və s.) onların praktiki nəticələri barədə danışmaq hələ tezdir. Digər tərəfdən, Azərbaycanın iştirak etdiyi bəzi İƏT layihələri (elmi fond, gəmiçilik təşkilatı, sığorta təşkilatı, ticarət və investisiya bankı və s.) bağlanmış niyyət protokolları şəklindədir. Qeyd etdiyimiz kimi, respublikamızın xarici ticarət dövriyyəisndə İƏT yeddinci yerdədir. Təhlil göstərir ki, 2005-ci ildə 1999-cu ilə nisbətən Azərbaycanın İƏT ilə ticarət dövryyəsi 286726,9 mln. dollar artmış (409306,1 mln. dollardan 696036 mln. dollara çatmışdır), Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində İƏT ölkələrinin payı isə 28,5% artmışdır. Ümumilikdə İƏT ölkələri ilə ticarət dövriyyəsi 30% artmışdır. Bu da Azərbaycanın İƏT üzv ölkələri ilə əlaqələrinin genişlənməsinin gostəricisidir.

Azərbaycan ilə İƏT ölkələrinin iqtisadi əməkdaşlığının dərinləşməsinə təkan verəcək ən mühüm səbəblərdən biri onların çoxunun yüksəliş dövrundə olması,

---

[79] А. И.Евдокимова, "Международные экономические отношения", Москва: Проспект, 2004

arasıkəsilmədən orta və yüksək inkişaf templəri göstərmələridir. Həm də İƏT üzvlərinin makroiqtisadi gostəricilərinin xeyli hissəsinin yaxınlığı, İqtisadi durumlarının, problemlərinin oxşar olması muxtəlif sahələrdə (proteksionizm və ya təşkilat daxilində liberallaşma, antiinflyasiya, xarici ticarət, valyuta-kredit) uyğunlaşdırılmış iqtisadi siyasət yeridilməsini və çətinliklərin birgə aradan qaldırılmasını daha asanlıqla mümkün edir.

Respublikamızın bu ölkələrlə idxal-ixrac əməliyyatlarının strukturuna baxsaq görərik ki, Azərbaycanın İƏT ölkələrindən idxalında hazır məhsulların payı 26%-dən çox olduğu halda, Azərbaycanın bu ölkələrə ixracında hazır məhsulların payı 5,9% təşkil edir. Onlardan ümumiyyətlə ölkəyə idxal olunan məhsulların əsas hissəsini elektrik enerjisi, buğda unu, un məmulatları, şəkər, sement, soyuducu, rabitə aparatları, onlara ixrac olunan məhsulların əsas hissəsini isə neft və neft məhsuları, aluminium oksidi, plastik kütlələr, pambıq lifi təşkil edir. İƏT ölkələrindən idxalın 8,6%-i, ixracın 1,5%-i istehsal təyinatlı avadanlıq və maşınlardır.

Eyni zamanda, Azərbaycanın hazırda istehsal etdiyi məhsulların əksəriyyətinin keyfiyyəti və rəqabət qabiliyyəti, dünya bazarlarında təklif olunan analoji əmtəələrin keyfiyyəti, İƏT ölkələrinin bazarlarının tələbi, alıcılıq qabiliyyəti nəzərə alınarsa, bu təşkilatla inteqrasiya əlaqələrinin gücləndirilməsi ölkəmiz üçün daha cəlbedici olar.

Bütün bunları ümumiləşdirərək Azərbaycanın İƏT ilə əməkdaşlığının aşağıdakı 4 istiqamətini əsaslandırmaq olar:

1. İqtisadiyyatın muxtəlif sahələrində birgə muəssisələrin yaradılması;

2. Qarşılıqlı nəqliyyat-kommunikasiya və ticarətin bütün növlərinin inkişaf etdirilməsi üçün əməkdaşlıq;

3. Regional statusa malik azad iqtisadi zonaların yaradılması;

4. Elmi-texniki əməkdaşlıq.[80]

Hazırda İƏT çərçivəsində bir sıra proqramlar həyata keçirilir. Əsas məqsəd üzv ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi və inteqrasiya proseslərinə kömək etməkdir. Təşkilat çərçivəsində üzv ölkələr arasında bir sıra prioritet sahələr, o

---

[80] "Azerbaijan - Economic Cooperation Organization (ECO) relations", article, Heydar Aliyeav Heritage İnternational Online Library / http://lib.aliyev-heritage.org/en/4271680.html

cümlədən kənd təsərrüfatı, nəqliyyat, energetika, ticarət və investisiya üzrə əməkdaşlıq aparılır. Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı daxilində regional iqtisadiyyatın liberallaşdırılması proseslərində fəal iştirak edir. Belə ki, üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi və regiondaxili ticarətin artırılması məqsədilə Azərbaycan 10 müxtəlif sazişə, o cümlədən "İƏT üzv dövlətləri arasında Ticarət Əməkdaşlığına dair Çərçivə Saziş"nə, "İƏT regionunda Tranzit Nəqliyyatı haqqında Saziş"ə qoşulmuşdur. "İƏT regionunda investisiyaların təşviqi və qorunması haqqında Saziş" Azərbaycan Respublikası tərəfindən imzalanmış, lakin ratifikasiya edilməmişdir.[81]

Azərbaycan müstəqillik qazandıqdan sonra ilk daxil olduğu İslam Konfransı Təşkilatıdır *(Organization of the Islamic Conference).* Məhz ölkəmizi bu təşkilata daxil olan ölkələrlə mədəni, tarixi, dini ənənələr bağlayır. Bir sıra qüvvətli islam ölkələrinin daxil olduğu bu təşkilatla ölkəmizin ticari-iqtisadi əlaqələri də geniş vüsət almışdır. Burada ölkəmiz əsasən İran, İndoneziya, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Küveyt, Suriya və s. respublikalarla ticarət əlaqələrində iştirak edir. Respublikamızın butun İKT ölkələrindən idxal etdiyi məhsulların 19,6%-i, ixrac etdiyi məhsulların isə 1,5%-i İranın payına duşur. İxracda və idxalda Azərbaycanın regional iqtisadi-ticari əməkdaşlığı xüsusi çəkiyə malikdir. Bunu hər şeydən əvvəl, bu ölkələrin bir-birinə yaxın olmaları, nəqliyyat şəbəkəsinin yaxşı inkişafı, eyni zamanda uzun illər bir-biri ilə geniş ticarət-iqtisadi əlaqələrə malik olmaları şərtləndirmişdir.

Azərbaycan İslam aləminin tərkib hissəsi olaraq, İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığı inkişaf etdirməkdə davam etmiş, bu təşkilatın regional və qlobal məsələlərin həllində siyasi çəkisinin və nüfuzunun artırılmasına yardım etmişdir. Müxtəlif mədəniyyət və sivilizasiyaların qovşağında unikal coğrafi mövqeyi, dözümlülük və icmalararası sülh ənənələri, mədəni və etnik rəngarənglik Azərbaycanın sivilizasiyalar arasında körpü rolunun oynamasının etiraf edilməsinə imkan yaratmışdır.

---

[81] "2012-ci ildə Azərbaycan Respublikasının beynəlxalq iqtisadi tşkilatlarla əməkdaşlığına dair arayış", Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı / http://www.mfa.gov.az/?options=content&id=740

Ölkəmizə zəruri yardımın göstərilməsi məqsədilə İKT çərçivəsində Azərbaycan Respublikasına İqtisadi Yardım haqqında bir neçə Qətnamə qəbul edilmişdir. Bu sənədlərdə üzv dövlətlər və islam qurumları tərəfindən Azərbaycan hökumətinə lazımi iqtisadi və humanitar yardımın göstərilməsi, beynəlxalq təşkilatlar tərəfindən Azərbaycana təcili maliyyə və humanitar yardımın təmin edilməsi üçün tədbirlərin görülməsi kimi əməkdaşlığın prioritet istiqamətləri qeyd olunmuşdur.

2010-cu ilin oktyabr ayında İstanbulda İKT-nın İqtisadi və Ticarət Əməkdaşlığı üzrə Daimi Komitəsinin (COMSEC) 26-cı toplantısı keçirilmişdir. Toplantı çərçivəsində, 14-cü Beynəlxalq Biznes Forum keçirilmişdir.[82]

Yuxarıda deyilənləri ümumiləşdirərək belə bir nəticə çıxarmaq olar ki, Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafı inteqrasiya proseslərinə aktiv surətdə qoşulmaqla, regional inteqrasiya birliklərində səmərəli iştirak etməsilə mümkündür.

Beynəlxalq iqtisadi inteqrasiya milli təsərrüfat mexanizmlərinin yaxınlaşmasına, qarşılıqlı uyğunlaşmasına və artımına gətirən, dövlətlərarası sazişlər formasını qəbul edən və razılaşdırılmış şəkildə dövlətlərarası orqanlar tərəfindən tənzimlənən obyektiv iqtisadi qarşılıqlı təsir prosesidir.

İnteqrasiya inkişaf etdikcə meydana gələn dinamik effektlər sırasında müxtəlif ölkələrin istehsalçıları arasında artan rəqabəti göstərmək olar. Bu rəqabət qiymətlərin artımının qarşısını alır, əmtəələrin keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır, yeni texnologiyaların yaradılmasını stimullaşdırır və s.

Milli İqtisadiyyatın sivil təsərrufatçılıq sisteminə inteqrasiya olunması ticari-iqtisadi munasibətlərdə baş verən musbət keyfiyyət və kəmiyyət dəyişikliklərinə, ilk novbədə, tam huquqi-iqtisadi və idarəcilik baxımından qanunvericilik aktlarının qəbul edilməsinə, bazar infrastrukturlarının formalaşdırılmasına və onların çevik fəaliyyət mexanizminin yaradılmasına əhəmiyyətli dərəcədə təsir gostərmişdir. Respublikamızın ticarət əlaqələrinin genişləndirilməsində və dərinləşdirilməsində olkənin bir cox beynəlxalq iqtisadi təşkilatlarda iştirakı, regional iqtisadi-ticarət

---

[82] Laman Khalilova, "Azerbaijan in the Organization of Islamic Cooperation", scientific articles, 2014 / http://a-r.az/en/node/6794

əməkdaşlıqlarına qoşulması və ayrı-ayrı olkələrlə bağlanmış ticarət muqavilələri mustəsna əhəmiyyət kəsb edir.[83]

Milli ticarət sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, bu sahədə iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi baxımından beynəlxalq səviyyədə əməkdaşlıq mühüm rol oynayır. Bu baxımdan Azərbaycan Respublikasının Ümumdünya Gömrük Təşkilatına *(World Customs Organization)* üzvlüyü mühüm əhəmiyyət kəsb edir. 1992-ci ildən bugünə qədər Azərbaycanın xarici və daxili ticarət siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata kecirilməsi sayəsində ölkənin beynəlxalq əlaqələri daha da genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə çatmışdır. Ticarət qaydalarının sadələşdirilməsi məqsədilə Azərbaycan ilə ÜGT arasında XİF əmtəə nomenklaturası (ƏN) əsasında vahid gömrük tarifinin işlənib hazırlanması, gömrük rüsumlarının alınması, tətbiq edilməsi, malların mənşə ölkəsinin təyin edilməsi, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi barədə razılaşmalar əldə edilmişdir. ÜGT-nın Baş Katibi Mişel Danenin muraciət məktubuna əsasən Azərbaycan "Malların təşkili və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında Beynəlxalq Konvensiya"-ya qoşulmaq barədə təklif almışdır. Bu təklif qəbul olunmuş və artıq ölkəmiz öz ticarət əlaqələrində bu konvensiyanın müddəalarını tətbiq edir.

Fərəhləndirici haldır ki, 2001-ci ilin yanvarından respublikamız bu konvensiyaya qoşulan 101-ci dövlətdir. ÜGT-nın Brüssel şəhərində keçirilən sessiyalarında Azərbaycan ÜGT-nın Maliyyə Komitəsinə üzv secilmişdir. ÜGT-nın bir sıra proqramları çərçivəsində DGK-nin əməkdaşları ücün narkotiklərin müəyyən edilməsi, riskin təyin edilməsi, yekun nəzarətdən keçirilməsi və gəmilərin yoxlanılması, hava və dəniz limanlarında, dəmir yolunda, gömrük sərhədlərində nəqliyyat vasitələrinə nəzarətə dair, nəzəri və praktiki seminarlar təşkil olunmuşdur. Artıq ölkəmiz ÜGT-nın Siyasi Komissiyasında təmsil olunur ki, bu da AR DGK-nin mühüm nailiyyətidir. Bu isə həm milli, həm də beynəlxalq sahədə tərəqqi və təkan olmaqla beynəlxalq əməkdaşlığın inkişafı və möhkəmləndirilməsi məqsədi ilə

[83] Шамседдин Гаджиев, "Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития", Киев, 2000

ölkəmizin artan nüfuzunun bariz nümunəsi kimi məqsədyönlü gömrük siyasəti aparmaqla ölkə iqtisadiyyatının iqtisadi suverenliyinə təminata, iqtisadi təhlükəsizliyə və beynəlxalq inteqrasiyaya xidmət edir. ÜGT-na üzüvlük ölkəmizin dünya təsərrüfat sisetminə inteqrasiya olunmasını sürətləndirməklə bərabər, qədim «İpək yolu»-nun bərpası, Xəzər dənizi hövzəsinin enerji daşıyıcılarının, neft kəmərləri layihələrinin gerçəkləndirilməsi sahəsindəki regional iqtisadi əməkdaşlıq imkanlarını genişləndirməyə, Azərbaycanın xarici ticarət əlaqələrinin tənzimlənməsində səmərəli fəaliyyət gostərən mexanizmlərin qurulmasına xidmət edir.[84]

Azərbaycanın ixracında əsasən neft və neft məhsulları üstün yer tutur. Məhz ixracın 80%-ni neft və neft məhsulları təşkil edir. İxrac olunan neft dəniz və boru kəməri nəqliyyatı vasitəsilə dünya bazarına çıxarılır. Azərbaycan neftinin əsas idxalatçıları Avropa ölkələri, Yaxın Şərq ölkələri və Rusiyadır. Dovlət büdcəmizin böyük hissəsi məhz neft ixracından əldə edilən vəsait hesabına doldurulur. Buna görə də neftin qiymətinin dünya bazarında dəyişməsi birbaşa iqtisadi inkişafımıza təsir edir. Neftin dünya bazarında qiymətinin dəyişməsinə də əsasən OPEC *(Organization of Petroleum Exporting Countries)* ölkələri təsir edir. Belə ki, dünya neft istehsalı və ixracının 60-70%-i bu ölkələrin payına düşür. Bu ölkələr tərəfindən neftin qiymətinin dəyişməsi neftin dünya qiymətlərinə bilavasitə təsir göstərir və bu da Azərbaycanın ixrac etdiyi neftin qiymətinin dəyişilməsində özünü biruzə verir. Bu səbəbdən də dünya neft bazarında qiymətlərin dəyişilməzliyinin qorunub saxlanılması üçün yolların axtarılıb tapılması, neft istehsal edən və ixrac edən ölkələrin gəlirlərinin möhkəmliliyini təmin etmək, dünya bazarında neft qiymətlərinin sabitləşdirilməsi üzrə qeyri-üzv ölkələrlə əməkdaşlığında Azərbaycanın da öz yeri vardır.[85]

Azərbaycan Respublikasının xarici ticarət-iqtisadi əlaqələrini şərti olaraq iki mərhələyə bölmək olar:

1) Müstəqillik əldə olunanadək SSRİ-nin tərkibində olan ticari-iqtisadi əlaqələr;

2) Müstəqil Azərbaycan Respublikasının ticarət-iqtisadi əlaqələri.

---

[84] Всемирная таможенная организация, «Комплекс мер по обеспечению экономической конкурентоспособности: план действии», Брюссель, 2012 г.

[85] Official web page of “Organization of Petroleum Exporting Countries” / http://www.opec.org/opec_web/en/

Birinci mərhələdə Azərbaycan ittifaq respublikaları ilə qarşılıqlı surətdə geniş ticarət-iqtisadi əlaqələrə malik idi. Lakin bu əlaqələr ittifaqdaxili səciyyə daşıyırdı, onlar ayrı-ayrı ittifaq respublikalarının iqtisadi mənafeyindən daha cox vahid xalq təsərrüfatı kompleksinin tələbləri baxımından qiymətləndirilirdi. Bu dövrdə Azərbaycanın xarici ticarət əlaqələrini inkar etmək olmazdı. Bu zaman ölkənin sənaye məhsullarının bir hissəsi xarici ölkələrə gondərilirdi. Bu işi yalnız ittifaq orqanlarının xarici iqtisadi əlaqələr strukturları həyata kecirirdi. Şübhəsiz, sərbəst ixrac-idxal balansı, hesablaşmalar aparan müstəqil valyuta bankı, milli valyutası, idarəetmə strukturları və s. atributları olmayan respublikada müstəqil xarici ticarət siyasəti həyata kecirmək mümkün deyildi.

1992-1993-cü illərdə Azərbaycanın xarici ticarət əlaqələrində kəmiyyət və keyfiyyət baxımından muəyyən dəyişikliklər baş verdi. Bu zaman həm keçmiş ittifaq respublikaları ilə, həm də başqa xarici ölkələrlə iqtisadi-ticari əlaqələr inkişaf edirdi. Respublikada keçən dövr ərzində yaradılmış sənaye potensialı onun bu ölkələrlə əməkdaşlığı üçün baza rolunu oynayırdı. Müstəqil dövlət kimi Azərbaycanın xarici ticarət əlaqələrinin keçən 10 illikdəki vəziyyəti haqqında tam təsəvvur əldə etmək üçün 1995-2007-ci illərdə xarici ticarətin əsas gostəricilərinə diqqət yertirmək məqsədəuyğundur. (Cədvəl 2.1.)

Cədvəl 2.1.

Azərbaycan Respublikasının 1995-2007-ci illər üzrə xarici ticarət göstəricilərinin dinamikası

| | 1995 | 2000 | 2003 | 2007 |
|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul (ÜDM) | 2415,2 | 4718,1 | 7276,0 | 29399,9 |
| Adambaşına düşən ÜDM (ABŞ dollar ilə) | 319,3 | 665,1 | 896,8 | 3473,9 |
| Xarici ticarət dövriyyəsi | 1304,9 | 2917,3 | 5216,5 | 11770,6 |
| İxrac | 637,2 | 1745,2 | 2590,4 | 6058,4 |
| İdxal | 667,7 | 1172,1 | 2626,1 | 5712,2 |
| Xarici ticarət saldosu | -30,5 | 573,1 | -35,7 | 346,2 |
| Xarici ticarət kvotası (%) | 54,03 | 61,83 | 71,69 | 40,04 |
| İxrac kvotası | 26,38 | 36,99 | 35,60 | 20,61 |
| İdxal kvotası | 27,65 | 24,84 | 36,09 | 19,43 |
| Xarici ticarət saldosunun ÜDM-da xüsusi çəkisi (%) | -1,26 | 12,15 | -0,49 | 1,18 |

Cədvəldəki məlumatlardan göründüyü kimi, keçən 10 illik (1995-2007-ci illər) ərzində ölkə iqtisadiyyatı sürətli templərlə inkişaf etmişdir, iqtisadiyyatın funksional açıqlığını kifayətedici hesab etmək olar. Belə ki, 2007-ci ildə inkişaf etmiş ölkələrdə iqtisadiyyatın funksional açıqlıq dərəcəsi orta hesabla 15-18 arasında olmuşdur. İxracın strukturunda neft və neft məhsullarının üstünlük təşkil etməsini keçid dövrünün doğurduğu məntiqi nəticə saymaq olar və bu vəziyyət hələ uzun müddət davam edəcəkdir.

Təbii iqlim və torpaq şəraiti, əhalinin sayı və tərkibi, mineral, xammal və yanacaq-energetika resursları ilə təmin olunma dərəcəsi, sənayenin və kənd təsərrüfatının inkişaf və ixtisaslaşma səviyyəsi əmək bölgüsünün xarakterini müəyyən edir. Bunun, nəticəsində istehsalçılardan hər biri mal göndərməklə, öz tələbatlarını ödəmək üçün digər malları alırlar. Beləliklə, regional iqtisadi-ticari əməkdaşlıq tərəflər üçün qarşılıqlı fayda və yüksək iqtisadi səmərə verməklə iqtisadi zərurətə çevrilir.

## 2.3. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının tendensiyaları və ziddiyyətləri

İnteqrasiya suveren dövlətlərin daxili və xarici siyasətinə təsir edən, xalqların taleyində əsaslı dəyişikliklərə təkan verən fenomenə, dünya inkişafının başlıca meylinə çevrilmişdir. Müasir dünyada bütün ölkələri əhatə edən inteqrasiya fenomeni, onun suveren milli dövlətlərə təsirinin nəticələri, yaxın və uzaq ölkələrlə əməkdaşlığın qarşılıqlı-faydalı modellərinin axtarışı bu prosesin elmi konsepsiyasının hazırlanmasına böyük ehtiyac yaratmışdır. Müasir dünyada gedən inteqrasiya proseslərini bir çox tədqiqatçılar yalnız zamanın tələbi deyil, həm də tarixin yenidən kəşf olunmuş qanunu adlandırırlar. Regional və qlobal əməkdaşlığın intensivləşməsi meyillərini Asiyada da, Afrikada da, Amerikada da müşahidə etmək olar. Lakin əyani və gerçək tədqiqini tapmış inteqrasiya modelini hələlik yalnız Qərbi Avropa timsalında görmək mümkündür. Son əlli ildə dünya birliyinin bütün dövlətlərinə nüfuz edən qarşılıqlı əməkdaşlıq münasibətlərinin əvvəllər təsəvvürə belə gəlməyən nəticələri məhz bu məkanda əldə olunub.

Son onilliklərdə geniş vüsət alan, getdikcə daha da intensivləşən inteqrasiya, qloballaşma və regional əməkdaşlıq formalarının Azərbaycan üçün ən optimal modellərini müəyyənləşdirən ümummilli liderin siyasi irsinin geniş tədqiqi daim dəyişən dünyada inteqrasiyanın yeni istiqamətləri, formaları kontekstində xüsusi aktuallıq kəsb edir. Dövlət müstəqilliyinin ilk illərindən etibarən dünya birliyinə inteqrasiya istiqamətində kompleks tədbirlər həyata keçirən Heydər Əliyevin məqsədyönlü siyasətinin prinsipial məqamları Azərbaycan üçün böyük nəzəri-təcrübi əhəmiyyətə malikdir.[86]

Müasir beynəlxalq münasibətlərin subyektləri, faktorları qismində yeni çoxsaylı qurumların meydana gəlməsi "suveren milli dövlət və inteqrasiya proseslərinin siyasi aspekti" problemini həddən çox aktual etmişdir. İnteqrasiya prosesində dövlət, onun rolu, funksiyaları və vəzifələrinin dəyişməsinə dair fikir müxtəlifliyi çeşidli mövqelər, nəzəri yanaşma və baxışlar doğurmuşdur.

Avropada inteqrasiya məsələsinin dünya dövlətləri arasında çoxtərəfli əməkdaşlığın optimal forması olduğunu ildən-ilə bu quruma üzv olmaq istəyənlərin sayının durmadan artması da sübut edir. Bütün dünyada siyasi inteqrasiyanın Avropa modelinə müşahidə olunan maraq, bu proseslərin nəinki sadəcə şərhini, həm də dərin elmi-konseptual əsaslarının tədqiqini gündəmə gətirir. Əvvəla ona görə ki, İkinci Dünya müharibəsindən sonra Qərbi Avropada meydana gələn inteqrasiya prosesləri XX əsrin sonlarına doğru müasir dünyanın əksər bölgələrinə yayılmağa başlamışdır və hazırda dünya inkişafının səciyyəvi cəhətlərindən biridir. Bu proseslərin tədqiqi dünya birliyi ölkələrinin XX əsrdə təkamül proseslərinin ümumi qanunauyğunluqlarını anlamağa kömək edir.

İkincisi, bu gün Azərbaycan dövləti dünya birliyinə, xüsusən Avropaya inteqrasiyanı milli inkişafın prioritet istiqamətlərindən biri hesab edir və yeni dünya düzənində öz yerini tutmağa çalışır.

---

[86] Suraxanım Ağaverdiyeva, Aygül Cəfərova, "Azərbaycanın Avropa yolu gənclərin gözü ilə", məqalə, Qanun Nəşriyyatı, Bakı, 2013 / http://www.kas.de/wf/doc/kas_35287-1522-1-30.pdf?130902131300

Üçüncüsü, Azərbaycan həm qlobal, həm də regional inteqrasiyada yaxından iştirak etməyə səy göstərir. Bu baxımdan beynəlxalq təcrübənin öyrənilməsi, xüsusilə də Avropa modeli öz zənginliyi və maraqlı xüsusiyyəti ilə diqqəti cəlb edir.

İnteqrasiya prosesləri ən müxtəlif səpkilərdə - siyasi, iqtisadi, mədəni və s. cəhətlərdən tədqiqatçılar tərəfindən öyrənilir. Keçən onilliklər ərzində inteqrasiyaya dair çoxlu baxışlar, mövqelər formalaşmışdır. Digər tərəfdən bu illər ərzində inteqrasiyanın dinamik inkişafı ilə əlaqədar onun praktiki, real tərəfinə dair faktiki materiallarla nəzəri təhlili arasında bir növ uçurum yaranmışdır.

Qlobal, regional, lokal inteqrasiya proseslərinin təhlili göstərir ki, ortaya çıxan problemlərin beynəlxalq hüquq çərçivəsində həlli üçün bu üç səviyyənin konsepsiyasının və mexanizminin müəyyənləşdirilməsi vacibdir.

Avropadaxili inteqrasiya ilə Avropa məkanına inteqrasiya səviyyələri arasında fərqlər, problemlər təbii ki, olmamış deyil. Məhz bu məqamda inteqrasiyanın konseptual əsası ola biləcək müddəaların müəyyənləşdirilməsi önəmlidir.

Yalnız iqtisadi amilə, iqtisadi fayda və marağa üstünlük verilməsi inteqrasiyadan irəli gələn obyektiv və subyektiv meyillərin beynəlxalq miqyasla tənzimlənməsinin arxa plana keçməsinə, qlobal sabitliyi pozan vəziyyətin yaranmasına səbəb ola bilər.

İnteqrasiya prosesinə qoşulan hər hansı bir dünya dövləti ilk növbədə təbii ki, müstəqil, suveren respublika olmalıdır. Azərbaycanın məhz bu cür başa düşülən inteqrasiya münasibətlərinə qoşulması, dünyanın xəritəsində müstəqil dövlət kimi öz adını həkk etməsi sayəsində qlobal cəmiyyətin bərabərhüquqlu subyekti statusunu aldıqdan sonra mümkün olmuşdur.

Qloballaşma dövründə biz inteqrasiyanın əlverişli meyillərindən istifadə etməli, ardıcıl siyasət yeritməliyik. Dövlətlərarası inteqrasiya məkanına ölkəmizin inkişafına, iqtisadiyyatın modernləşməsinə, cəmiyyətimizin mənəvi-əxlaqi əsaslarının təkmilləşməsinə kömək edən bütün qüvvələri səfərbər etməklə daxil olmalıyıq. Bu gün Azərbaycanın uğurları dünyanın ən qüdrətli dövlətlərinin və nüfuzlu beynəlxalq qurumlarının diqqətini bizə yönəltmişdir.[87]

---

[87] R. Mehdiyev, "Azərbaycan: qloballaşmanın tələbləri", Bakı, 2005, s. 335

Azərbaycan hazırkı transformasiya və inteqrasiya mərhələsində öz iqtisadi yüksəlişini təmin etmək üçün, təbii xammal ehtiyatlarından geniş istifadə etdiyi üçün birinci mərhələdədir, lakin iqtisadiyyatımızın perspektivləri baxımından sadalanan mərhələlərin mürəkkəb çulğaşmasını təmin edən, bütün imkanları minimal zaman ərzində istifadə etməyə imkan verən dövlət siyasəti yeridir.

Tarixi inkişafın hər bir mərhələsində inteqrasiyanın potensial hesab olunan resurslarının diaqnozu aparılarkən məlum olur ki, bu resurslar da dinamikaya uğrayır. Belə ki, inkişafın əvvəlki mərhələləri üçün hərbi, maddi təsir və təzyiq vasitələri mühüm resurs sayılırdı. Bu gün isə elmi-texniki, iqtisadi, siyasi, intellektual - insan, informasiya, nəqliyyat kommunikasiyaları, enerji resursları ön cərgəyə çıxmışdır.

Öz coğrafi mövqeyinə görə, dünyəvi dəyərlərə malik olan tarixi-mədəni ənənələrinə görə Azərbaycan Avropanın strateji tərəfdaşıdır. Müasir dünyanın qlobal enerji təhlükəsizliyinin təmini üçün Azərbaycan Avropaya lazımdır. Digər tərəfdən bölgədə və ümumiyyətlə, Yaxın Şərqdə demokratik Avropa dəyərlərinin ilk davamçısı, yüksək sivilizasiya və mədəniyyətə malik olması Avropanı ölkəmizlə çoxşaxəli əməkdaşlıqda maraqlı edir. Qarşılıqlı-faydalı əməkdaşlıq baxımından Avropa Birliyi həyati vacib bütün sahələrdə - xarici siyasətdə, sülhün və təhlükəsizliyin təmin olunmasında, iqtisadiyyat və mədəniyyətdə, bəşəriyyətin qlobal problemlərinin həll olunmasında, insan hüquq və azadlıqları təminatının təkmilləşməsində və s.-də strateji tərəfdaş qismində çıxış edir. Bir məsələ diqqət mərkəzində saxlanılmalıdır və qarşılıqlı inteqrasiyanın perspektivləri hər iki tərəfin əzmindən asılıdır.

Bu gün Azərbaycan formalaşan yeni geosiyasi nizama uyğunlaşmaq, dünya iqtisadiyyatında özünəməxsus mövqeyi olan dövlətə çevrilmək istiqamətində səylərini artırır, tarixi inkişafında dünyaya inteqrasiyanın növbəti mərhələsini, yeni dövrünü yaşayır. Ölkənin qarşısında böyük məqsədlər durur. Bunlar dünyanın yalnız siyasi deyil, həm də iqtisadi, elmi, informasiya məkanlarına inteqrasiya amillərini də əhatə edir. Ölkənin geosiyasi vəziyyəti nəzərə alınaraq, hərtərəfli iqtisadi və sosial inkişafın təmin olunması üçün beynəlxalq maliyyə institutları, iqtisadi təşkilatlar, regional birliklərlə əməkdaşlıq genişləndirilir. Bütövlükdə dünya iqtisadiyyatına

inteqrasiya prosesini sürətləndirmək üçün tədbirlər görülür. Milli iqtisadi maraqlardan irəli gələn şərtlər əsasında Azərbaycan Ümumdünya Ticarət Təşkilatının tamhüquqlu üzvü olmaq istəyir.

Müasir Azərbaycan modernləşməkdə olan demokratik transformasiya, açıq iqtisadiyyat və vətəndaş azadlığı məkanıdır. Şərq ilə Qərb arasında körpü olan Azərbaycan təkcə sivilizasiyaların qovuşuğu deyil, həm də mühüm geosiyasi və geoiqtisadi amildir. Bütün bunlar regionda və onun hüdudlarından kənarda bizə olan münasibəti müəyyənləşdirir. Nəzərə alsaq ki, iqtisadi və siyasi nüfuz kadrlar hesabına formalaşır, onda ölkədə peşəkar kadrlara üstünlük verilməsi tamamilə başa düşüləndir.

Ümumdünya miqyasında transformasiya, həmçinin, regional proseslərin intensivləşməsi şəraitində qlobal iştirakda dövlətin rolu və yeri dəyişir. Yeni dünya nizamı təkcə qarşılıqlı münasibətlərin sərhədlərini və formalarını dəyişmir, həm də fərdlər arasında münasibətlərin yeni mədəniyyətini formalaşdırır. Avropa İttifaqı ilə ölkəmiz arasında mühüm iqtisadi sazişlər var. Bütün bunlar Azərbaycanın qarşısında duran böyük perspektivlərdən xəbər verir.[88]

Avropanın təbii qaza olan tələbatını ödəyən ən böyük ölkə Rusiyadır. Avropa ölkələrinə siyasi təzyiqlər göstərmək məqsədi ilə Rusiya zaman-zaman bu üstünlüyündən istifadə etməkdədir. Siyasi təzyiqin açıq-aşkar nümayişinə bir nümunə 2008-ci ildə Rusiyanın Şərqi Avropaya qaz təchizatını dayandırmasıdır. Təbii olaraq, bu asılılığı aradan qaldırmaq məqsədilə Avropa alternativ mənbələr axtarışına çıxmışdır. Azərbaycanın real təbii qaz imkanlarını bu prizmadan dəyərləndirsək müəyyən edərik ki, ölkə Avropanın 540 milyard $m^3$ həcmində qaz tələbatının cəmi 5%-ni ödəmək imkanındadır. Ayrılıqda isə Azərbaycan qazının Şərqi Avropa üçün nəzərəçarpacaq əhəmiyyəti var. Çünki, Şərqi Avropanın 3 milyard $m^3$ qaz ehtiyacını Azərbaycan rahatlıqla təmin edə bilər. Bütün bunları nəzərə alaraq belə qənaətə gəlmək olar ki, Azərbaycanın Avropa İttifaqi ilə olan iqtisadi əlaqələrinin genişlənməsi heç də Rusiyanın maraqlarına cavab vermir.

---

[88] Rəbiyyət Aslanova, "Azərbaycanın dünyaya inteqrasiyasında yeni mərhələ", məqalə / http://jurnal.meclis.gov.az/news.php?id=15

Azərbaycanın üzv olmaq istədiyi digər bir iqtisadi birlik Ümumdünya Ticarət Təşkilatı *(World Trade Organization)* sayılır. Azərbaycan sözü gedən təşkilata "inkişaf etməkdə olan ölkə" statusu ilə üzv qəbul olmaq istəyir. ÜTT 1995-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişin *(GATT – General Agreement on Tariffs and Trade)* varisi kimi yaradılmış beynəlxalq təşkilatdır. ÜTT dövlətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən yeganə beynəlxalq təşkilatdır. Onun əsas funksiyası ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır.[89]

Azərbaycan Respublikasında ÜDM-un ümumi həcmində neft sektorunun xüsusi çəkisinin 53,1% olması, ixracın 84%-nin neft və neft məhsullarının payına düşməsi, milli iqtisadiyyatın "Holland sindromu" xəstəliyinə tutulması ehtimalının istisna olmaması, torpaqlarımızın 20%-nin işğal altında olması, ölkədə hər səkkiz nəfərdən birinin qaçqın olması ölkəmizin ÜTT-na İEOÖ statusu ilə üzv qəbul olunmasını əsaslandıran arqumentlər kimi istifadə oluna bilər. ÜTT-yə üzvolma danışıqları zamanı kənd təsərrüfatının ölkə iqtisadiyyatının aparıcı sahəsi olması, aqrar sektorun yaxşı ənənələrinin olması, bu sahənin inkişafı üçün əlverişli aqroiqlim ehtiyatlarının mövcudluğu, ölkə əhalisinin yarıdan çoxunun kənd yerlərində yaşaması faktları xüsusi vurğulanmalıdır.

ÜTT leksikonunda «kənd təsərrüfatında daxili yardım tədbirləri» dedikdə dövlət tərəfindən kənd təsərrüfatına və bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə subsidiyalar verilməsi və ya dəstək göstərilməsi başa düşülür. Azərbaycan Respublikasının ÜTT-yə üzv olması prosesində kənd təsərrüfatı üzrə aparılacaq gələcək danışıqlarda aşağıdakı prinsiplərin gözlənilməsi məqsədəuyğun hesab edilir:

• 10%-lik *de minimis* həddinin əldə olunması mümkün olmadıqda, 5-10% arasında hər hansı həddin əldə olunmasına səy göstərmək;

• Azərbaycana inkişaf etmiş ölkə kimi yanaşacaq üzv ölkələr presedent kimi Moldova, Gürcüstan, Ermənistan və s. ölkələri nümunə gətirdikdə əsaslı arqumentlər irəli sürmək;

---

[89] Vugar Bayramov, "Azerbaijan's Accession to World Trade Organization (WTO); Pros and Cons", Baku, 2010

• "İnkişaf etməkdə olan ölkə" statusunun əldə edilməsi ehtimalının az olmasını nəzərə alaraq, danışıqların müəyyən mərhələsində ölkəmizin bütövlüklə deyil, onun kənd təsərrüfatı sektorunun inkişaf etməkdə olduğu arqumentini irəli sürmək;

• Yaxın gələcəkdə sürətlə artması gözlənilən neft gəlirlərinini əsas gətirməklə, aqrar sektorun dəstəklənməsi üçün maliyyə vəsaitlərinin mövcud olacağını israrla bildirmək;

• "Holland sindromu" təhlükəsini əsas gətirməklə, qeyd olunan sindromun kənd təsərrüfatına göstərə biləcəyi mənfi təsiri neytrallaşdırmağın əsas metodlarından birinin məhz aqrar sektorun dəstəklənməsi olmasını diqqətə çatdırmaq.[90]

"Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında" Qanunun qəbulu nəticəsində xarici ticarətdə mal dövriyyəsi xeyli artmışdır. Təbii ki, buna regional təşkilatların üzv dövlətləri ilə ticari əməkdaşlığının təsiri böyükdür. Ölkəmizin regional iqtisadi əməkdaşlığında əsasən GUAM, Qara dəniz İƏT, İslam Konfransı Təşkilatı və s. fərqlənir.

GUAM ölkələri arasında bəzi fikir ayrılıqları, o cumlədən azad ticarət zonasının yaradılması, təşkilatın genişlənməsinin predmet və subyektləri movcud idi. Belə ki, konkret olaraq, GUAM ölkələri arasında iqtisadi əlaqələrin lazımi səviyyədə olmaması üzv dövlətlərin iqtisadi inkişafının aşağı səviyyədə olması ilə bağlıdır. Ölkələrin idxal-ixracında əsas yeri xammal, yarımfabrikat və ərzaq məhsulları tutur. Məhz buna gorə də, GUAM ölkələri arasında əməkdaşlığın dərinləşməsi – ticarətin mərhələ-mərhələ sərbəstləşdirilməsi, milli iqtisadiyyatların struktur inkişaf konsepsiyalarının razılaşdırılması kimi tədbirlərdən cox asılıdır.[91]

GUAM-ın daha səmərəli regional təşkilata çevrilməsinə zəmin yaradacaq bir sıra tədbirlərin həyata kecirilməsi zəruridir.

1. GUAM hüdudlarında azad ticarət zonalarının yaradılması üçün hazırlıq görülməsi;

2. Bir sıra sahələrdə razılaşdırılmış iqtisadi siyasətin aparılması;

3. Milli valyutaların qarşılıqlı dönərlilik şərtləri haqqında sazişin imzalanması;

---

[90] Vüqar Bayramov, "Azərbaycanın ÜTT-ə üzvlük prosesinin qiymətləndirilməsi üzrə siyasət sənədi", Bakı, 2010
[91] Arif Şəkərəli oğlu Şəkərəliyev, "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər", monoqrafiya, Bakı, 2009

4. Biznes strukturlarının iqtisadi, ticari, nəqliyyat, maliyyə, elm, informasiya və başqa sazişlərdə konkret layihələrə cəlb edilməsi ilə əməkdaşlığın prioritet istiqamətlərində ixtisaslaşmış orqanların yaradılması.[92]

Müasir dövrdə Azərbaycanın iqtisadi və siyasi strategiyası dünyada baş verən qlobal iqtisadi proseslərlə bilavasitə bağlıdır. Respublikanın bazar iqtisadiyyatına keçməsi onun dünya siyasətində və beynəlxalq aləmdə bir subyekt kimi tanınması ilə yanaşı cəmiyyətin iqtisadi, siyasi və demoqrafik strukturunu bütövlükdə dəyişmişdir. Respublikada mövcud stabil şəraitin hesabına iqtisadiyyatın əsas prioritetləri müəyyən edilmiş, bazar iqtisadiyyatında yeniləşməni həyata keçirmək məqsədi ilə müvafiq maliyyə strukturları və milli iqtisadiyyatın inkişafı, xarici və yerli kapitalın cəlb olunması üçün şərait yaradılmışdır. Beynəlxalq münasibətlərin müasir sisteminin əsas fərqli cəhəti ümumi iqtisadi, mədəni, sivil, siyasi və hərbi maraqlara malik möhkəm əməkdaşlığın formalaşması və inkişafından ibarətdir. Bu əməkdaşlıqda dünya iqtisadiyyatı bir tərəfdən beynəlxalq maliyyə korporasiyaları, digər tərəfdən isə milli iqtisadi sistemlərin rəqabətinə tabedir.

Dünyada yaranmış "intizam" hər bir ölkədən xüsusi ilə, yeni müstəqillik əldə etmiş respublikalardan milli təhlükəsizliyin və iqtisadi müstəqilliyin qorunması üçün xarici və daxili amillərin təsirinin özünəməxsus kombinasiyasını tələb edir. Bu baxımdan beynəlxalq rəqabət dövlətin qarşısında müəyyən qaydaların yerinə yetirilməsi zərurətini yaradır. Yəni dövlət, milli iqtisadiyyatın rəqabət aparma qabiliyyətini təmin etmək üçün təbii sərvətlərin və iqtisadiyyatın mühüm sahələrinə, ölkə vətəndaşlarının və iş adamlarının mənafelərinin, eləcə də milli nəzarətin qorunmasına yönəlmiş qaydaları ölkəsinə uyğunlaşdırmalıdır.

İqtisadi və siyasi baxımdan aparıcı ölkələr sırasına daxil olduğundan Azərbaycan apardığı iqtisadi siyasətin ayrılmaz hissəsi kimi bu ölkələrin maraqları ilə manevr etmək qabiliyyətinə malik olmalıdır. Dünya təsərrüfat əlaqələrinin qloballaşmasının yüksək səviyyəyə çatdığı bir dövrdə heç bir ölkə öz siyasəti və iqtisadiyyatını təklikdə inkişaf etdirə bilməz. Ölkənin yaşamasının əsasını təşkil edən və iqtisadi fəaliyyətinin nisbi azadlığını təmin edən strateji xammal ehtiyatlarına

[92] Vahid Ömərov, "Azərbaycan-GUAM əməkdaşlığının perspektivi", Səs qəzeti, Bakı, 2013

malik olan Azərbaycan rəqabətdə üstünlüyündən istifadə edərək, beynəlxalq əmək bölgüsünü və qlobal rəqabəti öz xeyrinə dəyişmək imkanına malikdir.

Burada respublikanın iqtisadi və siyasi stabilliyinin qarantı kimi çıxış edən dövlətin rolunun güclənməsi şübhəsiz ki, onun qarşısında da bir nömrəli vəzifə kimi dövlətlərarası münasibətlərin tənzimlənməsi məsələlərini qoyur. Bu məsələnin həll olunmamsı halında respublika iqtisadiyyatı qeyri sabit, sıçrayış şəklində inkişaf edəcək və xüsusən maliyyə sahəsində böhran amillərinə ciddi məruz qalacaqdır. Öz xüsusiyyətlərinə görə xarici amillərə daha çox məruz qalan neft sənayesi ölkənin iqtisadi siyasətinə böyük təsir göstərir və bundan sonra da göstərəcəkdir. Bu sahə xarici sərmayələrdən və xarici-regional coğrafiyadan asılı olduğundan nisbətən “beynəlmiləl” xarakter daşıyır. Xüsusi ilə qeyd etmək lazımdır ki, ölkənin xarici neft amilinin rolu uzun müddət hələ mühüm əhəmiyyət kəsb edəcək. Azərbaycan iqtisadi və eləcə də siyasi istiqamətlərdə Amerika və Qərb ölkələrinin geostrateji maraqları dairəsindədir. Hal-hazırda o, MDB ölkələrindən başqa Şimali Atlantika bloku ilə “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində əməkdaşlıq edir. İqtisadiyyatın təkamüllü inkişafı üçün iki-qarşılıqlı əlaqəli olan amil vacibdir: sabit siyasi vəziyyət və iqtisadi artıma imkan verən sərmayələr. Bununla əlaqədar, yerli kapitalın cəlb olunmasının, onun artmasının vacibliyini də qeyd etmək zəruridir. Bu da kapitalın respublikadan çıxarılmasının qarşısının alınmasına kömək edəcəkdir. Son nəticədə kapital öz iqtisadi mahiyyətini və istiqamətini tapmalıdır. Bu kimi tendensiyalar dünyada artıq mövcuddur və “nəzarətsiz bazar” mühitində iqtisadiyyatın qloballaşması prosesi nəticəsində daha da dərinləşməkdədir.

Azərbaycan dövlətinin inkişafı baxımından geoiqtisadi strategiyanın seçilməsi sözsüz ən vacib məsələlərdən biridir. Bu baxımdan xarici iqtisadi siyasətdə dövlət prioritetləri sistemini formalaşdırmaq lazımdır. Onun formalaşması zamanı real iqtisadi proseslərin təhlilinə istinad etmək, mövcud balanslar arasında dünya ölkələrinin və ən başlıcası isə Azərbaycan dövlətçiliyi maraqlarından çıxış etmək lazımdır.

Azərbaycanın açıq iqtisadiyyatının formalaşmasının geoiqtisadi səmtlərinin müəyyən edilməsi müstəqillik əldə olunduqdan sonra dövlətin inkişafının mühüm məsələlərindən birinə çevrilmişdir.

Qeyd edək ki, Azərbaycan üçün imkanlar dairəsini şərti olaraq potensial dörd prinsipial zonaya bölmək olar. Bu, Amerika və Avropa daxil olmaqla Qərb dünyası; Şərq yaxud Rusiya yönümlü zona; Ərəb dünyası və Asiya dövlətləri. Fikrimizcə, burada iqtisadi, siyasi, hərbi, ərazi aspektlərinin nəzərə alınması zəruridir və bizim dövlətin maraqları nöqteyi nəzərdən proseslərə yanaşmaq lazımdır. Hərçənd ki, hazırkı mərhələdə bu istiqamətdə konkret həll tapılmayıb. Keçmiş İttifaq respublikaları üzrə təsir gücünə malik olan dövlətlərin maraqlarını qruplaşdırmaqla bu məsələnin həllində bizim ölkənin potensial imkanlarından düşünülmüş formada istifadə etmək lazımdır.

Beləliklə, zəngin ehtiyatlara, elmi potensiala, əlverişli coğrafi şəraitə və başlıca olaraq stabilliyə malik olan keçmiş ittifaq ölkələri dünya dövlətlərinin maraq dairəsində olmaqla bərabər, eyni zamanda balanslaşdırılmayan iqtisadiyyata və ixracdan yüksək asılılıq səviyyəsinə malikdirlər ki, bu da onların dünya sisteminə cəlb olunması üçün maneə rolunu oynayır. Bir halda ki, dünya dövlətləri keçmiş respublikaları iqtisadi intervensiya yolu ilə blokadaya almaq imkanlarına malikdirlər, onda ölkəmiz üçün dövlət maraqları nöqteyi nəzərdən inteqrasiyanın müxtəlif istiqamətlərinə mərhələ-mərhələ öz şərtlərini müəyyən etmək daha düzgün olacaqdır.[93]

Hazırkı dövrdə Azərbaycan dünya iqtisadi sisteminə kifayət qədər inteqrasiya etmişdir. Buna aydın misal kimi "Əsrin müqaviləsi" – Bakı-Tbilisi-Ceyhan transmilli neft kəmərini göstərmək olar. Bu enerji dəhlizi çərçivəsində qlobal əməkdaşlığın inkişafı üçün güclü impuls rolunu oynayır. Bundan başqa Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin işlənib hazırlanması və Azərbaycandan Avropaya təbii qazın təchiz edilməsini də göstərmək olar (regionda 200 milyard barrel neft və 640 trilyon kub.fut

---

[93] Alıyev İsa Hüseyn oğlu, "Qloballaşma müstəvisində yeni iqtisadi təfəkkürün formalaşması zəruriliyi və onun nəzəri-metodoloji əsasları haqqında", elmi məqalə / http://hieb.science.gov.az/index.php?mod=7&view=item&id=395

qaz ehtiyatı qiymətləndirilmişdir, bu da dünya ehtiyatlarının 15%-ni təşkil edir, yəni ABŞ və Şimal dənizinin neftqaz ehtiyatlarından yüksəkdir).

Milli iqtisadiyyat kiçik və orta biznesin inkişafı üzrə xarici ölkələr ilə birgə proqramlar reallaşdırır. Özəlləşdirmədə, xüsusilə maşınqayırma, qara və rəngli metallurgiya, kimya və yüngül sənaye, kənd təsərrüfatı məhsullarının istehsal və emalı, birgə müəssisələrin yaradılması, turizm obyektlərinin tikintisi və rekonstruksiyası sahələrində birgə iştirak üçün xarici müəssisələrə şərait yaradılır.

Dünyanın 60 ölkəsində təmsilçiləri olan yerli və xarici müəssisələrin sayı 1994-cü ildən başlayaraq 1500-ə çatmışdır. Çin ilə ticarət münasibətləri daha intensiv inkişaf etməyə başlamış və mübadilə dövriyyəsi 240 milyon dollara çatmışdır. Azərbaycanın xarici ticarət dövriyyəsində Çinin payı hal-hazırda 4% təşkil edir, lakin etiraf etmək lazımdır ki, bu göstəriciləri bir neçə dəfə artırmaq üçün kifayət qədər imkan vardır. Hal-hazırda Azərbaycan xarici ticarət dövriyyəsində dünyanın 125 dövləti ilə əməkdaşlıq edir.

İqtisadi araşdırmalara görə, hazırkı dövrə qədər planetimizdə qlobal bazar şəraitinin əmələ gəlməsinin başlıca səbəbi beynəlxalq siyasi, iqtisadi və maliyyə təşkilatları, 50-60 əsas transmilli maliyyə-sənaye qrupları və eləcə də, özəl sektorda və sənayedə ticarətin təxminən üçdə birinə nəzarət edən 40 min TMK-lar sayılır.

Qlobal bazarın fəaliyyət prosesində milli dövlətin rolu tədricən azalır və çox istiqamətli qaydada tənzim olunan, dünya miqyasında əməyin paylanmasına əsaslanan beynəlmiləl istehsalat-maliyyə kompleksi yaranır.

Azərbaycanın açıq iqtisadiyyatının səmərəli işləyən modeli özündə iki dialektik və ziddiyyətli, lakin bir-birini qarşılıqlı şərtləndirən cəhəti birləşdirir. Bunlar strateji istiqamətlərdir ki, uzunmuddətli prioritetləri və milli inkişafın məqsədini əks etdirir. Eyni zamanda burada bir faktı da nəzərə almaq lazımdır ki, milli inkişaf heç də əməyin beynəlxalq bölgüsünün inkişaf tendensiyalarına, dünya təsərrüfat sisteminin təkamülünə və eləcə də, ölkə regionlarının dominant inkişaf meyllərinə cavab verə bilmir. Qeyd olunan istiqamətlər mütləq ölkəmizdə olan islahatların və ehtiyat potensialının milli xüsusiyyətini və reallığını əks etdirməlidir.

Qeyd olunmalıdır ki, nəzərdən keçirdiyimiz planda iqtisadiyyatın strukturu heç də dəyişməz deyil. Praktiki olaraq bütün, o cümlədən inkişaf etmiş bazar iqtisadiyyatılı ölkələrdə belə hazırkı dövrdə müəyyən dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi baş verməkdədir (bunu İngiltərə və Fransada görmək mümkündür). Mülkiyyətin strukturunda dəyişilmə dinamik proseslərin effektivliyinin artırılması zərurətindən irəli gəlir.

Müasir beynəlxalq münasibətlər sisteminin əsas fərqləndirici cəhəti ondan ibarətdir ki, o, ümumi iqtisadi, mədəni-sivilizasiyalı, siyasi və hərbi maraqları olan güclü koalisiyalar formalaşdırır və inkişaf etdirir. İqtisadi, siyasi və sosial problemlər dünyanı mərkəzdənqaçma təmayüllərinə sövq edir. Dünyanın birləşməsinin müasir mərhələsi iqtisadi regionların birləşməsi vasitəsilə həyata keçirilir. Misal olaraq, Avropa ölkələri (EU), Şimal Amerika ölkələri (NAFTA), Asiya-Sakit Okean ölkələri (APEC), neft ixrac edən ölkələr (OPEC), ASEAN ölkələri və Cənubi Koreya, Avropa və Asiya ölkələri (ASEM) göstərmək olar. Dünya ÜDM-nun təxminən 80%-i, dövlət büdcələrinin 82%-i və ixracın 85%-i NAFTA, EU və APEC kimi təşkilatların payına düşür.

Dünyanın ən iri dövlətləri ABŞ, Çin və Yaponiyanın iqtisadi birlikdə birləşməsi üçün real şərait mövcuddur və əgər onlar birləşsələr dünya ÜDM-nun 60%-i, bütün məhsulun 33 %-i və sərmayələrin 42,5%-i onların əlində cəmləşəcək.

Təəssüf ki, müasir dünyanın üç əsas iqtisadi birliyinin heç birindən ehtiyat potensialına görə geridə qalmayan MDB beynəlxalq arenada üçüncü rol oynayır. Əsas göstəricilərə görə MDB nəinki deyilən bloklardan, hətta bəzi iqtisadi birliklərdən (ASEAN-Cənub-Şərq Asiya; MERCOSUR-Braziliya, Argentina, Uruqvay və Paraqvay) də geridə qalır. MDB-nin dövlətlərarası iqtisadi komitəsinin qiymətləndirməsinə görə bu birliyin ümumi məhsulu dünya məhsulunun təxminən 10%-ni, təbii sərvətlərin əsas növlərinin 25,5%-ni, ixrac potensialında isə 4,5%-ni təşkil edir.

Qərbin hesablamalarına görə təbii qaz üzrə dünya ehtiyatlarının 40%-i MDB-nin payına düşür və neft ehtiyatlarına görə yalnız Səudiyyə Ərəbistanından geridə qalır. Lakin nə vaxtsa inteqrasiya olunmuş iqtisadiyyatda güclü dezinteqrasiya

prosesləri baş verə bilər. Bizim fikrimizəcə, suveren dövlətlərin inkişaf mərhələsində inteqrasiya prosesləri keçmişdə mövcud olan QİYŞ-Qarşılıqlı İqtisadi Yardım Şurasının prinsipinə görə qurulmalıdır və yalnız bu halda biz Avropa İttifaqı kimi regional iqtisadi birləşmələrə konsolidasiya oluna bilərik.

Dünya təsərrüfat əlaqələrində qloballaşmanın yüksək səviyyəyə gəlib çatdığı bir dövrdə heç bir ölkə öz siyasətini və yaxud iqtisadiyyatını təklikdə inkişaf etdirə bilməz. Həmçinin iqtisadi və siyasi ierarxiyada öz yerini tuta bilməsi üçün, qloballaşan dünya iqtisadiyyatının fenomeni sayılan vahid sosial-iqtisadi qanunvericilik bazası olmalıdır.

Dövlət siyasətinin vacib istiqamətlərindən biri də regionlarda yeni iş yerlərinin açılması və əhali miqrasiyasının qarşısını almaq məqsədilə sahibkarlıq fəaliyyətinin aktivləşdirilməsidir. Sahibkarlığın və bazar iqtisadiyyatının inkişafı üzrə yardım fondu Azərbaycanda analoqu olmayan möhtəşəm bir layihə prezintasiya etmişdir. O, işləməyən müəssisələrin əsasında biznes-poliqonun yaradılması layihəsidir. Biznes-poliqonun məqsədi hökumət, EİB və sahibkarlar arasında üçlü əməkdaşlıq modelini həyata keçirməkdir. Bu da respublikada qeyri-neft sektorunun inkişafı üçün zəmin yaradır. Biznes-poliqonu çərçivəsində sərmayəçilər üçün xüsusi imtiyazlar yaradılacaq.

Dünyanın bir çox ölkələrində prinsiplərinə görə müxtəlif “biznes-poliqon”lar – iqtisadi zonalar, sənaye şəhərcikləri, çoxfunksiyalı ofis mərkəzləri yaradılmışdır ki, bunlar da kiçik və orta sahibkarlığın mövcud problemlərinin həllinə xeyli kömək edə bilər.

İqtisadi münasibətlərin demokratikləşməsi üçün bazar münasibətlərində sosial istiqamətin gücləndirilməsi zəruridir. Bu da əhalinin iqtisadi və sosial maraqlarının balanslaşdırılmasına gətirib çıxaracaqdır. Respublikanın iqtisadi və siyasi stabilliyinin qarantı kimi sosial məsələlərdə dövlətin rolunun gücləndirilməsi vacibdir. Bu dövlətlərarası münasibətlərin tənzimlənməsində dövlətin qarşısında duran birinci növbəli məsələdir.

Ölkə üçün növbəti vacib amil, Bakı-Tibilisi-Ərzurum qaz boru kəmərinin emalı və təbii qazın Azərbaycandan Avropaya nəqli hesab olunur. Avropanın enerji

ehtiyatlarının 2030-cu ildən azalacağı ilə bağlı proqnozları nəzərə alaraq, Bakı-Tibilisi-Ərzurum qaz boru kəmərinin işə daxil olunması dünya dövlətləri üçün mühüm hesab ediləcəkdir.

Ölkəmizin Avropa birliyinə inteqrasiyası Azərbaycan-Bolqarıstan əlaqələrinin dərinləşməsi və genişlənməsinə gətirib çıxartmışdır. Respublikaların ikisi də uğurla Avropa və Avroatlantika strukturlarına inteqrasiya edir və bu kimi pozitiv istiqamətdə ikitərəfli münasibətlər də inkişaf etməkdədir. Azərbaycan və Bolqarıstan arasında ikitərəfli əlaqələr beynəlxalq və dövlətlərarası münasibətlərin tarixi ilə şərtləndirilir və onların kökü Avropa-Kavkaz-Asiya dəhlizi ilə Böyük İpək yolunun qədim ənənələrinə gedir çıxır. Buna görə tarixi böyük İpək Yolunun bərpası və onun xəzəryanı forması olan "Əsrin müqaviləsi" – "Bakı-Tbilisi-Ceyhan" transmilli neft kəməri üzrə layihələr iki ölkə arasında münasibətlərdə vacib rol oynayır. TRASEKA proqramının həyata keçirilməsi nəinki qonşu dövlətləri, həm də uzaq xarici ölkələrin də marağını kəsb etmişdir.

İş adamlarının arasında inkişaf edən əməkdaşlıq formalarından biri də biznes-formdur və bu ölkəyə xarici sərmayələrin cəlb olunmasının vacib amili hesab olunur. Ölkə Prezidentinin regionların sosial-iqtisadi inkişafının dövlət proqramını təsdiq etməsi müxtəlif ölkələrin və regionların müəssisələri arasında birbaşa təmasların qurulmasına şərait yaradan məqsədli amillərdən biri kimi çixiş edir. Aqrar sektorda, ağır maşınqayırma və yüngül sənayedə böyük təcrübəyə malik türk sahibkarları ilə Azərbaycan iş adamlarının daha sıx əlaqələri mövcuddur. Azərbaycan və türk sahibkarları kənd təsərrüfatı məhsullarının emalı üzrə respublikada küllü miqdarda birgə müəssisələr təşkil etmişlər və qarşılıqlı mənfəətli əmtəə mübadiləsi həyata keçirməkdədirlər. Türk sahibkarları sənayenin tekstil və yeyinti, avadanlıq və kimyəvi preparat istehsalı və digər sahələrində fəaliyyət göstərirlər. Telekomnikasiya sektorunu xüsusi qeyd etmək lazımdır ki, burada türk sahibkarları qabaqcıl mövqelərə çıxmışlar. Onlar Azərbaycan iqtisadiyyatına ümumilikdə 1,6 milyard dollar sərmayə qoymuşlar.

Dövlətimizin partnyorları sırasında Moldova respublikası da vardır. Moldova respublikası hökuməti ilə Azərbaycan şirkəti olan Azpetrol arasında Dunay və Prut

çaylarında yerləşən Curculeşti beynəlxalq limanının inşası haqqında razılaşma imzalanmışdır və artıq inşa işlərinə başlanmışdır. Razılaşmanın əsasını neft, yük və sərnişin terminalları təşkil edir. Yeddi il müddətində Azpetrol Moldovaya 250 milyon dollar sərmayə qoyuluşunu planlaşdırır.

Gürcüstanın əsas ticarət partnyorlarından biri Azərbaycan hesab olunur. Azərbaycan siyasətinin vacib istiqamətlərindən biri də neft strategiyasıdır. 1994-cü ilin 20 sentyabırında imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan və Gürcüstan iqtisadiyyatında xüsusi rol oynamış, eləcə də bir neçə qlobal regionlar layihələri həyata keçirməyə imkan yaratmışdır. Gürcüstana neft məhsullarının əsas ixracatçısı Azərbaycandır. Beləki, bu gün Bakı-Supsa neft kəməri uğurla işləyir və onun vasitəsilə Bakı neft dünya bazarlarına çıxarılır.

Dövlət neft şirkətinin neft məhsulları Avropa ölkələrinə Gürcüstanın Poti və Batumi limanları vasitəsilə ixrac olunur. Həyata keçirilən layihələr strateji əhəmiyyətə malik olan iki qonşu ölkənin tərəqqisi və inkişafının təminatçısıdır. Gürcüstanın dövlət şirkəti ilə imzalanmış müqaviləyə müvafiq olaraq Azərbaycandan Gürcüstana elektirik enerjisinin ötürülməsi həyata keçirilir.

İki ölkə arasında qarşılıqlı mənfəətli əməkdaşlığın əsasını təşkil edən nəqliyyat və rabitə sahələridir. Azərbaycan və Gürcüstan TRASEKA beynəlxalq layihəsinin daha fəal iştirakçılarıdır. Beynəlxalq yük daşımalarının 86%-i Gürcüstandan tranzit dəmiryolu vasitəsilə həyata keçirilir. İki ölkə ərazilərindən keçən nəqliyyat yüklərinin daşınma həcmi təxminən 10 dəfə artmışdır. Hal-hazırda Azərbaycan və Gürcüstan arasında əməkdaşlığa dair münasib müqavilə - hüquqi normaların yaradılması üzrə fəal iş aparılır. Dövlətlər arasında olan iqtisadi əməkdaşlıq qarşılıqlı mənfəət strategiyası əsasında qurulur.

Dünya iqtisadi sistemdə "inqilab" baş verməsi nəticəsində Çin öz tarixində ilk dəfə olaraq dünya təsərrüfat subyektinə çevrilmişdir. Ümumdünya ÜDM-da ÇXR-nın payı 1%-dən artıq olmuşdur. Lakin 9%-lik sürətli inkişaf nəticəsində ÇXR milli iqtisadiyyatı kəmiyyətə görə altıncı yer tutmuş və ümümdünya ÜDM-nun 6%-i onun payına düşmüşdür. BVF təhlilçilərinin proqnozlarına görə Çin bütün Asiya regionunun iqtisadi mərkəzinə çevrilir. Regionun əsas maddi və maliyyə axınları

buraya istiqamətləndirilir və buradan paylaşdırılır. Beynəlxalq iqtisadi arenada "Yeni Çinin" aşkara çıxması ənənəvi şərqi-asiya iqtisadi inkişaf modelinin sonunun başlanğıcı kimi dərk oluna bilər. Bu modelin məğzi ondan ibarətdir ki, asiya ölkələri ucuz malların ixracından alınan gəliri əsas kapitalın təkmilləşdirilməsinə sərf edirlər. Bunun nəticəsində onlar yeni texnologiyalar istehsal etməyə başlayırlar.

Hazırkı dövrdə yaranmış ikitərəfli əlaqələrin inkişafını kifayət qədər yüksək qiymətləndirmək olar. Məsələn 1999-cu il ilə müqayisədə 240 ABŞ dolları dəyərində olan ticarət əməliyyatları xeyli intensiv inkişaf etməyə başlamışdır. Azərbaycanın xarici ticarət dövriyyəsində Çinin payı 4% təşkil edir.

Qeyd etmək vacibdir ki, ölkəmiz GUAM çərçivəsində beynəlxalq hüququn ümumi qəbul olunmuş norma və prinsipləri əsasında fəal əməkdaşlıq edir. GUAM təşkilatına daxil olan ölkələr arasında ticarət-iqtisadi əlaqələrin dərinləşməsi üçün azad ticarət sazişləri imzalanmış və regionda stabilliyi təmin etmək üçün birgə səylər barədə deklarasiya da qəbul edilmişdir. Odessa-Brodi neft kəməri layihəsi Avropa komissiyası tərəfindən ümumi Avropa əhəmiyyətli hesab olunur. O, komissiyanın strukturları tərəfindən maliyyələşdirilir və Ukrayna və Azərbaycanın Avropa Birliyi ilə birgə layihələrinin inkişafında mühüm qatqı payı kimi qiymətləndirilir. Bu layihələr Ukrayna və Azərbaycanın Avroatlantika strukturlarına inteqrasiyasına imkan yaradır.

İqtisadiyyat, siyasət və mədəniyyət sahələrində Belarus respublikası ilə dövlətlərarası münasibətlərin inkişafı Azərbaycan üçün vacib əhəmiyyət kəsb edir. Ticarət-iqtisadiyyat, elm-texnika və mədəniyyət sahələrində razılaşmalar artıq əldə edilmişdir. Xüsusilə Belarusiyada istehsal olunan traktorların, avtomobillərin, kənd təsərrüfatı texnikası, televizorların, soyuducuların və digər sənaye məhsullarının, o cümlədən ticarət, lizinq və konsiqnasiya formalarının Azərbaycana göndərilməsi haqqında razılıq əldə olunmuşdur. Azərbaycan əsasən ölkədə istehsal olunan kimya və kənd təsərrüfatı məhsullarını Belarusiyaya göndərir. Neft-mədən avadanlıqlarının göndərilməsi haqqında razılaşma əldə edilmişdir. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq münasibətləri sənaye müəssisələri arasında kooperasiya əlaqələri əsasında dərinləşdirilir. Azərbaycan QİYT təşkilatının keçmiş ölkələri ilə öz münasibətlərini

inkişaf etdirir. Xüsusən iki ölkə, Azərbaycan və Rumıniya arasında bir sıra hökumətlərarası müqavilələr və iqtisadi razılaşmalar imzalanmışdır.[94]

Qeyd etmək lazımdır ki, ABŞ respublikamızın etibarlı ticarət partnyorudur. Xüsusən də ABŞ-nın Azərbaycanda ticarət palatası 125 Amerika şirkətini birləşdirir və burada yüzlərlə vətəndaşımız çalışır. Amerika kapitalı əsasən neft sektoru ilə bağlıdır, lakin Amerika kapitalının Azərbaycan regionlarına cəlb olunması imkanları da mövcuddur. Amerika sahibkarları regionların enerji və qaz ilə təchizatına, infrastrukturun inkişafına, regionların inkişafının əsas katalizatoru olan yolların inşasına böyük maraq göstərirlər. Kənd iqtisadiyyatında müasir infrastrukturun yaradılmasında ABŞ maraqlıdır çünki, bunsuz aqrar biznesinin inkişafı mümkün deyil. Amerika şirkətləri Azərbaycanın rayonlarında, xüsusən Lənkəranda, Masallıda, Gəncədə, Xaçmazda fəal işləyirlər. Burada Amerika hökuməti və təşkilatları tərəfindən maliyyələşdirilən layihələr həyata keçirilir.

Amerika sahibkarlarının iqtisadiyyatın qeyri-neft sektorlarında iştirakının mümkünlüyü nəzərdə tutulur. Lakin sahibkarlıq fəaliyyətinin inkişafı üçün beynəlxalq standartlara uyğun sığorta şirkətinin olması zəruridir.

Hökumət tərəfindən iqtisadi islahatların uğurlu aparılmasına və ölkədə sərmayə qoyuluşu üçün əlverişli iqlim yaradılmasına Avropa Bankının Azərbaycan üzrə strategiyası da kömək edəcək. İqtisadi islahatların keçirilməsi üçün əsasən dörd prioritet istiqamət seçilmişdir. Xüsusilə: kiçik və orta sahibkarlığa, maliyyə sektoruna yardım edilməsi və eləcə də qeyri-neft sektorunun inkişafı ilə bağlı infrastruktur, enerji və nəqliyyat layihələridir. Avropa Bankının prioritetləri arsında neft-qaz sferası qalmaqdadır və bütün region üçün xüsusi əhəmiyyət kəsb edir.

Hal hazırda əhalinin bir nəfərinə düşən sərmayələrin həcminə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında aparıcı yerlərdən birini tutur.[95]

Müasir dünya təsərrüfat əlaqələrinin coğrafi quruluşunda da müəyyən dəyişikliklər baş verməkdədir. Belə ki, dünya təsərrüfat əlaqələrinin əsas subyektləri olan sənayecə inkişaf etmiş ölkələr bir-birləri ilə iqtisadi əlaqələri daha da

---

[94] Həsənov Ə., „Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti“, Bakı, 2005
[95] Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, “Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin: formalaşması və inkişafı problemləri”, monoqrafiya, Bakı, 2010, s. 69-85

dərinləşdirirlər və bu proses özünü inteqrasiya birlikləri çərçivəsində daha aydın göstərir. İnkişaf etməkdə olan ölkələrin isə dünya mal, xidmət, kapital və işçi qüvvəsi bazarlarında mövqeləri getdikcə güclənir.

Müasir mərhələdə dünya iqtisadiyyatında yuxarıda göstərilən meyllərlə yanaşı bir sıra problemlər də müşahidə edilir. Dünya iqtisadiyyatının inkişafında müşahidə edilən əsas problemlərdən biri inkişaf etmiş qərb ölkələri tərəfindən qapalı iqtisadi sistemin formalaşdırılmasıdır. Bu gün sənayecə inkişaf etmiş ölkələrin qarşılıqlı ticarəti dünya ticarətinin 75%-dən çoxunu təşkil edir. Dünyada BXİ qoyuluşlarının 60%-i İEÖ-in payına düşür. Dünyadakı bütün qeydiyyatdan keçmiş patentlərin 87%-i İEÖ-də cəmləşmişdir. Dünyada ticarət axınlarının yalnız 5%-i İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı *(Organisation for Economic Co-operation and Development – OECD)* ölkələrində başlayır və ya bitir.

Bu gün planetin sənaye ölkələrində yaşayan əhalinin 20%-nə dünya üzrə Ümumi Daxili Məhsulun (ÜDM) 86%-i düşdüyü halda, İEOÖ-də yaşayan əhalinin 20%-nə cəmi 1%-i düşür. Bu isə dünya təsərrüfatının qloballaşmasından əldə olunan qazancın ölkələr arasında qeyri-bərabər bölgüsünü göstərir.

Bunlardan başqa, hazırda dünyada əsas oyun qaydalarının müəyyənləşməsində beynəlxalq təşkilatların, transmilli şirkətlərin rolunun artması ölkələrin iqtisadi müstəqilliyinin zəifləməsinə və dünya təsərrüfat əlaqələrinin inkişafında milli iqtisadi təhlükəsizlik probleminin meydana çıxmasına səbəb olur.

Beləliklə, dünya təsərrüfatına aid olan ümumilik və vahidliklə yanaşı, onda həmçinin daxili ziddiyyətlər də mövcuddur. Bu ziddiyyətlər özünü əsasən ayrı-ayrı ölkə qrupları üzrə göstərir.

Ziddiyyətlərin birinci qrupu dünya iqtisadi inkişafının 3 mərkəzi – Şimali Amerika Azad Ticarət Zonası (ABŞ başda olmaqla), Avropa Birliyi və Asiya-Sakit okean regionu (Yaponiya başda olmaqla) arasında mövcuddur. Bu ölkələr arasında ziddiyyətlərin əsas mahiyyəti kimi dünya bazarlarında onlar arasında mövcud olan ciddi rəqabət mübarizəsi çıxış edir. Bu zaman tərəflərin məqsədi adətən rəqibi dünya bazarının hər hansı bir seqmentindən çıxarmaq və ya bu seqmenti rəqibdən qorumaqdır.

İkinci qrup ziddiyyətlər "Şimal"-"Cənub" ölkələri arasında olan ziddiyyətlərdir. Burada "Şimal" sənayecə inkişaf etmiş ölkələr, "Cənub" isə inkişaf etməkdə olan ölkələrdir. Bu ziddiyyətlərin mahiyyəti ondan ibarətdir ki, bir çox inkişaf etməkdə olan ölkələr (ilk növbədə yeni sənaye ölkələri) bir çox iqtisadi göstəricilər üzrə faktiki olaraq inkişaf etmiş ölkələrin səviyyəsinə çatırlar və buna görə də dünya təsərrüfatında uyğun yer tutmağa çalışırlar.

Üçüncü qrup ziddiyyətlər "Şərq"-"Qərb" ölkələri arasında mövcuddur. Burada "Qərb" dedikdə sənayecə inkişaf etmiş ölkələr, "Şərq" dedikdə isə keçmiş sosialist düşərgəsi ölkələri, başqa sözlə keçid iqtisadiyyatlı ölkələr nəzərdə tutulur. Bu ölkə blokları arasında ziddiyyətlər özünü onda göstərir ki, dünya sosialist sisteminin süqutuna qədər keçmiş sosialist düşərgəsi ölkələri avtarkiya rejimində fəaliyyət göstərirdilərsə, hazırda onların məqsədi dünya bazarına aktiv surətdə daxil olma istəyidir. Onlar istehsal etdikləri məhsullarla dünya bazarında layiqli yer tutmağa çalışırlar. Lakin sənayecə inkişaf etmiş ölkələr dünya iqtisadiyyatı meydanında yeni rəqib ölkələrin meydana gəlməsində maraqlı deyillər və buna hər vəchlə mane olmağa çalışırlar.[96]

[96] A. N. Abbasbəyli, "Müasir beynəlxalq münasibətlər və qloballaşma", dərslik, Bakı, 2007, s. 61-81

# III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İQTİSADİ SİYASƏT STRATEGİYASININ FORMALAŞDIRILMASI MEXANİZMİNİN HÜQUQİ TƏMİNATI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyasının institusional – təşkilati mexanizmlərinin formalaşdırılması

Ölkənin xarici iqtisadi siyasəti dövlət və beynəlxalq institusional-təşkilati mexanizmlər tərəfindən tənzimlənir. Azərbaycan Respublikasının sözü gedən təşkilati-idarəetmə strukturu, xarici siyasəti tənzimləyən "Respublikanın iqtisadi və ictimai-siyasi həyatının stabilləşdirilməsi əlavə tədbirlərinə dair" qanun və Azərbaycan Respublikası Konstitusiyası əsasında formalaşdırılmışdır.

Xarici iqtisadi fəaliyyət subyektlərinə istehsalçı müəssisələr, nazirliklərin və müvafiq orqanların xarici iqtisadi ticarət strukturları, Azərbaycan Respublikası ərazisindəki beynəlxalq təşkilatların nümayəndəlikləri, konsorsiumlar, birgə müəssisələr, idxal-ixrac əməliyyatlarını həyata keçirən marketinq şirkətləri və o cümlədən, sığorta, nəqliyyat və s. sahələr üzrə fəaliyyət göstərən strukturlar daxildir.

Dövlətin xarici iqtisadi fəaliyyəti daha çox beynəlxalq iqtisadi və maliyyə qurumlarının vahid qayda və normaları əsasında tənzimlənir. Dünya iqtisadi rejimini pozanlara qarşı hərbi-siyasi sanksiyalar qlobal siyasi struktur sayılan BMT tərəfindən tətbiq edilir. Müasir şəraitdə xarici təzyiqlər ölkənin iqtisadi həyatının ayrılmaz atributu sayılmaqdadır.

Maliyyə bazarlarına inteqrasiyasının genişləndirilməsi və Beynəlxalq Valyuta Fondu, Beynəlxalq İnkişaf Assosiasiyası, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq maliyyə xidmətləri tərəfindən nəzarətin artırılması Azərbaycan da daxil olmaqla MDB-də maliyyə və pul sisteminin stabilləşməsinə əlavə dəyər qazandırdı.[97]

---

[97] Эмир-Ильясова Эсма Ильяс гызы, «Внешнеэкономические связи Азербайджанской Республики в условиях интеграции в мировую экономику», автореферат диссертации на соискание ученой степени доктора экономических наук, Баку, 2013

Qanunvericilik bazasının təşkil olunması və unifikasiyası zamanı əsas rolu ümumdünya beynəlxalq və sahəvi normativ aktlar oynaya bilər. Bu normativ aktlar inteqrasiya proseslərinin sürətləndirilməsi və onların effektivliyinin yüksəldilməsi məqsədilə, ölkə parlamentləri tərəfindən qanun bazalarının yaxınlaşmasını təmin edir.

Bu yöndə daha bir addım, Azərbaycanın beynəlxalq tənzimləmə sistemi tərəfindən razılaşdırılmış ümumdünya institutlarına birləşməsi və bunun üçün xüsusi mexanizmlərin qəbuludur. Bu cür sənəd və strukturlara Tariflər və Ticarət üzrə Baş Saziş, ÜTT, AB aid etmək olar.

Beynəlxalq əlaqələrin tənzimlənməsində əhəmiyyətli rolu dövlətin mərkəzi hakimiyyət orqanları, müvafiq nazirliklər, sahə nazirlikləri və qurumları nəzdində fəaliyyət göstərən beynəlxalq əlaqələr üzrə departamentlər və o cümlədən, yerli hakimiyyət orqanları və qeyri-hökumət təşkilatları oynayır. (Sxem 3.1.)

Sxem 3.1.

- Beynəlxalq, regional və sahə orqanları (BƏT, BMT, AB, MDB, AEX, AİB, AP, AM, ombudsman və s.)
- Çoxmillətli orqanlar (BMT, ÜTT, XTBS, BİA, BVF, DB, YİB və s.)
- Dövlətlərarası, parlamentlərarası, hökumətlərarası tənzimləmə orqanları
- Dövlət tənzimləmə orqanları
- Yerli orqanlar, EİB və digər vətəndaş ictimai birlikləri
- Sahə nazirliklərinin beynəlxalq bölmələri

Azərbaycan Respublikası Konstitusiyasına müvafiq olaraq ölkənin icra hakimiyyəti Prezidentə məxsusdur. Prezidentin xarici siyasətlə bağlı səlahiyyətlərinə aşağıdakılar daxildir: Azərbaycan Respublikasının xarici dövlətlərdə və beynəlxalq təşkilatlarda diplomatik təmsilciliklərinin təsis edilməsi ilə bağlı Milli Məclisə təqdimat vermək, xarici dövlətlərə və beynəlxalq təşkilatlara diplomatik nümayəndələr təyin etmək və ya onları geri çağırmaq, xarici dövlətlərin diplomatik

nümayəndələrinin etimadnamələrini və geri çağırılmalarına dair sənədlərini qəbul etmək, dövlətlərarası və hökumətlərarası müqavilələr bağlamaq, dövlətlərarası müqavilələrin ratifikasiyası və ya denonsasiyası (ləğvetmə) üçün Milli Məclisə təqdimat vermək, beynəlxalq müqavilələrin ratifikasiyası ilə bağlı fərman imzalamaq və o cümlədən, Azərbaycan Respublikası məhkəmə orqanlarının və Milli Məclisin yuridiksiyası altında Konstitusiyaya daxil edilməmiş digər məsələlər.

Azərbaycan Respublikası qanunverici orqanı Milli Məclisdir. MM müxtəlif sferalarda və o cümlədən, gömrük, ticarət və bank işi sahəsində qanunlar qəbul edir, beynəlxalq müqavilələri ratifikasiya və ya denonsasiya edir, prezidentin təqdimatı əsasında Azərbaycan Respublikasının xarici dövlətlərdəki diplomatik nümayəndəliklərini təsis edir, strukturunu və tərkibini təsdiq edir, dünyanın digər ölkələrinin parlamentlərinə, hökumətlərinə və beynəlxalaq strukturlara müraciətlərlə bağlı qanunlara düzəliş və əlavələrə dair qərar qəbul edir. MM 08.12.1992-ci il tarixində "Azərbaycan Respublikasının dünya dövlətlərinin parlamentlərarası ittifaqlarına daxil olmasına dair" qətnamə qəbul etmişdir. Daha sonra ölkənin müxtəlif beynəlxalq və regional alyanslara qəbuluna dair bir çox addımlar atılmışdır.

Hal-hazırda MM müxtəlif dünya dövlətlərinin parlamentlərarası ittifaqlarına daxildir – Avropa Şurası Parlament Assambleyası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası, MDB ölkələri Parlamentlərarası Assambleyası. MM həmçinin NATO Parlament Assambleyasının assosiativ üzvüdür, İslam Konfransı Təşkilatı Parlament Assambleyasının və Qaradəniz İqtisadi Əməkdaşlıq Şurası Parlament Assambleyasının tamhüquqlu üzvüdür.

Qeyd olunan beynəlxalq strukturlarla yazışmaları MM Aparatının Beynəlxalq Əlaqələr üzrə Şöbəsi həyata keçirir. Şöbənin səlahiyyətlərinə aşağıdakılar daxildir: Avropa Şurası sessiyalarında qəbul edilməsi planlaşdırılan hesabat, qətnamə və tövsiyyələrin layihələrinin alınması və deputatların onlarla tanış olmasını təmin etmə, xarici ölkələrdən Azərbaycana gələn müxtəlif siyasi dairələrlə, partiya qrupları, hökumət nümayəndə heyətləri, Prezidentlər, Baş Nazirlər, Parlament Sədrləri, səfirlər və səfirlik nümayəndələri, iri Transmilli Şirkətlər, beynəlxalq strukturların rəhbərləri,

dünyanın regional və ixtisaslaşmış şirkətləri, Elmi-İstehsalat Birlikləri və digər ictimai təşkilatlarla görüşlərin təşkil edilməsi.

MM-də beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr üzrə daimi komissiyalar da fəaliyyət göstərir. MM Aparatının Beynəlxalq Əlaqələr üzrə Şöbəsinin fəaliyyəti məhz bu komissiyaların işini asanlaşdırmağa istiqamətləndirilmişdir. MM-də o cümlədən, xarici dövlətlərin parlamentləri ilə əməkdaşlığa dair 60 işçi qrup fəaliyyət göstərir.[98]

Xarici siyasət sferasında tənzimləyici və idarəedici funksiyaları ümumi koordinasiya edici orqan sayılan Prezident yanında Nazirlər Kabineti Apparatı həyata keçirir. Müstəqilliyin ilk illərində normativ bazanın işlənib hazırlanması və fəaliyyət sahələrinin koordinasiyası üçün onun daimi orqanı qismində Valyuta-İqtisadi Komissiyası və xarici kreditlər üzrə Milli Agentlik çıxış edirdi. Onlar iri həcmli xarici kreditlər üzrə dövlət qarantı və valyuta vəsaitlərinin istifadəsi ilə bağlı məsələlərin həlli ilə məşğul olurdular. Daha sonra bu institusional strukturlar digər nazirliklərin, xüsusilə İqtisadi İnkişaf Nazirliyinin tabeçiliyinə verildi.

NK-nin xarici siyasətlə bağlı səlahiyyətlərinə aşağıdakılar daxildir: beynəlxalq konvensiyalara qoşulma məsələlərinin həlli ilə bağlı yekun qərar qəbul etmə, çoxtərəfli, üçtərəfli və ikitərəfli razılaşmaların və müqavilələrin imzalanması. NK-nin Xarici İqtisadi Əlaqələr üzrə Şöbəsi ümumi xarici iqtisadi siyasət strategiyasının işlənib hazırlanması, ticari fəaliyyətin təmin olunması və maliyyələşdirilməsi məsələləri ilə məşğul olur. Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyaların və çoxtərəfli, üçtərəfli və ikitərəfli razılaşmaların müddəalarının icrası ilə bağlı nəzarət tədbirlərini, dövlətlərarası və hökumətlərarası müqavilələrin, protokol və razılaşmaların ləğvini və s. həyata keçirir. Hal-hazırda xarici əlaqələrin daha da genişləndirilməsi və möhkəmləndidilməsi məqsədilə İran, Türkiyə, Fransa, Pakistan, Yaponiya, Bolqarıstan, Səudiyyət Ərəbistanı, Yunanıstan, İsveçrə və Liviya sə s. ölkələrlə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq sfreasında Dövlət və Hökumətlərarası Komissiyalar yaradılmış və fəaliyyət göstərməkdədir.

---

[98] Нагиев Анар Расул оглы, «Проблемы регулирования внещнеэкономических связей Азербайджана в условиях глобализации», автореферат диссертации по присуждению ученой степени кандидата экономических наук, Баку, 2008

Azərbaycan Respublikası NK-nin Xarici İqtisadi Əlaqələr Şöbəsi 2002-ci ildən etibarən regional Avropa Komissiyaları ilə əməkdaşlıq məsələlərini tənzimləyir. Bu andan etibarən Avropa Komissiyasının fəaliyyəti ticari-iqtisadi, elmi-texniki sahələrdən başlayaraq, elm-təhsil, patentləşdirmə və müəllif hüquqlarının sığortalanması və maliyyələşdirilməsinədək daha da dərinləşməyə başladı.

Azərbaycanın Avropa Birliyinə, Ümumdünya Ticarət Təşkilatına və beynəlxalq maliyyə strukturlarına daha tez inteqrasiya etməsi məqsədilə bu istiqamətdə intensiv işlər görülür. İmzalanmış razılaşmalara əsasən, Azərbaycan enerji, nəqliyyat və digər sferalarda normativ-hüquqi aktlarını AB tələblərinə uyğunlaşdırılması öhdəliyini öz üzərinə götürmüşdür. NK tərəfindən ÜTT iclaslarında müşahidəçi qismində iştirak etməsi üçün işçi qrupu yaradılmışdır. Bu qrup yeni ticari-iqtisadi normaların və gömrük qaydalarının işlənib hazırlanması sferasında ÜTT-na üzv olan dövlətlər tərəfindən verilən təklif və cavabları hazırlayır.

NK-nin Xarici İqtisadi Əlaqələr Şöbəsi 2002-ci ildən etibarən Atom Enerjisi üzrə Beynəlxalq Təşkilatla *(International Atomic Energy Agency)* aktiv fəaliyyət göstərir. 2004-cü ildə Şöbə tərəfindən xüsusi təyinatlı yüklərin hərəkətini tənzimləyən "İxrac nəzarətinə dair" qanun hazırlanmışdır və MM tərəfindən təsdiq edilmişdir. Şöbə fiziki və hüquqi şəxslər üçün vergi və gömrük-tarif dərəcələrini və lisenziyalaşdırılan əmtəə növlərini müəyyənləşdirir, daxili bazara nəzarət edir və onun tənzimlənməsi üzrə sərəncam verir. NK-nin hər bir sahəvi şöbəsində xarici iqtisadi fəaliyyət məsələlərinin (məsələn: neft müqavilələri üzrə) ümumi koordinasiyası üzrə mütəxəssislər mövcuddur. NK-nin Xarici İqtisadi Əlaqələr Şöbəsi beynəlxalq konvensiyaların, çoxtərəfli və ikitərəfli razılaşmaların və müqavilələrin hazırlanmasına və imzalanmasına nəzarəti də həyata keçirir.[99]

Xarici iqtisadi əlaqələrin effektivliyinin yüksəldilməsi və idarəetmə strukturunun təkmilləşdirilməsi məqsədilə iqtisadiyyat və planlaşdırma üzrə Azərbaycan Respublikası Dövlət Komitəsi yaradılmışdır. 1992-ci ilin avqust ayında Prezidentin fərmanı ilə NK yanında xarici investisiyalar üzrə Komitə yaradılmışdır. Yerli və xarici investisiyaların birləşdirilməsi, bu sferada fəaliyyətin effektivliyinin

---

[99] Ахмедов М., «Глобализация и формирование национальной экономики», Баку: Азернешр, 2003, с. 69–85

yüksəldilməsi və vahid dövlət siyasətinin aparılması məqsədilə qeyd olunan Komitə ləğv edilmiş və iqtisadiyyat və planlaşdırma üzrə Azərbaycan Respublikası Dövlət Komitəsinin tərkibində müvafiq şöbə yaradılmışdır. 1993-cü ildə isə sonuncu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinə çevrilmişdir.

Ölkənin iqtisadi suverenliyinin təmin olunması, daxili bazarın stabilləşdirilməsi və iqtisadi müdafiə sisteminin formalaşdırılması məqsədilə, dənli bitkilərin alınması üzrə xüsusi Valyuta Fondu və iqtisadiyyatın stabilləşdirilməsi Fondu əsasında Azərbaycan Respublikası Vahid Valyuta Fondu yaradılmışdır. Onun fəaliyyətinin idarə olunması üçün Valyuta Komissiyası təsis edilmişdir. Prezidentin fərmanı ilə Vahid Valyuta Fondu vəsaitlərinin artırılması məqsədilə, Azərbaycan ərazisində yerləşən mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin, təşkilatların və digər təsərrüfat subyektlərinin xarici valyutada əldə etdikləri gəlirlərin bir qismi normativlərə müvafiq olaraq Vahid Valyuta Fonduna ayrılır.[100]

Azərbaycan Respublikası Nazirlər Kabineti səlahiyyətlərinə o cümlədən aşağıdakılar daxildir:

- Beynəlxalq istehsal kooperasiyalarının və işlənməmiş xammal emalı kooperasiyalarının valyuta gəlirlərinin bir qisminin məcburi satışı qaydalarının işlənib hazırlanması və təsdiqi;
- Xarici valyutadakı gəlirlərin bir qisminin məcburi satış normativlərinin, lisenziyalaşdırma və idxal-ixrac əməliyyatlarının vergiləndirilməsi qaydalarının, texnologiyaların, avadanlıqların, xammalın, ərzaq məhsullarının, tibbi avadanlıqların, ilkin tələbat mallarının və sərbəst dönərli valyutada ixrac mallarının güzəştli tənzimlənmə rejiminin işlənib hazırlanması və təsdiqi;
- Azərbaycan Respublikası ərazisində xarici iqtisadi fəaliyyətin ekspertizasını təşkil edən NK yanında informasiya mərkəzinin təsis edilməsi ilə bağlı konkret təkliflərin verilməsi.

1994-cü ildə "Valyuta tənzimləmələri" haqqında Azərbaycan Respublikası qanunu qəbul edilmişdir. Qanun, Azərbaycan Respublikası valyuta əməliyyatlarının

[100] Arif Şəkərəli oğlu Şəkərəliyev, "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər", monoqrafiya, Bakı 2009, s. 154-169

gerçəkləşdirilməsi prinsiplərini, valyuta təzimləməsi və valyuta nəzarəti orqanlarının funksiyalarını və səlahiyyətlərini, valyuta dəyərlərinin istifadəsi və üzərində sərəncam verilməsi və o cümlədən, valyuta qanunvericiliyinin pozulmasına görə məsuliyyət qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasının beynəlxalq maliyyə-kredit təşkilatlarına daxil olmasını və dünya təsərrüfatının tam hüquqlu üzvünə çevrilməsi zərurətini nəzərə alaraq, BVF və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının razılaşma və konvensiyalarının tətbiqi, Beynəlxalq Maliyyə Korperasiyaları və Beynəlxalq İnkişaf Assosiasiyaları ilə bağlanılan razılaşmaların, investisiyaların çoxtərəfli təminatı Agentliyinin əsasları haqqında konvensiyaların və investisiya mübahisələrinin həlli ilə məşğul olan Beynəlxalq Mərkəzin əsasları haqqında konvensiyaların təsdiqi qaydaları barəsində MM qətnamə qəbul etmişdir. MM həmçinin respublikanın bu təşkilatlara üzvlük şərtləri və qaydalarını və o cümlədən, BVF-nun xüsusi borc hüquqları Departamentinə üzvlüklə bağlı öhdəliklərini müəyyən etmişdir.[101]

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Azərbaycan Respublikası Konstitusiyasına müvafiq olaraq xarici siyasəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı və digər dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərdə ölkənin səlahiyyətli təmsilçiliyi sayılır. XİN diplomatik xidmət orqanlarına vahid rəhbərliyi həyata keçirir, səfirliklər və nümayəndəliklər vasitəsilə MDB və digər xarici ölkələrdə Azərbaycan Respublikasının daxili və xarici siyasəti ilə bağlı iqtisadi, sosial və mədəni sferalar üzrə informasiyaların yayılmasını təmin edir. Beynəlxalq problemləri, Azərbaycan Respublikası tərəfindən bağlanılmış ikitərəfli və çoxtərəfli razılaşmaları, beynəlxalq konvensiyalara, müqavilələrə və protokollara qoşulma barədə aktları öyrənərək, Azərbaycanın iqtisadi, siyasi və digər sferalarda keçirilən beynəlxalq forumlarda iştirakını analiz edərək, respublikanın əsas xarici siyasət istiqamətləri ilə bağlı təklif və konsepsiyaları ölkə prezidentinə təqdim edir və onların icrasını təmin edir.

---

[101] Кязимов Рашад Назим оглы, «Геоэкономические аспекты развития внешнеэкономических связей Азербайджана в условиях глобализации», автореферат диссертации по присуждению ученой степени доктора философии по экономическим наукам, Баку, 2011

Azərbaycan Respublikası prezidenti tərəfindən "Beynəlxalq müqavilələrə qoşulma təcrübəsinin bəzi tənzimləmə tədbirləri haqqında" sərəncam imzalanmışdır. Sərəncamda prezidentə təqdim edilən beynəlxalq müqavilələrin NK və digər müvafiq dövlət orqanları ilə razılaşdırılması zərurəti barədə qeyd daxil edilmişdir. XİN beynəlxalq çoxtərəfli və ikitərəfli razılaşmaların və müqavilələrin layihələrini haırlayır və o cümlədən, onlara qoşulma zərurətini əsaslandırır, beynəlxalq forumları, konfransları, danışıqları və digər dövlət səviyyəsində görüşləri təşkil edir, tərəflərin qəbul etdikləri öhdəliklərin icrasına ümumi nəzarəti həyata keçirir, beynəlxalq hüquq normalarının unifikasiyası və həmin sferadakı milli qanunvericiliyə uyğunlaşdırılması üzrə təkliflərin hazırlanmasında iştirak edir. XİN Azərbaycan Respublikasının özünün həll olmamış siyasi və o cümlədən, qlobal, regional və digər beynəlxalq mübahisə və problemlərin obyektiv həllində aktiv rol almasına köməklik göstərir.[102]

Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarından biri olmaqla, xarici iqtisadi əlaqələr sahəsində dövlətin iqtisadi siyasətini icra edir. Nazirlik 2001-ci ildə prezidentin fərmanı ilə formalaşdırılmışdır.

Ölkənin iqtisadi siyasətinin və strateji hədəflərinin formalaşdırılması və iqtisadi əməkdaşlıq sahəsində beynəlxalq maliyyə qurumları ilə əlaqələrin möhkəmləndirilməsi məqsədilə, prezident fərmanı ilə İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikası İqtisadi İslahatlar Mərkəzi yaradılmışdır. Beynəlxalq iqtisadi və maliyyə təşkilatları tərəfindən ölkəyə ayrılan kreditlərin və texniki köməyin vahid mərkəzdən idarə olunması üçün İqtisadiyyat Nazirliyinin tərkibində müvafiq xidmətin yaradılması NK-nə tapşırılmışdır.

Xarici iqtisadi əlaqələr sahəsində dövlət maraqlarının qorunmasına nəzarəti Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi, Mərkəzi Bank və xarici iqtisadi siyasət sferasında fəaliyyət göstərən digər nazirliklər və strukturlar həyata keçirir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Mərkəzi Bankı xarici iqtisadi əlaqələrin maliyyələşdirilməsi və kreditləşdirilməsi qaydalarını müəyyən edir və

---

[102] Rüstəmov V. Ə., Həsənov R. T., "Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasının bəzi məsələləri" // "Azərbaycan XXI əsrin astanasında" elmi-praktik konfransının materialları, Bakı, Şərq-Qərb, 1998

normativləri dərc edir. Maliyyə Nazirliyi xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi zamanı vergiqoyma məsələlərini tənzim edir.

"Əsas iqtisadi müstəqilliklər haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununa və "Respublikanın iqtisadi və ictimai həyatının stabilləşdirilməsi əlavə tədbirləri haqqında" Azərbaycan Respublikası qanununa müvafiq olaraq prezident "Mərkəzi Bankın yaradılması haqqında" qərar qəbul etmişdir. Mərkəzi Bank digər ölkələrin mərkəzi bankları, beynəlxalq bankları və digər maliyyə-kredit təşkilatları ilə münasibətlərdə Azərbaycan Respublikasının maraqlarını təmsil edir.

Bank biznesində Avropa nəhəngləri Azərbaycanda öz mövcudluqlarını genişləndirmək istəyirlər. Onlardan biri artıq özünün törəmə filialları vasitəsilə ölkəmizdə fəaliyyət göstərir, digərləri isə respublikanın kommersiya banklarının nizamnamə kapitalında iştirak edirlər. Bütün bu inteqrasiya prosesləri heç də sadə bir proses deyil. Ölkə banklarına sərt tələblərin (unifikasiya edilmiş beynəlxalq qanunvericilik normaları) qoyulması ilə müşayiət olunur. Beynəlxalq miqyaslı banklardan olan Avropa Yenidənqurma və İnkişaf Bankı *(European Bank for Reconstruction and Development – EBRD)* UNİBANK-ın səhmdarlarından biri olmaq istəyini dilə gətirmişdir.[103]

Prezidentin 30 yanvar 1992-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitələri yaradılmışdır. "Azərbaycan Respublikası xarici ticarətinin sonrakı liberallaşdırılması tədbirləri haqqında" prezident fərmanı ilə "İdxal-ixrac əməliyyatlarının tənzimlənməsi haqqında" qərar təsdiq edilmişdir. Dövlət Gömrük Komitəsinin funksiyalarına idxal-ixrac əməliyyatlarında iştirak edən malların miqdar və dəyər qiymətləndirməsi, onların coğrafi yönləndirilməsi daxildir. Xarici ticarətə statistik nəzarət gömrük statistikasına dair məlumat bazası əsasında həyata keçirilir. Tabeçilikdəki sərhəd gömrük orqanları çərçivəsində və qüvvədə olan normaiv-hüquqi aktlara müvafiq olaraq, sərbəst dönərli valyutada – istehsal kooperasiyaları və barter razılaşmaları əsasında, milli qapalı valyutada – komissiyon göndərilmə və klirinq razılaşmaları əsasında əməliyyat növləri üzrə statistik nəzarət aparılır.

---

[103] Ləman Xəlilova, "Azərbaycanın regional iqtisadi birliklərlə əməkdaşlığı", məqalə / http://news.lent.az/news/184626

Statistik hesabat vahid beynəlxalq təsnifata müvafiq olaraq əmtəə adı, qrupu, görünüşü və mövqeyi üzrə aparılır. Beləki, ölkənin xarici ticarətində effektivliyin yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası xarici ticarətinin liberallaşdırılması haqqında" tədbirlər o cümlədən, "Azərbaycan Respublikası xarici ticarətinin sonrakı liberallaşdırılması haqqında" prezident fərmanı qəbul edilmişdir. Fərmanın xüsusiyyəti ondan ibarət idi ki, o bütün hüquqi şəxslərə respublikanın strateji əhəmiyyətli məhsullarını ixrac etmələrinə icazə verirdi və o cümlədən, ixrac olunacaq malın həcmini, ödənişin sərbəst dönərli valyutada qəbul edilməsi və ilkin ödəniş normativləri və qaydalarını, digər təşkilati tədbirləri və malın sərhəddən keçirilməsinə nəzarət qaydalarını müəyyən edirdi.[104]

Xarici iqtisadi fəaliyyət sistemində əsas yeri Ticarət-Sənaye Palatası tutur. O xarici iqtisadi əlaqələrin inkişafının təşviq edilməsi üçün müəssisələr və təşkilatlar tərəfindən 2000-ci ildə yaradılmışdır. Palata müəssisə və təşkilatların maraqlarını ölkə xaricində və daxilində qoruyur. Ticarət-Sənaye Palatası özünün aparatına malikdir və xarici iqtisadi əlaqələrin bütün iştirakçılarını əhatə edir. Onun fəaliyyətinə: ixtiraların xarici ölkələrdə patentləşdirilməsi, ixrac məhsullarının ekspertizası, ölkə daxilində və xaricində əmtəələrin reklamı, işgüzar müqavilələrin bağlanması, ixrac olunan qeyri-ənənəvi malların axtarıb tapılması, Azərbaycan mallarının xarici ölkələrdə, xarici ölkə mallarının isə Azərbaycanda sərgilərinin təşkil edilməsi və o cümlədən, beynəlxalq sərgi və yarmarkalarda iştirak daxildir.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsi üzrə əməli fəaliyyəti Azərbaycan Respublikasının regional və ticarət nümayəndəlikləri həyata keçirir. Xarici ölkələrdə Azərbaycanın regional nümayəndəliklərinin yaradılması sahəsində konkret addım MM tərəfindən "Avropa İqtisadi Birliyi yanında NK tabeçiliyində Azərbaycan Respublikası nümayəndəliyinin təsis edilməsi haqqında" qəbul edilən qərar olmuşdur. Nümayəndəliklərin xarici ölkələrdə prioritet fəaliyyət istiqamətləri aşağıdakılardır:

---

[104] F.Qənbərov., "Xarici iqtisadi əlaqələr və iqtisadi artım", Bakı, Elm, 2012.

- Xarici ölkə bazarlarında dövlət maraqlarının qorunması, haqsız rəqabət hallarının, qeyri-sərfəli əqdlərin və qeyri-ekvivalent mübadilələrin aşkara çıxarılması və xəbərdarlıqların edilməsi;
- Xarici ticarət dövriyyəsi strukturunun optimallaşdırılmasına, rəqabətqabiliyyətli mal və xidmətlərin xarici bazarlara çıxarılmasına, ixrac həcminin yüksəldilməsinə, idxal həcminin isə azaldılmasına istiqamətlənmiş tədbirlərin görülməsi;
- İqtisadiyyatın inkişafı üçün əhəmiyyət daşıyan iri həcmli ekoloji təmiz layihələrin hazırlanmasına və reallaşdırılmasına daimi nəzarət;
- Ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq və birgə müəssisələrin yeni formalarının inkişafı istiqamətində mümkün köməkliklərin və xarici iqtisadi fəaliyyət iştirakçılarına müvafiq ortaqlar seçmələrində köməklik göstərilməsi;
- Xarici iqtisadi fəaliyyət iştirakçılarının informasiya təminatının yaxşılaşdırılması.

Beynəlxalq tənzimləmə sistemi tərəfindən razılaşdırılmış çoxmillətli strukturlara və orqanlara qoşulma və xüsusi müxanizmlərin və hüquq normalarının qəbulu önəmlidir. Bu qəbldən olan sənədlərə Tariflər və Ticarət üzrə Baş Saziş – Ümumdünya Ticarət Təşkilatı aiddir. Beynəlxalq səviyyədə Tariflər və Ticarət üzrə Baş Saziş müddəalarına riayət olunması tələb olunur. Ölkələrin ÜTT-na daxil olması həmin ölkələrin dünya iqtisadiyyatına inteqrasiya etməsi prosesini sürətləndirəcək.

Xarici iqtisadi əlaqələrin ümumi tənzimlənmə sistemində inteqrasiya yeni kəmiyyət və keyfiyyət vəziyyəti almaqdadır. İctimai qarşılıqlı asılılıq, əlaqələr və maraqlar qeyri-hökumət institutları vasitəsilə formalaşdırılır, həyata keçirilir və ifadə olunur. İnteqrasiya yeni strukturların yaradılmasını və ya mövcud strukturların yeniləşdirilməsini lazım bilir. İqtisadiyyatın və xarici iqtisadi əlaqələrin effektiv fəaliyyət göstərməsi üçün tənzimləmə mexanizmnin optimallaşdırılması tələb olunur. Beynəlxalq inteqrasiyanın məqsədi əsas dəyərlərin inkişafı, insan cəmiyyətlərinin fəthi, iqtisadi rifahın əldə olunması və iqtisadi təhlükəsizliyin təmin olunmasıdır.

Bütün bunlar onu təsdiq edir ki, müasir şəraitdə heç bir dövlət göstərilən prioritetləri və öz iqtisadi təhlükəsizliyini tək başına təmin edə bilməz.[105]

## 3.2. Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının hüquqi təminatı

Xarici iqtisadi siyasət dövlətlər arasında bütün növ ehtiyatların hərəkəti zamanı yaranan iqtisadi münasibətlər sistemini əks etdirir. Bu ikitərəfli münasibətlər dövlətin iqtisadi həyatının bütün sferalarını və əsasən istehsal, ticarət, investisiya və maliyyə fəaliyyətini əks etdirir.

Xarici iqtisadi əlaqələrin təmzimləyiciləri iqtisadi və təşkilati-bölüşdürücü ola bilər. İqtisadi tənzimləyicilər xarici əlaqələrin yaranması və həyata keçirilməsinin iqtisadi maraqlarına təsir edir. Onlara aiddir: tələb və təklifin nisbəti, dünya və daxili qiymətlərin, tariflərin, valyuta məzənnələrinin, faiz dərəcələrinin nisbəti, əmtəələrin istehsalının həcmi, keyfiyyət və səmərəlilik üzrə dünya və yerli inkişaf səviyyələrinin nisbəti, iqtisadi stimullar, proqnozlar, planlar, proqramlar və s. O, vacib makroiqtisadi proporsiyaların müəyyənləşdirilməsində və inkişafın perspektiv məqsədlərinin tapılmasında istifadə olunur.

Təşkilati-bölüşdürücü tənzimləyicilərə inzibati-amirlik xarakterli tənzimləyicilər aiddir. Onlar dövlətin və onun orqanlarının xarici-iqtisadi əlaqələrin formalaşması və inkişafına müxtəlif təsirini nəzərdə tutur. Onlara aşağıdakılar aiddir: əmtəələrin idxal və ixracını kvotalaşdırma və lisenziyalaşdırma, müxtəlif növ fəaliyyətlərin lisenziyalaşdırılması, əmtəələrin ixracından əldə olunan valyuta qazancının bir hissəsinin mütləq satışı mexanizmi, gömrük rejimi, əmtəələrin gətirilməsi və aparılmasının gömrük tərtibatı, valyuta nəzarəti, gömrük nəzarəti, ixrac nəzarəti, idxal nəzarəti və s.

Xarici iqtisadi əlaqələrin dövlət tərəfindən aktiv tənzimlənməsi dövlətin xarici iqtisadi siyasətinin əsas məqsədidir. Xarici iqtisadi siyasətin tərkibini aşağıdakı sxemdə daha aydın görmək olar. (Sxem 3.2.)

Sxem 3.2.

---

105 Səmədzadə Z. Ə., "Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzələri", Bakı, 2001

XARİCİ İQTİSADİ SİYASƏT

A-Cari siyasət

B-Uzun müddətli siyasət

1-Xarici ticarət siyasəti

-İdxala yönələn xarici ticarət siyasəti

-İxraca yönələn xarici ticarət siyasəti

2-Xarici investisiya siyasəti

-Xarici investisiyaların idxal siyasəti

-Daxili investisiyaların ixrac siyasəti

3-Valyuta siyasəti

-Diskont valyuta siyasəti

-Deviz valyuta siyasəti

-Valyuta subsidiyalaşması

-Valyuta ehtiyatlarının diversifikasiyası

4-Gömrük siyasəti

5-Elm-texniki, informasiya siyasəti

Xarici iqtisadi fəaliyyətin milli tənzimlənmə sistemi beynəlxalq ticarət və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini müəyyən edən ümümdünya konvensiyalarının, beynəlxalq müqavilələrin, razılaşmaların və o cümlədən, digər hüquq normalarının tələblərinə müvafiq olmalıdır. Xarici iqtisadi fəaliyyətin milli tənzimləmə alətlərindən aşağıdakıları fərqləndirmək olar:

İqtisadi rıçaqlar – gömrük vergi və rüsumları, ikitərəfli qaydada razılaşdırılmış sərhəd vergiləri, Əlavə Dəyər Vergisi, aksizlər, əmtəələrin yerli istehsalçılarına maliyyə təşviqi.

Nəzarət funksiyaları – idxal-ixrac miqdar məhdudiyyətləri, lisenziyalaşdırma və kvotalaşdırma, ixrac şərtlərinin tənzimlənməsi, ixrac məhdudiyyətlərinin tətbiq edilməsi və s.

Texnilki alətlər – texniki norma və standartlar, standart norma və şərtlərin o cümlədən, iqtisadi təhlükəsizlik normalarının tələblərinin təmin olunması,

sertifikatlaşdırma sistemi, sanitar-veterinar normaları, gigiyena normaları, ətraf mühitin mühafizəsi ilə bağlı tədbirlərin görülməsi.[106]

Buraya maliyyə-valyuta tədbirlərini də daxil edə bilərik. Bunlar, valyuta dəyərləri ilə əməliyyatların icra edilməsi, xarici investisiyaların həyata keçirilməsi, beynəlxalq hesablaşmaların tənzimlənməsi, milli valyutanın stabil kursunun və ödəmələr balansının saxlanılması qaydalarının qəbuluna istiqamətlənmiş kompleks dövlət tədbirləridir. Valyuta bazarı daha çox beynəlxalq qaydalara müvafiq olaraq, prezidentin fərmanı ilə valyuta kursundakı dəyişikliklər vasitəsilə tənzimlənir. (Sxem 3.3.)

Sxem 3.3.




Məlumdur ki, bütün beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq müqavilələr əsasında qurulur. Beynəlxalq müqavilələr isə beynəlxalq razılaşmalar və beynəlxalq prinsiplər əsasında formalaşır. Beynəlxalq müqavilələrin əsas hüquq mənbələri aşağıdakılardır:

- “Beynəlxalq müqavilələr haqqında” 23 may 1969-cu il tarixli Vyana Konvensiyası;
- “Dövlət, dövlətlərarası təşkilatlar və beynəlxalq təşkilatlar arasındakı müqavilələrin hüququ barədə” 21 mart 1986-cı il tarixli Vyana Konvensiyası.

Hər iki konvensiyada göstərilir ki, burada öz əksini tapmamış məsələlər, beynəlxalq adətlərə uyğun tənzimlənməlidir. Qeyd etmək lazımdır ki, birinci konvensiya 27 yanvar 1980-ci ildə qüvvəyə minsə də, heç də bütün dövlətlər bu konvensiyaya qoşulmamışdır.

[106] Hümbətov Namiq Mürşüd oğlu, “Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dövlət tənzimlənməsi və onun təkmilləşdirilməsi istiqamətləri”, iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2009

Beynəlxalq müqavilələrin icrası hər bir ölkənin konstitusiyası və qanunları ilə tənzimlənir. Bu baxımdan, Azərbaycan Respublikası konstitusiyasında göstərilir ki, Azərbaycan Respublikası xarici məsələlərdə beynəlxalq müqavilələrdən irəli gələn müddəaları qəbul edir və dövlətlərarası münasibətlərdə hamılıqla qəbul edilmiş beynəlxalq normalarda nəzərdə tutulmuş prinsipləri əsas götürür.

Müqaviləni bağlayan tərəflər beynəlxalq hüququn subyektləri sayılır. Beynəlxalq müqavilələr haqqında Vyana Konvensiyasına görə hər bir dövlət müqavilə bağlamaq hüququna malikdirlər. ATƏT-in Yekun Qətnaməsində isə göstərilir ki, müstəqillik əldə etmiş dövlət tam (universal) hüquqa malikdir. Suveren bərabərlik və hüquqa hörmət kimi müstəqilliyə xas olan prinsiplərə uyğun olaraq, hər bir dövlət ikitərəfli və çoxtərəfli müqavilələrdə iştirak edə və ya iştirakdan imtina edə bilər. Dövlətin hər hansı müqavilədə iştirak etməsi, bilavasitə həmin müqavilənin dövlət maraqlarına uyğun gəlməsindən asılıdır. Müqavilənin bağlanması təşəbbüsü tərəflərin hər birindən, habelə beynəlxalq təşkilatlardan gələ bilər.[107]

Ölkəmizdə xarici iqtisadi siyasət strategiyasının hüquqi təminat mənbələri Azərbaycan Respublikası Konstitusiyası, Mülki Məcəllə, Gömrük Məcəlləsi, "Gömrük tarifləri haqqında" qanun, "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğvi haqqında" qanun, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları, İqtisadi İnkişaf Nazirliyi və Dövlət Gömrük Komitəsinin qərar və sərəncamları, digər normativ hüquqi aktlar və o cümlədən, Azərbaycan Respublikasının iştirakçısı olduğu dövlətlərarası sazişlər, beynəlxalq müqavilə və konvensiyalardan ibarətdir.

Xarici iqtisadi əlaqələr üzrə vahid dövlət siyasətinin aparılması və onun effektivliyinin artırılması məqsədilə ilk olaraq nəşr olunan, Azərbaycan Respublikası Prezidentinin 26.07.1991-ci il tarixli "Azərbaycan Respublikası Nazirlər Kabineti yanında xarici iqtisadi əlaqələr üzrə Azərbaycan xarici ticarət və informasiya-kommersiya birliklərinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin tabeçiliyinə verilməsi haqqında" fərmanı olmuşdur.

---

[107] Гаджиев Ш. Г., «Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития», Киев, Екcпрес, Об`ява, 2000

İlklərdən biri də "Əmtəə mübadiləsi sazişlərinin nizama salınması tədbirləri haqqında" qanun olmuşdur. Bu qanunda, barter sazişlərinin obyekti olan təbii resursların, xammalın, material və yarımfabrikatların və digər əmtəələrin səmərəli istifadəsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası prezidentinin fərmanına müvafiq olaraq "Azərbaycan Respublikası xarici iqtisadi fəaliyyətinin dövlət tənzimlənməsi tədbirlərinin təkmilləşdirilməsi haqqında" qanun qəbul olunmuşdur.[108]

İxrac-idxal əməliyyatlarını tənzimləyən əsas sənəd 24 iyun 1997-ci il tarxli "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" fərmanla təsdiq olunmuş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi" qaydalarıdır. Bu qaydalar aşağıdakı idxal-ixrac əməliyyatlarını tənzimləyir:

- Azərbaycan Respublikasında istehsal, emal, təkrar emal olunan malların ixracı;
- Kredit ixracı;
- Təkrar ixrac (reeksport);
- Konsiqnasiya yolu ilə ixrac əməliyyatları;
- Müvəqqəti ixrac əməliyyatları;
- Rezidentlərin öz vəsaiti hesabına idxal;
- Nazirlət Kabineti tərəfindən aparılan ixrac-idxal əməliyyatları;
- Müvafiq dövlət orqanlarından rəy və ya lisenziya alınmaqla aparılan idxal-ixrac əməliyyatları;
- Barter əməliyyatları;
- Kooperasiya əməliyyatları;
- Sərhədyanı ticarət və s.

Xarici iqtisadi əlaqələrin hüquqi tənzimlənməsi ölkənin iqtisadi təhlükəsizliyi, daxili bazarın qorunması, yerli istehsalın genişləndirilməsi, daxili bazarlarda rəqabətin güclənməsi, habelə yerli istehsalçıların xarici bazarlara çıxışının stimullaşdırılması baxımından olduqca əhəmiyyətlidir. Beynəlxalq iqtisadi əlaqələrin hər bir formasının özünəməxsus hüquqi tənzimləmə mexanizmləri var.

---

[108] Məmmədov A., "Prezident imzası, prezident qayğısı. Qanunvericilik aktlar toplusu", Azərnəşr, Bakı, 1998

Xarici ticarət əlaqələri struktur xüsusiyyətinə görə xarici iqtisadi əlaqələrin tərkib hissəsi olub, özündə əmtəənin, ticarət və barter xidmətinin turizm, injinirinq, reinjinirinq, informasiya mübadiləsi, rabitə, nəqliyyat xidməti kimi sahələrini, intellektual mülkiyyətin isə françayzinq, nou-xau və konsaltinq kimi formalarını özündə əks etdirir.

Xarici ticarət əlaqələri hüquqi cəhətdən 10 yanvar 1994-cü il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyi haqqında", 5 aprel 1994-cü il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında", 17 dekabr 1996-cı il tarixli "Azərbaycan Respublikasında xarici ticarətin təkmilləşdirilməsi haqqında", 24 iyun 1997-ci il tarixli "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları" və s. bu kimi fərman və qərarlar əsasında tənzimlənir.[109]

Əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi, xarici ticarət əlaqələrinin tənzimlənməsinin 2 metodu var: tarif və qeyri-tarif tənzimləmə metodları.

Xarici ticarətin lisenziyalaşdırılması və kvotalaşdırılması əsasən iki məqsədlə həyata keçirilir: dövlətin iqtisadi maraqlarının qorunması məqsədilə və daxili bazarın tarazlığını poza biləcək idxal və ixracın qarşısını almaq məqsədilə.

Xarici ticarətin tənzimlənməsinin klassik metodu tarif, xüsusilə gömrük tarif tənzimlənməsidir. Tarif metodu ölkəyə gətirilən və ölkədən aparılan mallardan gömrük rüsumlarının tutulmasından ibarətdir.

10 iyun 1997-ci ildə Azərbaycan Respublikasında "Gömrük Məcəlləsi" qəbul edildikdən sonra, 20 iyun 1995-ci ildə qəbul edilmiş "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minmişdir. Bu qanun əsasən, daxili bazarın xarici bazarla səmərəli əlaqəsini təmin etməklə, xarici ticarətin hüquqi tənzimlənməsinin mühüm vasitəsi olan gömrük tarifinin formalaşdırılması və tətbiqi, həmçinin Azərbaycan Respublikasının gömrük sərhəddindən keçən mallardan rüsum tutulması qaydalarını müəyyən etmişdir.

---

[109] Nəsirov Y. N., "Azərbaycan Respublikasının xarici ticarət siyasəti. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri", məqalələr toplusu, Bakı, 2000

Qeyri-tarif tənzimlənməsini sxematik olaraq aşağıdakı kimi göstərmək olar: (Sxem 3.4.)

Sxem 3.4.




Dünya praktikasında gömrük rüsumlarının aşağıdakı növləri vardır:

- Spesifik mal vahidinə görə müəyyən edilmiş dəyərə hesablanan gömrük rüsumu;
- Advaler-malın gömrük dəyərinə görə faiz hesablanan gömrük rüsumu;
- Kombinə edilmiş hər iki növü birləşdirməklə hesablanan gömrük rüsumu.

İdxal və ixrac rüsumları dövlət büdcəsinə əlavə vəsaitin cəlb edilməsini təmin etməklə yanaşı, dövlətin müəyyən maraqlarının qorunmasında iştirak edirlər. Bir qayda olaraq ən yüksək ixrac rüsumu dövlətin həmin məhsulla digər dövlətlər üzərində üstünlüyünü qoruyub saxlayır və onun satışından yüksək həcmdə vəsait əldə etmiş olur.[110]

[110] Велиев Н. Т., «ВЭС и их роль в развитии экономики Азербайджана на современном этапе», автореферат диссертации на соискание ученой степени кандидата экономических наук, Баку, 1997

Xarici ticarət əlaqələrinin tarif tənzimlənməsinin elementlərindən biri də gömrük dəyəridir. Bu ölkəyə gətirilən məhsulların qiymətləndirilməsinin əsasında durur. Gömrük dəyəri aşağıdakı üsullarla müəyyən edilir:

- Gətirilən malların sərbəstləşmə qiyməti ilə;
- Eyni cinsli malların sövdələşmə qiyməti ilə;
- Dəyərin toplanması üsulu ilə;
- Dəyərin çıxılması üsulu ilə;
- Ehtiyat üsulu ilə.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin tarif metodu 22 aprel 1998-ci il tarixli "Azərbaycan Respublikasında idxal-ixrac əməlyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Nazirlər Kabinetinin qərarı və digər normativ aktlara uyğun həyata keçirilir.

Xarici ticarətin tənzimlənməsinin klassik metodu olan gömrük tarifləri təcrübədə böyük üstünlüyə malik olsalar da, beynəlxalq sövdələşmələrdə bütün ölkələr üçün universal forma kimi qəbul oluna bilmir. Buna görə də, müasir şəraitdə xarici iqtisadi əlaqələrin tənzimlənməsində qeyri-tarif siyasəti də yeridilir. Qeyri-tarif metodları idxal və ixracın həcm və strukturuna, onların coğrafi istiqamətlərinə gömrük tariflərinə nisbətən daha çox təsir edir. Əgər dövlətin gömrük müdafiəsinin orta səviyyəsini kəmiyyətcə kifayət qədər dəqiq qiymətləndirmək mümkündürsə, əksinə qeyri-tarif metodlarından istifadə səviyyəsi isə onların çox böyük müxtəlifliyi və müxtəlif iqtisadi məzmuna malik olmaları üzündən kəmiyyətcə yalnız təxmini qiymətləndirilə bilir.

Beynəlxalq səviyyədə qəbul edilmiş təsnifləşdirmə sxemləri hal-hazırda qeyri-tarif məhdudiyyətlərinin 800-ə qədər konkret növünü göstərir. Onların çoxu gömrük tariflərindən fərqli olaraq, kəmiyyətcə dəqiq qiymətləndirilə bilmirlər və buna görə də statistikada zəif əks olunurlar. Qeyri-tarif metodlarının məhz bu cəhəti, dövlətlərə ticari siyasət sahəsində öz məqsədlərinə nail olmaları üçün, onları ayrı-ayrılıqda və yaxud da onların hər hansı bir müəyyən kombinasiyasını istifadə etməyə imkan verir.

Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkələrin malları üçün gömrük rüsumlarının son həddi Milli Məclis tərəfindən müəyyən olunur.

Bəzən mövsümi xüsusi növ gömrük rüsumları da tətbiq olunur. Mövsümi rüsumlar əsasən malların idxal və ixracını operativ tənzimləmək məqsədilə tətbiq olunur.[111]

Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları haqqında Prezidentin fəarmanına əsasən müxtəlif növ idxal və ixrac əməliyyatlarının növləri aşağıdakılardır:

1. Respublikada istehsal, emal, təkrar emal olunan malların ixracında rezidentlər sərbəstdirlər və nəzərdə tutulan hallar istisna olmaqla onların fəaliyyətləri məhdudlaşdırıla bilməz;

2. Kredit ixrac əməliyyatları faktiki mal ixracından sonra haqqı müəyyən şərtlərlə və hər hansı müddət ərzində ödənilən malların ixrac əməliyyatlarını nəzərdə tutur;

3. Təkrar ixrac əməliyyatları Azərbaycana gətirilən xarici mənşəli malların yenidən işlənilmədən digər xarici əməliyyatlardır;

4. Konseqnasiya yolu ilə ixrac əməliyyatları xarici şəxslərlə bağlanmış müqavilələrə əsasən respublika hüdudlarından kənarda satışı müəyyən müddət ərzində aparılan malların ixracını nəzərdə tutur;

5. Müvəqqəti ixrac əməliyyatları xarici ölkələrdə xidmət göstərilməsi, lizinq əməliyyatlarının aparılması, sərgilərdə iştirak və s. üçün malların yenidən işlənmədən Azərbaycan Respublikasına qaytarılması şərti ilə ixracıdır;

6. Rezidentlərin öz vasitələri hesabına idxal;

7. Barter əməliyyatları, dəyəri ödənilmədən ekvivalent məbləğdə qarşılqlı mal mübadiləsini nəzərdə tutur;

8. Kooperasiya əməliyyatları xammal, yarım fabrikat və məhsulların bu və ya digər (təmiz, emal, son məhsul şəklində gətirilməsi və s.) məqsədlə müvəqqəti olaraq ixracını (və yaxud idxalını) nəzərdə tutur;

9. Sərhədyanı ticarət müstəsna olaraq müvafiq sərhədyanı ərazi çərçivəsində istehsal olunan, eləcə də müvafiq sərhədyanı ərazi çərçivəsində istehlakı nəzərdə tutulan, resbulikanın sərhədyanı ərazisində daimi yaşayış yeri olan bütün rezidentlər

---

[111] Mirkişili Tahir Famil oğlu, "Keçid iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasının xarici ticarət siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri", iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2005

tərəfindən həm sərhəd dövlətlərlə, həm də beynəlxalq müqavilələrdə müəyyən olunmuş müvafiq sərhədyanı ərazidə xarici şəxslərlə həyata keçirilə bilər.[112]

Sərhədyanı ərazilər və sərhədyanı ticarət qaydaları İqtisadi İnkişaf Nazirliyinin rəyi ilə Nazirlər Kabineti tərəfindən müəyyən olunur. Bütün rezidentlər tərəfindən satılan malların ölkə ərazisindən çıxarılmasına gömrük orqanları tərəfindən yalnız onların haqqının ödənildiyi, yaxud akkreditiv və ya birinci dərəcəli bankların zəmanətinin təqdim edildiyi ilə əlaqədar Azərbaycan Respublikasında valyuta əməliyyatlarının aparılması üçün icazəsi, müvəkkil bankların bunu təsdiqləyən sənədi təqdim olunduqda icazə verilir.

Bütün rezidentlər tərəfindən xarici ölkələrdən mal alınması və xidmət göstərilməsi ilə bağlı olan idxal hesablaşmaları Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə müvafiq olaraq aparılır. İdxal hesablaşmalarına nəzarət müvafiq banklar tərəfindən həyata keçirilir.

Xarici ticarət əməliyyatlarının həyata keçirilməsi zamanı malların respublikanın gömrük ərazisindən aparılmasına və gətirilməsinə gömrük orqanları, hesablaşmalarına isə müvəkkil banklar nəzarət edir. Mövcud qanunvericiliyin və qaydaların pozulması halları barədə adı çəkilən orqanlar tədbirlər görülməsi üçün aidiyyatı dövlət orqanlarına təqdimat verməlidirlər.

Azərbaycan Respublikası vətəndaşlarının və xarici ölkə vətəndaşlarının işləmək üçün ölkədən getməsi və ölkəyə gəlməsi məqsədlərini "Əmək miqrasiyası haqqında Azərbaycan Respublikasının qanunu" tənzimləyir. Bu qanunda göstərilir ki, əcnəbilər haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazə aldıqdan sonra Azərbaycanda işləyə bilərlər.

Ümumiyyətlə qanunda əcnəbilərin Azərbaycan Respublikasında əmək miqrasiyası qaydaları və Azərbaycan vətəndaşlarının xarici ölkələrə əmək miqrasiyasının tənzimlənməsi mexanizmləri əks olunmuşdur. Yuxarıda adları çəkilən hüquqi aktlardan başqa 11 dekabr 1998-ci ildə Azərbaycan BMT-nin "Bütün fəhlə miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" 18 dekabr

---

[112] Amil Məmmədəli oğlu Məhərrəmov, "Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında gömrük siyasətinin formalaşması və inkişaf perspektivləri", iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010

1990-cı il tarixli Beynəlxalq Konvensiyasına qoşulmuşdur. Əmək miqrasiyası prosesləri sosial-iqtisadi həyatın bir çox sahələrinə təsir etdiyini nəzərə alsaq, onların hüquqi tənzimlənməsi və idarə olunması zəruriliyini daha aydın görərik.[113]

Milli təhlükəsizlik və milli maraqların qorunması strategiyasında iqtisadi təhlükəsizlik və iqtisadi maraqların qorunması strategiyası mühüm yer tutur. İqtisadi təhlükəsizlik dedikdə, bütöv milli iqtisadiyyatda müstəqil təsərrüfat mexanizmlərinin formalaşdırılması, xüsusən əhalinin maddi və mənəvi səviyyəsinin öz milli gəliri hesabına təmin edilməsi, xarici asılılğın minimuma endirilməsi nəzərdə tutulur. İqtisadi mütəqilliyin mühüm tərkib hissəsi iqtisadi təhlükəsizlik, enerji təhlükəsizliyi və ərzaq təhlükəsizliyidir.

Ölkəmizin milli təhlükəsizlik və onun mühüm tərkib hissəsi olan iqtisadi təhlükəsizlik konsepsiyası Prezident İlham Əliyevin imzaladığı 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. İqtisadi müstəqilliyin təmin olunmasının aparıcı istiqamətlərindən biri də enerji təhlükəsizliyidir. Ölkəmizdə enerji siyasəti reallaşdıqca ölkənin həyati əhəmiyyət kəsb edən enerji daşıyıcılarına olan ehtiyacı tam şəkildə ödənilir, dövlətə kənardan təzyiqlər minimuma endirilir.

## 3.3. Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılmasının hüquqi təminatının təkmilləşdirilməsi istiqaməti

Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra illər boyunca xarici iqtisadi əlaqələrin təmzimlənməsi strukturunun təkmilləşdirilməsi prosesi getdi. Dövlət sektorunun desentralizasiyası və demonopolizasiyası ümumi fonunda dünya, regional və sahəvi beynəlxalq institutların, Qeyri Hökumət Təşkilatlarının və digər birliklərin rolunun gücləndirilməsi baş verdi.

Qeyd edə bilərik ki, administrativ-idarəetmə aparatının kifayət qədər genişləndirilmiş strukturunun olmasına baxmayaraq xarici iqtisadi əlaqələrin effektiv idarə olunması hələ kifayət qədər yüksək deyil. Bu problemin həlli üçün, çevik və yoxlanıla bilən dövlət tənzimlənməsi və nəzarət sisteminin yaradılması məqsədilə

---

[113] Дюмулен И.И., “Всемирная торговая организация”, Экономика, Москва, 2008

konkret funksional-struktur analizi aparılmalı, icra hakimiyəti orqanları tərəfindən göstərilən elektron xidmətlər bir portalda birləşdirilməlidir. Bu daha çox, respublikada "Elektron Azərbaycan" Dövlət Proqramına keçidi təmin etmək üzrə işlərin getdiyi bir zamanda daha zəruridir.

Xarici iqtisadi siyasət strategiyasının effektivliyini yüksəltmək üçün, yerli və regional orqanların təşəbbükarlığı genişləndirilməli, yerlərdə hüquqi və digər xidmətlərin yaradılması ilə bağlı ümumi prosesual qaydalar sadələşdirilməlidir.[114]

Yaxın illərədək imzalanan müqavilələrin, razılaşmaların, konvensiyaların və protokolların kvalifikasiyası vasitəsilə yaradılan siyasi və hüquqi əsasların analizi Azərbaycan Respublikasının 20 illik dövlət müstəqilliyi boyunca hüquq institutlarının formalaşdırılması prosesini və o cümlədən, respublikanın bütün beynəlxalq strukturlara inteqrasiya prosesini müşahidə etməyə imkan verir. (Cədvəl 3.1.)

Cədvəl 3.1.

1992-2011-ci illər boyunca Azərbaycan Respublikası ilə dünya ölkələri və beynəlxalq strukturlar arasında bağlanılmış müqavilələr, razılaşmalar və konvensiyalar

| | 1992-2011 | Siyasi sferada | Ticari-iqtisadi, elmi-texniki, sənaye, neft-qaz | Sosial, ekologiya, ətraf mühitin mühafizəsi | İnsan əsas hüquq və azadlıq-larının müdafiəsi | Digər sahələr |
|---|---|---|---|---|---|---|
| Ümumi | 2510 | 347 | 1076 | 572 | 209 | 253 |
| MDB, Şərqi Avropa və Baltikyanı ölkələrlə ikitərəfli müqavilələr | 930 | 137 | 427 | 150 | 53 | 73 |
| MDB ölkələrilə çoxtərəfli razılaşmalar | 228 | 42 | 88 | 55 | 19 | 24 |
| İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrlə ikitərəfli müqavilələr | 983 | 141 | 487 | 213 | 63 | 83 |
| Beynəlxalq institutlarla çoxtərəfli razılaşmalar | 186 | 41 | 52 | 44 | 16 | 30 |
| Aərbaycan Respublikasının qoşulduğu beynəlxalq səviyyəli konvensiya və protokollar | 226 | 6 | 22 | 110 | 97 | 53 |

[114] Алескеров А. К., Ахвердова С. Г., «Независимая Азербайджанская Республика в мировом рынке» // "Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafın əsas meylləri", Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun məqalələr toplusu, VI buraxılış, Bakı, 2000

Analiz göstərir ki, 20 il boyunca Azərbaycan Respublikası ilə beynəlxalq birliklər, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələri, o cümlədən MDB, Şərqi Avropa və Baltikyanı ölkələr arasında siyasi (12.0%), ticari-iqtisadi və elmi-texniki (52.0), sosial-mədəni (25.0), insan hüquq və azadlıqlarının müdafiəsi (9.0%) sferasında və digər sahələrdə 2.5 mindən artıq birgə sənədlər qəbul edilmiş və imzalanmışdır. Bu sənədlər nəticədə ölkənin milli qapalılıqdan və eqoizimdən uzaqlaşmasına gətirib çıxardı.

Hal-hazırda ayrı-ayrı dövlətlərin iradəsindən asılı olmayaraq, fövqəlmilli səviyyədə qərarların (ÜTT, AB, AŞ) qəbulunun formalaşdırılması, beynəlxalq-hüquqi tənzimləmə sferasının genişləndirilməsi və bütün iştirakçı dövlətlər tərəfindən dəstəklənməsi tələb olunan imperativ və dispozitiv norma və standartların işlənib hazırlanması prosesi getməkdədir.

Mili Məclis tərəfindən Azərbaycanın BVF (Beynəlxalq Valyuta Fondu), BYİB (Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı), BİA (Beynəlxalq İnkişaf Assosiasiyası), BƏT (Beynəlxalq Əmək Təşkilatı), BMT (Beynəlxalq Miqrasiya Təşkilatı) və digər beynəlxalq strukturlara üzvlüyü ilə bağlı qayda və şərtlər müəyyən edilmişdir. Beynəlxalq normaların təcrübədə tətbiq edilməsi və daxili qanunvericilik normalarının trasformasiyası yolu ilə dövlətin strateji maraqları xarici iqtisadi sferada və o cümlədən, daxili siyasətdə reallaşır.

Bu qeyd-şərtsiz onunla bağlıdır ki, institusional əsaslar istehsalçılar və istehlakçılar, rezidentlər və qeyri-rezidentlər, idarə edənlər və idarə olunanlar arasında iqtisadi münasibətlərin xarici emprik forması sayılır. Nəticədə iqtisadiyyat və siyasət arasında mübarizə aradan qalxmış olur.[115]

Ölkənin beynəlxalq aləmə inteqrasiya prosesi nə qədər çox özünü göstərərsə, ölkənin öz üzərinə götürdüyü öhdəliklərin icrası və bütün sferalarda və sahələrdə icra intizamının möhkəmlənməsi bir o qədər çox dəyər qazanacaq.

Eyni zamanda emal sənayesi, elmi-texniki sfera, ekologiya, təbii resurslar və ətraf mühitin mühafizəsi sahəsində istehsal korporasiyaları arasında cüzi sayda

---

[115] Назрин Мехди кызы Салимзаде, «Проблемы регулирования внешнеторговых связей Азербайджана в современных условиях глобализации», автореферат диссертации на соискание научной степени доктора философии по экономики, Гянджа, 2014

müqavilə və razılaşmalar mövcuddur. Qanunvericilik norma və qaydalar zəncirinin və bəzən də hətta birinin mövcud olmaması iqtisadiyyatın bütün inkişaf prosesinə və xarici iqtisadi əlaqələrə mənfi təsir edə bilər.

Azərbaycan geostrateji anlamda beynəlxalq əlaqələri reqlamentləşdirən onlarla yeni qanunlar, investisiya sferasında, valyuta tənzimləməsi, gömrük işi, ixrac vergisi, idxalın lisenziyalaşdırılması və digər sahələrdə isə daxili reformlar işləyib hazırlamış və qəbul etmişdir.

Bağlanılan müqavilələrin, razılaşmaların və konvensiyaların sistemləşdirilməsi, ayrı-ayrı sferalarda boşluqların aşkarlanması, götürülən öhdəliklərin icrasının analizi, yenilərin bağlanması, beynəlxalq aləmdə və AB-də qüvvədə olan qayda və standartlar toplusunun istifadəsi və o cümlədən, yeni vahid normativ-hüquqi aktların işlənib hazırlanması və qəbulu zərurətini vurğulamaq lazımdır.

Şərqi Avropa, Baltikyanı və MDB ölkələrinə inteqrasiya prosesinin uğurlarının təsiri altında Azərbaycanın ÜTT, XTBS (Xidmətlərlə Ticarət üzrə Baş Saziş), AB və NATO kimi beynəlxalq təşkilatlara daxil olması istiqamətində işlər görülür.[116]

Gələcək inkişaf istiqamətləri baxımından – XTBS tələblərinə müvafiq olaraq, işgüzar əlaqələr də daxil olmaqla mütərəqqi siyasi strategiya formaları aşağıdakılar olmalıdır:

- İnvestisiya siyasətinin təkmilləşdirilməsi;
- Elmi-texniki əlaqələrin möhkəmləndirilməsi, o cümlədən, fundomental və tətbiqi araşdırmalar sferasında əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, ümumi elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin həyata keçirilməsi;
- ÜTT, XTBS, AB və digər beynəlxalq strukturlara daxil olma və beynəlxalq maliyyə institutları ilə əlaqələrin möhkəmləndirilməsi;
- Azərbaycan büdcəsinin gəlir hissəsinin artımı turizm hesabına təmin edilə bilər. Turizmin inkişafı önəmli prioritetlərdən olmalıdır;

[116] Э. И. Эмир-Ильясова, «Регулирование внешнеэкономических связей Азербайджансой Республики в условиях интеграции в МЭ», монография, Баку, 2006

- Son məhsulların ixrac payının artırılması, xammalın (neft, metal və kənd təsərrüfatı xammalı) isə daha dərin emal edilməsi;
- ABŞ, Yaponiya, Kanada, Almaniya, Fransa, İtaliya və Avstriya kimi ölkələrlə inteqrasiya əməkdaşlıqlarının inkişaf etdirilməsi;
- Yaxın qonşu ölkələr olan Türkiyə, İran, MDB ölkələri, Şərqi Avropa və Baltikyanı ölkələrlə əlaqələrin möhkəmləndirilməsi;
- Müəssisələr, elmi təşkilatlar, ali məktəblər, digər strukturlar və regionlar arasında birbaşa əlaqələrin qurulması üçün şərtlərin təmin edilməsi, bütövlükdə sistemin effektivliyinin yüksəldilməsinə istiqamətlənmiş transmilli korporasiyaların yaradılması, ortaq satış, təmir, reklam xidməti və digər fəaliyyət sahələrinin yaradılması.

Bütövlükdə sinergetik effektləri sistem kimi istifadəyə imkan verən və eləcə də, ekoloji cəhətdən daha sabit iqtisadi sistemlərin yaradılmasını və onlayn rejimdə yaradıcı potensialın açıqlanması imkanlarını təmin edən təşkilati-idarəetmə, sosial-iqtisadi, siyasi-hüquqi xarakterdə tədbirləri birləşdirən layihə təklif edilir.

Burada əsas diqqət regionlar da daxil olmaqla innovasiya-investisiya aktivliyinin yüksəldilməsinə yönəldilməlidir. Transformasiyanın yeni komponentlərinin nəzəri və təcrübi olaraq önəmli aspektləri üçbucaqda yer alır: iri həcmli kapital – regionlar – dövlət. Bunun üçün dövlət-özəl tərəfdaşlıq mexanizminin formalaşdırılması vacibdir. Sonuncu, daxili və xarici bazarlarda prioritet imkanların əldə edilməsi üçün məqbul "oyun qaydaları"nı yaratmaqla dövlətin nə dərəcədə vacib strateji layihələrin seçimini təmin edə bilməsindən birbaşa asılı olacaq.[117]

Beynəlxalq arenada ciddi mövqe tutmaq və müasir şəraitdə ümumi əlavə dəyərlərin bölüşdürülməsində iştirak üçün aşağıdakılar tələb olunur:

- Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf proqramı ilə fundomental əsasda sosial-iqtisadi inkişaf strateji proqramının əlaqələndirilməsi;
- Tikinti üçün nəzərdə tutulmuş ilkin layihələrin seçimində prinsip və kriteriyaların müəyyən edilməsi, bu prosesdə şəffaflığın təmin olunması, ümummilli əhəmiyyət daşıyan layihələrin reallaşdırılmasında dövlətin iştirakı;

---

[117] Qafarov Ş. C., "Müasir iqtisadi sistem və qloballaşma", Bakı, BDU nəşriyyatı, 2005

- İqtisadiyyatın bütün sahələri üçün əmək resursları bazarının yaradılması, xüsusilə kənd təsərrüfatı üçün;
- Dövlət tərəfindən fundomental və tətbiqi elmlərin prioritet sahələri üzrə investisiya artımını təmin edəcək məqsədli elmi-texniki siyasətin həyata keçirilməsi, elmin istehsalat ilə əlaqəsinin möhkəmləndirilməsi;
- Prioritet sahələrdə elmi-tədqiqat işlərinə dövlət investisiyalarının artırılması, o cümlədən, rəqabətqabiliyyətli əmtəə istehsal edən müəssisələrin daxili təklifinin stimullaşdırılması hesabına büdcə vəsaitlərinın qaytarılmasını təmin etmə;
- Büdcə vəsaitlərinin birbaşa və dolayı yolla elmi-tədqiqat işlərinə və ali məktəblərə yönləndirilməsi, o cümlədən, konkret elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin yerinə yetirilməsi üçün dövlət sifarişlərinin yerləşdirilməsi və qrantların verilməsi; elmi-tədqiqat və təcrübə-konstruktor işləri ilə məşğul olan müəssisələrə, iri həcmli layihələrə və elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə sərmayə yatıran investorlara vergi və digər imtiyazların verilməsi;
- Transmilli korporasiyalar, transmilli banklar, maliyyə sənaye qrupları, kommresiya strukturları və digər sahibkar birlikləri tərəfindən qəbul edilmiş kooperativ elmi-texniki və ekoloji proqram və layihələrdə daha aktiv iştirak və o cümlədən, istehsalın özünün çevik strategiyası;
- İnnovasiya ilə məşğul olan biznes-inkubatorların, texnoparkların və digər obyektlərin açıq maliyyələşdirilməsi;
- Yüksək texnoloji məhsul istehsalçılarının təkmilləşdirilməsi, istehsal və ixrac məsələlərində dəstəklənməsi üçün komplesk tədbirlərin görülməsi, büdcə vəsaitindən innovasiya layihələrinin reallaşdırılmasında iştirak edən vençur fondların və digər ixtisaslaşmış maliyyə institutlarının kapitalına sərmayə qoyulması;
- Dövlət tərəfindən sənayenin yenidən qurulmasına istiqamətlənmiş məqsədyönlü sənaye siyasətinin aparılması (xüsusilə, neft maşınqayırması, kimya və neft-kimya sahələrində, milli iqtisadiyyatın nüvəsi sayılan yüngül və qida sanəyesi sahələrində);
- Elm və istehsalın möhkəm əlaqələndirilməsi yoluyla yüksək ödənişli iş yerlərinin yaradılması. Elm və istehsalın vəhdəti, proqressiv xidmət növlərinin və

elmtutumlu məhsulların dünya ixracında respublikamızın ciddi mövqe tutmasına imkan verəcək;

- Bazar tipli innovasiya sisteminin formalaşdırılması, özəl sahibkarlıq sektorunun aktivliyinin təmin olunması, banklar, maliyyə bazarları, patentləşdirmə və sığorta sahə strukturları kimi institutların möhkəmləndirilməsi;
- Tədricən bərpa olunmayan və bərpa olunan resusrların effektiv istifadəsini təmin edən proqramlara keçid;
- Audit, enerji və resurs istehlak sisteminin tətbiqi ilə resursların istehlakının optimallaşdırılması. Bu xərclərin və qiymətlərin azalmasını, müvafiq olaraq istehsalın makro və mikro göstəricilərinin yaxşılaşmasını nəzərdə tutur;
- Korrupsiya əleyhinə milli və beynəlxalq hüquq normalarının aliliyi prinsipinə riayət edilməsi;
- Beynəlxalq və dövlət institutlarına və digər strukturlara nəzarət mexanizminin sonrakı təkmilləşdirilməsi;
- Normativ sənədlərin işlənib hazırlanmasında iştirak və hesabat formalarının standartlaşdırılması və unifikasiyası hesabına biznesin şəffaflığının təmin edilməsi;
- Əmtəələrin istehsalında və marketinqində monopolizmin ləğv edilməsi, daha sonra, maliyyə-kredit və vergi siyasətinin effektivliyinin təmin edilməsi hesabına investisiya fonunun və beynəlxalq ticarət rejiminin təkmilləşdirilməsi.[118]

Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsində onun xarici iqtisadi siyasətinin strateji hədəfləri ilk növbədə ölkə iqtisadiyyatının müasir durumu, onun dünya iqtisadiyyatında mövqeyinin möhkəmlənməsi və ümumi iqtisadi inkişaf strategiyasının reallaşdırılması fonunda formalaşır. Hazırda dövlətin xarici iqtisadi siyasətinin strateji istiqamətləri daha çox aşağıdakıları əhatə etməlidir:

- Xarici ticarətin ümumi dövriyyəsinin artırılması və ÜDM-da xüsusi çəkisinin daha da yüksəldilməsi;
- İdxal-ixrac balansının sağlamlaşdırılması;

---

118 Руслан Сафар оглы Абиев, «Экономический сувернитет Азербайджанской Республики и международное право», автореферат диссертации на соискание ученой степени доктора философии по юридическим наукам, Баку, 2010

- Ölkənin dünya iqtisadi məkanına və bazarlarına inteqrasiyasının gücləndirilməsi;
- Xarici investisiyaların qeyri neft sektoruna istiqamətləndirilməsi;
- Beynəlxalq iqtisadi təşkilatlarda təmsilçiliyin gücləndirilməsi və Ümumdünya Ticarət Təşkilatına üzv qəbul olunma;
- Beynəlxalq valyuta təşkilatları ilə fəaliyyətin səmərəliliyinin artırılması;
- Beynəlxalq qlobal və regional iqtisadi layihələrdə təmsilçiliyin gücləndirilməsi;
- Dünya bazarlarında enerji daşıyıcıları ixrac edən ölkə kimi təmsil olunmaq;
- Xarici ölkələrin iqtisadiyyatına investisiya qoyuluşu və kreditlərin yerləşdirilməsi;
- Xarici ölkələrdə istehsal və xidmət müəssisələrinin yaradılması və s.

Eyni zamanda xarici ticarət siyasətinin prioritet istiqamətləri kimi aşağıdakıları nəzərə almaq son dərəcə vacibdir:

- Xarici ticarət münasibətlərinin uzunmüddətli perespektivə istiqamətlənməsi;
- Daxili bazarın qorunması və iqtisadiyyatın real sektorunun inkişafının stimullaşdırılması;
- Ölkədə istehsal olunan məhsulların dünya bazarlarına çıxarılmasına kömək edilməsi, yəni ixracatın stimullaşdırılması;
- Xarici bazarlarda ölkə istehsalçılarının mənafelərinin qorunması;
- İxracatın struktur keyfiyyətinin artırılması;
- Daxili bazarların tənzimlənməsi;
- İdxalın tənzimlənməsi məqsədi ilə səmərəli gömrük və vergi sisteminin tətbiqi;
- Xarici ticarət balansına nail olunması;
- Tədiyyə balansının tənzimlənməsi və s.

Bu və digər istiqamətləri özündə əks etdirən xarici iqtisadi siyasət o vaxt effektli ola bilər ki, onun işlək, çevik və milli maraqları təmin edən hüquqi tənzimləmə mexanizmləri olsun.[119]

Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının vacib problemlərindən biri də xarici ticarət balansının, idxal və ixracın strukturunun sağlamlaşdırılmasıdır. Xüsusilə idxal ixrac əməliyyatlarında "bir pəncərə" prinsiplərinin tətbiqinə başlanması olduqca təqdirə layiqdir. İdxal-ixrac əməliyyatlarına "bir pəncərə" sisteminin tətbiqi və digər gömrük prosedurlarının sadələşdirilməsi, vergi sisteminin təkmilləşdirilməsi nəticəsində ölkədə xarici iqtisadi fəaliyyətin sürətlə artması, idxal-ixracın strukturunun xeyli genişlənməsi müşahidə olunur. Nəticədə, idxal və ixracın strukturunun məqsədyönlü şəkildə dəyişməsinə, ölkə sahibkarlarının xarici bazarlara çıxış imkanlarının artırılmasına nail olunmuş və artıq Azərbaycan sahibkarlarının 27 Avropa ölkəsi və ABŞ bazarlarına rüsumsuz və ya çox aşağı gömrük vergiləri ilə ixrac imkanları yaranmışdır. Bütün bunlar isə dünya bazarlarına Azərbaycanın qeyri neft məhsulları çıxarması sahəsində ardıcıl fəaliyyəti üçün əlavə tədbirlərin görülməsi imkanlarını daha da yaxşılaşdırır. Bu sahədə qarşıda duran əsas məsələlərdən biri də ayrı-ayrı ölkələrlə iqtisadi əlaqələri genişləndirməklə bərabər, dünya iqtisadi məkanında xüsusi nüfuza malik olan beynəlxalq təşkilatlarla əlaqələri genişləndirmək və onlarda təmsil olunmaqdır.[120]

Bu gün Azərbaycan Respublikasının xarici ticarətinin strukturu iqtisadi baxımdan səmərəli deyildir. Hazırkı şəraitdə respublikamızda xarici ticarətin tənzimlənməsi sahəsində həyata keçirilən bütün tədbirlər ticarətin maksimum liberallaşdırılması, onun ümumi iqtisadi inkişaf tələblərinə uyğun şəkildə tənzimlənməsi mexanizminin müəyyənləşdirilməsi və ticarət siyasətini formalaşdıran bütün dövlət strukturlarının fəaliyyətinin ticarət sahəsində mövcud olan problemlərin həllinə yönəldilməsi məqsədini daşımalıdır.

Bununla yanaşı, respublikamızda daxili bazarın azad rəqabət prinsipləri əsasında tam formalaşması məqsədi ilə bütün əsassız məhdudiyyətlər tədricən aradan

---

[119] Berrin Mutlu Bölek, "Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri", iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2014

[120] Kərimov İ. A., "Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri", Bakı, ABÜ nəşriyyatı, 2005, s. 320

götürülməli, mülkiyyət formasından asılı olmayaraq rezidentlərə bərabər fəaliyyət rejimi yaradılmalıdır. Eyni zamanda digər tərəfdən isə, yerli istehsalçıların mənafeyinin müdafiəsi, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması işi sistemli şəkildə həyata keçirilməlidir.

Müasir şəraitdə Azərbaycanda xarici ticarət əlaqələrinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi məsələsinin tədqiqi zamanı xarici ticarətdə biliteral asılılıq probleminə də xüsusi diqqət yetirilməlidir. İnkişaf səviyyəsindən asılı olmayaraq heç bir regional qurumla (dövlət və ya inteqrasiya bloku olmasından asılı olmayaraq) münasibətlərdə biliteral asılılığın formalaşmasına imkan verilməməlidir. Bunun həyata keçirilməsi üçün xarici ticarət fəaliyyətinin coğrafi təmərküzləşməsinə heç cür yol verilməməli, hər vəchlə multiliteral əlaqələrin inkişaf etdirilməsinə çalışılmalıdır.

Xarici ticarət siyasəti hər şeydən əvvəl Azərbaycan Respublikasının öz təbii sərvətləri üzərində suverenliyi prinsipini reallaşdırmağa xidmət edir. Bu məqsədlə xarici ticarət siyasəti: 1) ölkəmizin beynəlxalq iqtisadi və maliyyə mühitinə cəlb edilməsini, inkişaf etmiş ölkələrin bazar strukturuna yaxınlaşdırılmasını və onun müstəqil xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsində müstəsna hüququnu təmin etməli; 2) daxili və xarici iqtisadi sahibkarlıq azadlığı prinsipini inkişaf etdirməli; 3) təsərrüfat subyektləri arasında hüquq bərabərliyi prinsipini qorumalı; 4) xarici iqtisadi fəaliyyətin bütün həlqələrində qanunun aliliyi prinsipini təmin etməlidir. Azərbaycanın xarici iqtisadi əlaqələrinin intensivləşdirilməsinin vacib şərti kimi nəqliyyat kompleksinin inkişaf istiqamətlərini xüsusilə qeyd etmək lazımdır.

Beləliklə, aparılan təhlil göstərir ki, Azərbaycanın xarici ticarət potensialının möhkəmləndirilməsində xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinin həm iqtisadi, həm inzibati, həm də hüquqi metodları mühüm əhəmiyyət kəsb edir.[121]

Fikrimizcə, bütün bunları nəzərə alaraq və ümumiləşdirərək aparılan araşdırmalara əsasən yekunda belə bir nəticəyə gəlmək olar ki, respublikamızda xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi həm gömrük tarif, həm də qeyri-tarif

---

[121] Seyidoğlu H. Ş., "Uluslararası iktisat", Güzem can yayınları, İstanbul, 2003, s. 799

metodları vasitəsi ilə başlıca olaraq aşağıdakı əsas istiqamətlərdə həyata keçirilməlidir:

1. İxrac potensialının inkişafının təmin edilməsi və ixracın strukturunun təkmilləşdirilməsi;

2. İstehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi;

3. İdxalın səmərəliliyinin artırılması;

4. Texnoloji yeniləşmənin həyata keçirilməsi və ölkənin güclü iqtisadi potensialının yaradılması məqsədi ilə investisiyaların və kreditlərin prioritet sahələrə cəlb edilməsi;

5. Daxili bazarda azad rəqabət mühitinin inkişaf etdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi;

6. Yerli istehsalçıların mənafelərinin qorunması;

7. Ticarət, iaşə və digər növ xidmət sahələrində vahid informasiya-uçot sisteminin yaradılması;

8. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi.[122]

Qeyd etmək lazımdır ki, ixrac yönümlü iqtisadi inkişaf modeli inkişaf etməkdə olan ölkələrin istifadə etdiyi ənənəvi üsullardan biridir. Bu model idxal əvəzləyici inkişaf modeli ilə tarazlı istifadə edildiyi halda daha səmərəli ola bilər.

Müasir dövrdə sənayecə inkişaf etmiş ölkələrdə ixracın dövlət stimullaşdırılması mexanizmi özünün çoxcəhətliliyi və ixracın inkişafında dövlətin fəal iştirakı ilə xarakterixə olunur. Bu istiqamətdə dövlət xərcləri daim artırılır. Lakin bu xərclər xarici ticarətdən gələn gəlirlərin artımı, istehsal və məşğulluğun yüksəlməsi, vergilərdən daxilolmaların artımı və s. başqa mənbələrlə ödənilir.

Dünya bazar konyukturundan asılılığı zəiflətmək üçün ilk növbədə ixracat yönümlü qeyri-neft istehsal sahələrinin inkişaf proqramının hazırlanması, bu sahələri dirçəltmək üçün ucuz kredit siyasəti aparılması vaxtı çatmışdır. Ucuz kredit siyasəti bu sahələrin fəaliyyətini dirçəltməklə iqtisadiyyatın birtərəfli inkişafından irəli gələn fəsadların qarşısını ala bilər. Yəni, artıq bu gün neft dollarlarının ölkəyə sürətli axını

---

[122] Гахраманов В. А., «Экономические проблемы регулирования рынка потребительских товаров в условиях перехода к рыночной экономике», автореферат диссертация на соискание ученой степени кандидата экономических наук, Баку, 2004

son nəticədə manatın bahalaşmasına səbəb olmuşdur ki, bu da iqtisadiyyatın real sektorunu və ilk növbədə kənd təsərrüfatına zərbə vuraraq mənfi nəticələrə gətirib çıxara bilər. Buna görə də, Azərbaycanda sahibkarlıq fəaliyyətinin fəallaşması üçün dövlət tərəfindən tənzimlənən inflyasiya siyasəti həyata keçirlməlidir.

Bütün yuxarıda deyilənləri təhlil edib ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda ixracın dövlət həvəsləndirmə mexanizmi özündə aşağıdakıları ehtiva etməlidir:

1) Vergi və gömrük güzəştlərinin tətbiq olunması;

2) İxrac kreditlərinin və subsidiyaların verilməsi;

3) İxrac əməliyyatlarının sığortalanması və onlara zəmanət verilməsi;

4) Məhsulların xaricdə patentləşdirilməsi;

5) Sənaye avadanlıqlarının göndərilməsi üçün xarici sifarişlərin alınmasında respublika ixracatçılarına yardım olunması (məsələn: neft maşınqayırma sahəsində);

6) İxracla məşğul olan müəssisələr üçün yardım fondlarının yaradılması;

7) Xarici bazarlara çıxışın mühüm alətlərindən olan reklam və marketinqin respublika müəssisələri tərəfindən tətbiq olunmasında onlara yardım göstərilməsi;

8) İxracı genişləndirmək üçün xarici ölkələrdə ticarət nümayəndəliklərinin açılması;

9) Xarici satış bazaları haqqında məlumatın çatdırılması üçün informasiya və konsaltinq mərkəzlərinin yaradılması.

Beləliklə, respublikanın ixrac imkanlarının genişləndirilməsi və ixrac bazarının diversifikasiyası Azərbaycanın ümumi iqtisadi siyasətində başlıca istiqamətlərdən biri olmalıdır. Son nəticədə ixrac potensialının artırılması ölkəmizin valyuta gəlirlərinin çoxalmasına və deməli, onun tədiyyə balansının yaxşılaşmasına səbəb olacaqdır.[123]

Apardığımız tədqiqatlar birmənalı şəkildə göstərir ki, ümumiyyətlə bütün dünyada, eləcə də respublikamızda gömrük rüsum normaları müəyyənləşdirilərkən aşağıdakı prinsiplər mütləq nəzərə alınmalıdır:

---

[123] «Перспективы внешнеэкономических связей Азербайджана», научная статья / http://www.webeconomy.ru/index.php?page=cat&cat=mcat&mcat=162&type=news&newsid=1596

1. Gömrük rüsumları hər bir əmtəə qrupu üzrə orta səviyyədə müəyyənləşdirilməli və sonra hər bir konkret mal mövqeyinə görə dəqiqləşdirilməlidir;

2. Gömrük rüsumlarının müəyyənləşdirilməsi daxili və dünya qiymətləri arasındakı fərqlə əsaslandırılmalıdır;

3. Gömrük rüsum normaları malların emal dərəcəsi artdıqca artmalıdır. Yəni xammal üçün aşağı, yarımfabrikat üçün orta və hazır məhsul üçün yüksək gömrük rüsumları müəyyən edilməlidir;

4. İstehsalı çox əmək sərfi tələb edən məhsullar üçün yüksək rüsumlar müəyyən olunmalıdır;

5. Yüksək texnoloji, elm tutumlu və idxalında dövlətin maraqlı olduğu məhsulların idxalına aşağı rüsum normaları tətbiq edilməlidir;

6. Rüsum normaları müəyyən olunarkən dövlətin idxal siyasəti, sosial siyasəti, daxili bazarın vəziyyəti, anoloji malların istehsalının vəziyyəti və onların istehsalının inkişaf perspektivləri nəzərə alınmalıdır;

7. Rüsum normaları elə müəyyənləşdirilməlidir ki, ölkə iqtisadiyyatının strukturunda mütərəqqi dəyişiklikləri təmin etsin;

8. Rüsum normaları müəyyənləşdirilərkən xarici ölkələrlə əməkdaşlığın səviyyəsi, əmək kooperasiyasının vəziyyəti və ticarət əlaqələrinin inkişaf perspektivləri nəzərə alınmalıdır;

9. Rüsum normalarının müəyyənləşdirilməsində ən əsas amil kimi dövlətin iqtisadi təhlükəsizliyi götürülməlidir.

Xüsusi əhəmiyyət kəsb edə biləcək məsələlərdən biri də ölkəmizdə azad iqtisadi zonaların yaradılmasıdır. Bununla bağlı dövlətin müvafiq proqramları mövcuddur, ardıcıl danışıqlar aparılır və müvafiq hazırlıq işləri görülür.[124]

Xarici iqtisadi əlaqələr sahəsində təsərrüfat-təşkilatçılıq tədbirləri və milli iqtisadi inkişaf strategiyası iki əsas istiqamətə yönəldilmişdir: 1. Az bir zaman kəsiyində qeyri-neft sektoru məhsulları sahəsində beynəlxalq bazara genişmiqyaslı

---

[124] Abdullayev A. A., Xanlarov İ. F., “Azərbaycan Dövlətinin investisiya strategiyası” // AMEA, xəbərlər, iqtisadiyyat, humanitar və ictimai seriyası, Bakı, Elm, 2003

çıxmaq imkanı məhdud olduğu üçün, yerli firmaların daxili bazarda xarici şirkətlərlə sağlam rəqabət apara bilməsi üçün geniş imkanlar yaradılmalıdır. Milli bazar, beynəlxalq müqavilə və hüquq normalarına uyğun olaraq qorunmaqla yanaşı, əsas diqqət firmalar tərəfindən rəqabətqabiliyyətli məhsullar istehsalının təmin edilməsinə yönəldilməlidir. 2. Açıq iqtisadiyyat modelini yekdilliklə seçmiş Azərbaycan dünya bazarında da bərabər hüquqlu tərəf kimi fəal iştirak etməlidir. Latın Amerikası, Cənub-Şərqi Asiyanın yeni sənaye ölkələrinin təcrübəsi və Türkiyə "möcüzəsi" göstərdi ki, müasir mərhələdə geriliyin az bir zaman kəsiyində aradan qaldırılması və sıçrayışlı iqtisadi inkişafın yeganə yolu daxili bazarın tələblərini ödəməklə yanaşı, ixracat potensialının sürətli artımını təmin etmək, dünya ilə sıx inteqrasiyaya nail olmaqdır. Yeni texnika və texnologiyanın kilid həlqəsi olan valyuta ehtiyatlarının artırılması üçün idxalı əvəzetmə siyasəti ilə ixracyönümlü iqtisadi inkişaf strategiyası optimallaşdırılmalıdır.

Xarici iqtisadi əlaqələrin iqtisadi tənzimlənmə metodlarının və xarici iqtisadi əlaqələrin institusional tənzimlənmə strukturunun yaradılması olduqca mühümdür. Bir çox əmtəələrin defisitli və qiymət disproporsiyalarının mövcud olduğu şəraitdə əmtəələrin istehlakçıları və təchizatçıları ilə hesablaşmalarda yeni bazar metodlarının həyata keçirilməsi az önəmli deyil. Xarici ticarət həcmi ilə eyini zamanda, ixrac və idxal effektivliyinin yüksəldilməsi məsələsi də qaldırılmalıdır. İstehsalçıların ixraca yönəldilməsi isə yalnız iqtisadi metod və rıçaqlarla mümkün olur.[125]

Müasir maliyyə inqilabının digər tərəfi – beynəlxalq maliyyə inteqrasiyası, daxili və beynəlxalq maliyyə bazarları arasında mövcud olan sərhədlərin aradan qaldırılması və onlar arasında çoxtərəfli əlaqələrin yaradılması ilə bağlıdır. Elə bir şərait yaradılmalıdır ki, maliyyə kapitalı maneəsiz olaraq daxili bazardan beynəlxalq bazara və əksinə hərəkət edə bilsin. Ölkə daxilində əlverişli iqtisadi və maliyyə mühiti yaradılarsa, milli kapitalın xaricə axması problemi də öz-özünə aradan qalxa bilər. Ölkəmizin beynəlxalq maliyyə inteqrasiyası sürətlənərsə, nəhəng maliyyə institutları öz filial və nümayəndəliklərini açarlar. Beynəlxalq maliyyə sisteminin

---

[125] Samirə Əli qızı Eyvazova, "Avropa İttifaqının yeni qonşuluq siyasəti və Azərbaycan Respublikası: iqtisadi əməkdaşlığın beynəlxalq hüquqi problemləri", hüquq üzrə fələsə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2013

hərəkətverici mühərriki rəqabət, rəqabətin yaratdığı dinamik güc isə maliyyə yenilikləridir (innovasiya). Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının səmərəliliyi birbaşa olaraq maliyyə yeniliklərinin ölkəyə geniş miqyaslı axınından asılıdır. Ona görə də pul-kredit siyasəti həmin prosesin hərtərəfli təşviqinə yönəldilməlidir.

Ölkədə investisiya mühutinin yaxşılaşdırılması və ölkə iqtisadiyyatına yönəldilən xarici investisiyaların tənzimlənməsi sahəsində dövlət siyasətinin davam etdirilməsi ilə bərabər, ölkə daxili investisiya vəsaitlərinin dünya bazarlarına çıxarılması da ölkənin iqtisadi imkanları daxilindədir.

Valyuta liberallaşdırılması idxalat sahəsində məhdudiyyətlərin qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyası üçün mühüm amillərdən biridir. Bu sahibkar azadlığını təmin edən tədbirdir. Lakin bu məsələdə həddən artıq ehtiyatlı olmaq lazımdır. Müasir şəraitdə hər şeydən əvvəl, xarici transmilli şirkətlərin güclü rəqabətinə məruz qalan daxili bazar liberallaşdırılmalıdır. Daha geniş valyuta liberallaşdırılması aparılarkən nəzərə almaq lazımdır ki, bütün dünya ölkələrində valyuta əməliyyatlarına tam azadlıq yalnız həmin ölkələr dayanıqlı iqtisadi artım müstəvisinə çıxdıqdan sonra verilmişdir. Xarici valyuta ilə əməliyyatların tam liberallaşdırılması milli sahibkarların, yalnız daxili bazarda fəaliyyət göstərən hissəsinin rəqabət mövqeyini möhkəmləndirmir, əksinə zəiflədir və onların beynəlxalq əmək bölgüsündə iştirakını çətinləşdirir.

Orta müddətdə normativlərin işlənib hazırlanması sisteminin təkmilləşdirilməsi məqsədilə aşağıdakılar təklif olunur:

- Bütün sahələr üçün valyuta ayırmaları ilə bağlı normativlərin tətbiqi;
- Sahə prinsipindən əmtəə prinsipinə tədricən keçidlə bağlı normativlərin qəbulu;
- Valyuta gəlirlərinin mərkəzləşdirilmiş yerli fondlara transferi ilə bağlı vahid prinsipin qəbulu.

Daxili bazar qiymətləri və dünya bazar qiymətləri arasında böyük fərqlər olduğu şəraitdə, xarici iqtisadi əlaqələrin yeni tənzimlənmə alətləri ixrac və idxal vergisi sayılır. Xarici iqtisadi əlaqələrin digər önəmli iqtisadi tənzimləmə alətləri

ixracın kreditləşdirilməsi, ixrac kreditlərinin sığortalanması və digər tədbirlər sayılır.[126]

Müasir Azərbaycan gerçəkliyində qabaqcıl ölkələrin təcrübələrinin mexaniki olaraq sözügedən sahəyə tətbiq olunması əksər hallarda gözlənilən müsbət nəticələri vermir. Bu baxımdan xarici ticarət əlaqələrinin tarif tənzimlənmə mexanizminin formalaşdırılması və hərəkətə gətirilməsi prosesində ölkəmizin qabaqcıl mərkəzlərinin və bu sahədə fəaliyyət göstərən ayrı-ayrı tanınmış elm xadimlərinin potensial imkanlarından maksimum istifadə edilməlidir.

Araşdırmalar bir daha sübut edir ki, respublikamızda xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sisteminin normativ-hüquqi bazasının sürətlə dəyişən qlobal şəraitə uyğun olaraq təkmilləşdirilməsi bir proses xarakteri daşımalıdır. Xüsusilə ÜTT-nin qaydaları və digər beynəlxalq konvensiyalarda təsbit olunmuş beynəlxalq standartlarla müqaisədə bu çatışmazlıqlar özünü daha qabarıq surətdə biruzə verir. İdxal-ixrac əməliyyatlarının tənzimlənməsinin qanunvericilik bazasının yaxın gələcəkdə təkmilləşdirilməsinə ehtiyac var.[127]

---

[126] Dünyamalı Əmir oğlu Vəliyev, “Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının aktual problemləri”, iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010

[127] Эмир-Ильясова Э. И., «Геополитика во внешнеэкономических связях Азербайджанской Республики», Баку, Издательство Элм, 2003

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işində tədqiqat zamanı müəyyən ümumiləşdirmələr aparılaraq nəzəri və praktiki əhəmiyyət kəsb edən nəticələr əldə edilmiş, konkret təkliflər irəli sürülmüşdür:

1. Müasir şəratidə inkişaf səviyyəsindən asılı olmayaraq bütün milli dövlətlər xarici iqtisadi əlaqələrə cəlb olunur, onların qarşılıqlı asılılığı artmaqdadır. Xarici amillər ölkələrin, xüsusən gənc dövlətlərin taleyində getdikcə daha çox rol oynayır. Gənc ölkələrdə sərt rəqabət mübarizəsinə uyğunlaşmaq üçün güclü və effektiv fəaliyyət göstərən hüquqi təminat modelinin formalaşması zəruridir. Ona görə də milli dövlətlərin iqtisadi siyasətlərində strateji məsələlərin həlli müasir yanaşma tərzi tələb edir.

2. Ölkəmizin beynəlxalq iqtisadi əlaqələrinin strateji istiqamətləri mövcud dünya təcrübəsi nəzərə alınmaqla müəyyənləşdirilməli və daha da təkmilləşdirilməlidir. Bu məqsədlə, Yaponiya və Çinin, Cənub-Şərqi Asiya ölkələrinin dünya bazarı ilə inteqrasiya təcrübəsi ümumiləşdirilir, Azərbaycan üçün əhəmiyyətli olan konkret təcrübədən istifadə edilməsi təklif edilir. Eyni zamanda, Qərb və Şərqdə iqtisadi quruculuq təcrübəsinin sintezi olan Türkiyənin dünya təsərrüfatına inteqrasiya yolu da ölkəmiz üçün əhəmiyyətlidir. Məhz bu sahədə Türkiyə təcrübəsinin müsbət cəhətləri ümumiləşdirilmiş və istifadə edilmək məqsədilə konkret təkliflər irəli sürülmüşdür.

3. Milli iqtisadi təhlükəsizlik üçün xarici mənşəli təhdidlər özünü göstərə bilər ki, onlar xarici iqtisadi siyasət strategiyasında mütləq nəzərə alınmalıdır: zəif nəzarət olunan strateji milli ehtiyatların – kapital və intellektin xaricə axması; xarici amillərdən – dünya konyukturasının vəziyyətindən, müəyyən malların və xidmətlərin idxalından, xarici borc kapitalından, istehsal-satış şəbəkələrini nəzarətdə saxlayan nəhəng TMŞ-lərin siyasətindən kritik asılılıq; ekoloji, əhalinin sağlamlığını, informasiya sisteminin normal fəaliyyətini, rəqabət qabiliyyətinin artırılmasını və bütövlükdə ölkənin davamlı inkişafını təhlükə altına salan təhdidlər; "qara" pulların irimiqyaslı hərəkəti; xarici iqtisadi fəaliyyətdən yaranan kriminal xarakterli təhdidlər;

Azərbaycandan kölgə iqtisadiyyatına aid kapitalın külli miqdarda çıxarılması, kontrabanda, əmək ehtiyatlarının qeyri-leqal beynəlxalq hərəkəti.

4. Milli dövlətlər çərçivəsində aradan qaldırılması mümkün olmayan qlobal mahiyyətə malik risklərin proqnozlaşdırılması, müntəzəm olaraq monitorinqinin aparılması, onların ekspert qiymətləndirilməsi, zəruri təmayüllərə operativ reaksiya verilməsi və onların qarşısının alınması üçün xüsusi qurumun yaradılması lazımdır.

5. Ölkənin davamlı sosial-iqtisadi inkişafının təmin olunması üçün xarici amillərdən maksimum istifadə olunması və Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunması məqsədilə xarici iqtisadi strategiya blokuna və maliyyə sektoruna rəhbərlik edən orqanlar tərəfindən daha da təkmilləşdirilməlidir. Strategiyanın məqsədlərinə uyğun olaraq onun konkret vəzifələrinin aşağıdakılardan ibarət olması təklif olunur:

- Azərbaycanın dünya təsərrüfatı sistemi ilə maliyyə-iqtisadi əlaqələrinin forma və istiqamətlərinin çoxşaxəliliyinin, hər şeydən əvvəl emal olunmuş məhsul və məmulatların xüsusi çəkisinin artırılması hesabaına ixracatın diversifikasiyasının təmin olunması, mal çeşidlərinin artırılması ilə yanaşı, xarici bazarların coğrafiyasının genişləndirilməsi;
- Beynəlxalq istehsal-satış və maliyyə-kredit şəbəkələrinə qoşulmaqla Azərbaycan şirkətlərinin rəqabət qabiliyyətinin artırılması, bu yol ilə texnologiya və biznesdə yeni idarəçiliyin, maliyyə innovasiyalarının gətirilməsi imkanlarının genişləndirilməsi;
- Xarici maliyyə-iqtisadi sferada biznes fəaliyyətinin genişləndirilməsi üçün şəraitin yaxşılaşdırılması, maneələrin aradan qaldırılması;
- Xarici iqtisadi siyasət vasitələrindən və maliyyə-kredit mexanizmlərindən istifadə etməklə rəqabət qabiliyyətinin artırılması və ölkə üçün həyati əhəmiyyət kəsb edən milli iqtisadiyyat sahələri və alt sahələrinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və onların beynəlxalq hüquq normalarına uyğun himayə olunması;
- Maliyyə sektorunun və xarici iqtisadi fəaliyyəti tənzimləyən idarəçilik aparatının daha da modernləşdirilməsi, xarici iqtisadi siyasətin, hər şeydən əvvəl

ixracatın və investisiyaların stimullaşdırılması mexanizm və alətlərinin təkmilləşdirilməsi.

6. Dünya iqtisadi, maliyyə mühitinə inteqrasiya prosesi maliyyə sektorunun və xarici iqtisadi əlaqələrin tənzimlənməsi sisteminin daha da təkmilləşdirilməsini zəruri edir. Ona görə də, xarici iqtisadi siyasət startegiyasının hazırlanması və reallaşmasının səmərəliliyinin artırılması, onun stimullaşdırıcı və əlaqələndirici funksiyalarının daha təsirli hala gətirilməsi, dövlət və biznes strukturlarının qarşılıqlı əlaqədar fəaliyyət göstərməsi mexanizminin yaradılması üçün kompleks tədbirlər görülməlidir. Azərbaycanın maliyyə və biznes strukturlarının dünya bazarlarına çıxması üçün dövlət dəstəyinə böyük ehtiyac vardır. Bu dəstəyin miqyası və formaları qabaqcıl dünya təcrübəsi istifadə edilməklə müəyyənləşdirilməlidir.

7. Xarici iqtisadiyyatın diversifikasiyasının təmin olunması xarici iqtisadi ticarətin infrastrukturunun genişləndirilməsini tələb edir. Məlum olduğu kimi coğrafi və struktur baxımından genişmiqyaslı qlobal iqtisadiyyatla əlaqələrin dairəsinin artırılmasına xarici ticarət logistikasının qeyri-kamilliyi, gömrük rəsmiləşdirilməsinin mürəkkəbliyi, qanunların tətbiqində bürokratik sistemin mövcudluğu mənfi təsir göstərir. Ölkənin olduqca geniş tranzit potensialının genişləndirilməsində də həmin amillərin rolu böyükdür. İxracatçı şirkətlərə informasiya, yardım və digər dəstəyin verilməsində operativlik təmin edilməlidir. İnformasiya – məsləhət xidmətinin göstərilməsi üçün ixtisaslaşmış (dövlət və ya qeyri-dövlət) strukturların yaradılması, bu sahədə vahid xidmət paketi hazırlanmalıdır. Ölkənin xaricdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin şəbəkələri və onların təbliğatçılıq sahəsində funksiyaları genişləndirilməli, xarici iqtisadi fəaliyyətə xidmət göstərən maliyyə-kredit qurumları dünya standartları səviyyəsinə yüksəldilməlidir.

8. Respublikamızda idxalın strukturunun dinamikasının təhlili göstərir ki, əvvəllər idxalın tərkibində istehlak malları böyük üstünlük təşkil etdiyi halda, son illər maşın və avadanlıq idxalı neft kontraktları ilə əlaqədar olaraq birinci yeri tutur. Lakin istehlak mallarının çoxunun idxalı yüksək səviyyədə qalmaqdadır. Dövlətin müvafiq tənzimləyici tədbirləri rəqabət üstünlüyünə malik malların daxili istehsalının artırılmasına yönləndirilməlidir.

9. Son illər iqtisadi inkişafın sürətlənməsi daha çox neft amili ilə əlaqədardır. Ölkəmizin xarici ticarətinin xammal yönümlü müasir vəziyyəti demək olar ki, istehsal potensialının maddi-texniki bazası ilə şərtlənir. Ölkənin tarazlı iqtisadi inkişafı qeyri-neft sektorunun intensiv inkişafından asılıdır. Maşınqayırma kompleksi, kimya və neft-kimya sənayesi, yüngül və yeyinti sənayesinin xaricə mal ixrac edilməsində potensialı böyükdür. Həmin sahələrin istehsal-texniki bazasının yenilənməsi, innovasiya fəaliyyətinin genişləndirilməsi və istehsal vasitələrinin istehsalının artırılması diqqət mərkəzində olmalıdır. Bu prosesdə yaranmış yeni maliyyə imkanlarından, valyuta və kredit mexanizmindən geniş istifadə edilməlidir.

10. Kənd təsərrüfatının dünya iqtisadiyyat rejiminə adaptasiyası şərtləri olduqca mürəkkəbdir. Aqrar bölmədə yaranmış vəziyyət tələb edir ki, bu sahədə geniş himayəçilik tədbirləri həyata keçirilsin, onun büdcədən birbaşa dəstəklənməsi daha da artırılsın. Himayəçilik tədbirləri qiymət, dotasiya və digər maliyyə-kredit amilləri vasitəsilə həyata keçirilməlidir.

11. Azərbaycanın xarici iqtisadi siyasət strategiyasının maliyyə valyuta aspektləri araşdırılarkən inflyasiyanın yaranmasında xarici amillərin rolu müəyyən edilmiş, manatın bahalaşmasının neqativ nəticələri təhlil edilmiş və tədiyyə balansının mövcud problemləri aşkara çıxarılmış və həlli yolları göstərilmişdir. Maliyyə mühitinə inteqrasiya prosesində ciddi problemlər qarşıda durur. Postsovet məkanında, xüsusən ipək yolu ölkələrində yeni maliyyə mühiti yaranır, kapital və maliyyə axınları sürətlənir. Yaxın gələcəkdə yeni maliyyə mərkəzi formalaşacaqdır. Həmin mərkəzin Qərbdə bəzi dairələrin nəzərdə tutduğu kimi Gürcüstanda deyil, Azərbaycanda olması üçün düşünülmüş tədbirlər sistemi həyata keçirlməlidir. Məlum olduğu kimi, bunun vacib şərti valyuta-maliyyə və bank sahəsində liberallaşdırmanın aparılmasıdır. Lakin, təklif olunur ki, belə liberallaşdırma tədbirləri həyata keçirilərkən ehtiyatlı hərəkət edilməlidir.

12. Azərbaycanın resurs amilləri ilə yanaşı, investisiya və innovasiyalar hesabına rəqabət üstünlüyü əldə etməsi üçün xarici investisiyaların cəlb olunması olduqca vacibdir. Bnun üçün onların fəaliyyətini milli maraqlara daha çox uyğunlaşdırmaq təklif olunur. Xarici investorlar əsas etibarilə mineral xammalın

istehsalı və ixracı sahələrinə yönəlirlər. Onların fəaliyyətinin qeyri-neft sektoruna istiqamətləndirilməsi üçün tədbirlər sisteminin səmərəliliyi artırılmalıdır.

13. Beynəlxalq mühitdə xarici iqtisadi münasibətlər qeyri-bərabər qüvələrin kəskin mübarizə meydanına çevrildiyi üçün milli maraqların və milli təhlükəsizliyin təmin olunması Azərbaycan dövlətinin də başlıca funksiyasıdır. Müasir şəraitdə iqtisadi təhlükəsizliyə xarici amillərin təsiri güclüdür. Onlar diqqətlə öyrənilib nəzərə alınmalıdır.

14. Xairci iqtisadi əlaqələrin tənzimlənməsində böyük rolu olan beynəlxalq maliyyə-iqtisadi təşkilatlarla (BVF, Dünya Bankı və ÜTT) əlaqələrin səmərəliliyi artırılmalıdır. Nəzərə almaq lazımdır ki, onların yeritdiyi siyasət hər şeydən əvvəl transmilli şirkətlərin və yüksək inhisarçı dövlətlərin mənafeyinə və xarici kapitalın hökmranlığının təmin olunmasına xidmət edir. BVF-nun tövsiyyə və tələbləri yerli mütəxəssis rəyləri öyrənilməklə, diqqətlə nəzərdən keçirilməlidir. ÜTT-na üzvlük məsələsi həll edilərkən bir çox məsələlərin nəzərə alınması vacibdir. Unutmaq olmaz ki, perspektiv inkişaf baxımından ölkəyə zərər vura bilən düşünülməmiş öhdəliklərin götürülməsi ölkənin beynəlxalq arenaya bərabərhüquqlu inteqrasiyasını, modernləşməsini və son nəticədə iqtisadi inkişafını mürəkkəbləşdirə bilər. Azərbaycanın daxil olmaq istədiyi beynəlxalq iqtisadi təşkilatlara üzvlük məsələsi həll edilməzdən əvvəl, Azərbaycanın bu təşkilatlara daxil olması ilə konkret hansı məsələlərin həll ediləcəyi, ölkənin xarici iqtisadi siyasət strategiyasında hansı rolu oynayacağı və bu zaman hansı güzəştlərə gediləcəyi qəti şəkildə aydınlaşdırılmalıdır.

15. Respublikamızda xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sisteminin normativ-hüquqi bazasının sürətlə dəyişən qlobal şəraitə uyğun olaraq təkmilləşdirilməsi bir proses xarakteri daşımalıdır. İdxal-ixrac əməliyyatlarını tənzimləyən qanunvericilik bazasının yaxın gələcəkdə təkmilləşdirilməsinə ehtiyac var. Azərbaycanda ixracın dövlət həvəsləndirmə mexanizmi işlənib hazırlanmalıdır. Dünya bazar konyukturundan asılılığı zəiflətmək üçün ilk növbədə ixracat yönümlü qeyri-neft istehsal sahələrinin inkişaf proqramının hazırlanması lazımdır. Respublikanın ixrac imkanlarının genişləndirilməsi və ixrac bazarının diversifikasiyası Azərbaycanın ümumi iqtisadi siyasətində başlıca istiqamətlərdən biri

olmalıdır. Xüsusi əhəmiyyət kəsb edə biləcək məsələlərdən biri də ölkəmizdə azad iqtisadi zonaların yaradılmasıdır.

16. Müasir şəraitdə Azərbaycanda xarici ticarət əlaqələrinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi zamanı xarici ticarətdə biliteral asılılıq probleminə də xüsusi diqqət yetirilməlidir. İnkişaf səviyyəsindən asılı olmayaraq heç bir regional qurumla (dövlət və ya inteqrasiya bloku olmasından asılı olmayaraq) münasibətlərdə biliteral asılılığın formalaşmasına imkan verilməməlidir. Bunun həyata keçirilməsi üçün xarici ticarət fəaliyyətinin coğrafi təmərküzləşməsinə heç cür yol verilməməli, hər vəchlə multiliteral əlaqələrin inkişaf etdirilməsinə çalışılmalıdır. Xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi həm gömrük tarif, həm də qeyri-tarif metodları vasitəsi ilə həyata keçirilməlidir.

17. Respublikamızda xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi həm gömrük tarif, həm də qeyri-tarif metodları vasitəsi ilə başlıca olaraq aşağıdakı əsas istiqamətlərdə həyata keçirilməlidir:

1. İxrac potensialının inkişafının təmin edilməsi və ixracın strukturunun təkmilləşdirilməsi;

2. İstehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi;

3. İdxalın səmərəliliyinin artırılması;

4. Texnoloji yeniləşmənin həyata keçirilməsi və ölkənin güclü iqtisadi potensialının yaradılması məqsədi ilə investisiyaların və kreditlərin prioritet sahələrə cəlb edilməsi;

5. Daxili bazarda azad rəqabət mühitinin inkişaf etdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi;

6. Yerli istehsalçıların mənafelərinin qorunması;

7. Ticarət, iaşə və digər növ xidmət sahələrində vahid informasiya-uçot sisteminin yaradılması;

8. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi.

18. Bu və digər istiqamətləri özündə əks etdirən xarici iqtisadi siyasət o vaxt effektli ola bilər ki, onun işlək, çevik və milli maraqları təmin edən hüquqi tənzimləmə mexanizmləri olsun. Xarici iqtisadi siyasət strategiyasının effektivliyini

yüksəltmək üçün, yerli və regional orqanların təşəbbükarlığı genişləndirilməli, yerlərdə hüquqi və digər xidmətlərin yaradılması ilə bağlı ümumi prosesual qaydalar sadələşdirilməlidir. Bağlanılan müqavilələrin, razılaşmaların və konvensiyaların sistemləşdirilməsi, ayrı-ayrı sferalarda boşluqların aşkarlanması, götürülən öhdəliklərin icrasının analizi, yenilərin bağlanması, beynəlxalq aləmdə və AB-də qüvvədə olan qayda və standartlar toplusunun istifadəsi və o cümlədən, yeni vahid normativ-hüquqi aktların işlənib hazırlanması və qəbulu zərurətini vurğulamaq lazımdır.

19. Orta müddətdə normativlərin işlənib hazırlanması sisteminin təkmilləşdirilməsi məqsədilə aşağıdakılar təklif olunur:

- Bütün sahələr üçün valyuta ayırmaları ilə bağlı normativlərin tətbiqi;
- Sahə prinsipindən əmtəə prinsipinə tədricən keçidlə bağlı normativlərin qəbulu;
- Valyuta gəlirlərinin mərkəzləşdirilmiş yerli fondlara transferi ilə bağlı vahid prinsipin qəbulu.

20. Bütövlükdə sinergetik effektləri sistem kimi istifadəyə imkan verən və eləcə də, ekoloji cəhətdən daha sabit iqtisadi sistemlərin yaradılmasını və onlayn rejimdə yaradıcı potensialın açıqlanması imkanlarını təmin edən təşkilati-idarəetmə, sosial-iqtisadi, siyasi-hüquqi xarakterdə tədbirləri birləşdirən layihə təklif edilir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Arif Şəkərəli oğlu Şəkərəliyev, "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər", monoqrafiya, Bakı 2009, s. 154-169
2. Ayxan Nəsibli, "Tədqiqat: Azərbaycanda ticarət dinamikası və ticarət məhdudiyyətlərinin adambaşına düşən xərcləri", Azad Düşüncələr Assosiasiyası, Bakı, 2011
3. Abdullayev A. A., Xanlarov İ. F., "Azərbaycan Dövlətinin investisiya strategiyası" // AMEA, xəbərlər, iqtisadiyyat, humanitar və ictimai seriyası, Bakı, Elm, 2003
4. Amil Məmmədəli oğlu Məhərrəmov, "Qloballaşma şəraitində Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasında gömrük siyasətinin formalaşması və inkişaf perspektivləri", iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010
5. A. N. Abbasbəyli, "Müasir beynəlxalq münasibətlər və qloballaşma", dərslik, Bakı, 2007, s. 61-81
6. Alıyev İsa Hüseyn oğlu, "Qloballaşma müstəvisində yeni iqtisadi təfəkkürün formalaşması zəruriliyi və onun nəzəri-metodoloji əsasları haqqında", elmi məqalə / http://hieb.science.gov.az/index.php?mod=7&view=item&id=395
7. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, "Qloballaşma mühitində milli iqtisadi inkişaf modelin: formalaşması və inkişafı problemləri", monoqrafiya, Bakı, 2010, s. 69-85
8. Arif Şəkərəli oğlu Şəkərəliyev, "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər", monoqrafiya, Bakı, 2009
9. "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi", elmi məqalə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı / http://mfa.gov.az/?options=content&id=566
10. «Azərbaycan-Türkiyə: bir millətin iki dövlətini bağlayan iqtisadi tellər", elmi məqalə, Media Forum / http://www.azerbaycanli.org/az/page434.html
11. "Azərbaycan - İslam Konfransı Təşkilatı münasibətləri", elmi məqalə / http://lib.aliyevheritage.org/az/6958380.html
12. "Azərbaycanın xarici ticarəti 2006-2007-ci illər", Statistik məcmuə, Bakı, 2008
13. Allahverdiyev H. B., "İqtisadiyyatın hüquqi tənzimlənməsinin əsasları", Bakı, 2009
14. Berrin Mutlu Bölek, "Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətləri", iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2014
15. Bölek B. M., "Azərbaycan Xarici Ticarətinin Dünya İqtisadiyyatına İnteqrasiyası, Azərbaycan Universiteti "Müasir Dünyada İnteqrasiya və Müqavimət Prosesləri" Beynəlxalq Elmi Nəzəri", Konfrans, Bakı, 2011
16. B. İ. Məmmədxanov, S. A. Mehdizadə, "Müasir inteqrasiya meylləri və onun qiymətləndirilməsi", elmi məqalə
17. "Beynəlxalq iqtisadi münasibətlər", elmi məqalə / http://azerbaijans.com/content_730_az.html

18. Dünyamalı Əmir oğlu Vəliyev, "Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitə inteqrasiyasının aktual problemləri", iqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010

19. Elçin Əhmədov, "Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının yeni mərhələsi", elmi məqalə / http://strategiya.az/old/?m=xeber&id=3013

20. Elşən Məmmədov, "Azərbaycan və Avropa İttifaqı: sülh və rifah naminə əməkdaşlıq", elmi məqalə / http://azerinfo.eu/old/az/index.php?option=com_content&view=article&id=285:azrbaycan-v-avropa-ttifaq-suelh-v-rifah-namin-mkdalq&catid=1:latest-news

21. "Əsrin müqaviləsi", elmi məqalə / http://azerbaijan.az/_Economy/_OilStrategy/oilStrategy_04_a.html

22. F. Qənbərov., "Xarici iqtisadi əlaqələr və iqtisadi artım", Bakı, Elm, 2012.

23. Həsənov Ə., "Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti", Bakı, 2005

24. Hümbətov Namiq Mürşüd oğlu, "Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dövlət tənzimlənməsi və onun təkmilləşdirilməsi istiqamətləri", iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2009

25. Kərimov İ. A., "Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri", Bakı, ABÜ nəşriyyatı, 2005, s. 320

26. Kərimov Ə. İ., Kərimov C. Ə., "Beynəlxalq iqtisadi münasibətlər", Bakı, 2006

27. Qafarov Ş. C., "Müasir iqtisadi sistem və qloballaşma", Bakı, BDU nəşriyyatı, 2005

28. Ləman Xəlilova, "Azərbaycanın regional iqtisadi birliklərlə əməkdaşlığı", məqalə / http://news.lent.az/news/184626

29. Mirkişili Tahir Famil oğlu, "Keçid iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasının xarici ticarət siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri", iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı, 2005

30. Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet saytı / http://www.azstat.org; www.azstat.org

31. Nəsirov Y. N., "Azərbaycan Respublikasının xarici ticarət siyasəti. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri", məqalələr toplusu, Bakı, 2000

32. Rüstəmov V. Ə., Həsənov R. T., "Azərbaycan iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasının bəzi məsələləri" // "Azərbaycan XXI əsrin astanasında" elmi-praktik konfransının materialları, Bakı, Şərq-Qərb, 1998

33. R. Mehdiyev, "Azərbaycan: qloballaşmanın tələbləri", Bakı, 2005, s. 335

34. Rəbiyyət Aslanova, "Azərbaycanın dünyaya inteqrasiyasında yeni mərhələ", məqalə / http://jurnal.meclis.gov.az/news.php?id=15

35. Samirə Əli qızı Eyvazova, "Avropa İttifaqının yeni qonşuluq siyasəti və Azərbaycan Respublikası: iqtisadi əməkdaşlığın beynəlxalq hüquqi problemləri",

hüquq üzrə fəlsə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2013

36. Səmədzadə Z. Ə., "Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüzələri", Bakı, 2001

37. Suraxanım Ağaverdiyeva, Aygül Cəfərova, "Azərbaycanın Avropa yolu gənclərin gözü ilə", məqalə, Qanun Nəşriyyatı, Bakı, 2013 / http://www.kas.de/wf/doc/kas_35287-1522-1-30.pdf?130902131300

38. Şahin Mustafayev, "Azərbaycanın xarici iqtisadi əlaqələri yeni mərhələdə", elmi məqalə / http://arxiv.az/az/azerbaijan-news.az/7778314/Azerbaycanin+xarici+iqtisadi+elaqeleri+yeni+merhelede

39. Vüqar Bayramov, "Azərbaycanın ÜTT-ə üzvlük prosesinin qiymətləndirilməsi üzrə siyasət sənədi", Bakı, 2010

40. Vahid Ömərov, "Azərbaycan-GUAM əməkdaşlığının perspektivi", Səs qəzeti, Bakı, 2013

41. Vahid Ömərov, «Azərbaycan-ABŞ iqtisadi əlaqələri", Səs Qəzeti, Bakı, 2012 / http://sia.az/az/news/interesting/330963-azerbaycan-abs-iqtisadi-elaqeleri

42. Vüqar Bayramov, "Azərbaycanın xarici iqtisadi əlaqələri: qeyri-neft sektorunun inkişaf potensialı fonunda", Bakı, 2012 / http://www.anl.az/down/meqale/xalqqazeti/2012/iyun/X42.htm

43. Zahid Məmmədov, "Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri", Bakı, 2004

44. "2012-ci ildə Azərbaycan Respublikasının beynəlxalq iqtisadi tşkilatlarla əməkdaşlığına dair arayış", Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəsmi internet saytı / http://www.mfa.gov.az/?options=content&id=740

45. Azim Kazımov, "Uluslararası Pazarlamada Pazarlama Karması Stratejileri", yüksek lisans tezi, Ankara, 2004

46. Işın Çelebi, "ABD ve AB-nin Yeni Ekonomik İşbirliği Stratejileri ve Türkiyeye Etkileri", Marmara Avrupa Araştırmaları Dergesi, cilt 21, sayı 2, 2013

47. Latif Yılmaz, "Avrupa Birliğinin Sosyo-Ekonomik Geleceği: Lizbon Stratejisi ve Küreselleşme", Ankara, 2010

48. Sinem Yapar Saçık, "Dış Ticaret Politikası ve Ekonomik Büyüme İlişkisi: Teorik Açıdan Bir İnceleme", KMU İİBF Dergisi, sayı 16, 2009

49. Seyidoğlu H. Ş., "Uluslararası iktisat", Güzem can yayınları, İstanbul 2003, s. 799

50. TÜSİAD, "Uluslararası rekabet stratejileri: Türkiye gıda sanayii", İstanbul, 2007

51. T.C. Dış İşler Bakanlığı, "Uluslararası Ekonomik Sorunlar", dergi sayı 39, İstanbul, 2010

52. А. Б. Родинова, «Экономическая безопасность государства», научная статья / http://www.sakharov.ru/meo/meo2/33.htm

53. А. Алексеева, «Новая волна богатства», Эксперт, 2008, № 2 (591)

54. Алескеров А. К., Ахвердова С. Г., «Независимая Азербайджанская Республика в мировом рынке» // "Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafın əsas meylləri", Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun məqalələr toplusu, VI buraxılış, Bakı, 2000

55. А. И.Евдокимова, “Международные экономические отношения”, Москва: Проспект, 2004

56. Ахмедов М., «Глобализация и формирование национальной экономики», Баку: Азернешр, 2003, с. 69-85

57. Б. М. Маклярский, «Мировая экономика», учебное пособие, Москва, 2004, с. 458

58. «Внешнеэкономическая политика государства», статья / http://extremo-norte.diary.ru/p148212350.htm?oam

59. «Внешняя политика, её сущность и функции», статья / http://about-political.ru/vneshnyaya-politika-eyo-sushhnost-i-funkcii/

60. «Внешняя политика, ее цели и задачи», статья / http://www.telenir.net/gosudarstvo_i_pravo/politologija_shpargalka/p43.php

61. Википедия – свободная энциклопедия / http://ru.wikipedia.org/wiki/Организация_Объединённых_Наций

62. В. Студенцов, «Новая кембриджская школа», «Мировая экономика и международные отношения», 1988, № 1

63. В. И. Фомичев, “Международная торговля: Теорема Рыбчинского”, статья / http://polbu.ru/fomichev_inttrading/ch06_i.html

64. Всемирная таможенная организация, «Комплекс мер по обеспечению экономической конкурентоспособности: план действии», Брюссель, 2012

65. Гаджиев Ш. Г., «Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития», Киев, Експрес, Об`ява, 2000

66. Гахраманов В. А., «Экономические проблемы регулирования рынка потребительских товаров в условиях перехода к рыночной экономике», автореферат диссертация на соискание ученой степени кандидата экономических наук, Баку, 2004

67. Дюмулен И. И., “Всемирная торговая организация”, М.: Экономика, 2008

68. Дергачев В. А., «Глобальная геоэкономика» (Трансформация мирового экономического пространства), научная монография, Одесса: ИПРЭЭИ НАНУ, 2003, с. 238

69. Дмитриев Валентин Александрович, «Региональная стратегия внешнеэкономической деятельности: сущность, структура и методические основы ее разработки», диссертация на соискание ученой степени кандидата экономических наук, Иркутск, 2000

70. Дж. М. Кейнс, «Общая теория занятости, процента и денег», Гелиос АРВ, Москва, 2002

71. Е. Н. Ведута, «Стратегия и экономическая политика государства», Москва, 2002, с.12

72. Е. Н. Ведута, «Стратегия и экономическая политика государства», Москва, 2002, с. 14-21

73. Егоров А. В., «Правовая интеграция и ее содержание. Государство и право», Москва, 2004, № 1, с. 74-84

74. Зиядуллаев Н., «Современная экономическая ситуация в СНГ», статья-анализ / http://institutiones.com/general/1328-sovremennaya-ekonomicheskaya-situaciya.html

75. Зейналова Л. А., «Инвестиционные приоритеты структурных преобразований в промышленности в условиях рыночных отношений», диссертация на соискание ученой степени кандидата экономических наук, Баку, 2005, с. 25

76. И. Ершова, «Субъекты внешнеэкономической деятельности», научная статья / http://www.inventech.ru/lib/pravo/pravo-0232/

77. «Конкурентный ромб» М. Портера, статья / http://www.ereading.link/chapter.php/103771/20/Ron'shina,_Nosova_-_Mezhdunarodnye_ekonomicheskie_otnosheniya__konspekt_lekciii.html

78. Колесниченко Мария Анатольевна, «Внешнеэкономическая политика Азербайджанской Республики в 1991-2011 гг.», диссертация на соискание ученой степени кандидата экономических наук, Санкт-Петербург, 2012

79. Кязимов Рашад Назим оглы, «Геоэкономические аспекты развития внешнеэкономических связей Азербайджана в условиях глобализации», автореферат диссертации по присуждению ученой степени доктора философии по экономическим наукам, Баку, 2011

80. Лебединец И. Н., «Глобалистика: Энциклопедия», Москва, 2003, с. 731-734

81. Мамед-заде Наргиз Сабир кызы, «Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и восточной Европы», Баку, 2006

82. «Международное разделение труда», статья / http://eulaw.edu.ru/documents/articles/glob1.htm

83. «Международные отношения и международная политика», статья / http://banauka.ru/2634.html

84. “Международные экономические отношения”, статья / http://www.azerbaijans.com/content_730_ru.html

85. Нагиев Анар Расул оглы, «Проблемы регулирования внешнеэкономических связей Азербайджана в условиях глобализации», автореферат диссертации по присуждению ученой степени кандидата экономических наук, Баку, 2008

86. Назрин Мехди кызы Салимзаде, «Проблемы регулирования внешнеторговых связей Азербайджана в современных условиях глобализации», автореферат диссертации на соискание научной степени доктора философии по экономики, Гянджа, 2014

87. Николаев Артем Георгиевич, «Современные тенденции экономического сотрудничества стран Азиатско-тихоокеанского региона», диссертация на соискание ученой степени кандидата экономических наук, Москва, 1999

88. Натиг Алиев, «Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке», Монография, 2010

89. «Особенности государственного регулирования экономики во Франции. Экономическая политика дирижизма», научная статья / http://www.studme.org/

90. Оборина Екатерина Дмитриевна, «Формирование стратегии развития внешнеэкономической деятельности региона», диссертация на соискание ученой степени кандидата экономических наук, Екатеринбург, 2011

91. «Перспективы внешнеэкономических связей Азербайджана», научная статья / http://www.webeconomy.ru/index.php?page=cat&cat=mcat&mcat=162&type=news&newsid=1596

92. «Парадокс Леонтьева», статья / http://mirovaja-ekonomika.ru/paradoks-leonteva/

93. «Понятие и сущность внешнеэкономических связей и внешнеэкономической деятельности», статья / http://www.economy-web.org/?p=55

94. Пузакова Е. П., “Международные экономические отношения”, Ростов-на-Дону: ИЦ «МарТ», 2000

95. Руслан Сафар оглы Абиев, «Экономический суверенитет Азербайджанской Республики и международное право», автореферат диссертации на соискание ученой степени доктора философии по юридическим наукам, Баку, 2010

96. «Сущность, виды и методы внешнеэкономической политики государства», научная статья / http://artref.ru/bez-rubriki/sushhnost-vidy-i-metody-vneshnee-konomi.html

97. С. В. Решетникова, «Понятие и сущность внешней политики государств», научная статья / http://studlib.com/content/view/75/6/

98. «Сущность и виды международной торговой политики», статья / http://literus.narod.ru/Bussines/MirEcon/2-g1-3-1.htm

99. «Современная политика протекционизма», статья / http://www.grandars.ru/student/nac-ekonomika/protekcionizm.html

100. Сафаров Тавис Аглямович, «Внешнеэкономический комплекс региона России в условиях интеграции в мировое хозяйство», диссертация на соискание ученой степени доктора экономических наук, Москва, 2003

101. С. Агаев, Ш.Алиев, «Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией» (монография), Баку, 2004

102. «Типы внешнеторговой политики государств», статья / http://banauka.ru/522.html

103. Т. А. Фролова, «Теории международной торговли», Таганрог: ТРТУ, 2005 / http://www.aup.ru/books/m175/1_3.htm

104. Чухно А. А., П. И. Юхименко, П. М. Леоненко, «Современные экономические теории», Знания, 2007

105. Шлямин Валерий Александрович, «Формирование внешнеэкономической стратегии России по отношению к странам северной Европы», диссертация на соискание ученой степени доктора экономических наук, Санкт-Петербург, 2008

106. Шамседдин Гаджиев, “Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития”, Киев, 2000

107. Шишков Ю., «Международное разделение производственных процессов меняет облик мировой экономики. // Мировая экономика и международные отношения, 2004, № 10

108. Ш. Т. Алиев, «Важнейшие факторы по развитию торгово-экономических отношений между Азербайджаном и Россией», № 4 (61), 2008, с. 22-27

109. Ш.Т.Алиев, «Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией», журнал «Экономика и жизнь», №07, Баку, 2005, с. 19-23

110. Ш.Т.Алиев, «Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией в условиях глобализации и экономических трансформации», Материалы II Международного Конгресса Гафгаз и Центральная Азия в процессе глобализации - экономический и международных отношений» в 3-х книгах; I книга, Университет «Гафгаз», Баку, 2007

111. Ш.Т.Алиев, «Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией», Автореферат по присуждению ученой степени кандидата экономических наук, 2007, с. 28

112. Эмир-Ильясова Эсма Ильяс кызы, «Внешнеэкономические связи Азербайджанской Республики в условиях интеграции в мировую экономику», автореферат диссертации на соискание ученой степени доктора экономических наук, Баку, 2013

113. Э. И. Эмир-Ильясова, «Регулирование внешнеэкономических связей Азербайджанской Республики в условиях интеграции в МЭ», монография, Баку, 2006

114. Эмир-Ильясова Э. И., «Геополитика во внешнеэкономических связях Азербайджанской Республики», Баку, Издательство Элм, 2003

115. «Этапы международной экономической интеграции стран», статья / http://www.grandars.ru/student/mirovaya-ekonomika/ekonomicheskaya-integraciya.html

116. «Экономические аспекты мира и безопасности», статья / http://www.sakharov.ru/meo/meo2/33.htm

117. Збигнев Бжезинский, “Великая шахматная доска - господство Америки и его геостратегические императивы”, перевод: О. Ю. Уральской, Москва, 1998

118. “Azerbaijan - Economic Cooperation Organization (ECO) relations”, article, Heydar Aliyeav Heritage İnternational Online Library / http://lib.aliyev-heritage.org/en/4271680.html

119. “And Anticorruption in Europe and Central Asia”, 2003 / wb.org/acfiu/acfiu web.ncf/ 30 p

120. C. Fred Bergsten, “The United States and the World Economy: Foreign Economic Policy for the Next Decade”, Article / https://ideas.repec.org/b/iie/ppress/3802.html

121. European Commission (a), "Transatlantic Trade and Investment Partnership: The Regulatory Part", 2013 / http://trade.ec.europa.eu/doclib/docs/2013/july/tradoc_151605.pdf

122. Felbermayr G., Larch M., Flach L., Yalçın E. and Benz S., "Dimensions and Effects of a Transatlantic Free Trade Agreement Between the EU and US", Cesifo Institute, Munich, 2013 / http://www.bmwi.de/English/Redaktion/Pdf/dimensions-and-effects-of-a-transatlantic-free-trade-agreement-between-the-eu-and-usa

123. Frank Levy, "Distribution of Income", article / http://www.econlib.org/library/Enc/DistributionofIncome.html

124. "International Economic Policy", article / http://2001-2009.state.gov/r/pa/ho/pubs/8521.htm

125. International Monetary Fund, "Current Developments in Monetary and Financial Law", Ibp USA publisher, 2008, 657 p.

126. Jeff Madura, "Financial Institutions and Markets, International Edition", South Western College Publisher, 2008, 733 p.

127. Laman Khalilova, "Azerbaijan in the Organization of Islamic Cooperation", scientific articles, 2014 / http://a-r.az/en/node/6794

128. Mehriban Vasif Babazade, "National interests in formation of contemporary Azerbaijani foreign-policy concept", scientific articles

129. Official website of "Organization of the Black Sea Economic Cooperation" / http://www.bsec-organization.org/Pages/homepage.aspx

130. Official web page of "Organization of Petroleum Exporting Countries" / http://www.opec.org/opec_web/en/

131. Peter J. Katzenstein, "International relations and domestic structures: Foreign economic policies of advanced industrial states", article / http://journals.cambridge.org/action/displayAbstract?fromPage=online&aid=3214028

132. Richard T. Ely Lecture, "History of Economic Doctrines and Economic History", by Alexander Gerschenkron, Harvard University

133. Steve Suranovic, "International Trade: Theory and Policy", article / http://catalog.flatworldknowledge.com/bookhub/28?e=fwk-61960-ch05_s06

134. Vugar Bayramov, "Azerbaijan's Accession to World Trade Organization (WTO); Pros and Cons", Baku, 2010

135. "Word Investment Report. Policies for Development: National and International perspectives", 2003 FD, 303 p., / www.ustad.org/wir

136. Yang Jiechi, "China's New Foreign Relations for a Complex World" article / http://www.ciis.org.cn/english/2014-03/11/content_6733146.htm

137. Міністерство освіти і науки України, "Міжнародні стратегії економічного розвитку", Київ «Аврио», 2011

138. Ю. Г. Козак, Ковалевський В.В., І. В. Ліганенко, "Міжнародні стратегії економічного розвитку", Центр учбової літератури, Київ, 2009

139. Ширякова О. О., "Стратегія міжнародної економічної діяльності України на сучасному етапі формування глобальної економічної системи: теоретичний аспект", / http://www.rusnauka.com/10_NPE_2011/Economics/2_83141.doc.htm

140. Філіпенко А. С., “Глобальні форми економічного розвитку: історія і сучасність”, ДО.: Знання, 2007

141. Пісьмаченко Л. М., “Державне управління зовнішньоторгівельною діяльністю в Україні: регулювання та контроль”, монографія, “Тов. Юго-Восток, Лтд", Донецьк, 2008

# РЕЗЮМЕ

Диссертационная работа посвящена правовому обеспечению механизма формирования стратегии внешнеэкономической политики Азербайджанской Республики, а также исследованию ее характерных особенностей и возможных направлений совершенствования с учетом национальных интересов. Основная цель диссертации заключается в изучении тенденций правового регулирования внешнеэкономических связей, выработке конкретных предложений и рекомендаций по ее совершенствованию.

В рамках диссертационной работы раскрыта сущность стратегии внешнеэкономической политики государства, исследованы ее теоретико-методологические основы, концепции формирования, а также тарифные и нетарифные методы регулирования международной торговли, специфические аспекты внешнеэкономической политики Азербайджана. Всесторонне анализированы текущее состояние, динамика развития, структура и география внешнеэкономических связей страны, изучены характерные особенности нормативно-правовой базы. Оценены также современное состояние и потенциальные перспективы интеграции Азербайджанской Республики в международные экономические организации, тенденции влияния на формирование внешнеэкономической политики, рассмотрены преимущества (выгоды) от возможного членства и риски, изучен процесс формирования институционально-организационных механизмов интеграции в мировое хозяйство.

Особое значение дано правовому обеспечению механизма формирования стратегии внешнеэкономической политики государства в новой геостратегической арене. В диссертационной работе выявлены направления совершенствования нормативно-правовой базы государственного регулирования экспортно-импортных операций, обоснована необходимость внедрения международного опыта с учетом национальных экономических интересов.

Особое внимание уделено также анализу текущего состояния экспортно-импортных операций страны. Отмечается, что основной целью стратегии внешнеэкономической политики государства в современных условиях является повышение экспортного потенциала, диверсификация экспортной базы и развитие мультилитеральных отношений. Наряду с этим, в диссертационной работе отмечаются перспективы совершенствования и развития системы экспортной экспансии и таможенно-тарифного регулирования страны.

# ANNOTATION

The thesis is devoted to a legal provision, a characteristic feature of the mechanism of formation of foreign economic policy strategy of Azerbaijan Republic under current conditions and its possible areas of improvement subject to national interests. The main objective of the thesis is the studying of the trends of legal regulation of foreign economic relations, the development of specific proposals and recommendations to improve it.

The thesis investigates the nature of the work, theoretical and methodological foundations, the concept of the foreign economic policy strategy, methods of tariff and non-tariff regulation of international trade, specific features of the foreign economic policy of Azerbaijan. The current state, the dynamics of development, structure and geography of the country's foreign economic relations are comprehensively analyzed, the characteristics of the regulatory framework are studied. The current state, the potential prospects of integration of Azerbaijan with international economic organizations, the tendency of its influence on the formation of foreign economic policy is evaluated, contrasts and benefits of eventual membership are justified, the formation of institutional and organizational mechanisms for the integration of the world economy is investigated.

Particular attention is paid to a legal provision of the foreign economic policy strategy mechanism formation in the new geopolitical space. The thesis deals with the identification of areas of improvement of the legal framework of state regulation for export-import operations, the rationale for the use of international practices subject to national economic interests.

Special attention is paid to the analysis of the current state of imports and exports. It is emphasized that the primary objective of the strategy of foreign economic policy of the state in modern conditions is to increase export capacity, diversifying the export base and to develop multilateral relations. In addition, the thesis notes prospects of improvement and development of the country's export expansion system and its customs and tariff regulation.

# REFERAT

Dissertasiya işi müasir şəraitdə Azərbaycan Respublikasının xarici iqtisadi siyasət strategiyasının formalaşdırılması mexanizminin hüquqi təminatının xarakterik xüsusiyyətlərinə və milli maraqları nəzərə almaqla onun mümkün təkmilləşdirilməsi istiqamətlərinə həsr olunmuşdur.

Hamıya məlum olduğu kimi xarici iqtisadi siyasət iki funksiyanı – müdafiə və təcavüz funksiyasını yerinə yetirir. Dissertasiyada hər iki funksiya ABŞ və Çinin timsalında şərh edilmişdir. Xarici iqtisadi siyasət geniş və dar mənada olmaq üzrə iki yerə ayrılaraq ələ alınır. İqtisadi siyasətin beynəlxalq koordinasiyası amerika araşdırmacısı Robert Karbaunun timsalında daha dəqiq müəyyən edilmişdir. Dövlət orqanlarının iki alt sistemi olan milli və hökumətlərarası institutların fəaliyyət istiqamətləri açıqlanır.

Xarici dünya ilə qarşılıqlı fəaliyyətin üsul və qaydaları, hüquq normalarının böyük arsenalı, diplomatik və bəzən də hərbi metodların iştirakı olmadan belə bir arenanın ustalıqla fəaliyyət göstəməsi mümkün deyil. Beynəlxalq təşkilatların da öz növbəsində xarici iqtisadi siyasi problemlərin həlli ilə məşğul olma səviyyəsi açıqlanır. Beynəlxalq münasibətlərin müxtəlif sferalarında dövlətlərin maraqlarının toqquşması qaçınılmazdır. Maraqların toqquşması krizislərin və konfliktlərin mənbəyi sayılır. Beynəlxalq iqtisadi birliklərin maraqlarına müvafiq olaraq beynəlxalq təhlükəsizlik sisteminin (qlobal və regional) formalaşdırılması istiqamətləri təhlil edilir. Beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunma yolları və mexanizmləri açıqlanır.

Dissertasiya işində eyni zamanda Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən biri olan beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələri təhlil edilmişdir. Azərbaycanın bütün nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankı ilə münasibətləri araşdırılır. Azərbaycan hazırda dünyanın 84 ölkəsi ilə qarşılıqlı iqtisadi-ticarət əlaqələrinə malikdir. Ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin inkişaf perspektivlərindən bəhs edilir. Ölkəmizin ikitərəfli əməkdaşlıq istiqamətləri qonşu dövlətlər olan Türkiyənin və Rusiyanın timsalında nəzərdən keçirilir. MDB və Avropa Birliyi ölkələri ilə münasibətlər araşdırılır. Hazırda Azərbaycanın ən böyük ticarət partnyorlarından biri olan İtaliya ilə iqtisadi əlaqələrindən bəhs edilir. Azərbaycan dünyanın iqtisadi cəhətdən fövqəldövləti olan ABŞ ilə sıx iqtisadi əlaqələri geniş şərh edilir, həyata keçirilən iri transmilli layihələrdən bəhs olunur.

İkitərəfli münasibətlərlə yanaşı, Türkiyə və Gürcüstanla birgə üçtərəfli, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurası ilə çoxtərəfli münasibətlər araşdırılır. Bununla yanaşı, Yaxın Şərq, Asiya, Amerika ölkələri ilə də əməkdaşlıqlardan və bu regionlarla iqtisadi əlaqələri inkişaf etdirmə perspektivlərindən bəhs olunur. Beynəlxalq maliyyə institutları və beynəlxalq donor təşkilatları ilə də fəal əməkdaşlıqlardan bəhs olunur.

Xarici ticarətin diversifikasiya olunması, yəni xammal ixrac edən ölkədən sənayeləşmiş ölkəyə çevrilməsinin vacibliyindən bəhs edilir. Azərbaycanda xidmət sektorunun liberallaşdırılması, müxtəlif sektorlara xarici sərmayənin, investisiyaların, qabaqcıl texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi, yeni texnologiyların gətirilməsi və məhsuldarlığın artırılması prosesi qeyd edilir. Xarici iqtisadi əlaqələr qeyri-neft sektorunun inkişafını stimullaşdıra bilər. Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirmişdir, Türkiyə, Gürcüstan, Rusiya, Monteneqro, Serbiya, İsveçrə və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılmışdır. Son dövrlər xarici ölkələrin özəlləşdirmə və investisiya layihələrində ölkəmizin iştirakından bəhs olunur.

Azərbaycan Respublikasının xarici iqtisadi münasibətlərinin əsas xüsusiyyəti beynəlxalq, regional və yerli xarakterli iqtisadi təşkilatlara daxil olmaq və bununla da ictimai həyatın bütün sahələrində bu təşkilatlara inteqrasiya olunmaqdır. Dissertasiya işində Azərbaycanın üzv olduğu İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Ticarət Təşkilatı (müşahidəçi statusunda), Müstəqil Dövlətlər Birliyi, Avropa Şurası ilə iqtisadi siyasi münasibətləri ayrılıqda təhlil edilmişdir. İslam İnkişaf Bankı və İslam Həmrəylik Fondu və demokratiya və iqtisadi inkişaf naminə təşkilat olan GUAM təşkilatı ilə Azərbaycan Respublikası

münasibətləri araşdırılır. Avropa Birliyi ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi çərçivəsində əməkdaşlığın bütün mümkün, xüsusilə də siyasi və ticari sahələrinə yer verilir. Avropa İttifaqının Azərbaycanda reallaşdırdığı müxtəlif dövlətlərarası (regional) proqram və layihələrdən bəhs olunur. Bu baxımdan Azərbaycan Respublikasının Ümumdünya Gömrük Təşkilatına üzvlüyü mühüm əhəmiyyət kəsb edir. Neftin dünya bazarında qiymətinin dəyişməsinə OPEC ölkələrinin təsiri və bunun bilavasitə Azərbaycanın ixrac etdiyi neftin qiymətinin dəyişilməsində özünü biruzə verməsi təhlil edilir.

Dissertasiya işində Azərbaycan Respublikası Prezidentinin, qanunverici orqan sayılan Milli Məclisin, MM-in beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr üzrə daimi komissiyalarının, MM Aparatının Beynəlxalq Əlaqələr üzrə Şöbəsinin, MM-də xarici dövlətlərin parlamentləri ilə əməkdaşlığa dair 60 işçi qrupunun, Nazirlər Kbinetinin, Nazirlər Kabineti Apparatının, NK Xarici İqtisadi Əlaqələr Şöbəsinin, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin xarici iqtisadi əlaqələr sahəsində dövlətin iqtisadi siyasətini icra mexanizmləri təhlil edilir. Xarici iqtisadi əlaqələr sahəsində dövlət maraqlarının qorunmasına nəzarəti həyata keçirən Dövlət Gömrük Komitəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Maliyyə Nazirliyi, Mərkəzi Bank və digər nazirliklər və strukturların xarici iqtisadi siyasət sferasında fəaliyyət istiqamətləri araşdırılır. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Mərkəzi Bankın xarici iqtisadi əlaqələri maliyyələşdirmə və kreditləşdirmə qaydaları və normativləri müəyyən edilir. Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsi zamanı Maliyyə Nazirliyinin vergiqoyma məsələlərini tənzim etmə mexanizmi göstərilir. Xarici iqtisadi fəaliyyət sistemində əsas yeri Ticarət-Sənaye Palatası tutur.

Dövlətin xarici iqtisadi fəaliyyəti daha çox beynəlxalq iqtisadi və maliyyə qurumlarının vahid qayda və normaları əsasında tənzimlənir. Qanunvericilik bazasının təşkil olunması və unifikasiyası zamanı əsas rolu ümumdünya beynəlxalq və sahəvi normativ aktlar oynaya bilər. Tədqiqat işində xarici iqtisadi fəaliyyətin beynəlxalq ticarət və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini müəyyən edən ümumdünya konvensiyalarının, beynəlxalq müqavilələrin, razılaşmaların və o cümlədən, digər hüquq normalarının tələbləri araşdırılır. Xarici iqtisadi fəaliyyətin milli tənzimləmə alətlərindən iqtisadi rıçaqlar, nəzarət funksiyaları, texnilki alətlərdən bəhs edilir. Ölkəmizdə xarici iqtisadi siyasət strategiyasının hüquqi təminat mənbələri olan Azərbaycan Respublikası Konstitusiyası, Mülki Məcəllə, Gömrük Məcəlləsi, "Gömrük tarifləri haqqında" qanun, "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğvi haqqında" qanun, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərarları, İqtisadi İnkişaf Nazirliyi və Dövlət Gömrük Komitəsinin qərar və sərəncamları, digər normativ hüquqi aktlar və o cümlədən, Azərbaycan Respublikasının iştirakçısı olduğu dövlətlərarası sazişlər, beynəlxalq müqavilə və konvensiyalar təhlil edilir.

Respublikanın ixrac imkanlarının genişləndirilməsi və ixrac bazarının diversifikasiyası Azərbaycanın ümumi iqtisadi siyasətində başlıca istiqamətlərdən biri olmalıdır. Apardığımız tədqiqat işində respublikamızda gömrük rüsum normaları müəyyənləşdirilərkən hansı prinsiplərin mütləq nəzərə alınmalı olduğu qeyd edilir. Xüsusi əhəmiyyət kəsb edə biləcək məsələlərdən biri də ölkəmizdə azad iqtisadi zonaların yaradılmasıdır. Yeni texnika və texnologiyanın kilid həlqəsi olan valyuta ehtiyatlarının artırılması üçün idxalı əvəzetmə siyasəti ilə ixracyönümlü iqtisadi inkişaf strategiyası optimallaşdırılmalıdır. Xarici iqtisadi əlaqələrin iqtisadi tənzimlənmə metodlarının və xarici iqtisadi əlaqələrin institusional tənzimlənmə strukturunun yaradılması olduqca mühümdür. Bir çox əmtəələrin defisitli və qiymət disproporsiyalarının mövcud olduğu şəraitdə əmtəələrin istehlakçıları və təchizatçıları ilə hesablaşmalarda yeni bazar metodlarının həyata keçirilməsi az önəmli deyil.

Araşdırmalar bir daha sübut edir ki, respublikamızda xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sisteminin normativ-hüquqi bazasının sürətlə dəyişən qlobal şəraitə uyğun olaraq təkmilləşdirilməsi bir proses xarakteri daşımalıdır. Xüsusilə ÜTT-nin qaydaları və digər beynəlxalq konvensiyalarda təsbit olunmuş beynəlxalq standartlarla müqaisədə bu çatışmazlıqlar özünü daha qabarıq surətdə biruzə verir. İdxal-ixrac əməliyyatlarının tənzimlənməsinin qanunvericilik bazasının yaxın gələcəkdə təkmilləşdirilməsinə ehtiyac var.